**Azərbaycan Milli Elmlər Akademiyası**
**Milli Azərbaycan Tarixi Muzeyi**

# Nəsib bəy Yusifbəyli – milli istiqlal və dövlətçilik mücahidi

*Azərbaycan Xalq Cümhuriyyətinin 95-ci ildönümünə ithaf olunur*

**Bakı – 2013**

**Milli Azərbaycan Tarixi Muzeyinin**
**Elmi Şurasının qərarı ilə**
**nəşr olunur**

Elmi redaktor:
tarix üzrə fəlsəfə doktoru, dosent
**Firdovsiyyə Əhmədova**

**Nəsib bəy Yusifbəyli –**
**milli istiqlal və dövlətçilik mücahidi.**
Bakı, "Ziya", 2013, 216 s.

гриф

**Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycan istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş şəxslərin – Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.**

***Heydər Əliyev***

## Mündəricat

**Redaktordan** ...................................................................................... *5*

***Firdovsiyyə Əhmədova.***
Nəsib bəy – Yusifbəylilər ocağının yetirməsi..................................... 8

***Əli Fərhadov.***
«Aləmi-Nisvan»da doğan bir şəfəq.................................................. 16

***Fikrət Bağırov.***
Türk Ədəmi – Mərkəziyyət partiyasının banisi Nəsib bəy Yusifbəyli ...... 29

***Günel Əliyeva - Məmmədova.***
Nəsib bəy Yusifbəyli və onun Zaqafqaziya Seymindəki fəaliyyəti .. 40

***Зарифа Дулаева.***
Насиб-бек Усуббеков и народное просвещение .......................... 51

***Fərhad Cabbarov.***
Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi hökumət kabinetlərinin siyasətində Azərbaycan-Rusiya münasibətləri məsələsi .................. 74

***Зарифа Дулаева.***
Насиб-бек Усуббеков и международное признание Азербайджанской Республики ..................................................... 89

***Firdovsiyyə Əhmədova.***
Azərbaycan milli istiqlal hərəkatında Nəsib bəy Yusifbəylinin rolu ...... 108

***Solmaz Rüstəmova - Tohidi.***
Nəsib bəy Yusifbəyli Üzeyir bəy Hacıbəyovun məktublarında ..... 147

***Фархад Джаббаров.***
По следам одной докладной записки премьер-министру......... 155

***Səbuhi Əhmədov.***
Nəsib bəy Yusifbəyli hökumətinin az məlum olan nailiyyəti – Azərbaycan hərbi hissələrinin Döyüş Bayrağının qəbul olunması...... 175

***Nazif Qəhrəmanlı.***
Bir daha Nəsib bəy Yusifbəylinin qətli barədə ............................... 184

**Əlavələr**

***M.Ə.Rəsulzadə.*** İstıla qurbanları. Yusifbəyli Nəsib bəy......................194

***Nağı Şeyxzamanlının xatirələrində Nəsib bəy Yusifbəyli*** ............ 198

***Əli Yusif.*** Azərbaycanlıya. Hörmətli Nəsib bəyə ......................... 203

***Zakir Sadatlı.*** Tarixin qan qohumu... .......................................... 205

***Feyzi Ağüzüm.*** Kim iddia edə bilər ki, biz özümüzü idarə etməyə səlahiyyətdar bir millət deyilik?! Nəsib bəy Yusifbəyli.... 212

## REDAKTORDAN

Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimləri 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk respublikanı bəyan etdilər. Demokratik prinsiplərə söykənən hüquqi dövlət qurmağı hədəf seçmiş bu insanlar çox mürəkkəb şəraitdə məsuliyyətli qərar verdilər. Milli dövlət quruculuğunun bütün sahələrində ciddi nəticələr əldə etmişdilər. Azərbaycan ərazisində hakimiyyətini bərqərar etmiş Cümhuriyyətin hökumət başçıları (Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli) tələbkar, prinsipial, məsuliyyətli və qətiyyətli mövqe sahibləri idilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları sırasında Nəsib bəy Yusifbəylinin milli istiqlal hərəkatında şərəfli yeri vardır. Elə yalnız bir xidməti kifayətdir ki, Nəsib bəyin adı Azərbaycan istiqlal hərəkatının zirvə tarixinə yazılsın: «Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir». Bu yığcam ifadə əslində Nəsib bəy Yusifbəylinin amalının, əqidəsinin, əməllərinin ən dolğun düsturudur ki, onu da «formulə etmək şərəfi» Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur. Dövrünün siyasi liderlərinin bir-birlərinə münasibətlərində ehtiram və etimad nümunəsi kimi göstərilə bilən bu deyim real məzmun daşıyır.

Bu kitabın oxucuların diqqətinə təqdim olunmasında məqsəd məhz Nəsib bəyin istiqlalçı fəaliyyətinin real

məzmununu açmaq, dövlətçilik naminə xidmətlərini göstərməkdir. Kitaba daxil olan məqalələr N.Yusifbəylinin ictimai-siyasi fəaliyyətinin müxtəlif aspektlərini və mərhələlərini əhatə edir. «Yusifbəylilər ocağının yetirməsi» olmasından başlayaraq faciəli ölümünə qədər yaşadığı həyat həm tədqiqatçıların araşdırmalarında, həm Məhəmməd Əmin Rəsulzadə, Nağı Şeyxzamanlı, Əziz Alpoud kimi müasirlərinin xatirələrində, həm də kitaba daxil edilmiş fotoşəkillərdə öz əksini tapmışdır.

Nəsib bəyin Bağçasarayda «Aləmi-nisvan»ın, həmçinin «Tərcüman»ın fəaliyyətində iştirakı, Rusiyada mütləqiyyət rejiminin devrilməsindən sonra Azərbaycanda açıq siyasi fəaliyyətə keçməsi, "Türk ədəmi-mərkəziyyət" partiyasını qurması, «Azərbaycan muxtariyyəti» hərəkatında fəal iştirakı, Zaqafqaziya Seymindəki fəaliyyəti haqqında Əli Fərhadovun, Fikrət Bağırovun, Günel Əliyeva-Məmmədovanın məqalələrindən sonra kitabda Nəsib bəyin Azərbaycan Xalq Cümhuriyyəti dönəmindəki fəaliyyətindən bəhs edən yazılar yer almışdır. N.Yusifbəylinin xalq maarifi sahəsində həyata keçirdiyi tədbirlər haqqında dolğun məlumat verən məqalənin müəllifi Zərifə Dulayeva topluda daha bir məqalə ilə çıxış etmişdir. Məqalədə Nəsib bəyin hökumət başçısı olduğu dövrdə Azərbaycanın müstəqilliyinin beynəlxalq səviyyədə tanınması yönündə aparılan işlərdən bəhs edilmişdir. Xarici siyasətlə bağlı daha bir yazı Fərhad Cabbarovundur ki, N.Yusifbəylinin başçılıq etdiyi hökumət kabinetlərinin siyasətində Azərbaycanın Rusiya ilə münasibətləri məsələlərinə həsr edilmişdir. Müəllifin hökumətin daxili siyasətinə, iqtisadi-maliyyə məsələlərinə işıq salan daha bir yazısı Azərbaycan Xalq Cümhuriyyəti ilə yaxından əməkdaşlıq edən tanınmış sahibkar H.Z.Tağıyevin N.Yusifbəyliyə göndərdiyi irihəcmli məktub-məlumatı

haqqındadır. Yusifbəylilər ailəsində, Gəncə mühitində ilk təlim-tərbiyəsini almış Nəsib bəyin əqidəsinin, siyasi baxışlarının formalaşdığı gənclik illərindən bəhs edən məqaləsi ilə yanaşı Firdovsiyyə Əhmədovanın digər bir irihəcmli yazısı Azərbaycan milli istiqlal hərəkatında N.Yusifbəylinin yeri və roluna həsr edilmişdir. Solmaz Rüstəmova-Tohidinin məqaləsində dahi bəstəkar Üzeyir Hacıbəylinin Nəsib bəyin istər dövlət xadimi, istərsə də insan kimi obrazını əks etdirən məktubları təhlil olunmuşdur.

Nəsib bəyin faciəli vəfatı haqqında müxtəlif versiyalar mövcuddur. Bu baxımdan mərhum filoloq-alim Nazif Qəhrəmanlının «Bir daha Nəsib bəy Yusifbəylinin qətli barədə» yazısı topluya daxil edilmişdir.

Toplunun «Əlavələr» bölümündə müasirləri olmuş insanların Nəsib bəyə ifhaf olunmuş xüsusi yazılarına, xatirələrindən seçmələrə yer ayrılmışdır. Həmçinin Türkiyədə Feyzi Ağüzüm tərəfindən hələ 1980-ci ildə nəşr edilmiş, sonralar tanınmış tədqiqatçı-alim Maarif Teymur tərəfindən Azərbaycan mətbuatında dərc edilən «Nəsib bəy Yusifbəyli» məqaləsi (qismən ixtisarla) «Əlavələr» bölümünə daxil edilmişdir.

N.Yusifbəylinin həyat və fəaliyyətindən bəhs edən bu toplu Azərbaycan Xalq Cümhuriyyətinin 95-ci ildönümünə həsr edilərək, Cümhuriyyət tarixşünaslığına faydalı töhfə sayıla bilər.

***Firdovsiyyə Əhmədova***

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

## NƏSİB BƏY - YUSİFBƏYLİLƏR OCAĞININ YETİRMƏSİ

Nəsli yaşadan soyadları da var, nəsillər də var ki, bir neçə soyadlarının çarpazlaşdığı zəngin, geniş «şəcərə» yaradır. XX yüzilin əvvəllərində Azərbaycanın kübar zümrəsinin soyadları qohumluq telləri ilə bağlı olub, cəmiyyətə çox tanınmış şəxsiyyətləri tanıtdı. Onlar artıq bir nəslin deyil, bir neçə nəsillərin ocağından pay götürmüşdülər. Bu cəhətdən Gəncə mühiti də zəngin nəsil şəcərələri ilə sanballı idi. Yusifbəylilər ailəsinin tarixdə qalan xeyli nümayəndələri olsa da əsas tanınmış siması Nəsib bəydir. Bütün digər ictimai-siyasi fəaliyyətindən öncə Cümhuriyyətin baş naziri kimi, Milli hökumətimizin başçısı kimi. Amma Yusifbəylilər ocağında Xasməmmədovlar, Pişnamazzadələr, Cuvarlılar, Qaspralı yetirmələri qaynayıb qarışmışlar. Nəsib bəyin ailəsi haqqında tanışlıq onun valideynlərindən başlayarsa ilk növbədə sözləri, əhvalatı ilə zərb-məsələ çevrilmiş atası xatırlanmalıdır. Əslində dillərdə dolaşan bu xatirə həm Ata, həm oğul Yusifbəylilər üçün şəxsiyyət göstəricisidir. Ata oğlunun təhsili, ictimai-siyasi fəaliyyəti yolunda əlindən gələni əsirgəmir: «Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim». Oğul da yetişdiyi yüksək mənsəblərdən sui-istifadə etmədi. Məvacibindən əlavə gəlirə göz dikmədi, yenə də «heç bir zaman zəngin olmasa da» Atasına güvəndi. Yusif bəyin oğluna cavab məktubu bir az qınaqlı görünə bilsə də, əslində hökumət rəhbərlərinin, dövlət məmurlarının peşə əxlaqı kodeksi baxımından ibrət götürüləsi nümunədir: «...Tiflisə gedərək, Seymin Maarif naziri oldun. Aldığın pul ilə yenə özünü saxlaya bil-

mədin. Bir neçə dəfə pul istədin – göndərdim. Sonra Azərbaycan istiqlalını elan etdiniz. Gəldin Cümhuriyyətimizin maarif naziri işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə məndən pul istədin. Həmişə göndərirdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. O pullardan göndərdim sənə. Bu gün isə Baş nazirsən, Dövlət başçısısınız, yəni ölkəmizin padşahı olmuşsunuz. Yenə bağının qamışını mən alım?!»[1]. Tədqiqatçı-alim Nazif Qəhrəmanlı N.Yusifbəylidən bəhs etdiyi kitabı «Nəsib bəy nümunəsi» adlandıranda yəqin ki, bu epizodu da nümunə götürüləsi sıraya qoyubdur. Atasının yazdığı kimi, hökumət başçısı Nəsib bəy dövlətin nəinki büdcəsindən, heç əmlakından da sui-istifadə etmələrinə yol verməmiş, edənlərə isə sərt münasibət göstərmişdir. Hətta bacısı, onun sürücüsünün maşınında bazara getdikdə Nəsib bəy narazılığını gizlətməmişdi: «Axı ay bacım, bu, dövlətin atvomobilidir, axı bu dükan-bazaryolu üçün deyil»[2].

Əslində Nəsib bəyin ömür yolundan nümunə götürüləsi məqamlar çoxdur. İctimai-siyasi, dövlətçilik fəaliyyətində istiqlalçılıq aparıcı xətt kimi mühüm yer tutmuşdusa, bu onun şəxsiyyət olaraq önəm verdiyi dəyərlərdən qaynaqlanırdı: «Hələ 1905-ci il oktyabrın 18-də Odessadan sevgilisi Şəfiqə xanım Qaspralıya yazdığı məktubunda yaşam prinsiplərini bəyan edirdi: «Mən gözəl bilirdim ki, heç vaxt kölə olmayacağam; onu da aydın hiss edirdim ki, sən də kölə olmayacaqsan, hətta əgər olsaydın belə, mən səni sevə bilməzdim!»[3] .24 yaşlı qafqazlı, islam inanclı sevgilisinə «əgər bilsəydin, sənin qürurlu, heysiyyatlı və azad təbiətini nə qədər sevirəm» söyləyirsə, demək həmin dəyərlər onun əqidəsində, həyata baxışlarında nə dərəcədə möhkəm yer tutubmuş. Şəxsi həyatında bəlkə də problemlər yaratmış bu dəyərlər onun üçün ictimai məzmun daşıyanda Nəsib bəy məsuliyyət məqamını düzgün müəyyənləşdirməyi bacarıbdır. O hamı kimi həm adi insan ömrünü yaşayır, digər tərəfdən isə əksəriyyət kimi yalnız şəxsini düşünmür-

---

[1] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.193.

[2] Yenə orada, s.29.

[3] Yenə orada, s.78.

dü. Nəsib bəyin şəxsi həyatı belə ictimai-siyasi proseslərin aktiv bir parçası idi. Yusif bəy ocağı ilə İsmayıl Qaspralı ocağını qovuşdurarkən Rusiya müsəlmanlarının, türklərinin müqəddəratını da bir məcrada görürdü: «Tərcüman» yalnız Bağçasarayda olmayıb bütün müsəlmanların qəzetəsidir»[4]. Bu fikrini bildirəndə 1917-ci il olduğu ehtimal olunursa, ondan daha əvvəl, 1904-1905-ci illərdə Nəsib bəyin milli mənlik təəssübkeşliyi daha çox özünütənqid məzmunu daşıyırdı. Millətinin digərləri ilə müqayisədə tərəqqidən geri qalmasından təəssüflənir, gileylənirdi: «Bizimkilər acından ölsələr də iş-gücə getmirlər. Atası bəy olsun, balası fəhlə!... Danışmaqda hamımız dil pərgarıyıq, fəqət işə gəlincə heç bir şey hasil olmur». Bu acı təəssüfdə yalnız xoş niyyət sezilmir, həm də əməlpərvər olmağa açıq çağırış var: «…çalışmaq lazımdır. Mən bu günlər bir işdən o biri işə çılğınlar kimi atılıram».

Odessada inqilabi mühitin qaynar çağlarında Nəsib bəyin sosial ədalət ideyasına bağlılığı daha güclü idi. Həmin dövrdə cəmiyyəti iki qütbə bölmüşdü: «Soyadları əlifbanın ilk hərflərinə tabe olan xoşbəxtlərlə, soyadları əlifbanın son hərfləri ilə başlayan bəxbəxtlərin arasında güclü mübarizə gedir»[5]. Şəfiqə xanım Nəsib bəyin siyasi baxışlarının dəyişikliyə uğradığını yazırdı: «Nəsib «Tərcüman» qəzetində çalışarkən çox vaxt atamla münaqişə edərdi, atamdan daha başqa görüşləri vardı, fikir ayrılığı vardı. Bu yalnız ilk 1-2 il sürmüşdü. Sonradan tamamilə atamla birləşdi. Bu da özünün dediyi kimi bir Gəncə dönüşü idi: «Rüşdə çatdım artıq, amma çox qafasızlıq göstərdim», - demişdi»[6]. Nəsib bəyin məhz əvvəlki dünyagörüşünü nəzərdə tutaraq N.Nərimanov 1919-cu ildə ona xatırlatmışdı: «Hörmətli cənab Nəsib-bəy Usubbəyov! Mən sizə belə müraciət edirəm ona görə ki, bizim siyasi baxışlarımız elə kəskin ayrıldı ki, sizə başqa cür müraciət edə bilmirəm».[7]

---

[4] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.86.

[5] Yenə orada, s.82.

[6] Yenə orada, s.7.

[7] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar. 1918-1920-ci illər. C.B.Quliyevin redaktəsi ilə. B., 1998, s.264.

Nəsib bəyin siyasi baxışlarına İstanbul mühiti də təsirsiz qala bilməzdi. 1909-cu ildə Nəsib bəyin İstanbulda bir ilə qədər olması və «coşqun bir tərzdə candan alqışlanması» haqqında yazılar vardır.[8] Əgər türk gəncləri «Biz ruhən Nəsib bəyə bağlanmışdıq» deyirdilərsə, onların paylaşdığı dəyərləri diqqətə almaq lazımdır. Belə ki, Osmanlı imperiyasında baş verən ictimai-siyasi proseslər Nəsib bəyin siyasi baxışları prizmasından 1906-cı ildə oxşar məzmun kəsb edir: «Peterburqda və İstanbulda millətlərə ədalət, hürriyyət və müsaviyət bəxş və təmin edən nizami və mətin bir qanuni – əsasi, bir hökuməti – məşrutə müəssisanı təsis etmədikcə nə Qafqazda, nə Ararat dağının məvrasında, nə də Makedoniyada, Balkan ətəklərində atəşin tezliklə sönəcəyinə ümid etməməlidir»[9]. Yaşadığı məmləkətin hakim dairələrinə qarşı kəskin yazılarla çıxış edən Yusifbəylini cəsarətsizlikdə qınamaq olmaz. Məşhur «Vıborq bəyannaməsi»ni «Tərcüman» mətbəəsində çap etdirmiş, yazılarında çar mütləqiyyətini qamçılayan Nəsib bəyi Osmanlı dövlətinin dağılması aqibəti də qayğılandırırdı.

«Tərcüman»ın ictimai-siyasi mücadilə tribunası kimi fəaliyyətini davam etdirməsində Nəsib Yusifbəylinin tarixi xidməti olmuşdur. 1917-ci ildə yazıldığı ehtimal olunan məktubda Nəsib bəy Şəfiqə xanıma xatırladırdı: «Bunu daim bilməlisiniz ki, «Tərcüman» yalnız Bağçasarayda olmayıb bütün müsəlmanların qəzetəsidir». Gəncədən Krıma ünvanlanan sətirlərdə ictimai mövqe, siyasi əqidə, eyni zamanda şəxsi hisslər çuğlaşırdı. Sevgi və həsrət, kədər və əzmkarlıq bir-birini əvəz edirdi: «…Nə etməli ki, əzab çəkmək üçün yaranmış insanlar var və biz belə insanlardanıq. Ən başlıcası ruhdan düşməməkdir, qalanları isə boş şeydir. Axı, xoşbəxtlik bizim özümüzdədir. Əgər biz razıyıqsa deməmək xoşbəxtik, əgər razı deyiliksə, demək əksinədir».[10] «Hər cür qeyri-müəyyənliy»i özü üçün ölüm bilən, «həmişə hər şeyi aydın və dəqiq təsəvvür etməyi» xoşlayan Nəsib bəyin nisgilli

[8] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.8.

[9] Yenə orada, s.104.

[10] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.83.

ailə həyatı olmuşdur. «Böyük sevgi» «Böyük qürur»un əsirinə çevrilmişdi. «Öz məhəbbətim, istək və arzularım haqqında danışmağı sevmirəm»[11] söyləyən Nəsib bəy məktublarında aralarındakı «buz»u yumşaltmağa çalışırdı: «Uşaqlar və sənin üçün necə darıxdığımdan söhbət açmağa dəyərmi? Axı buna heç kim şübhə etməməlidir»[12]. Hətta yüksək mənsəb sahibi olanda belə özünü «çox bədbəxt» saymışdır. «Güclü hisslərlə» bağlandığı Şəfiqə xanım Qaspralını qınamadan, haqlı sayaraq, günahı özündə görsə də «daxili Mən»indən də keçə bilmirdi: «…mən yorulmuşam, bu yıpranmış, laqeyd, çirkab dolu, yalan və intriqalı həyatdan hədsiz bezmişəm… Mən ehtiras və divanəliklə «öz şəxsi səadətimi» sevirəm, bu şərtlə ki, o, alçaqlıq və şərəfsizlik gətirməsin».[13] Şəfiqə xanımla yolları haçalananda belə aralarında hörmət, ehtiram, ən önəmlisi sevgi hissləri davam etmişdi. Yusifbəylilər ocağında Şəfiqə xanıma münasibəti Nəsib bəyin bacısı Şükufə xanımın məktubundan (1916) duymaq olar: «İzzətli, səadətli Şəfiqə Sultan!... Sizi gözümüzün (nuru) aluk-böyük bacımız, anamıza ovuz (övlad) bilirdik. Bizləri fəna hallara qoyub getdiniz. Sizi heç bir dəqiqə yaddan çıxarda bilmirik».[14] Bu ayrılıq böyük tarixi hadisələrin ərəfəsinə təsadüf etmişdi. Qasprallı və Yusifbəylilər ailəsinin mücadilə aparan üzvlərinin gözlədikləri dövran gəlib çatdı: Romanovlar sülaləsi, mütləqiyyət rejimi, Rusiya imperiyası süqut etdi. Gerçəkləşdirmək istədikləri vəzifələri həyata keçirmək lazım idi. Nəsib bəy bu şərəfli və məsuliyyətli mərhələni ailəsi ilə birlikdə, Şəfiqə xanımla çiyin-çiyinə addımlamadı. Həmin mərhələnin ömrü ilə birlikdə Nəsib bəyin də həyat yolu sona çatdı. «Bədbəxt ata»nın 1917-ci ildə övladlarına, qızı Zöhrəyə yazdığı məktublar əslində Şəfiqə xanıma ünvanlanırdı, onun diqqətinə çatdırılırdı. Pərişan əhvalından xəbərdar edirdi övladlarının anasını. Qayıdacaqlarına ümidlə yollarını gözləyirdi: «Evimizə gəlin, sənin üçün

---

[11] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.14.
[12] Yenə orada, s.80.
[13] Yenə orada, s.81.
[14] Yenə orada, s.84.

də bir royal alacağam… Gələndə çalarsan, atan da dinlər».[15]

Nəsib bəy Azərbaycan Cümhüriyyətinin baş naziri seçiləndən 3 gün sonra Şəfiqə xanıma üzrxahlığa, bəlkə də daha çox barışığa çağıran qısa məktub göndərdi: «Hankimizin suçu daha çoxdur – deyə bilmərəm… Məni bağışla. Məni xatırlayanlara salam söylə. İlk fürsətdə gəlməyə çalışacağam».[16] Bundan 10 gün sonra Nəsib bəy Şəfiqə xanıma növbəti məktubunu göndərir. Yəqin ki, maddi yardım təklifini və əməlini Şəfiqə xanımın məqbul bilməməsi onu bu sətirləri yazmağa vadar etmişdi: «…mən də insanam, mənim də ürəyim var. Amma bu problemi çözərkən, öz düşüncələrinə görə davranırkən bu halda da sənə haqq verirəm ki, mənim də hisslərimi unutma… Uşaqların təhsili haqqında ciddi olaraq düşünməliyik. Mənə cavab vermədən öncə həm Niyazik, həm də Zoka üçün irəlidə cocukların önündə vicdanının rahat olacağı naminə lazım olan şərtləri təmin edəcəkmisən? Bildiyin kimi mən hər şeyə davam gətirə biləcək qüvvətliyəm. Səndən ricam budur ki, cocuqları düşünəsən».[17] Övladlarının gələcəyini düşünsə də, görə bilmək imkanı cəmi bir il sürdü. Bu 1 il isə Cümhuriyyət həyatının yeganə bütöv təqvim ili, hadisələrin dövlətin müqəddəratına təsir edə biləcək qədər sürətlə dəyişdiyi müddət oldu. Və Nəsib bəy övladlarını, Şəfiqə xanımı daha görə bilmədi. Hakimiyyətinə də, həyatına da son qoyuldu. Şəfiqə xanıma məktubları Nəsib bəyin qardaşı Həmid bəy və bacısı Şükufə xanım yazırdı. Həmid bəy «qədər böylə imiş» yazaraq mərhum qardaşının ailəsinə, övladlarına yardım göstərməyi özünün mənəvi borcu saymışdı: «Çarə olarsa canımı belə qardaşımın balalarına verməyə hazıram».[18] Şükufə xanımın 1929-cu ildə Şəfiqə xanıma yazdığı məktub daha duyğusaldır. Nəsib bəyin qızı Zöhrənin ailə qurmaq xəbəri Yusifbəylilər ocağını xeyli mütəəssir etmişdi: «…gözlərimizdən qanlı yaşlar axdı. Əziz qardaşımızın sevgili balasının

---

[15] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.85.

[16] Yenə orada, s.87.

[17] Yenə orada.

[18] Yenə orada, s.89.

toyunda bizim iştirak edə bilməməyimiz heç insafdandırmı?».[19] Ailənin təsəllisi isə sevimli övladlarını xoşbəxt görmək idi. Xüsusən Zöhrə xanımın ailə qurduğu Mirzə bəy (Göygöl) Hacızadənin şəxsiyyəti də etimad doğururdu: «Zöhrənin ərə getmək xəbəri hamımızı çox şad etdi. Hər halda bir Vətən övladı ilə, namuslu bir gənclə evlənməsini böyük məmnuniyyət hissi ilə qarşıladıq, sevindik».[20] Mirzə bəy Göygöl Azərbaycan Parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Berlin Universitetinə göndərilmişdi:[21] Təhsilini başa vurduqdan sonra Vətənə dönə bilməyən Mirzə 1926-cı ildə Berlində doktorluq dissertasiyası müdafiə etmiş, bir müddətdən sonra Türkiyəyə dəvət olunmuşdu. İstanbulda Nəsib bəyin qızı Zöhrə xanımla ailə qurmuşdu.[22]

Həsrətlə qürbətdə keçən ömürlərini yaşayan çoxsaylı azərbaycanlı mühacirlər arasında Nəsib bəy Yusifbəylinin övladları da var idi. Azərbaycanın müstəqilliyi rəsmi status qazanmamış mənəvi bağlantılar sərhədləri aşdı. Zöhrə xanım Əzizə xanım Cəfərzadənin məktubuna 1990-cı ilin 5 oktyabrında göndərdiyi cavabda valideynlərinin ömür tarixçəsinin qısa təfsilatını verdi. Amma bir tarixi dəqiqləşdirməyə ehtiyac vardır. Moskvada “müsəlman türk qadınlarının konqresi” 1919-cu ildə deyil, 1917-ci ildə keçirilmişdir. Şəfiqə xanımın həmin qurultay zamanı Moskvada Nəsib bəy Yusifbəyli ilə birlikdə görüşmələrindən bəhs edilir. 1919-cu ildə Nəsib bəy təbii ki, Rusiyada, o cümlədən Moskvada olmamışdır. Zöhrə Göygöl Krım, Gəncə, Bakı dövrü həyatlarının əsas məzmununu bir məktuba sığışdıra bilmiş, bir neçə nəslin taleyini – faciəsini bölüşmüşdür. Zatən, mühacir həyatlarını dərd bölüşməklə paylaşmışlar. Çoxlarına ata-ana yurdlarının istiqlala yetişəcəyini görmək nəsib olmadı. Zöhrə xanım isə istiqlal müjdəsini alanlardan, muradına çatanlardan oldu. 5 oktyabr 1990-cı ildə sərhədlər bağlı idi. Amma

---

[19] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.88.

[20] Yenə orada.

[21] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, Bakı, 2004, c.1.

[22] Yenə orada.

Zöhrə xanım yazırdı: «Bəzi zaman buraya gələn həmvətənlərimizlə görüşür, əlimdən gələn hər şeyi yapıram. Hər biri ilə dost oluram. Onlar da mənə tel edib görüşürlər. Mənim tanıdıqlarım məni bulub dərdlərini anladırlar».[23] Artıq köhnə dərdlərə təzələri qoşulmuşdu. Azərbaycan yenidən istiqlal ovqatında idi. Bu tarix həm də Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin xatirəsinin kövrək olduğu aylar idi. Zöhrə xanım atası Nəsib bəyin mənsub olduğu «istiqlal şəhidliyi» nəslindən danışa-danışa onların varislərinə ağı deyib, mərsiyə söyləmək taleyini də yaşadı:

«Bu qaranlıq gecələrdə
Yazı ağlar… ana ağlar…
Araz ağlar
Şami qəriban ağlar
Qara bağlar analar
Qara bağlar
Qara bağlar
Gül, bənövşə pərişan
Qərəfillər qan ağlar...»[24]

Zöhrə xanım Xocalı qətliamından da xəbərdar oldu. Müstəqilliyin, Azərbaycanın ərazi bütövlüyünün yolunda tökülən qanların bir daha şahidi oldu. Amma onun xatırladıqları Cümhuriyyət dönəmindən sonrakı talelərə etdiyi şəhadət idi, yeni nəsillər üçün «tanışlıq» təqdimatı idi. Tənqidçi, publisist Nasif Qəhrəmanlının «Duel» pyesində İsmayıl Murzanın dilindən söylənilən «ölüm təkcə unuduluşa deyil, tanışlığa gedən yoldur» deyimində mənalandırılan həqiqət kimi. Nəsib bəyi bizlərdən ayıran onilliklər ona ölçülüb-biçilmiş qiyməti vermək imkanı yaradıbdır. Fəaliyyəti başa çatmış ömrün ibrət missiyalı məqamları isə həmişəyaşardır: Onun mətbuat yazıları, çıxışları, dövlət kürsüsündəki əməlləri kimi…

[23] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, 2008, s.93.
[24] Yenə orada, s.90.

*Əli Fərhadov*
*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi*

# "ALƏMİ-NİSVAN"DA DOĞAN BİR ŞƏFƏQ

XX əsrin əvvəlləri Rusiyadakı müsəlman türk xalqları arasında mədəni tərəqqi, türkçülük və islam şüurunun gücləndiyi bir dövrdür. Mütərəqqi ziyalılar bu dövrdə müsəlman türk xalqlarının inkişafında, türk qadınlarının maariflənməsində aparıcı rol oynayırdılar. Bu sahədə mətbuatın oynadığı rol xüsusilə  inkaredilməzdir. Xüsusilə müsəlman türk qadınlarının maariflənməsi üçün öz dilində təhsil imkanlarının məhdud olduğu bir dövrdə türkdilli mətbuata, xüsusilə qadınlara xitab edən yazılara böyük ehtiyac var idi. Bu ehtiyacın qarşılanmasında ilk türkcə qadın jurnalı olan "Aləmi-nisvan" ("Qadınlar aləmi") xüsusilə faydalı olmuşdur. Məqalədə bu haqda, jurnalın nəşr edilməsində rol oynayan ziyalılar haqqında məlumat veriləcək, onların təbliğ etdiyi islami, maarifçi fikirlər izah ediləcəkdir. Məqalə üçün xüsusi olaraq bu jurnalın seçilməsinin səbəbi onun çar Rusiyasında türkcə ilk qadın mətbuat orqanı olmasından qaynaqlanmışdır.

"Aləmi-nisvan" jurnalının nəşr edilməsində onun naşiri olan böyük türk mütəfəkkiri İsmayıl bəy Qaspıralının böyük rolu olmuşdur. 1851-ci ildə Krımda, Bağçasarayda anadan olan İ. Qaspıralı ibtidai təhsildən sonra altı il Moskvada natamam hərbi təhsil almışdı. Bu dövrdə panslavyanistlərin təsiri ilə onda türk millətçiliyi ruhu baş qaldırmış və o, özünü bu yola həsr etməyi qarşısına məqsəd qoymuşdu. Türkiyəyə getmək üçün hərbi təhsilini yarımçıq qoyan Qaspıralı  daha sonra Parisdə, İstanbulda tərcüməçi olaraq çalışmış, sonra Krıma dönmüşdü. 1879-cu ildə bir qəzet nəşr etdirmək istəsə də, çar hökuməti buna izin vermə-

mişdi. O da "Gənc Molla" imzası ilə "Tavrida"qəzetində rusca məqalələr yazmışdır.

İ. Qaspıralı 10 aprel 1883-cü ildən atəşli bir türkçü olan həyat yoldaşı Zöhrə xanım Akçuranın maddi yardımları ilə Bağçasarayda "Tərcüman" qəzetini nəşr etməyə başladı. Zöhrə xanım digər böyük fikir adamının-türkçülük ideologiyasının öncüllərindən sayılan, sonralar Atatürkün yaxın silahdaşına çevrilən və Türk Tarix Qurumunun ilk başqanı seçilən Yusif Akçuranın (1876-1935) doğma bacısı idi. XX əsrin əvvəllərində fəaliyyət göstərmiş məşhur tatar maarifçisi Riza Fəxrəddin milli duyğulara sədaqət və ictimai fəallıq baxımından Zöhrə xanımın İ. Qaspıralıdan əsla geridə qalmadığına diqqəti çəkərək yazırdı: "Zənginliyi, sərvəti və böyük rahatlıqları tərk edərək qələmindən başqa mal-mülkü olmayan bir şəxslə ailə qurması onun maarif yolundakı fədakarlığının dəlilidir.[1]

"Tərcüman" qəzeti türkcə gündəlik çıxan siyasi, ədəbi, ictimai, iqtisadi, milli bir qəzet idi. Hənifə xanım Məlikova «Xatirələrində» göstərir ki, İ. Qaspıralı Krımdan, Bağçasaraydan Həsən bəy Zərdabiyə məktub yazaraq «Tərcüman» adlı qəzet buraxmaq istədiyini xəbər verir, həmçinin Həsən bəydən bu işdə ona xeyir-dua verməsini xahiş edirdi. Həmçinin xahiş edirdi ki, Həsən bəy qəzetin idarə edilməsinə rəhbərliyi öz üzərinə götürsün. İsmayıl bəyin məktubu Həsən bəydə bayram əhval-ruhiyyəsi yaratmışdı və Həsən bəy «Tərcüman» qəzetini abunə olaraq alar, özü oxuyar və başqalarına da oxutdurardı. Əlimərdan bəy Topçubaşovun «Azərbaycanın mayakı» adlı xatiratında «Tərcüman» qəzeti ilə bağlı söylədiyi fkirlərə toxunmaq da yerinə düşərdi. Əlimərdan bəy yazırdı: "İsmayıl bəy tez-tez qeyd edirdi ki, Rusiyada türk mətbuatının tarixi «Əkinçi»dən başlanır və Həsən bəy Məlikzadə Zərdabi də bu mətbuatın patriarxıdır. Həmçinin İsmayıl bəy Həsən bəyi özünün müəllimi adlandırırdı".[2] Sonralar N.

---

[1] Quliyev Vilayət. Baş nazirin xanımı-1. 525-ci qəzet. 11 dekabr 2010.

[2] Rüstəmov İzzət. "Əkinçi" əsl xalq qəzeti idi. http://xalqqazeti.com/az/culture/ekinchi-esl-xalq-qezeti-idi

Yusifbəyli də "Tərcüman" Bağçasarayda çıxsa da, bütün müsəlmanların qəzetidir" deyərək onun əhəmiyyətini vurğulayırdı.[3]

İ. Qaspıralının əsas düşüncəsi türklərin öz dilində təhsil alması və müasir elmi biliklərə sahib olması gərəkdiyi idi. Qaspıralı fərqli ləhcələr və şivələr əvəzinə bütün türk xalqlarının bir dildə birləşməsi gərəkdiyi fikrini müdafiə edir və Osmanlı türkcəsi əsasında ortaq bir dil ideyasını ortaya qoyurdu. "Dildə, fikirdə, işdə birlik" sözü ilə o, bu türk birliyini nəzərdə tuturdu.

İ. Qaspıralı islamı türk milli mədəniyyətinin qorunmasında vacib amil hesab edirdi. O, eyni zamanda bütün müsəlman xalqlarının mənəvi, mədəni, ictimai birliyini ümid edir və bu yolda çalışırdı. "Tərcüman"da "İşraqiyyun" başlığı altında yazdığı məqalələrdə müsəlmanları buna dəvət edirdi. Rusiya müsəlmanlarının – türklərin təfəkkür tərzində bir dəyişiklik yaradan, cəmiyyəti bürümüş qaranlığa, cəhalətə işıq salan İ.Qaspıralı din və dil qardaşlarını birləşdirmək, onların problemlərini birgə müzakirə etmək, çarəsini birgə axtarmaq üçün əvvəlcə Rusiya müsəlmanlarının, daha sonra dünya müsəlmanlarının qurultayını keçirmək təşəbbüsünü irəli sürdü, bu ideyaları inadla, israrla, fədakarlıqla reallaşdıra bildi. 1905-ci ildə Nijni-Novqorodda keçirilən Rusiya müsəlmanlarının I qurultayında sədrlik edən İ.Qaspıralı türk millətinin birləşməsi, maddi-mənəvi tərəqqisi üçün bu toplantıdan sonra bu işin davamlı təşkili üçün də səy göstərmişdir. Rusiya müsəlmanlarının II (12-23 yanvar, Sankt-Peterburq) və III (29 avqust – 3 sentyabr 1903, Nijni-Novqorod) qurultayından sonra İ.Qaspıralı 1907-ci ildə Misirdə Dünya müsəlmanlarının da məclisini keçirməyə nail olmuşdur. Təsadüfi deyil ki, İ. Qaspıralı «müsəlman ədəbiyyatının ruhi-piranisi», «müsəlman ziyalılarının başçısı», "Rusiya müsəlmanlarının ən böyük adamı», «Rusiya müsəlmanlarının çırağı», «təkcə Rusiyada deyil, xaricdə də müsəlmanlar arasında hamıdan məşhur» kimi adlarla yad edilir.[4] İsmayıl bəyin 1907-ci ildə Misirdə Dünya müsəl-

---

[3] Quliyev V. Baş nazirin xanımı-3. 525-ci qəzet. 25 dekabr 2010.

[4] Əfəndizadə Şəfiqə xanım. Rəhbərimiz İsmayıl bəy və qadınlarımız. "İqbal" qəzeti, № 750, 29 sentyabr 1914-cü il, s.13-14.

manlarının da konqresini təşkil etmək uğrundakı cəhdlərinə diqqətlə nəzər yetirib ən azından o qənaətə gəlmək olur ki, Beynəlxalq İslam Konfransı ideyasının ilk müəllifi də elə məhz İsmayıl bəyin özü olmuşdu. İsmayıl bəy bu konqresi düzənləmək üçün dönə-dönə Misirə getmişdi, Qahirənin «Kontinental» hotelində şəxsən onun dəvətlisi olan 600 nəfər müsəlman ziyalısının qarşısında ürək parçalayan əzəmətli bir nitq söyləmişdi, islam konqresini tarixi zərurətdən doğan bir ideya olaraq İstanbulda və Qahirədəki dövlət adamlarına, siyasi xadimlərə, mətbuat böyüklərinə və o cümlədən xarici ölkələrin bu şəhərlərdə fəaliyyət göstərən səfirlərinə izah etmişdi. İsmayıl bəyə hörmət edirdilər və eyni zamanda içərisində daşıdığı ideyadan çəkinirdilər. Hətta İngiltərənin Misirdəki səfiri Qaspıralını sona qədər dinləyib: «Vədinizə etimad edirəm. Təsəvvür etdiyiniz konqres siyasətə girişməz, fəqət sonra siyasi bir sifət almazmı?» - deyə əndişələnmişdi.[5] İ. Qaspıralı öz fikirlərini yaymaq üçün Misirdə "ən-Nahda" adlı ərəbcə bir qəzet də nəşr etmiş, lakin ümid etdiyi arzuların reallaşmasının çətinliyini görərək Krıma geri dönmüşdü.[6]

İ. Qaspıralının həyat və yaradıcılığında qadın təhsili və maariflənməsi mövzusu da əsas yerlərdən birini tuturdu və o, belə deyirdi: "Şübhəsiz ki, həyatımızın ən əhəmiyyətli mövzularından biri, bəlkə də birincisi qadın problemidir".[7] İ. Qaspıralı müsəlman qızların da oğlanlar kimi təhsil almasını, cəmiyyət içində layiq olması gərəkdiyi mövqeyə gəlməsini müdafiə edir, onların savadsız buraxılması, evə həbs edilməsi, başdan ayağa örtülməsi kimi adətlərin, bu geriliyin islamdan yox, cahil adət-ənənələrdən

---

[5] Qaspıralı möcüzəsi.
http://loqos.az/index.php?view=article&id=65%3Aqaspral-moecuezsi&format=pdf&opti..

[6] Togan Zeki Velidi. Gasprali (Gasprinski), İsma'il. http://www.ismailgaspirali.org/ismailgaspirali/yazilar/zvtogan.htm

[7] Gankeviç V. Y. XIX. ve XX. yüzyıl içerisinde Kırım Tatar kadınlarının eğitiminde Gaspıralı'nın rolü // Kalgay dergisi, № 16, Bursa: 2010.
http://www.kalgaydergisi.org/index.php?sayfa=yazaryazidetay&yazi=609

qaynaqlandığını göstərirdi.[8] Qaspıralı uşaqların tərbiyəsində birinci dərəcədə qadının roluna inandığı üçün qadının mədəni və savadlı olmasına əhəmiyyət verir, onlarsız islam cəmiyyətinin inkişafını imkansız sayırdı. İ. Qaspıralı – "qızları oxutmaq, xüsusilə yazı öyrətmək caiz deyil" deyən mövhumatçılara "qızlarımızın tərbiyə və təlimi həm şəriət, həm də ağıl olaraq vacibdir. Əks təqdirdə millətin tərəqqisi mümkün deyildir" deyərək cavab verirdi.[9]

İ. Qaspıralının müsəlman qadınların təhsilinə verdiyi əhəmiyyətin bir nümunəsi də 1884-cü ildə qızlar üçün ilk üsuli-cədid məktəbini açması və bacısı Səlimə Pəmbə xanımı da ora müəllim təyin etməsi idi.[10]

İ. Qaspıralı Rusiyada qadınların mənfi ictimai vəziyyətlərini, təhsil və çalışma həyatını yaxşılaşdırmağa cəhd üçün "Tərcüman"ın əskikliyini hiss etmiş və 1906-cı ildə "Aləmi-nisvan"ı nəşr etdirərək onun redaktorluğuna qızı Şəfiqə xanımı gətirmişdi. Beləliklə, Şəfiqə xanımın redaktorluğunda çar Rusiyasında ilk türkcə qadın jurnalı olan "Aləmi-nisvan" məcmuəsi fəaliyyətə başlamışdı. Şəfiqə xanım öz xatirələrində bu haqda belə yazırdı: "Aləmi-nisvan" 1906-cı sənənin ilk ayında intişar etdi. Müdir və yazarı məndən başqa zövcim (ərim; Nəsib bəy nəzərdə tutulur) idi. İstanbuldan, Krım, Qafqaz və Şimal qadınlarından da dərdlərlə dolu məqalə və məktublar gəlir, basılırdı. Bir sənə davam etdi məcmuə. Lisanı "Tərcüman" lisanıydı".[11] Bəzi qaynaqlarda "Aləmi-nisvan"ın ilk nəşr tarixi olaraq 3 mart 1906 tarixi də qeyd edilir.[12]

---

[8] Özdil Muhammed. İsmail Gaspıralı`nın din ve toplum anlayışı. Isparta, 1910, 91 səh., s.74-75.

[9] Ertem İnci. Dedem İsmail Gaspıralı.
http://www.tariharastirmalari.com/dedemgasprali.htm

[10] Cemiloğlu Mustafa. İsmail Gaspıralı ve eğitim-öğretim faaliyetleri. Türk dünyası incelemeleri dergisi / Journal of Turkish World Studies,Cilt: V, Sayı 1, İzmir, 2005., s.33.

[11] Quliyev V. Baş nazirin xanımı-2. 525-ci qəzet. 18 dekabr 2010.

[12] Selimova Leniyara. Şefiqa Gaspralı ve "Alem-i nisvan" mecmuası
http://ilmiyqirim.blogspot.com/2011/07/sefiqa-gaspral-ve-alem-i-nisvan-mecmuas.html

“Aləmi-nisvan” “Tərcüman” qəzetinin əlavəsi olaraq xanımlara məxsus həftəlik ədəbi və elmi 14 səhifəlik məcmuə idi. Jurnalın başlığı altında bu ifadə yer alırdı: Müslimələrə məxsus ədəbi və tədrisi həftəlik məcmuədir”. Bu məcmuədə - 1) xanımlara məxsus şəriət qanunları və hüquqlar; 2) Ev idarəsi, uşaq tərbiyəsi və ilkyardıma dair məlumat və xəbərlər; 3) Ev işləri, tikiş, naxış, rəsm sənəti; 4) Krımda və dünyada xanımların məişəti, məşhur olan xanımların tərcümeyi-halı və şəkilləri; 5) Əxlaq, hekayə, şeir, tarix, coğrafiya, politologiya və digər elmlər haqqında məlumat, müxtəlif ölkə və şəhərlərin təsviri təqdim edilirdi.[13] Məcmuədə müsəlman qadınların problemlərinə diqqət çəkilir, elm, təhsil, tərbiyə məsələlərinə əhəmiyyət verilirdi. Məsələn, “Kafkasiyada müslime hanımlar” adlı məqalədə müsəlman türk qadınlarının acınacaqlı halı, öz dillərini, dinlərini bilməmələri belə təsvir edilirdi: “Kavkasiya müslimeleri de cehalet deñizinde boğulmaqdadır. Umumiyet üzere ilim yoq. Maarife heves yoq, millete hıdmet hiç yoq. Yazıqlarıñ maişet ve hayatları bu qısım fena oldığı halda bunların halına baqan yoq, çare arayanları yoq. Bunların ahvalına her kesten evvel kendileri arasında türemiş nufuzlı, malümatlı, maarifli hanımlar qalmalıdırlar. Heyhat!.. böylelerini bulmaq da ikinci küç bir meseledir. Bizde öyle hanımlar yoq da degildir. Maariflilerimiz de rusça bildikleri halda kendi lisanlarını yazmaq, oqumaq dursun, öyleleri vardır ki hatta qoñuşmaq da bilmezler. Türkçe bilmezler, musülmanca bilmezler. Bilmek de istemezler”.[14] Şəfiqə xanımın redaktorluğu ilə çıxan “Aləmi-nisvan” məcmuəsi məhz belə problemləri qabardıb, həll yollarını göstərmək üçün mətbuat aləminə qədəm qoymuşdu.

Şəfiqə xanım Qaspıralı (1886-1975) atasının maddi-mənəvi köməkçisi olan fədakar anasının 1903-cü ildə vəfatından sonra

---

[13] Gasprinskiy İsmail bey. Alem-i nisvan (Kadınlar dünyası). “Terciman”, 13 yanvar 1906 // Günsel. Eki aylıq edebiy-ilmiy-içtimaiy dergi, № 5, Bağçasaray: 2000, s.2.

[14] http://tatkonvolut.at.ua/load/qadim_neshirleri/alem_i_nisvan/kafkasiyada_muslime_hanimlar/33-1-0-24

anasını əvəz edərək həm evin bütün məsuliyyətini, həm də “Tərcüman” qəzetindəki iş həyatında məqalələrin ruscadan türkcəyə çevrilməsi, müxtəlif yazışmalar, poçt və nəql işləri kimi bir çox sahədə atasının ən böyük köməkçisi oldu. Atasının böyük diqqəti və qayğısı nəticəsində ziyalı bir qadın kimi yetişən Şəfiqə xanım bu haqda belə yazırdı: Rəhmətlik atam biz övladlarını daim oxumağa təşviq edərdi. Oxuyacağımız kitabları seçərək satın alar, xüsusi ilə klassik əsərlərə üstünlük verər və dərgilərə də abunə olardı. Seçdiyi əsərlərin hamısı mənalı, millətsevərlik duyğusu təlqin edən olardı.[15]

Şəfiqə xanım ilk yazısını 1903-cü ildə “Tərcüman”da yazmışdı. O, özü bu haqda belə yazır: “İlk olaraq qadınlara aid bir məqaləni bir rus jurnalistin tatarların dini səbəblərlə cahil qalması iddiasına cavab olaraq yazmışdım”.[16]

“Aləmi-nisvan”ı tədqiq edən türk müəllifləri Şəngül və Nəcib Həbləmitoğlunun yazdıqlarına görə “Aləmi-nisvan”ın “mövcud kolleksiyasına nəzər yetirdikdə heç bir yazı, yaxud xəbərin təsadüfi səciyyə daşımadığı, hər birinin “bilgiləndirmə”, “aydınlatma”, “təşviq və istiqamətləndirmə”, nəhayət “təşkilatlandırma” məqsədinə xidmət etdiyi ortaya çıxır. Qırxa yaxın sayı işıq üzü görən jurnalda Türk qadınını bilgiləndirəcək, istiqamətləndirəcək, təşviq edəcək, təşkilatlandırmağa sövq edən mövzular, Azərbaycanla bağlı məsələlər də mütəmadi diqqət mərkəzində saxlanmışdı.[17] Məsələn, məqalələrin birində belə bir məlumat verilmişdi: “Bu son vaxtda bakılı müsəlman qadınlar “Elm və xeyrat” adlı bir cəmiyyət təşkil etmişdir. Bu cəmiyyət qadın-qızlar arasında elm və mərifəti yayacaqdır. Yığılan bütün pulları Gəncədəki ac və fəqirlərə yollamışlar. Məhz bu kimi cəmiyyətlərin təşkili bizim

---

[15] Gaspıralı Şefika. Babamdan hatıralar. Emel dergisi, № 12, İstanbul: 1962. http://www.emelvakfi.org

[16] Atabey Nuriye. Şefika Gaspıralı ve ilk kadın dergisi “Alemi Nisvan” (Hanımlar Dünyası). http://www.yg.yenicaggazetesi.com.tr/yazargoster.php?haber=12331

[17] Quliyev V. Baş nazirin xanımı-2. 525-ci qəzet. 18 dekabr 2010.

müsəlman qadınlarının ağıl və fikirlərinin ziyalandığını göstərir”.[18] İmzasız çap olunmuş bu məqalədə Bakıdakı qadınların xeyirxah təşəbbüsü digər müsəlmanlara da örnək göstərilirdi: “Belə bir cəmiyyət bütün Rusiya müslimələri arasında birinci olmaqdan başqa onun mislinin Türkiyədə də, Misirdə də, başqa müsəlman məmləkətlərində də bulunmadığı məlumdur. Bu kimi işlərə iqdam etmək üçün elm və maarif nuru ilə münəvvər olmaq və milliyyətçilik duyğularına sahiblənmək dəxi lazımdır”.[19]

Jurnalın “Molla Nəsrəddin məcmuəsi” adlı başqa bir məqaləsində[20] isə bütün başqa məsələlərdə olduğu kimi qadın azadlığı mövzusunda da ən cəsarətli fikirlərin “Molla Nəsrəddin”də söyləndiyinə diqqət çəkilirdi: “Bu axır vaxtlarda mətbuatımızda biz biçarə qadınların halına və məişətinə dair az-çox məqalələr və mülahizələr gözə görünməkdədir. Bu xüsusda Tiflis şəhərində nəşr olunan “Molla Nəsrəddin” hər bir məsələdə məharət göstərdiyi kimi biz məzlumələrin məişətinə dair tərsim etdiyi (çəkdiyi) lövhələrdə və yazdığı məqalələrdə də məsələyə ciddi nəzər ilə baxaraq qələmindən alimanə bir tərzdə istifadə edir”.  Qadın azadlığı barəsindəki bir sıra yazılar isə sadəcə Cəlil Məmmədquluzadənin nəşrindən iqtibas edilərək müəyyən ixtisarlarla “Aləmi-nisvan” jurnalında verilmişdir. Rusiya türklərinin ilk qadın jurnalında Azərbaycan həyatının müxtəlif yönləri ilə işıqlandırılmasında şübhəsiz ki, Şəfiqə xanımın əri Nəsib bəyin məsləhət və yardımları olmuşdur.[21]

Jurnalda bütün türk xalqlarının vahid türk dili ətrafında birləşməsi ideyası təbliğ və təşviq edilirdi. «Aləmi-nisvan» idarəsinə xanımlardan və xanım qızlardan gələn məktubların əksəriyyətində onlarda ədəbi dilə həvəs və marağın olduğu şükran ilə bildirilir,

---

[18] Atabey Nuriye. Şefika Gaspıralı ve ilk kadın dergisi “Alemi Nisvan” (Hanımlar Dünyası). http://www.yg.yenicaggazetesi.com.tr/yazargoster.php?haber=12331

[19] Atabey Nuriye. Şefika Gaspıralı ve ilk kadın dergisi “Alemi Nisvan” (Hanımlar Dünyası). http://www.yg.yenicaggazetesi.com.tr/yazargoster.php?haber=12331

[20] Molla Nəsrəddin, № 35, 1906.

[21] Quliyev V. Baş nazirin xanımı-2. 525-ci qəzet. 18 dekabr 2010

nicat və xilasın birinci vasitəsinin dil birliyi olacağı göstərilirdi.[22]

Eyni zamanda jurnalda qadınların islami baxımdan da maariflənməsi üçün müxtəlif məqalələrə, hədislərə və onların şərhinə geniş yer verilirdi. İ. Qaspıralı jurnaldakı məqalələrindən birində bu mövzuda belə yazırdı: "Qadınlar insan olduğundan və övlad tərbiyə edəcəklərindən dişi heyvan kimi bisavad və cahil qalsalar dünya və ömür fəna olar. Elm təhsili kişi, qadın, bütün müslümanlara fərzdir".[23]

Jurnalda müsəlman qadınların cəmiyyətlər quraraq fəaliyyət göstərmələri və ictimai həyatda fəal olmaları da təşviq edilirdi. Bunun təbii nəticəsi olaraq qadınların ictimai fəallığı artır və onlar da cəmiyyətin bərabər hüquqlu üzvü kimi öz səslərini eşitdirə bilirlər. Sonralar Şəfiqə xanım bu barədə yazırdı: "Yoldaşlar, azadlıq günəşi doğan gündən biz qadınlar da insan kimi yaşamağa haqq qazandıq. Öz istəklərimizi meydana gətirmək üçün bizə də ictimailəşmək lazımdır".[24]

"Aləmi-nisvan" qadınların öz problemlərini dilə gətirmək üçün əhəmiyyətli bir tribuna idi. Məsələn, "Aləmi-nisvan"ın qadınların maariflənməsində oynadığı əhəmiyyətli rolun bir nümunəsi olaraq jurnalda bir qadın oxucunun nəşr olunan bir məktubunu göstərə bilərik. Qadın oxucu - "Qızları oxutmaq üçün heç bir nizamlı məktəb yoxdur. Təlim və tərbiyə görməyən qızlar ana olduqda da faydasız bir məxluq olacaqlardır", deyərək öz üzüntüsünü dilə gətirir, "Aləmi-nisvan" vasitəsilə bütün Krımlı qadınların milli təhsil problemini və arzularını ortaya qoyurdu.[25]

Burada Şəfiqə xanımın1906-cı ildə evləndiyi Nəsib bəy Yusifbəyli haqqında da məlumat vermək faydalı olardı. Odessa universitetində tibb, daha sonralar hüquq təhsili alan Yusifbəyli Bağ-

---

[22] Tahirli Abid. Bütün türklərin tərcümanı. Bakı: Ozan, 2011. 239 səh., s.194.

[23] Özdil Muhammed. İsmail Gaspıralı`nın din ve toplum anlayışı. Isparta, 1910, 91 səh., s.75.

[24] Kırım bülteni, № 67, Ankara: 2010, s.20.

[25] Töre Okan. Gaspıralı İsmail Bey'in hayatı ve kişiliği // Kalgay dergisi, № 61, Bursa: 2011. http://www.kalgaydergisi.org/index.php?sayfa=dergiicerik&sayi=61&kod=1069

çasarayda Qaspıralı ilə tanış olarkən, onun qızı Şəfiqə xanımla öncə dostluq münasibətləri qurur və bu münasibət sonralar evliliyə çevrilir. Nəsib bəy Bağçasarayda "Aləmi-nisvan"ın, eyni zamanda "Tərcuman"ın fəaliyyətində aktiv olaraq iştirak etmişdir. 1906-1911-ci illərdə əsasən Bağçasarayda yaşamasına və qəzetçilik fəaliyyəti ilə məşğul olmasına baxmayaraq Nəsib bəy Azərbaycanla, ilk növbədə Gəncə ilə əlaqəsini heç zaman üzməmişdi. Əksinə, Krımda və Türkiyədə yaratdığı münasibətlərdən vətəninin xeyri üçün, maariflənməsi üçün yararlanmağa çalışmışdı. O, ilin bir neçə ayını Azərbaycanda keçirirdi. Şəfiqə xanım xatirələrində - Nəsib Gəncədəki "Mədrəseyi-ruhaniyyə" ətrafında böyük fəaliyyətə girişdi, mədrəsənin islahı məsələsini öz əlinə aldı, Əbdülhəmid rejiminin təqiblərindən qaçaraq Türkiyəni tərk edən türklərə İran pasportları alındı, onlar rəsmən mədrəsədə çalışmağa başladılar.. Beləliklə, müəllim məsələsi qismən həll olundu. Həmin Nəsib bəy özü də mədrəsədə fasilələrlə bir il rus dili müəllimliyi etdi. Tədris kitabları Türkiyədən gətirilirdi"deyə qeyd edir.[26]

1910-cu ildə hökumətin təzyiqləri səbəbilə "Aləmi-nisvan" fəaliyyətini tamamilə dayandırmaq məcburiyyətində qalır.[27] Bəzi mənbələrdə bu tarix 1914 və ya 1919 kimi də qeyd olunmuşdur.[28] Qısa müddətli fəaliyyətinə baxmayaraq bu jurnal qadınlar arasında ictimai oyanış, siyasi, iqtisadi, mədəni canlanmada xeyli əhəmiyyətli rol oynadı. Bu barədə "İqbal qəzeti belə yazırdı: Heyif ki, bu məcmuə bir çox zamanlar davam edəmədi, bununla belə yenə xeyli faidələr bəxş elədi. Bu təşviqlər sayəsində hər tərəfdə qız məktəbləri açdırmağa müvəffəq oldu".[29]

---

[26] Quliyev V. Baş nazirin xanımı-2. 525-ci qəzet. 18 dekabr 2010.

[27] Özdil Muhammed. İsmail Gaspıralı`nın din ve toplum anlayışı. Isparta, 1910, 91 səh., s.17.

[28] Selimova Leniyara. Şefiqa Gaspralı ve "Alem-i nisvan" mecmuası http://ilmiyqirim.blogspot.com/2011/07/sefiqa-gaspral-ve-alem-i-nisvan-mecmuas.html

[29] Əfəndizadə Şəfiqə xanım. Rəhbərimiz İsmayıl bəy və qadınlarımız. "İqbal" qəzeti, № 750, 29 sentyabr 1914-cü il.

1912-ci ildə N.Yusifbəyli və Şəfiqə xanım Gəncədə məskunlaşırlar. Şəfiqə xanım burada xeyriyyəçiliklə, azəri-türk qadınlarını maarifləndirmək üçün savad kursları açmaqla və s. işlərlə məşğul olur.[30] Lakin burada Nəsib bəyin ailə xəyanəti üzə çıxır. Nəsib bəyin azadlıq carçısı bir xanımın düşüncəsi baxımından bağışlanmaz olan səhvi bu ailənin dağılmasına səbəb olur. Nəsib bəy Gəncə ilə Bağçasaray arasında gedib-gəldiyi dövrdə doğma şəhərində Eynülhəyat xanım adlı gənc, gözəl və ziyalı bir qadınla dini nikah əsasında yaşayırmış. Həmin qadını Şəfiqə xanım da tanıyır, hətta dostluq edirdi. Bəlkə də dövrün və şəriətin tələbləri baxımından bu elə də böyük qəbahət sayılmırdı. Lakin İ. Qaspıralının ailəsində böyümüş Şəfiqə xanım minlərlə məzlum bacıları kimi ərinin ondan xəbərsiz bu cür əməlinə göz yummur və o, bunu bağışlamayaraq 1912-ci ilin sonunda Krıma dönür.[31] Sonralar N. Yusifbəyli peşman olaraq belə yazırdı: "Şefi! Sənə çəkdirdiyim bunca iztirabları unutmağını istəməyə haqqım çatırmı? Hər halda mənə nifrət etməyə əsasın var. Özüm barədə nə yazacağımı bilmirəm. Həyat məni bəlkə də layiq olmadığım mövqeyə yüksəldib. İndi Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Hər kəsdən hörmət görürəm. Amma özümü xoşbəxt saymıram. Uşaqları xatırladıqca, varımdan yox oluram. Yuxum ərşə çəkilib, rahatlığım itib. Hansımızın daha çox günah işlədiyini bilmirəm. Bildiyim tək şey ortalıqda bir xətanın olmasıdır".[32]

Şəfiqə xanım da bütün bu olanlara baxmayaraq Nəsib bəyi sevir və sonralar belə yazırdı: "Nəsib! Suda, yoxsa torpaqdasan bilmirəm, ətrafın nurla dolsun. Səni çox sevirəm".[33]

Krıma döndükdən sonra Şəfiqə xanım "Tərcüman qəzetində yazı işləri müdiri vəzifəsində çalışır. 1914-cü ildə isə atasını itirir. Əlimərdanbəy Topçubaşov «İsmayıl bəy Qasprinskinin xatirəsi»

---

[30] Cəfərzadə Əzizə. Əqidə bəxtəvərləri. http://www.azizajafarzade.com/megale6.html

[31] Quliyev V. Baş nazirin xanımı-2. 525-ci qəzet. 18 dekabr 2010.

[32] Əhməd Dilqəm. Şəfiqə xanım Qaspıralı. http://qoroskop.com/archives/2534

[33] Atabey Nuriye. Şefika Gaspıralı ve ilk kadın dergisi "Alemi Nisvan" (Hanımlar Dünyası). http://www.yg.yenicaggazetesi.com.tr/yazargoster.php?haber=12331

adlı yazısında İ. Qaspıralının ölümü haqda belə yazırdı: «Bu kədər bir də ona görə böyükdür ki, müsəlmanlar hələ öz xalqına sədaqətlə xidmət edən ictimai xadimlərdən yoxsuldurlar. İndi unudulmaz İsmayıl bəy Qaspıralının yerini heç kim vermir».[34]

26 dekabr 1917-ci ildə müstəqil Krım Xalq Cümhuriyyəti qurulduqdan sonra Şəfiqə xanım orada ilk beş türk qadın deputatdan biri olaraq siyasi fəaliyyətlə və Ağməsciddə (indiki Simferopol) İ. Qasprinski adına Darülmüəllimatda (pedaqoji qızlar məktəbində) müdirlik fəaliyyəti lə məşğul olur. 27 yanvar 1919-cu ildə Krım bolşeviklər tərəfindən işğal edilir, krımlılar müstəqillikləri ilə birlikdə sahib olduqları hər şeyi itirməyə başlayırlar. Bütün türk dünyasını aydınladan "Tərcüman" qəzetinin mətbəəsi də bolşeviklər tərəfindən ələ keçirilir. Mətbuat azadlığı ləğv edilir. Kağız təmini, qəzet satışı imkansızlaşır. Və belə bir vəziyyətdə " Tərcüman" fəaliyyətini dayandırmağa məcbur olur. Şəfiqə xanım bu qərarı "Öldürülməkdənsə ölməyi seçdik" deyə izah edir.[35]

İşğalçıların açıq hədəfi olan Şəfiqə xanım 1919-cu ilin sentyabrında Bakıya getmək məcburiyyətində qalır. Burada o, Xalq Maarifi Nazirliyi yanında uşaq bağçaları üçün tərbiyəçilər hazırlayan kurslar təşkil edir. Lakin 27 aprel 1920-ci ildə bolşevik işğalı nəticəsində gənc cümhuriyyət süqut edir və N. Yusifbəyli may ayının əvvəllərində Tiflisə getmək istəyərkən Yevlaxda öldürülür və çaya atılır.[36] Yeni rejim üçün Şəfiqə xanım düşmən olsa da, Xalq Maarif komissarlığında ona məktəbəqədər tərbiyə müəssisələri üzrə təlimatçı vəzifəsi verilir, həmçinin dərsliklərin tərcüməsi və nəşrində iştirak edir. Lakin bu prosesin uzun sürməyəcəyi aydın idi. Şəfiqə xanım Bakıdakı türk nümayəndəliyinin yardımı ilə "üzərində doğulub böyüdükləri, gülüb ağladıqları

---

[34] Tahirli Abid. Bütün türklərin tərcümanı. Bakı: Ozan, 2011. 239 səh., s.20.

[35] Hablemitoğlu Necip / Hablemitoğlu Şengül."Şefika Gaspıralı ve Rusya'da Türk Kadın Hareketi (1893-1920)" http://www.geni.com/people/Şefika/6000000007647572871

[36] Qasımlı Musa, Hüseynov Cavid. Azərbaycanın baş nazirləri. Bakı: "Adiloğlu" nəşriyyatı, 2005, 134 səh., s.13.

torpaqlara az da olsa dönmək ümidi ilə"[37] gizlicə Türkiyəyə gedir.[38] Orada rus dili tərcüməçiliyi fəaliyyəti ilə, atasının irsini yaymaqla məşğul olur. 1930-cu ildə Krım Qadınlar Cəmiyyətini təşkil edir. Həmin Cəmiyyətin hələ 30-cu illərdə yaydığı "İslam dünyası qadınlarına müraciəti" bir sıra cəhətlərinə görə aktuallığını bu gün də saxlamaqdadır. 1936-cı ildə Atatürkün göstərişi ilə məşhur rus türkoloqu Y.Pekarskin "Yakut dili sözlüyü" çoxcildliyinin hazırlanmasına Əli bəy Hüseynzadə və digər tanınmış alimlərlə birlikdə Şəfiqə xanım Qaspıralı da cəlb olunur.[39] Şəfiqə xanım 1944-cü ildə Krım tatarlarının tarixi vətənlərindən deportasiya edilməsini Krımın müstəqilliyinin itirilməsindən sonra həyatının ən böyük faciəsi kimi qarşılayır. Uzun illər topladığı, aralarında Azərbaycanla bağlı bir sıra nadir sənədlərin, o cümlədən Nəsib bəy Yusifbəylinin çoxsaylı məktublarının olduğu zəngin arxivini Krım tatarlarını tədqiq edən Nəcib Həbləmitoğluna bağışladıqdan sonra 1975-ci ilin avqustunda üçüncü vətənində rəhmətə gedir.[40] Bununla da türk dünyasının ilk qadın redaktoru və ilk qadın deputatlarından biri gözlərini vətənindən uzaqda həsrətlə yumur.

Qeyd etmək lazımdır ki, İ. Qaspıralının və Ş. Qaspıralının əsəri olan "Aləmi-nisvan" bütün türk qadınları dünyasında ilk cığır olmaqla birlikdə, özündən sonra da gözəl bir yol açmışdır. Qadınların ictimai həyata qatıla bilməsi üçün böyük cəhdlər edən bu jurnal uzun ömürlü olmasa da, daha sonrakı illərdə nəşrə başlayan "Süyüm Bike" (Kazan, 1913), "Azat Hanım" (1917) ve "Şark Kızı" (1917) kimi türkdilli qadın qəzet və jurnallarının nəşr edilməsində təşviq edici rol oynadı.[41] Fəxrlə deyə bilərik ki, "Aləmi-nisvan"ın ilk davamçısı isə ilk Azərbaycan qadın mətbu orqanı olan "İşıq" (1911-1912) qəzeti olmuşdur.

---

[37] Hablemitoğlu Necip / Hablemitoğlu Şengül. "Şefika Gaspıralı ve Rusya'da Türk Kadın Hareketi (1893-1920)" http://www.geni.com/people/Şefika/6000000007647572871

[38] Əhməd Dilqəm. Şəfiqə xanım Qaspıralı. http://qoroskop.com/archives/2534

[39] Quliyev V. Baş nazirin xanımı-3. 525-ci qəzet. 25 dekabr 2010.

[40] Quliyev V. Baş nazirin xanımı-4. 525-ci qəzet. 31 dekabr 2010.

[41] Cemiloğlu Mustafa. İsmail Gaspıralı ve eğitim-öğretim faaliyetleri. Türk dünyası incelemeleri dergisi / Journal of Turkish World Studies,Cilt: V, Sayı 1, İzmir, 2005, s.34.

***Fikrət Bağırov***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*Xəritələr sektorunun müdiri*

# TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT PARTİYASININ BANİSİ NƏSİB BƏY YUSİFBƏYLİ

XIX əsrin sonu – XX əsrin əvvəlində yetişən görkəmli ictimai simalar Rusiya imperiyasının süqutu nəticəsində həyata keçirilən demokratik dəyişikliklərin türk xalqlarının ümdə milli məsələsinin həllinə yol açdığı zaman, habelə Azərbaycan Xalq Cümhuriyyəti dövründə vətənlərinin taleyinə dair məsuliyyəti üzərlərinə götürdü. Bu tarixi vəzifənin icrası həm də dünyaya gəlməsindən artıq 135 sənə ötən Nəsib bəy Yusifbəylinin çiyninə düşdü.

Azərbaycanın qədim mədəniyyət ocagı və dövlətçilik mərkəzlərindən biri olan Gəncənin ziyalı ailəsində gözlərini dünyaya açan Nəsib bəy Yusifbəyli Odessa Universitetinin hüquq fakültəsində təhsil alarkən demokrat ruhlu tələbələrin siyasi təşkilatlarına qatıldı. Fəal üzvü olduğu Azərbaycan həmyerliləri qurumunda yaxın gələcəkdə yurdumuzun ictimai həyatına nüfuz etmiş, tarixində mühüm  iz buraxmış Nəriman Nərimanov, Xosrov bəy Sultanov və başqaları çalışırdı.

Çar hökuməti rus inqilabı zamanı tələbə hərəkatının xeyli vüsət aldığı Odessa Universitetinin fəaliyyətini 1907-ci ildə dayandırdıqdan sonra təhsili yarımçıq qalmış Nəsib bəy Bağçasaray şəhərinə üz tutub, Rusiyanın türk və müsəlman xalqları arasında böyük ehtirama malik olan maarifçi, ədib və naşir İsmayıl bəy Qaspralının “Tərcüman” qəzetində yazılarını dərc edirdi.

Bağçasaray şəhərinin mədəni həyatına şövqlə qoşulan Nəsib bəy Krım ictimaiyyətini Azərbaycan ədəbiyyatının qabaqcıl nü-

munələri ilə tanış etməyə səy göstərirdi. 1907-ci il yanvarın 13-də "Tərcüman" qəzeti Bağçasaray teatr həvəskarlarının tamaşaya qoyduğu Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsində Nəcəf bəy rolunun Nəsib Yusifbəylinin ifa etdiyini xəbər verirdi. Həmin qəzetə istinadən bəlli olur ki, Krımda yaşadığı zaman Nəsib bəy yerli ziyalıları vətənində ərsəyə gələn ədəbiyyatşünaslıq əsərlərindən agah etmək məqsədilə görkəmli maarifçi və alim Firudin bəy Köçərlinin "Azərbaycan türk ədəbiyyatı" tədqiqatının, habelə Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuə" toplusunun Bağçasaray şəhərində işıq üzü görməsi üçün çalışsa da, niyyətinə çata bilmədi. Hər halda, XX əsrin əvvəlində Azərbaycan – Krım mədəni əlaqələrinin meydana gəlməsində Nəsib Yusifbəylinin müstəsna xidmətini qeyd etmək lazımdır[1].

Böyük mütəfəkkir İsmayıl bəy Qaspralı ilə daim təmasda olub fikir mübadiləsi edən Nəsib bəyin dünyagörüşü qısa zaman kəsiyində xeyli təkamül yolu keçmiş, o, türk aləminin nüfuzlu ictimai xadiminin məsləkdaşına çevrilmişdi. "Dildə, fikirdə, işdə birlik" şüarını irəli sürən İsmayıl bəy soydaşlarının mövcud vəziyyətini təsvir edərkən yazırdı: "Asiya və Avropanın bir qismində sanki böyük bir millət — türk-tatar milləti var. Bu millət dağınıq, parçalanmış, zəif haldadır, digər millətlərə nisbətən elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmışdır. Belə davam edərsə, əbədi mübarizə qanununa uyğun olaraq məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır..."[2]. İsmayıl Qaspralının baxışlarını qəlbən qavrayan Nəsib Yusifbəyli onun türkçülük təliminin israrlı təəssübkeşinə çevrildi.

1908-ci ildə güzəranı ağır olan tələbə təhsilini bitirməyərək ali məktəbi tərk edir və İstanbula köçür. Burada da həmin yöndə fəal iş aparan Nəsib bəy "Türk dərnəyi" təşki-

---

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918 - 1920). Bakı, 1990, s. 33

[2] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, c. II. Bakı, 2005, s. 141

latının təsisçilərindən idi. Lakin sultan istibdadını çar mütləqiyyətinə bərabər tutan azərbaycanlı ictimai xadim Türkiyədə uzun müddət qala bilməyərək, artıq 1909-cü ildə doğma Gəncə şəhərinə qayıtdı.

Sonrakı illərdə Gəncə camaatının etimadını qazanıb şəhər bələdiyyəsinə seçilən gənc vətənpərvər ziyalı tez-tez Bakıya gəlir, "Açıq söz" qəzeti ilə əməkdaşlıq əlaqələrini qurur. Bununla da həmin nəşrin ona məsləkçə yaxın olan redaktoru Məhəmməd Əmin Rəsulzadə ilə siyasi işbirliyinin təməli qoyulur.

Nəsib bəy yurdunun mədəni həyatında həmişə yaxından iştirak edirdi. 1909-cu il sentyabrın 4-də "Tərcüman" qəzetində dərc etdiyi "Mətbuat" adlı icmalında o, Rusiyada çıxan müsəlman satirik dərgilərinə nəzər salaraq Mirzə Cəlilin "Molla Nəsrəddin"inin maarifçilik fəaliyyətini yüksək dəyərləndirirdi. Nəsib bəy mütərəqqi ziyalılarla birlikdə Mirzə Fətəli Axundzadənin yuzilliyinə həsr olunan tədbirlərə qatılaraq 1911-ci il mayın 20-də yenə də "Tərcuman" qəzetində bu barədə məlumat vermişdir[3]. Nəsib bəy habelə XX əsrin ikinci onilliyində Gəncədə yaranmış "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin və "Aktyorlar Cəmiyyəti"nin işinə qoşulub səmərəli fəaliyyət göstərirdi.

Doğma şəhərinə qayıdıb xalqının maarifləndirilməsinə töhfə verməyə çalışan Nəsib bəy kitab mağazasını açmaq qərarına gəlir. Siyasi baxışlarına görə fəaliyyətinin imperiya üçün təhdid törətdiyini anlayan yerli polislər onu nəzarətə götürdü. Bu baxımdan Yelizavetpol qubernatorun dəftərxanasında tapılan Tiflis Jandarm İdarəsi rəisinin köməkçisi polkovnik-leytenant Qamreklidzenin 1911-ci il martın 21-də göndərdiyi 2220 saylı tam məxfi sənədi xüsusi maraq doğurur və mülahizəmizi əyani şəkildə təsdiqləyir: "Əlimizdə olan məlumata görə, Nəsib bəy Yusifbəyovun kitab

---

[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918 - 1920). Bakı, 1990, s. 34

mağazasında məzmunu yasaqlanan, panislamizmi təbliğ edən kitablar satılır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Zati-alilərini həmin mağazada qəfil təftiş keçirməyə əmr vermənizi, senzuradan kənarda qalan kitablar aşkar olunduqda isəonları müsadirə edib sərəncamıma göndərmənizi xahiş edirəm”[4]. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur.

1917-ci ilin fevralında Rusiyanın mərkəzində baş vermiş inqilabi hadisələr imperiyanın ucqarlarında da ictimai-siyasi həyatın canlanmasına səbəb olmuşdu. Bu zaman Nəsib bəy Yusifbəyli də doğma yurdunda meydana gələn köklü dəyişikliklərdən kənarda qala bilməzdi. O anlayırdı ki, millətinin mənafeləyini qorumaq, tələbatlarını müəyyənləşdirmək və təlatümlü ictimai proseslərdə düzğün mövqe tutmaq üçün siyasi təşkilatın yaradılmasına ehtiyac var idi. Nəsib bəyin digər görkəmli ziyalılar – Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyovla israrlı səyləri həmin ilin martında Türk Ədəmi-Mərkəziyyət partiyasının təsisi ilə nəticələndi. “Kaspi” qəzetinin yazdığına görə, aprel ayının 2-də Gəncədə partiya təəssübkeşlərinin keçirdiyi mitinqdə “Yaşasın demokratik respublika”, “Yaşasın Azərbaycan muxtariyyəti” şüarları səslənirdi. Həmin qəzetin 1917-ci il mayın 19, 20 və 24-də dərc olunan qurumun məramnaməsində bəyan edilirdi ki, “Türk Ədəmi-Mərkəziyyət Firqəsi” qarşısına Rusiyanın bütün “türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini”[5] qorumaq məqsədini qoyur. Burada türk xalqlarının ərazi muxtariyyəti, sosial-iqtisadi bölümündə isə aqrar islahatının keçirilməsi, fəhlə qanunvericiliyinin yaradılması, ibtidai məktəbdən ali təhsilə qədər vahid tədris sisteminin təşkili kimi mütərəqqi tələblər irəli sürülürdü.

Qurumun siyasi məqsədləri aşağıdakı maddələrdə izhar olunurdu:

---

[4] Zaqafqaziyada rus siyasətinə dair sənədlər.. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdindəki Xüsusi Komissiya. Bakı, 1920

[5] “Kaspi” qəzeti, 19 may 1917-ci il

a) “Rusiyada milli-ərazi əsaslarda demokratik respublika” yaradılmalı;
b) “Azərbaycana, Türküstana, Qırğızıstana və Başqırdıstana ərazi”;
c) “Volqaboyu və Krım tatarlarına, habelə bütün türk xalqlarına isə milli” mühtariyyət verilməlidir[6].

1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada baş tutan Rusiya müsəlmanlarının qurultaylarında Türk Ədəmi-Mərkəziyyət və “Müsavat” partiyalarının ən vacib məsələlərdə aşkar mövqe yaxınlığı bu iki qurumun birləşməsi prosesinə təkan verdi. “Müsavat”ın başçısı Məhəmməd Əmin Rəsulzadə Qafqaz qurultayındakı müttəfiq təşkilatın hədəfləri ilə həmagəng olan nitqində demişdi: “Tarix Teymurləngin, Çinqiz xanın, Makedoniyalı İsgəndərin, Roma imperatorlarının timsalında özü şahiddir ki, sərbəst izhar edilmiş dövlət ittifaqını qurmaq arzusundan başqa heç bir qüvvə tərkibindəki millətlərin vəhdətini yarada bilməz”[7]. İyunun 3-də vahid Mərkəzi Komitəsinin təşkili ilə başlayan hərəkat oktyabrın 25-dən 31-dək işini davam etdirən qurultayda Türk Ədəmi-Mərkəziyyət “Müsavat” Xalq Firqəsinin təsisi ilə yekunlaşdı. Səkkiz nəfərlik Mərkəzi Komitənin tərkibində Bakı və Gəncə büroları fəaliyyət göstərirdi. Bakı bürosunun rəhbərliyi M. Ə. Rəsulzadəyə həvalə edildi, Gəncə təşkilatının başında isə Nəsib bəy Yusifbəyli durdu.

Burada xüsusilə vurğulamaq lazımdır ki, 1917-ci ilin aprelində keçirilmiş Qafqaz müsəlmanları qurultayında və “Müsavat” partiyasının həmin ilin oktyabrında və 1919-cu ilin sonunda toplanmış I və II qurultaylarında yuxarıda ərz etdiyimiz bəndlərin ruhu və məzmunu ilə tamamilə üst-üstə düşən qərarlar qəbul olunmuşdur. Azərbaycan milli hərəkatının öndəri Məhəmməd Əmin Rəsulzadənin qarşısında müsəlmanların “siyasi və milli-mədəni

---

[6] Balayev A. 1917-1918-ci illərdə Azərbaycan milli hərəkatı (rus dilində),. Bakı, 1998, s. 63-64,

[7] “Kaspi” qəzeti, 19 aprel 1917-ci il

istəklərini açıq"[8] ifadə etmək tələbinin qoyduğu Qafqaz qurultayının qətnaməsində bu fikir "müsəlman qövmlərinin mənafeyini ən ziyada təmin edən Rusiya şəkili-idarəsinin məhəlli federasyon əsası üzərinə qurulu cümhuriyyət müctəmiayi-ənam olduğunu qəbula qərar verir"[9] müddəasında əksini tapdı. Vahid "Müsavat"ın ilk toplantısında Azərbaycan xalqının bu ümdə qayəsi "Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyətlər əsası üzərinə qurulu qoşma (federativ) xalq cümhuriyyətlərdən ibarət olmalıdır"[10] düsturunda əxz edildi.

Nəhayət, Azərbaycan dövlətçiliyinin füqara sütunu olan bu partiyanın II qurultayında əldə olunan nailiyyətlərinin icmalında deyilirdi: "... Bu təbii yolun ilk pilləsinə qədəm qoymaq üzrə firqəmiz sabiq Rusiya imperiyası daxilindəki həqayiqə nəzərən Rusiya cümhuriyyətinin milli-məhəlli muxtariyyətlər əsası üzərinə binalanmış qoşma xalq cümhuriyyəti şəklində qurulmasını və eyni zamanda Qırğızıstan, Başqırdıstan, Türküstan və Azərbaycan muxtariyyətləri üçün milli-məhəlli istiqlal, Volqaboyu ilə Krım üçün isə milli muxtariyyət tələb edirdi.

Vaxtilə bir çox etirazlara səbəb olan bu məqsədlər bu gün birər əmri-vaqedir, yəni yuxarıda məzkur muxtariyyətlər çox nöqsanlarla olsa da, bu gün felən mövcuddur. O cümlədən Azərbaycan yalnız muxtar deyil, müstəqil bir halda yaşayır və istiqlalını beynəldüvəl tanıtdırmaq üçün çalışır. Firqəmiz mənəvi müzəffəriyyətləri təzahüratından olan Azərbaycan istiqlalını göz bəbəyi kimi saxlamaq əsas olduğu kimi, eyni zamanda da firqəvi namusumuzun icabıdır"[11].

Türk Ədəmi-Mərkəziyyət partiyasının məramnaməsi o dövrün cəmiyyətini narahat edən ən mühüm sosial problemlərin çarəsini arayan əhatəli bir sənəd idi. Burada həm cinsi,

---

[8] Balayev. A. Göstərilən əsəri, s. 66

[9] Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, s. 55

[10] Yenə orada, s. 59

[11] Məmmədzadə M. Göstərilən əsəri, s. 63

milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların bütün demokratik hüquq və azadlıqlarına riayət edilməsi, həm də Rusiyanın müsəlman ümmətinin dini ehtiyaclarının təminatı məsələləri əksini tapdı. "Aqrar məsələsi" bölməsində dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə olan bütün torpaqların əvəzi ödənilmək şərtilə, torpaq fondunun yaradılması, "Fəhlə məsələsi"nə aid hissəsində isə bu sahədə qanunvericiliyin yaradılması və həmin qanunların işçilərin iştirakı ilə icrası, səkkiz saatlıq əmək günü, qocalığa və iş qabiliyyətinin itirilməsinə görə dövlət sığortası və s. nəzərdə tutulurdu. Xalq maarifinin demokratik əsaslarda qurulmasını tələb edən "Məktəb məsələsi" fəslində isə ibtidai və orta məktəblərdə təhsilin icbari olaraq türk və rus dillərində, ali tədris müəssisələrində yalnız "osmanlı şivəsi"ndə aparılması müddəası irəli sürülürdü. Təsadüfi deyil ki, Nəsib bəy Yusifbəylinin Azərbaycan Xalq Cümhuriyyətinin ikinci hökumətində xalq maarifi və dini etiqad naziri vəzifəsini tutduğu zaman, 1918-ci il iyunun 27-də qəbul olunan "Dövlət dili haqqında" qərarda "türk lisanı"-nın bütün dəftərxana işlərində qısa müddət ərzində hökmən tətbiq edilməsi zərurəti vurğulanırdı. Fətəli xan Xoyskinin qurduğu kabinələrdə əzmlə çalışan Nəsib bəy Yusifbəylinin ən mühüm uğuru məhz dövlət dili məsələsinin həllinə nail olmasıdır. O, türk (Azərbaycan) bütün idarələrdə tədbiq edilməsinə səy göstərir və milli kadrları yetişdirəcək yeni təhsil sisteminin yaradılması üçün ardıcıl tədbirlər görürdü.

Zaqafqaziya Seyminin üzvü kimi Nəsib bəy Yusifbəyli vətəninin, doğma xalqının mənafelərini dönmədən müdafiə edir, ona qarşı törədilən hər cür fitnə-fəsada qəti etirazını bildirirdi. O, milli-azadlıq hərəkatının lideri Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə Seymdəki Azərbaycan fraksiyalarının əlaqələndirmə qurumunun yaradılmasının təşəbbüskarı olmuş və onun işində fəal iştirak etmişdi. Dağılmaqda olan Zaqafqaziya Demokratik Federativ Respublikasının taleyi həll edilən-də azərbaycanlı deputatların iclasında Batum konfransına dair

mövqeyini aydın bildirən Nəsib bəy dedi: "Yalnız Azərbaycanı deyil, bütün Mavərayi Qafqasyanı (Cənubi Qafqazı – F. B.) istila etmiş böyük, dəhşətli anarşini biz öz qüvvəmizlə yatıra bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsri düşmənlərimizlə müttəfiqən hücum etməsi vəziyyəti daha da kəskinləşdirərək türk millətinə ənvai-məsaib və fəlakət gətirir. Mövqe belə ikən bizə xarici qüvvə müdaxiləsinə rücü etməkdən başqa çarə qalmır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər mən bu məsələ haqqında birinci danışmaq məcburiyyətindəyəm. Fəlakətin üzünə cürətli baxaraq cərəyan edən hadisələri göz önünə almaq və ona görə hərəkət etmək gərəkdir... Biz sevinməliyik ki, xoşbəxtlikdən müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş Türkiyədir. Bəlkə bu bizim qonşularımızın bir o qədər də xoşuna gəlməyəcək, lakin başqa çarəmiz yoxdur. Müdhiş anarşı qarşısında onlar da bizim kimi gücsüzdürlər. Onların əlində olan ordu qüvvəsinin əhvali-ruhiyyəsi intizamsızlıq lehində olduğu üçün onlara istinadən intizam bərpa edilə bilməz...

... Xatir üçün xəstə düşə bilmərik. Bizim heyətin Batuma gedərək Şərqi Məvərayi-Qafqasya türkləri adından Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir. Fəqət bununla bərabər Azərbaycanın istiqlal idarərəsini heç vaxt unutmamalıyıq"[12].

O dövrdə acınacaqlı durumda olan azərbaycanlı əhalisinin dəhşətli faciəsinin dərinliyini dərk etmək üçün Türkiyənin sülh konfransındakı heyətinin başçısı Xəlil bəyin Nəsib bəyin yuxarıda gətirdiyimiz bəyanatı ilə səsləşən Cənubi Qafqaz təmsilçilərinə göndərdiyi ultimatumuna nəzər salmaq kifayətdir: "Bakı və ətrafında yüz minlərcə müsəlmanlar və türklər özlərinə inqilabçı deyən vicdansız quldurların pəncəsində inləyir və bu zavallıları təhdid edən vuracağı yaraları sağalmayan fəlakət gündən-günə yaxınlaşır. Saysız-hesabsız mütəşəkkil quldur çetelərinin hücum-

---

[12] Məmmədzadə M. Göstərilən əsəri, s. 93-94

ları vaqe olan Qafqazın digər hissələrindəki türk və müsəlman əhalisinin vəziyyəti də təsəllibəxş deyildir... Anarşı dövləti-aliyeyi-Osmaniyə əhalisilə eyni irq və dinə mənsub olan bir əhalinin təhlükəsizliyinə qarşı yönəlməkdədir. Digər tərəfdən ümumi hərbin nəticəsi olaraq dövləti-aliyə öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə nəql etmək məcburiyyəti qarşısındadır. Bu da indiki qeyri-müəyyən vəziyyətə təxirə salınmadan son qoyulmasını tələb edir”[13].

Lakin Zaqafqaziya Federasiyasının fəaliyyətinə xitam verilməsindən bir gün sonra, 26 may 1918-ci il tarixində açıqlanan bu sənəd qarşı tərəfin artıq mövcud olmaması səbəbindən cavabsız qaldı. Həmin hadisə sözügedən quruma daxil olan millətlərin müstəqil dövlətçilik yoluna qədəm qoymasına rəvac verdi. Cənubi Qafqazın konfrasdakı birgə nümayəndə heyətinin tərkibində olan ayrı-ayrı xalqların təmsilçiləri danışıqları öz ölkələrinin adından davam etdirdilər.

İstiqlaliyyətin elan olunması ərəfəsində Milli Şuranın İcraiyyə Komitəsinin üzvü seçilən, sonra isə müstəqil Azərbaycanın ilk hökumətində maliyyə və xalq maarifi naziri vəzifəsində çalışan Nəsib bəy Yusifbəyli yenicə ayaq tutmağa başlayan gənc dövlətinin başını məhvolma təhdidi aldıqda Şuranın 1918-ci il 17 iyun tarixli iclasındakı sərt cıxışında qətiyyətlə söylədi: “... Aşkardır ki, paşa həzrətləri (Qafqaz İslam Ordusunun komandanı Nuru paşa – F. B.) və dövləti-aliyeyi-Osmaniyə Azərbaycanın müstəqil olaraq kəndisinə bir hökumət təşkil etməsinə tərafdardır. Məlum işdir ki, onlar bizim işlərimizə qarışmazlar. Fəqət paşanın ətrafını məxsusi adamlar, şübhəli şəxslər tutmuşlar... Bu adamlara qarşı bizim əlimizdə bulunan hüquqdan istifadə etmək lazım... Bunun üçün də mən təklif edirəm ki, kabinənin iflasını qəbul edəlim, sonra isə rəisimizə tapşıralım ki, kəndisi etimad etdiyi bir adama yeni bir hökumət təşkilini tapşırsın. Yeni təşkil olunacaq hökumətə hürriyyətdən hasil olan bütün əsasları mühafizə etməsi və onlara sadiq qalması şərtilə səlahiyyəti-tammə verəlim ki, məmləkəti idarə edib yaxın zaman-

[13] Məmmədzadə M. Göstərilən əsəri, s. 94-95

da Məclisi Müəssisan dəvət eyləsin və bu ixtiyarını kimsəyə xoşluqla təslim etməyib bir əmanət kimi saxlasın. Və yalnız qüvvətə, süngüyə təslim olsun. Bunu da ərz etməliyəm ki, təcavüzə qarşı ilk əvvəl üsyan çıxaran mən olacağam"[14]. M. Ə. Rəsulzadənin tam dəstəyini qazanan bu mövqe Milli Şuranın Cümhuriyyətin mövcudluğunu qoruyub saxlanmasını təmin etdi. Milli Şuranın sədri silahdaşı Nəsib bəyin sözünə qüvvət verərək dedi: "Burada əgər əlimizdəki hüquqi səlahiyyətdən istifadə etməyib bütün hökumət təşkilatını başqa qüvvələrə tərk etsək, o zaman qara bir hökumət təşkili qorxusu vardır. Halbuki burada icrayi-nüfuz edərsək, daha müvafiq bir hökumət təşkilinə müvəffəq ola bilərik. Bunun üçün mən Nəsib bəyin təklifinə iştirak edirəm"[15].

1919-cu il aprelin 14-də və dekabrın 22-də Cümhuriyyətin dördüncü və beşinci hökumətlərini quran Nəsib bəy Yusifbəylinin ən ümdə qayəsi ölkə iqtisadiyyatını diriltmək və Azərbaycan dövlətini bolşevik və Denikin təhlükəsindən qurtarmaq idi. Həmin ilin mayında bolşeviklərin idarə etdiyi Bakı Fəhlə Konfransının təşəbbüsü ilə keçirilən tətillə əlaqədar toplanan parlament iclasında o, bu hadisənin əsil mahiyyətini üzə çıxararaq deyirdi: "Güman edirəm, bu tətilin iqtisadi deyil, siyasi olduğunu bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmirlər. Onlar məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda Şura Hökuməti təşkil edək"[16].

Həmin zaman ölkənin təhsil sistemində əlamətdar hadisələr baş verdi. Bakıda universitet açılmış, habelə azərbaycanlı gəncləri Avropanın qabaqcıl ali məktəblərinə oxumağa göndərilmişdir. Hökumət başçısı vəzifəsini icra edərkən maarif məsələlərinə həmişə diqqət yetirmiş Nəsib bəy Azərbaycan əhalisinin həllinə xüsusi önəm verirdi.

---

[14] Məmmədzadə M. Göstərilən əsəri, s. 101
[15] Yenə orada, s. 102
[16] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, c. I. Bakı, 2004, s. 149-150

Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransında "de fakto" tanınması Nəsib Yusifbəyli hökumətinin fəaliyyət dövrünə təsadüf etdi. Bu xəbəri xalqına sevinclə çatdıran baş nazir bəyan edirdi : "Azərbaycanın müstəqilliyi Böyük Avropa millətlərinin Ali Şurası tərəfindən yekdilliklə tanınmışdır. Azərbaycanın Qərb xalqları ailəsinin tamhüquqlu üzvlüyünə daxil olması onun tarixində ən işıqlı gündür. Bu gündən onun mənəvi qüvvələrinin yeni çiçəklənmə dövrü başlanır. Hökumət inanır ki, bütün vətəndaşlar yenidən hər hansı bir maneə və təhlükə yaranarsa belə, azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək üçün birləşəcəklər. Yaşasın müstəqil Azərbaycan xalqı!"[17]

XI Qırmızı ordu Azərbaycanı işğal edəndən sonra siyasi təqiblərdən yaxa qurtarmaq üçün Bakını tərk etməli olan görkəmli dövlət xadimi Nəsib bəy Yusifbəyli 1920-ci il mayın 31-də Kürdəmir qəzasında faciəli surətdə qətlə yetirildi.

Yuxarıda söylədiyimizi nəzərə alaraq, ömrünün qayəsini vətəninə xidmətdə görən Nəsib bəy Yusifbəylinin siyasi fəaliyyətinin mayasını Türk Ədəmi-Mərkəziyyət partiyasının məramnaməsində əksini tapmış müddəalarını gerçəkləşdirmək niyyətinin təşkil etdiyi qənaətinə gələ bilərik. Nəqlimizə mühacirətdə də məfkurəsi uğrunda mübarizəsindən dönməyən milli hərəkatın şəksiz lideri M. Ə. Rəsulzadənin yaxın məsləkdaşının xatirəsinə yazdığı "Nəsib bəyin Azərbaycan istiqlalındakı və istiqlal hərəkatındakı rolu sadə nazirliklə və baş vəkalətlə (baş nazirliklə – F. B.) bulunduğunu söyləməklə ifadə edilə bilməz. Onun hərəkatındakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox daha əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-ci ildə "Türk ədəmi mərkəziyyət xalq firqəsi" namıylə təsis edilən siyasi Azərbaycan firqəsinin təşəbbüs etməsilə başlayır. Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir",[18] – sözləri ilə yekun vurmaq istərdik.

[17] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, c. II. Bakı, 2005, s. 442
[18] Nəsiman Yaqublu. Məmməd Əmin Rəsulzadə.. Bakı, 1991, s. 63

***Günel Əliyeva-Məmmədova***
*Bakı Dövlət Universitetinin müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*

# NƏSİB BƏY YUSİFBƏYLİ VƏ ONUN ZAQAFQAZİYA SEYMİNDƏKİ FƏALİYYƏTİ

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri olmuş Nəsib bəy Yusifbəylinin həyatı, yaradıcı fəaliyyəti, maarifçilik xidmətləri, ictimai və siyasi çalışmaları, yenilməz və qüdrətli şəxsiyyəti ibrətamiz nümunədir.

Nəsib bəy Yusifbəylinin atası Gəncə şəhərinin maarifpərvər ziyalılarından biri olmuşdur. Yusifbəylinin ulu babalarının Gəncəyə hələ XVII- XVIII əsrlərdə Cənubi Azərbaycandan gəldiyi güman edilir.[1]

Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra, Nəsib bəy 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuş, rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlamışdır.[2] Tez bir zamanda universitetdə azərbaycanlı tələbələr tərəfindən yaranan "Azərbaycanlı həmyerlilər" ("Zemlyaçestvo") təşkilatının rəhbərlərindən birinə çevrilir. Onun Nəriman Nərimanovla, Xosrov-Paşa bəy Sultanovla, Şahmalıyev qardaşları və başqaları ilə tanışlığı məhz bu dövrdə başlayıbdır.[3]

Gənc Nəsib bəy bu təşkilat vasitəsi ilə Odessada genişlənməyə başlayan tələbə hərəkatına qoşulur və çar hökumətinə qarşı qüvvətlənən siyasi mübarizənin ən fəal üzvlərindən olur, fəhlə və matroslar, tətil vaxtlarında Gəncədə zəhmətkeşlər arasında inqi-

[1] Qəhrəmanlı N. Nəsibbəy nümunəsi. Bakı, 2008, s.3-10

[2] Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990, s.33-35

[3] Çuvarlinski R.http://www.dak.az/view.php?lang=az&menu=9&id=13743 (из статьи)

labi təşviqat işi aparır. O, 1905-ci ilin axırlarında Yelizavetpolda Ə.Xasməmmədov və b. birlikdə çarizmin təqibi nəticəsində cəmi bir həftə fəaliyyət göstərmiş «Qeyrət» partiyasının təşkilatçılarından biri olmuşdur.[4]

Tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti 1907-ci ildə Odessa Universitetini müvəqqəti bağladıqdan sonra Nəsib bəy Yusifbəyli Krımın Baxçasaray şəhərinə köçmüş və orada görkəmli siyasi və ictimai xadim İsmayıl bəy Qaspralının (1852-1914) redaktoru olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlamışdır.[5] Məqalələrində Rusiya hökumətinin irqi və dini ayrı seçkilik siyasəti, üstəlik çarizmin erməni-müsəlman və yəhudi qırğınları təşkil etməsi öz əksini tapmışdır. Həmin dövrdə İranda məşrutə hərəkatı alovlandığı kimi,Türkiyədə də Gənc türklər inqilabı ərəfəsi idi. Türk və İran mövzularında məqalələrin müəllifi olan N.Yusifbəylini qayğılandıran təkcə Osmanlı imperiyasının dağılması deyil, bu proses nəticəsində Osmanlı dövlətinə, metropoliyaya da dəyən ziyan idi.[6]

Həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Baxçasarayda tamaşaya qoyan Yusifbəylinin, özü də əsas rollarda çıxış etmişdir. "Tərcüman"qəzetinin 13 yanvar 1907-ci il tarixli nömrəsində Baxçasaray şəhər teatr həvəskarları tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933) "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu, Nəcəf bəy rolunu Nəsib bəyin oynadığı xəbər verilir.

Yusifbəyli XX əsr Azərbaycan - Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyanlardan biridir. Firudin bəy Köçərlinin (1863-1917) "Azərbaycan ədəbiyyatı" və Hüseyn Əfəndi Qayıbovun (1830-1917) "Azərbaycanda məhşur olan şüaranın əş`arına məcmuədir" adlı əsər-

---

[4] Qasımlı M., Hüseynov C. Azərbaycanın Baş nazirləri. Bakı, 2005, s. 19 http://elibrary.bsu.az/kitablar/867.pdf

[5] Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990, s.33-35

[6] Qəhrəmanlı N. Nəsibbəy nümunəsi. Bakı, 2008, s.3-10

lərinin Baxçasaray şəhərində çap olunması üçün çox çalışmışdır. Lakin naməlum səbəblərdən bu məsələ baş tutmamışdır.

İnqilabi fəaliyyət üstündə çarizmin təqiblərindən yorulan N.Yusifbəyli təhsilini yarımçıq qoyub 1908-ci ildə Türkiyəyə getməyə məcbur olur. O, bir müddət İstanbulda yaşamış və burada "Türk dərnəyi"cəmiyyətinin yaradıcılarından və fəal üzvlərindən biri olmuşdur. Lakin sultan istibdadının rus çarizmi qədər qəddar olduğunu görən Yusifbəyli 1909-cu ildə Türkiyədən Gəncəyə qayıtmışdır .[7]

1909-cu ildə Gəncəyə qayıdan N.Yusifbəyli şəhər bələdiyyəsində işləməyə başlayır və "Mədrəseyi-ruhaniyyə" məktəbində dərs deyir, Gəncədə Azərbaycan dilində olan kitablardan ilk kitabxana yaradır, qəzetlərdə müxtəlif səpkidə məqalələr yazır, "Müsəlman xeyriyyə cəmiyyəti", "Müsəlmanlar içində maarifi yayan cəmiyyət" və "Aktyorlar cəmiyyəti"ndə yaxından fəaliyyət göstərir və öz gizli inqilabi fəaliyyətini davam etdirir. O, bü dövrdə tez-tez Bakı şəhərinə gedir, orada siyasi və ictimai vəziyyətlə tanış olur, bir sıra qabaqcıl ziyalılarla görüşür və xalqın azadlığı uğrunda mübarizə aparmaq üçün bir sıra məsləhətlər alır.[8] Tez-tez Bakıya gedən Yusifbəyli "Açıq söz" qəzeti redaksiyasında onun baş redaktoru Məhəmməd Əmin Rəsulzadə ilə tanış olmuşdur.[9]

1910-1918-ci illərdə Yusifbəylinin fəaliyyəti çox geniş və vüsətli olmuşdur.

1911-ci ildə Azərbaycan ziyalıları Mirzə Fətəli Axundzadənin (1812-1878) anadan olmasının 100 illiyini geniş şəkildə qeyd etmək üçün təşəbbüs göstərdilər. Nəsib bəy onların sırasında idi, eyni zamanda "Molla Nəsrəddin" satirik jurnalını o illərdə müdafiə edən ziyalılardan biri olmuşdur. Həmin dövrdə Nəsib bəy "Azərbaycanın tarixi ədəbiyyatı" əsərini də yazıb başa çatdırır.[10]

---

[7] Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990, s.33-35

[8] Qasımlı M., Hüseynov C. Azərbaycanın Baş nazirləri. Bakı, 2005, s.19 http://elibrary.bsu.az/kitablar/867.pdf

[9] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005, II cild, s.441

[10] Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990, s.33-35

Nəsib bəy Yusifbəyli qadın təhsilini və azadlığını müdafiə edənlərdən biri olmuşdur. Belə ki, 1917-ci ildə Bakıda M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, N.Yusifbəylinin təşəbbüsü ilə Qafqaz müsəlmanlarının böyük bir qurultayı çağırıldı. Qurultay nümayəndələri Əlican Vahidin və Musa Cərullah kimi mütərəqqi din xadimlərinin fikirlərinə əsaslanaraq Qazanda qadınlar qurultayının təklif etdiyi aşağıdakı qərarları qəbul etdilər:

a) şəriətə görə qadınların hüququ kişilərlə bərabərdir;

b) şəriətə görə qadınlar siyasi-ictimai fəaliyyətə cəlb olunduqları üçün onlar seçkilərdə iştirak edə bilərlər;

c) qadınlar ali məclis seçkilərində iştirak etdikləri kimi, özləri də seçilə bilər.

Qurultayda Ə.Topçubaşov da "Üsuli-Cədid" məktəblərini genişləndirməyi lazım bilərək qadın təhsilini və azadlığını müdafiə edib göstərdi ki, türk qadını öz milli xüsusiyyətlərini saxlamaqla yanaşı, təhsil almalı və ictimai həyata qoşulmalıdır.[11]

1917-ci ilin mart ayında Yusifbəyli Gəncədə "Türk Ədəmi-Mərkəziyyət" partiyasını yaratmışdır. N.Yusifbəyli 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanları qurultaylarında iştirak etmişdir. 1917-ci ilin iyununda "Türk Ədəmi-Mərkəziyyət" partiyası M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə birləşmiş, yeni partiya "Türk Ədəmi-Mərkəziyyət firqəsi Müsavat" adlanmışdır. Yusifbəyli bu partiyanın oktyabrın 26-31-dək Bakıda keçirilən və Azərbaycanın siyasi həyatında böyük hadisəyə çevrilən I qurultayının hazırlanmasında və keçirilməsində fəal iştirak etmiş, partiya proqramının müəlliflərindən biri olmuş, onun mərkəzi komitəsinin üzvü seçilmiş, Gəncə şöbəsinə rəhbərlik etmişdir.[12]

---

[11] Əbdülov Ə. XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı (1900-1920-ci illər) // Disser.... Bakı, 2007, 21

[12] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005, II cild, s.441

1917-ci ildə Bakıda toplaşan I Müsəlman qurultayında gəncəli Nəsib bəyin inamla dediyi bu sözlər çoxunun qəlbindən xəbər verdiyi üçün yaddaşlara həmişəlik həkk olunur: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?!".[13]

Birinci dünya müharibəsi ərəfəsində zəifləmiş "xalqlar həbsxanası" olan Rusiyada yaranan şərait fevral inqilabının qələbəsi ilə başa çatdı və Rusiyada üç yüz ildən yuxarı hökm sürən Romanovlar sülaləsini tarix səhnəsindən süpürüb atdı.

Fevral inqilabı qələbəsinin ilk günlərində, daha doğrusu, 1917-ci il martın 9-da Rusiya Dövlət Dumasındakı Zaqafqaziyadan olan deputatların təşəbbüsü ilə Rusiyada yaranmış Müvəqqəti hökumətin qərarına əsasən Zaqafqaziyanı idarə etmək üçün Duma deputatlarından V.A.Xarlamovun sədrliyi, M.Y.Cəfərov, M.İ.Papaçanov və A.İ.Çxenkelinin üzvlüyü ilə xüsusi komitə ("Ozakom") yaradılır. Xüsusi Zaqafqaziya Komitəsinin təşkili 1917-ci il martın 30-da başa çatır.

Sonrakı hadisələr çox sürətlə inkişaf edir. Petroqradda hakimiyyəti ələ keçirən bolşeviklər Rusiya Sovet Federativ Sosialist Respublikasını elan edirlər.

Nəticədə Zaqafqaziyada 1917-ci il noyabrın 15-də J.Gegeçkorinin başçılığı ilə bu ərazidə yaşayan üç xalqın (Azərbaycan, gürcü və erməni) nümayəndələrindən ibarət Zaqafqaziya komissarlığı yaradılır.

1917-ci il noyabrın 26-dan 28-dək Qafqazdan Rusiya Müəssislər Məclisinə seçkilər keçirilir. Nəticədə Rusiya Müəssislər Məclisinə Zaqafqaziyadan 34 deputat seçilir ki, onlardan da 12 nəfəri müsəlmanlar idi.[14]

1918-ci ilin əvvəllərində Cənubi Qafqazda vəziyyət son dərəcə mürəkkəb idi. Rusiyanın Almaniya ilə Brest-Litovsk sülh danışıqları boşa çıxdıqdan sonra alman-türk qoşunları hücu-

---

[13] Çuvarlinski R.http://www.dak.az/view.php?lang=az&menu=9&id=13743

[14] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli şurası iclaslarının protokolları // red. Paşayev A. Bakı, 2006, s.3-50

ma keçdilər. Türk qoşunlarının irəlilədiyini görən Zaqafqaziya Komissarlığı 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vehib paşaya teleqram göndərərək, Türkiyə ilə sülh danışıqları aparmaq istədiyini bildirdi. Lakin regionda nüfuzu və güclü hakimiyyəti olmayan Zaqafqaziya komissarlığı tezliklə özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və yerli hakimyyətin bu orqana verilməsi haqqında qərar qəbul olundu.[15]

1918-ci il fevralın 23-də Tiflis şəhərində Zaqafqaziyanın qanunverici orqanı olan Seym işə başladı. Seymdə Azərbaycan, Gürcüstan, Ermənistan sosial-demokratik təşkilatını təmsil edən nümayəndələr iştirak edirdilər. Buraya Azərbaycandan Müsavat Partiyasını və bitərəf demokratik qrupları təmsil edən 30 nəfər, o cümlədən N.Yusifbəyli də seçildi. Bu partiya və təşkilatlardan əlavə Müsəlman sosialist blokundan 7, İttihaddan 3, Hümmət partiyasından 4 nümayəndə iştirak edirdi. Ümumiyyətlə, Zaqafqaziya Seymində 44 Azərbaycan nümayəndəsi təmsil olunmuşdu.[16]

Zaqafqaziya Seymində iştirakı Yusifbəylini Cənubi Qafqaz regionunda ən xarizmatik liderlərdən birinə çevirmişdi. O, özü yüksəlişini təsadüf hesab etsə də, bu yüksəliş təsadüfi deyil, böyük istedadın, zəhmətin və məqsədyönlülüyün nəticəsi idi.[17]

Nəsib bəy Yusifbəylinin Zaqafqaziya Seymindəki çıxışları bu şəxsiyyətin nə dərəcədə vətənpərvər olduğunu bir daha sübut edir.

Çıxışlarının birində Seym üzvü Nəsib bəy bildirmişdir ki, biz Bakını müvəqqəti olaraq itirmişiksə də, lakin onu bütünlükdə və əbədi olaraq qaytarmaq üçün hər şeyi etməliyik, ikinci bir yol yoxdur, ya hamısını, ya da heç nə.[18]

---

[15] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005, II cild, s.447

[16] Qasımlı M., Hüseynov C. Azərbaycanın Baş nazirləri. Bakı, 2005, s. 20 http://elibrary.bsu.az/kitablar/867.pdf

[17] Qəhrəmanlı N. Nəsibbəy nümunəsi. Bakı, 2008, s. 3-10

[18] Həsənov C. Ağ ləkələrin qara kölgəsi. Bakı, 1991, s. 19

Batum sülh danışıqlarının təşəbbüsçülərindən biri olan Nəsib bəy Yusifbəyli bu ərəfədə etdiyi çıxışında bütün Cənubi Qafqazda dəhşətli anarxiya və hərc-mərcliyin sürdüyünü qeyd edərək, Türkiyəyə kömək üçün müraciəti ən vacib və əhəmiyyətli vasitə hesab edirdi. O deyirdi ki, Türkiyənin gözünə cəsarətlə baxmaq, gələcək hadisələrin əlamətlərini ayırd etmək və vaxtında zəruri tədbirləri görmək lazımdır. Bu halda biz hadisələrin belə bir xoşbəxt kəsişməsinə sevinməliyik ki, bura gəlməli olan xarici qüvvə bizə dost olan Türkiyədir. Bəlkə də, bu bizim qonşularımıza xoş gəlməyəcək, ancaq başqa çıxış yolumuz yoxdur. Qorxunc anarxiya qarşısında qonşularımız da bizim kimi gücsüzdürlər. Onlardan olan hərbi qüvvə də anarxist əhvali- ruhiyyəlidir, qanun-qaydanın dayağı rolunu oynaya bilməz”.[19]

Zaqafqaziya Seymi Müsəlman fraksiyasının iclasları aprelin 4-dən mayın 3-nə qədər M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilmişdir. N.Yusifbəyli çıxışlarından birində söyləmişdir ki, gürcü menşevikləri gürcü millətçiliyi siyasəti yeridir, “siz nə onların quyruğunda sürünürsünüz”.

Aprelin 7-də çağırılmış Seymin Müsəlman fraksiyasının fövqəladə iclası Hacıqabul stansiyasında polkovnik knyaz Maqalovun hərbi dəstələrinin məğlubiyyəti ilə əlaqədar alınmış həyəcanlı teleqramın müzakirəsinə həsr olunmuşdur. Nəsib bəy Yusifbəyli çıxışında tələb edirdi ki, menşeviklərə və hökumətə ultimatum verilsin və onun başlıca maddəsi isə Zaqafqaziyanın müstəqilliyinin elan olunması olmalıdır.

Müsəlman fraksiyasının mayın 6, 13 və 16-da keçirilmiş iclaslarına M.Y.Cəfərov sədrlik etmişdir. Mayın 6-da Seymin Müsəlman fraksiyası ilə Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının birlikdə keçirdiyi iclasda Bakı və Yelizavetpol quberniyalarında yaranmış anarxiya və Seymin Müsəlman fraksiyasının rəsmi nümayəndələrindən əlavə Zaqafqaziya Mərkəzi Müsəlman Şurasından, həmçinin müxtəlif yerlərdən də bir neçə nümayəndənin

[19] Qəhrəmanlı N. Nəsibbəy nümunəsi. Bakı, 2008, s.-10

Batuma göndərilməsi məsələləri müzakirə olunur. İclasda qərara alınır ki, tezliklə Bakının alınması və ölkədə qayda-qanun yaradılması işi təmin olunmalıdır. Bildirilir ki, bu vəzifə yalnız türklərin fəal silahlı köməyi ilə yetirilə bilər. Həmin iclasda F.x.Xoyski növbədənkənar bəyanat verərək bildirir ki, Seymin "Daşnaksütyun" partiyasından olan məsul nümayəndəsi ona bildirib ki, onlar Bakı məsələlərini bu şərtlə öz üzərlərinə götürürlər ki, Bakıda yaradılacaq hakimiyyət orqanı təkcə müsəlmanlardan deyil, həm də digər millətlərin nümayəndələrindən ibarət olsun, erməni hissələri də Bakıda qalsın. O əlavə edirdi ki, taktiki nöqteyi-nəzərdən bu cür həyasız təklifə mən həmin dəqiqə cavab vermədim.

Çıxış edən Nəsib bəy Yusifbəyli birmənalı şəkildə bəyan etmişdir ki, bu cür təklifdən imtina etməliyik. Belə ki, bu təklif həqiqətən sülh şəraitində yaşamaq niyyəti ilə deyil, türk ordusunun yaxınlaşmasından yaranan qorxu və təlaş hissi ilə əlaqədardır. Onlar bilirlər ki, türk ordusu üçün Bakı məsələsini bizim xeyrimizə tam və daha yaxşı formada həll etmək çətin olmayacaq. Türklərin gəlməsindən qorxaraq onlar şahmat gedişi etmək istəyirlər. Türklərin Şərqi Zaqafqaziyaya gəlişi üçün maneə olacaq hər bir şey bizim üçün qəbul edilməzdir, o cümlədən də daşnakların təklifi rədd edilməlidir.[20]

Mayın 13-də Zaqafqaziya Seymi Müsəlman fraksiyasının Yelizavetpol quberniyasının müxtəlif qəzalarından gələn və Batuma gedərək orada Türkiyə nümayəndələri ilə görüşmək istəyən on nəfərdən yuxarı nümayəndə heyəti ilə birlikdə iclas keçirilir. İlk olaraq bu nümayəndələrin Batuma gedib-getməməsinə münasibət məsələsinə baxılır. Ətraflı fikir mübadiləsindən sonra məlum olur ki, hər bir qəzadan və yerlərdən belə nümayəndələrin getməsinə ehtiyac yoxdur. Onlara bildirilir ki, Zaqafqaziya müsəlmanlarının rəsmi nümayəndələri, Seymin üzvləri M.Ə.Rəsulzadə və M.H.Hacınski Batumda Osmanlı imperiyasının rəsmi

[20] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli şurası iclaslarının protokolları // red. Paşayev A. Bakı, 2006, s. 3-50

nümayəndələri ilə danışıqlar aparır və onların məsələlərə münasibətləri tamamilə bir-birinə uyğun gəlir. Belə bir vaxtda oraya əlavə nümayəndələrin getməyinə ehtiyac yoxdur. Lakin qəzalardan olan nümayəndələrin təkidli tələbi ilə onlar Batumda gedən danışıqlar barədə məlumat almaq məqsədilə Qarabağdan nümayəndələr göndərmək istədikləri Mirzə Davudun və doktor C.Ləmbəranskinin Batuma getməsini yüngülləşdirmək üçün lazımi təşkilatlarla danışıqlar aparmaq işini Xalq maarifi naziri N. Yusifbəyliyə həvalə edirlər.

Batum və İstanbula göndərmək üçün yekdil səslə Seymin üzvləri M.Y.Cəfərov, N. Yusifbəyli və X.Xasməmmədov seçilirlər. Qərara alınır ki, Bakı və Yelizavetpol quberniyalarına təcili olaraq general-komissar vəzifəsinə Xudadat Rəfibəyov təyin edilərək, ona geniş səlahiyyətlər verilsin, bütün ictimai və dövlət təşkilatları, vəzifəli şəxslər ona tabe edilsin. Üç Zaqafqaziya xalqlarının ərazi bölgüsünü müəyyənləşdirmək üçün mayın 14-də saat 12-də fraksiyanın iclasını keçirmək qərara alınır. Lakin görünür ki, türk ordusunun hücumu ilə əlaqədar vəziyyət dəyişdiyi üçün həmin gün iclas keçirilməmişdir.

Türk ordusunun hücumu və türklərin yeni tələbləri ilə əlaqədar Zaqafqaziyada vəziyyətin dəyişməsi, türk ordusunun Aleksandropolda hərbi əməliyyatları bərpa etməsi münasibətilə Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının həmin il mayın 16-da iclası keçirilir. Seymin üzvü N.Yusifbəyli məlumat verir ki, bütün zümrələrdən olan gürcü nümayəndələri siyasi vəziyyəti çox gözəl hiss edirlər. Danışıqlardan görünür ki, Batum avantürasından sonra onların yeni avantüraya getmələri və türklərlə yeni müharibəyə başlamaları barədə söz ola bilməz. Erməni nümayəndələri isə tamamilə özgə fikirdədirlər. Rusiya ilə Türkiyə arasında müharibə başlayandan əyri yollara düşmüş ermənilər, öz xalqını dayanmadan uçuruma doğru aparırlar. İndi də türk ordusuna qarşı müqavimətin onlar üçün tamamilə fəlakət olduğunu bildikləri halda ermənilər, yenə də silahlı müqavimət niyyətindədirlər. Onların bu hərəkəti əlbəttə ki, Seymin işində böhran yaranmasına səbəb ola-

caq, bunun məntiqi nəticəsi olaraq Azərbaycan və Gürcüstan öz müstəqilliklərini elan etmək işinə hazır olmalıdırlar.

Hərtərəfli müzakirədən sonra Zaqafqaziya Seyminin Müsəlman fraksiyası aşağıdakı qərarı qəbul edir: "Əgər Gürcüstan öz müstəqilliyini elan edərsə, onda bizim tərəfimizdən də Azərbaycanın müstəqilliyi elan olunmalıdır."

Mayın 26-da keçirilən Zaqafqaziya Seyminin son iclasında onun buraxılması ilə xalqımızın parlamentçiliyə doğru ilk addımına, Zaqafqaziya Seymi və onun Müsəlman fraksiyasının Seymdəki fəaliyyətinə yekun vurulur.

Mayın 27-dən fasilələrlə dekabrın 7-nə qədər Azərbaycanda parlamentarizmin ikinci dövrü - Azərbaycan Milli Şurasının fəaliyyət dövrü başlayır.[21]

N.Yusifbəyli 1918-ci il aprelin 22-də elan olunan Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində maarif naziri vəzifəsini tutmuş, milli siyasətin ən çətin və ən məsul vəzifələrini icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fətəli xan Xoyskinin təşkil etdiyi 1-ci hökumət kabinetində N.Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini, Xoyskinin təşkil etdiyi 2-ci və 3-cü hökumət kabinetlərində də xalq maarifi və dini etiqad naziri vəzifələrini tutmuşdur. Xalq maarifi nazirliyinin həyata keçirdiyi ilk tədbirlərindən biri Türk dilinin dövlət dili elan edilməsi idi. Bu vəzifəni həyata keçirmək üçün isə təhsil sistemini milli zəmin üzərində tamamilə yenidən qurmaq və türk dilini mükəmməl bilən ixtisaslı milli kadrlar yetişdirmək tələb olunurdu. Məhz buna görə N.Yusifbəylinin təqdimatı ilə hökumət 1918-ci il avqustun 28-də Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Xalq Maarifi Nazirliyinin səyləri nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi.

---

[21] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli şurası iclaslarının protokolları // red. Paşayev A. Bakı, 2006

1919-cu ildə 4-cü hökumət kabinetinin təşkili Yusifbəyliyə tapşırıldı və aprelin 14-də elan olunan tərkibdə o, baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tutdu.[22]

Nəsib bəy Yusifbəyli Azərbaycan Cümhuriyyətinin beşiyi başında duranlardan biri olubdur. 1918-ci il may ayının 16-da Batum yaxınlığındakı Çafkada M.Ə.Rəsulzadənin və Əhməd Cavadın da iştirak etdikləri məşvərət zamanı «Gəncə» sözü ilk öncə elə Nəsib bəyin dilindən çıxıb.[23]

Dövrünün görkəmli siyasi-ictimai xadimi olmuş, mürəkkəb bir həyat yolu keçmiş N.Yusifbəyli 1920-ci il mayın əvvəllərində qətlə yetirilmişdir.[24]

Nəsib bəy Yusifbəylinin bir şəxsiyyət kimi nə qədər uca olduğunu Məhəmməd Əmin Rəsulzadənin onun haqqında söylədiyi ifadə bir daha təsdiq edir: "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir".

---

[22] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005, II cild, s. 441

[23] Çuvarlinski R.http://www.dak.az/view.php?lang=az&menu=9&id=13743

[24] Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990, s. 33-35.

***Зарифа Дулаева***
*Заведующая научным отделом экспозиции истории Азербайджана*
*Национального Музея Истории Азербайджана НАНА,*
*доктор философии по истории*

## НАСИБ-БЕК УСУББЕКОВ И НАРОДНОЕ ПРОСВЕЩЕНИЕ

Провозгласив формой политического устройства Азербайджана – демократическую республику, «Акт о независимости» четвёртым пунктом зафиксировал свою принципиальную позицию: «Азербайджанская Демократическая Республика гарантирует в своих пределах гражданские и политические права всем гражданам без различия национальности, вероисповедования, социального положения и пола».[1]

Шаги, предпринятые в области демократического государственного строительства, экономики, культуры, образования, военного строительства стали основными направлениями, отражающими короткую, но весьма значительную деятельность Азербайджанской Демократической Республики.

О верности молодого правительства молодой Республики демократическим принципам убедительно свидетельствует решение одного из важнейших направлений государственного строительства – образование, народное просвещение. Деятельность правительства АДР в области просвещения тесно связана с именем Насиб-бека Усуббекова, который на протяжении одиннадцати месяцев из отведённых АДР историей 23 месяцев, бессменно занимал пост министра народ-

[1] Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку, 1998, с.15

ного просвещения, а год, избранный председателем Совета Министров, продолжал уделять большое внимание вопросам просвещения народных масс, строительству высшей школы, подготовки высококвалифицированных кадров национальной интеллигенции.

Ещё в 1917 году, будучи членом ЦК партии федералистов «Мусават», Насиб-бек Усуббеков был причастен к подготовке её программы, в которой в разделе «Народное образование» чётко определены были демократические начала в просвещении. Также как и в «Акте» первый пункт раздела, а их всех 16, гласит, что «в делах просвещения все граждане без различия национальностей, вероисповедования и пола равны между собой».[2]

Эта мысль не раз прозвучала и в выступлениях Н.Б.Усуббекова, который отмечал, что «животрепещущи и важны вопросы народного образования для закрепления нашей независимости…»[3], придавая тем самым политическую важность просвещения.

Разрешение сложной проблемы, какой является народное образование, правительство сталкивалось с тяжёлым наследием Российской империи, в которой по утверждению В.И.Ленина, сделавшего анализ официальных источников, четырём пятым населения правительство заграждало путь к образованию. «Такой дикой страны, – писал он в 1913 г. – в которой бы массы народа настолько были ограблены в смысле образования…такой страны в Европе не осталось ни одной, кроме России».[4]

На национальных окраинах империи положение в области образования ещё более осложнялось, помимо того, что

---

[2] Айдын Балаев. Азербайджанское национально-демократическое движение. Баку, 1990, с.81

[3] Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчёты). Баку, 1998.

[4] В.И.Ленин. Полн. собр. соч. т.23, с.127

проводилась неприкрытая русификаторская политика, затрагивающая и систему образования, предпочтительность преподавания на русском языке отражалась на низком проценте обучающихся азербайджанцев.

В 1914/15 уч. году в одноклассных и двухклассных школах Бакинской, Елизаветпольской губерниях и Закатальском округе, в которых обучение осуществлялось на русском языке, азербайджанцы составляли 35,2% всех учащихся, а девочки-азербайджанки менее 2000.[5]

Насиб-бек Усуббеков – один из ярких представителей азербайджанской политической и интеллектуальной элиты, своей целенаправленной и самоотверженной деятельностью на ниве просвещения внёс весомый вклад в государственное строительство независимого Азербайджана. Человек, чья подпись стояла под «Актом о независимости Азербайджана» в своей государственной деятельности неизменно следовал демократическим принципам этого важнейшего исторического документа.

17 апреля 1919 г. в 7 часов вечера в зале заседания парламента Насиб-бек Усуббеков огласил декларацию правительства, в которой отметив роль и значение народного образования в государственном строительстве, обозначил главные вехи – национализация системы народного образования, всеобщее обязательное обучение, развитие профессионального и высшего образования.

Обращаясь к членам парламента Насиб-бек Усуббеков заявил, что «…правительство считает необходимым немедленную разработку законопроекта об обязательном всеобщем обучении надеется… согласно этому законопроекту, покрыть страну сетью начальных школ…Организуя школы для основного тюркского населения страны путём национа-

---

[5] См. Т.А.Мусаева. Революция и народное образование в Азербайджане. Баку, 1979, с.26

лизации части существующих низших и средних школ…»[6]

Выступление Насиб-бека Усуббекова, прозвучавшее как правительственная программа, нашло поддержку членов парламента. Был разработан и принят парламентом целый пакет законов, направленных на языковую национализацию системы образования, в одном из которых было отмечено, что «обучение во всех низших начальных учебных заведениях вести на родном языке учащихся с обязательным и усиленным преподаванием государственного тюркского языка».[7]

Для успешного реформирования школьной системы образования, для практической помощи в обеспечении национализации, создавались специальные комиссии по разработке и изданию учебников на азербайджанском языке. Постановлением от 20 июня 1919 г. из государственного фонда было выделено «…152 тыс. руб. на расходы по содержанию вновь образованных комиссий по составлению учебников на тюркском языке».[8]

Сложность и трудоёмкость языковой национализации системы народного образования преодолевалась активностью как правительственных органов, так и самих сотрудников Министерства просвещения, что позволило «к началу 1919/20 учебного года охватить языковой национализацией не только все начальные школы, но и 15 из 23 государственных средних учебных заведений страны».[9]

Политика национализации, проводимая в системе образования, находила одобрение и поддержку населения республики. Так, по сообщению газеты «Азербайджан»: «…жители села Сабунчи…ходатайствовали об открытии азбучного класса при Балаханском реальном училище с преподаванием

[6] «Азербайджан», 1919, 16, 25-26 апреля

[7] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, сб.документов. Баку, 1998, с.225

[8] Там же, с.332

[9] Айдын Балаев. Мамед Эмин Расулзаде (1884-1955). Москва, 2009, с.172

на тюркском (азербайджанском – З.Д.) языке для детей мусульман».[10] Министерство нашло ходатайство заслуживающим удовлетворения и азбучный класс был открыт.

В ходе реформирования народного образования параллельно шла организация и открытие новых учебных заведений, позволяющих выполнять правительственную программу всеобщего обязательного образования, решать задачу ликвидации неграмотности – печального наследия Российской империи.

Постановлением правительства от 29 октября 1919 года Министерству народного просвещения разрешалось открыть в Закатальском округе до 25 одноклассных училищ.[11]

Вопросы, связанные с открытием новых учебных заведений, вынесенные на обсуждение парламента, как правило, находили поддержку и одобрение представителей всех фракций. Внесённый 1 ноября 1919 г. на обсуждение парламента законопроект об открытии в Геокчае реального училища вызвал активные выступления представителей «Эхрара», «Гуммета», «Мусават», которые единодушно одобрили его, и закон об открытии реального училища в Геокчае был принят.

müşdü ki, o da kəşf olundu. Bir çoxlar nəfy və tərd edildi və edilir. Soldan da bunu istəyənlər var. Soldan istəyirlər ona görə ki, bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər. Onlar cürbəcür vasitələr ilə öz amalımızın, əmələlərimizin əli ilə öz ixtiyarlarını və qüvvələrini buraya gətirmək istəyirlər. Doğrudur, türk müsəlman fəhlələrin arasında hala mövqei həqqilə düşünə bilməyən, anlaya bilməyən bəzi adamlar tapılar, ancaq əminəm siz də inanırsınız ki, müsəlman türk demokratiyası və ələlümüm yerli demokratiya ki, arasında rus və erməni demokratiyasıda var, bu yalana aldanmayacaqdır. Çünki onlar uşaq deyillər, onlar müvəqqəti olaraq bu yağlı sözlərə aldana bilərlər. Lakin işə gəldiyi zaman məsələki dikinə qoyuldu, yəni ya Azərbaycan tərəfinə və ya Rusiya Sovdepiyasına gedəsi məsələsi qoyuldu, o zaman zənn etmirəm rus tərəfdarı bir-iki prosentdən artıq raboçi tapılsın. Mən eşitmişəm mitinqlərdə söyləyirlər ki, hökumət Həştərxan yolunun açılmasına tərəfdardır. Deklarasiyasında da bunu deyir. Doğrudur, hökumət Həştərxan yolunun, bu yeni bazar yolunun açılmasına tərəfdardır. İki yüz milyon put neft var. Onu satmaq lazım, satmaq üçün də mühüm bir bazar Həştərxandır. Ancaq hökumət və millət deyil ki, neft bacını da verər ki, Sovdepiya hökumətini bura gətirməz və istiqlalından əl çəkməz. Hökumət demişdir ki, bəli, əgər sovdepiyadan təklif olarsa nefti almaq istəyirik, o vaxt bəzi şərait qəbul edərik. Bunun mənası açıq idi. Əgər Rusiya bizim istiqlalımızı tanırsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovdepiyaya neft verməz. Lakin bunlar deyilər ki, yolu şərtsiz açın, gəlsinlər, buna heç bir hökumət, heç bir fəhlə, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz".[16]

N.Yusifbəylinin nitqi parlament deputatlarının tam əksəriyyəti tərəfindən dəstəkləndi və müzakirələrdən sonra aşağıdakı məzmunda qətnamə qəbul olundu: "Raboçi konfrans adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə

[16] Azərbaycan Xalq Cümhuriyyəti (Parlament)..., s. 374-375.

bir sui-qəsdi-mütəzəmmin olduğunu nəzərə alaraq və hökumət rəisinin izahatını eşidərək hökumətin tətili bitirmək haqqında gördüyü və görəcəyi qəti tədbirləri təqdir və bu xüsusda kəndisinə hər növ müavinətdə bulunacağını vəd ilə Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir».[17]

1919-cu il mayın 13-də Fəhlə Konfransının elan etdiyi tətil məğlubiyyətlə başa çatdı. Hökumətin qətiyyətli addımları, tətilçilərin Bakı fəhlələrinin geniş dəstəyini ala bilməməsi, həmçinin konfrans rəhbərləri arasında ziddiyyətlər tətili iflasa uğratdı. Eyni zamanda, N.Yusifbəyli hökuməti parlament fraksiyalarının əksəriyyətinin və tətilin siyasi məqsəd daşıdığını anlayan, müstəqillik ideallarına sadiqliyi nümayiş etdirən fəhlələrin əsas hissəsinin dəstəyini qazana bildi. Bu, həmçinin Sovet Rusiyası ilə münasibətlərin yalnız Azərbaycanın müstəqilliyinin tanınması və ona hörmət olunması təqdirdə mümkün olacağına istiqamətlənmiş N. Yusifbəyli kursunun dəstəklənməsi demək idi.

Müstəqillik üçün heç də az təhlükəli olmayan Könüllü ordunun təhdidləri də qalmaqda idi. 1919-cu ilin mayında general A.Denikinin qoşunları AXC ilə Sovet Rusiyası arasında bufer dövləti rolunu oynayan Dağlılar Respublikasının ərazisini tutdular. Bu dəfə N.Yusifbəylinin hökuməti artıq xarici təhlükə ilə üzləşdi. AXC-yə qarşı münasibətlərini ağqvardiyaçı generallar bu tərzdə ifadə etdilər: "Cənubi Rusiya Silahlı Qüvvələr komandanlığı Azərbaycanın Rusiyadan ayrılmış hesab etmir. Məsələ irəlidə Rusiyada təşkil olacaq Verxovnı vlast tərəfindən həllinə qədər Azərbaycanın istiqlalını münasib görür və tanıyır".[18]

May tətili vaxtı olduğu kimi, mövcud şəraitdə də Azərbaycan hökuməti dövlət müstəqilliyini istənilən qəsdlərdən qorumaq

---

[17] Azərbaycan Xalq Cümhuriyyəti (Parlament)..., s.391.

[18] Азербайджанская Демократическая Республика. Парламент (стенографические отчеты). Баку, 1998, с.443; AXC. Parlament..., s.485. Ağqvardiyaçı generalların bu bəyanatındakı birinci hissə Parlamentin stenoqrafik hesabatlarının Azərbaycanda dilində çıxan nəşrində əks olunmadığına görə burada rus dilində olan nəşrə də istinad edilib.

niyyətində qətiyyətli olduğunu nümayiş etdirdi. Görülən tədbirlər arasında parlamentin qərarı ilə fövqəladə səlahiyyətlərə malik olan xüsusi orqanın - Dövlət Müdafiə Komitəsinin yaradılması idi. Baş nazirin şəxsən sədri olduğu Komitə bütün ölkə ərazisində hərbi vəziyyət elan etdi. N.Yusifbəylinin imzası ilə Denikinlə mübarizəyə yönəlmiş icbari qərar dərc olundu.[19] 1919-cu ilin iyununda AXC ilə Gürcüstan arasında iki respublikanın ərazi bütövlüyünün birgə mühafizəsi haqqında hərbi-müdafiə paktı bağlandı. Avqustda Azərbaycan və Gürcüstan sərhədləri boyu yeni demarkasiya xətti çəkildi. Özünün əsas qüvvələrinin şimal istiqamətinə - Qırmızı Ordunun hücumuna qarşı yönəldilməsi ilə əlaqədar A. Denikin Cənubi Qafqazda hərbi əməliyyatları müvəqqəti olaraq dayandırdı. Azərbaycan üzərindəki Denikin təhlükəsi sovuşdu.

1919-cu ilin yayında bolşeviklər öz təbliğatlarını gücləndirmiş və onların çağırışları daha da radikal xarakter almışdır. RK(b)P-nin Qafqaz Diyar və Bakı Komitələri Azərbaycan əhalisinə müraciət edərək onu sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə çağırdılar. Çağırışda hökumət əleyhinə şüarlar səsləndirilir və sovet hakimiyyətinin qurulmasının vacibliyi vurğulanırdı. Bolşeviklərin fikrincə, məhz həmin hakimiyyət Azərbaycanın "əsl" müstəqilliyini təmin edəcək.[20]

N.Yusifbəyli hökumətinin rastlaşdığı problemlərdən biri də neftin Sovet Rusiyasına qanunsuz daşınma hallarının artması idi. Rusiya AXC-ni tanımaq və qarşılıqlı əlaqələr qurmaq əvəzinə Bakı neftini gizli oğurluq yolu ilə əldə etməyə üstünlük verirdi ki, bu da Azərbaycan Cümhuriyyətinin daxili işlərinə müdaxilə demək idi. Bu oğurluq uzun müddət tarixi ədəbiyyatda Xüsusi dəniz ekspedisiyası (XDE) adlandırılmış və Azərbaycan neftçilərinin Rusiyaya qardaşlıq, beynəmiləl köməyi kimi qələmə verilmişdi. Həqiqət isə tamam başqa idi. Rusiya faktiki olaraq, müstəqil dövlətin ərazisindən qanunsuz neft daşıyırdı.

---

[19] Азербайджанская Демократическая Республика, s.135.
[20] Борьба за победу Советской власти…, s.202-205.

Bakı ilə Həştərxan arasında dəniz ekspedisiyaları 1919-cu ilin martında Rusiya Kommunist (bolşeviklər) partiyasının Bakı Komitəsi tərəfindən təşkil olunmuşdur. Xüsusi dəniz ekspedisiyası qarşısında bir neçə vəzifə dururdu. Ekspedisiya vasitəsilə Həştərxana yollanan Bakı bolşevikləri özləri ilə Azərbaycandakı vəziyyət, ingilislərin yerləşmə yerləri və s. barədə məlumat aparırdılar. Əks istiqamətdə isə inqilabi ədəbiyyat, partiya işçiləri, silah və pul gətirilirdi. Neft məhsullarını əldə etmək və daşımaq məqsədilə bolşeviklər Bakıda guya İranda və Krasnovodskda satış üçün nəzərdə tutulan nefti, duzu, tütünü və s. malları satın-alan qanunsuz texniki kontor açdılar. Bəzən hakimiyyət dairələri donanmada neftin yox, başqa şeyin olmasını və Həştərxana deyil, İrana və Krasnovodska daşındığını düşünərək özləri buna icazə verirdilər. Məsələn, 1919-cu ilin iyulunda RK(b)P-nin Bakı Komitəsi XI Ordunun İnqilabi Hərbi Şurasına məlumat verirdi ki, yerli hakimiyyətdən əvvəlcə 24,5 ton, daha sonra isə 32,7 ton benzinin daşınmasına icazə alınmışdır.[21] Bolşevik Çingiz İldırımın Bakı ticarət limanının rəisi olması da burada az rol oynamamışdır. Şımali Qafqazdakı ağqvardiyaçı qüvvələr komandanının qərargahının məlumatında (noyabr 1919-cu il) belə deyilirdi: "...bizim donanmamızın zəif nəzarəti ucbatından Xəzər dənizində Bakı ilə Həştərxan arasında kiçik gəmilərin mütəmadi reysləri yaranmışdı: onlar Həştərxanı neftlə təchiz edirlər. Neft əvvəlcədən Ənzəliyə göndərmək adı ilə qeydiyyatdan keçir, sonra isə açıq dəniz yolu ilə Həştərxana daşınır".[22]

Xüsusi dəniz ekspedisiyasının bütün fəaliyyəti dövründə (aprel 1919-aprel 1920) Bakıdan Həştərxana qanunsuz olaraq 327,6 ton neft, 57,33 ton sürtgü yağları daşınmışdı.[23] Bakıya gətirilən

---

[21] К.А. Агаев Особая морская экспедиция. Баку, 1967, с.43.

[22] Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. 1918-1920: Сборник документов. Баку, 1971, с.210.

[23] П.А.Азизбекова, А.Н.Мнацаканян, М.Б.Трускунов. Советская Россия и борьба за установление и упрочение власти Советов в Закавказье. Баку, 1969, с.129; Е.А.Токаржевский. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с.209.

pul, ədəbiyyat, silah Azərbaycanın növbəti işğalının hazırlanmasına sərf edilirdi. Bunun qarşısını almaq üçün N.Yusifbəyli hökuməti 26 may 1919-cu il tarixli qərarla neft məhsullarının daşınması üzərində ciddi nəzarət tətbiq etdi. Qərara əsasən Həştərxana dəniz yolu bağlandı. Buna baxmayaraq, bolşeviklər yenə də gizli olaraq nefti şimala daşımağa müyəssər olurdular.[24]

1919-cu ilin dekabrında N.Yusifbəyli ikinci kabineti formalaşdırdı. Parlamentin iclasında yeni hökumətin bəyannaməsini elan edərkən o, Rusiya ilə münasibətlər məsələsinə də toxundu. Bu münasibətlərin olmamasından təəssüfünü bildirən Baş nazir demişdir: "Təəssüf etməyə qalır ki, Rusiyada mübarizə aparan qüvvələrdən heç biri inana bilmir və yaxud inanmaq istəmir ki, o Rusiyanın keçmiş sərhədlərini bərpa edə bilməyəcəkdir və öz müqəddəratını təyin etmiş xalqlar üzərində yeni böyük dövlətin qurulması boş xülyadır. Bizimlə Rusiya arasında fikir ayrılığının səbəbi budur.

Biz inanırıq ki, dünya demokratiyasının qəbul və hörmət etdiyi ali prinsipləri irəli sürən böyük rus xalqı həmin prinsiplərin bizə də şamil olunduğunu qəbul edəcək. Əks halda, əlbəttə, biz son nəfəsimizə qədər müstəqilliyimizin müdafiəsi üçün mübarizəyə hazır olacaq və hökumət vaxt itirmədən müvafiq tədbirlər görməyə məcbur olmalıdır".[25]

Bu vaxt isə müstəqil Azərbaycan dövləti üçün Rusiyada qarşı-qarşıya iki qüvvədən gələn təhlükə daha geniş miqyas alırdı. Bununla əlaqədar AXC-nin xarici işlər naziri F.Xoyski müttəfiq dövlətlərin Paris sülh konfransındakı nümayəndələrinə nota göndərərək bir-biri ilə mübarizə aparan və müstəqil dövlətə təhlükə törədən Könüllü ordu və bolşeviklərdən qorunmaq üçün Azərbaycana mənəvi, siyasi, maliyyə-iqtisadi və hərbi yardım göstərməyi xahiş etmişdir.[26]

---

[24] Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı, 2000, s.470.

[25] Азербайджанская Демократическая Республика. Парламент..., с.812.

[26] Азербайджанская Демократическая Республика. Внешняя политика. Баку, 1998, s.598-603.

1920-ci ilin əvvəlində Qırmızı ordu Denikini məğlub etmiş və Cənubi Qafqazın sərhədlərinə yaxınlaşmışdı. Beynəlxalq vəziyyət də bolşeviklər üçün əlverişli idi. Qərb dövlətləri get-gedə hərbi müdaxilənin uğursuzluğa düçar olduğunu anlayır və Rusiya ilə sülh münasibətlərinin qurulmasına çalışırdılar. Belə şəraitdə RSFSR tərəfindən Azərbaycana rəsmi təzyiq başladı. Məqsəd əvvəlki kimi eyni idi: Azərbaycanı işğal etmək və nefti ələ keçirmək. 1920-ci il yanvarın 2-də RSFSR Xalq xarici işlər komissarı G.Çiçerin Denikinə qarşı mübarizə aparmaqdan ötrü hərbi ittifaq bağlamaq təklifi ilə F.Xoyskiyə teleqram göndərdi. Nəzərə alsaq ki, bu, Azərbaycanın müstəqilliyi elan olunduğu vaxtdan ilk rəsmi müraciət idi, onun məzmununa xüsusi diqqət yetirilməlidir. İlk gözə çarpan odur ki, sənəddə RSFSR hökumətinin suveren dövlətə münasibəti haqqında bir kəlmə yoxdur. Müraciət diplomatik sənədə deyil, daha çox mübarizə-təbliğat çağırışına bənzəyirdi: “Rusiyanın fəhlə və kəndlilərinin qəhrəman səyləri ilə yaranan Qırmızı Ordu Yudeniçi və Kolçakı darmadağın etmiş və pərakəndə şəkildə Rostov-Dona doğru geri çəkilən çar generalı Denikinin ağqvardiyaçı dəstələrinə sarsıdıcı zərbə endirir. Monarxist əksinqilabına son zərbələri vuraraq, RSFSR hökuməti Rusiyanın cənubundakı ağqvardiyaçı ordularının tam məğlub edilməsi məqsədilə hər iki komandanlıq arasında hərbi sazişin imzalanması üçün Sovet hökuməti ilə təcili danışıqlara başlamağı Azərbaycana təklif edir”.[27] Azərbaycanı Rusiyada gedən vətəndaş müharibəsinə cəlb etməyə və bununla da onu zəiflətməyə çalışan bolşevik hökuməti AXC hökumətinə birmənalı xəbərdarlıq etmək fürsətini də əldən buraxmadı: “**Nə qədər ki, gec deyil,** (qeyd mənimdir - *F.C.*) Azərbaycana və Azərbaycan xalqına müraciət edərək onu Denikinə qarşı mübarizəyə qalxmağa çağırırıq. Azərbaycan dövlətinin və onun zəhmətkeş siniflərinin düzgün başa düşülən sosial-siyasi maraqları Azərbaycanı bizim təklifimizə razılıqla cavab verməyə **məcbur etməlidir (**qeyd mənimdir - *F.C.***)**”.[28]

---

[27] Азербайджанская Республика. Документы и материалы, s.420.
[28] Yenə orada, s.421.

G.Çiçerinin bu və növbəti teleqramları Bakıda bolşeviklərin çıxışlarına təkanverici qüvvə rolunu oynadı. Artıq yanvarın 7-də Bakıdakı Mərkəzi fəhlə klubunun mitinqində, yanvarın 25-də isə Bakı Fəhlə Konfransı tərəfindən qəbul edilən qətnamələrdə hökumətdən RSFSR ilə təcili danışıqlara başlamaq və hərbi ittifaq bağlamaq tələb olundu.[29]

1920-ci ilin əvvəlində vəziyyət müstəqil respublika üçün olduqca əlverişsiz idi. Bir tərəfdən, yanvarın 11-də Antanta Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı. Yanvarın 16-da isə Sovet Rusiyasının üzərindən blokadanın götürülməsi bəyan edildi. Bu vaxtdan Qərblə RSFSR arasındakı münasibətlərdə faktiki olaraq müharibədən sülhə keçid başladı. Bundan istifadə edən və Qərbin yeni yaranan müstəqil dövlətləri zəif müdafiə etdiyini görən Sovetlər yeni ad altında vahid Rusiyanın bərpası siyasətini fəallaşdırdılar.

Beləliklə, Nəsib bəy Yusifbəyli hökuməti özünün bütün fəaliyyəti dövründə Azərbaycanın müstəqilliyi prinsipi və qəbul olunmuş beynəlxalq hüquq normaları əsasında Rusiya ilə münasibətləri yaxşılaşdırmağa hazır olduğunu dəfələrlə nümayiş etdirmişdir. Lakin Rusiyada hakimiyyət uğrunda barışmaz mübarizədə olan həm V.Leninin başçılığı ilə sovet hökuməti, həm general Denikin tam əks siyasi ideologiyalara mənsub olmalarına baxmayaraq, müstəqil Azərbaycan dövlətinin mövcudluğuna eyni cür mənfi yanaşırdılar. AXC ilə Rusiya arasında münasibətlərin yarana bilməməsini məhz bu amil şərtləndirdi. Rusiya Azərbaycanın müstəqilliyini tanımayan və Cümhuriyyətin süqutunda həlledici rol oynayan yeganə qonşu dövlət oldu.

---

[29] Азербайджанская Республика. Документы и материалы, s.422, 447-448.

*Зарифа Дулаева*

# НАСИБ БЕК УСУББЕКОВ И МЕЖДУНАРОДНОЕ ПРИЗНАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Важнейший документ отечественной истории, принятый Национальным Советом «Акт о независимости», провозгласивший рождение демократической республики мусульманского мира, своим первым пунктом зафиксировал: «…отныне народы Азербайджана являются носителями суверенных прав, и Азербайджан …полноправным, независимым государством».

С образованием в мае 1918 г. Азербайджанской Республики приоритетными направлениями её внешней политики стало установление «добрососедских отношений со всеми членами международного общения» и стремлением добиться международного признания своей государственности. Внешнеполитический курс правительства находил поддержку и одобрение государственных и политических деятелей молодой республики.

14 апреля 1919 г. премьер-министр Н.Усуббеков, выступив перед членами парламента, и огласив декларацию правительства, вновь подчеркнул основной принцип существования Азербайджана – принцип независимого суверенного государства. Обращаясь к членам парламента Н.Усуббеков сказал: «Организованное мною, согласно Вашей воле, правительство сознает всю тяжесть возложенной на него ответственности провозгласив свою независимость, азербайджанцы в этот короткий промежуток времени проявили себя перед лицом своих друзей и недругов нацией, достойной самостоятельности. Положение Азербайджана с каждым днем де-

лается прочнее и в настоящий момент оно более устойчиво, чем, например, два месяца тому назад. Теперь можно верить, что 10 месяцев назад провозгласивший свою самостоятельность Азербайджан ныне, накануне признания его прав на эту самостоятельность со стороны великих держав, и близок момент, когда азербайджанский народ вступит в семью культурных наций мира. Иначе быть не может…».[1]

Надежду и, даже уверенность в признании независимости Азербайджана «со стороны великих держав» Н.Усуббекова питала деятельность азербайджанской правительственной делегации 10 января 1919 г. выехавшей во Францию для участия на Парижской мирной конференции. Внимание всей планеты было приковано к столице Франции. Здесь, на улице Кэ д'Орсэ в здании Министерства иностранных дел проходили заседания стран-победительниц Первой мировой войны, здесь решалась судьба поверженной Германии и ее союзников. Война за перед мира была окончена. Начался сам передел.

Парижская конференция созванная для выработки мирных договоров с побежденными странами, с целью закрепить передел мира на основе нового соотношения сил, внушала молодым государственным образованиям, возникшим на национальных окраинах рухнувшей Российской империи, надежду на признание их мировым сообществом.

Правительство Азербайджана с участием Совета старейшин Парламента на заседании 29 декабря 1918 г. избрало делегацию для участия на Парижской конференции в составе: председателя парламента А.М-б. Топчибашева, члена правительства М.Г.Гаджинского, членов парламента А.-б.Агаева и А.Шейхульисламова. В советники были избраны М.Магеррамов, М.Мехтиев и Дж.Гаджибеков.

Правительство Азербайджанской Республики, отправляя в Европу на мирную конференцию свою делегацию поручи-

[1] Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчеты). Баку. 1998. С.346.

ло: «Всеми мерами и способами защищать и добиваться полной независимости Азербайджана; если это окажется вследствие политической обстановки невозможным, действовать в дальнейшем по совести своей и разуму, памятуя благо Азербайджана и его народностей…».[2]

В числе подписавших этот документ стоит и имя Насиб-бека Усуббекова. 10 января 1919 г. азербайджанская делегация, выехав из Баку, взяла курс на Стамбул, где воссоединившись со своим председателем А.М.б. Топчибашевым и получив французскую визу, намеревалась проследовать в пункт назначения – Париж. Однако, пребывание в Стамбуле затянулось на долгие три месяца, в мучительном ожидании французской визы. И лишь 7 мая 1919 г. члены делегации Азербайджанской Республики прибыли в Париж. Препятствия чинимые проезду азербайджанской делегации в Париж, обстановка царившая на конференции тревожили Н.Усуббекова, хотя 28 мая он заявил: «Я совершенно спокойно жду последнего слова мирной конференции. Не допускаю, чтобы представители культурнейших народов мира отнеслись безразлично к чаяниям азербайджанских тюрков». Но при этом, видимо, «червь сомнения всё же тревожил, поэтому в этом же заявлении прозвучало: «В противном случае у меня зародилось бы сомнение в культурности этих народов»[3]

А между тем, в Азербайджане, в условиях тяжелого экономического положения, неудачных попыток решения рабочего и аграрного вопросов, начался правительственный кризис и правительство Ф.-х. Хойского вынуждено было подать в отставку. Насиб-беку Усуббекову было предложено взять на себя формирование нового правительства. 14 апреля 1919 г. парламент Азербайджана утвердил четвертый по счету каби-

[2] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку. 1998. с.131-132.

[3] Газ. «Азербайджан» 1919. 28 мая.

нет министров под председательством Н.б. Усуббекова. Пост премьер-министра Н.-б. Усуббеков занимал до конца марта 1920 года. Весь период, что довелось Н.б. Усуббекову возглавлять правительство, по времени совпадал с пребыванием азербайджанской делегации в Париже. Н.Усуббекову, как говорится, пришлось «держать руку на пульсе» многогранной, трудной, но и успешной деятельности, посланцев Азербайджана на Парижской конференции.

Полагаем, есть все основания утверждать, что все действия делегации согласовывались с Н.б.Усуббековым, подпитывались его советами, предложениями, пожеланиями. Из Парижа в Баку поступали донесения, а вернее отчеты А.М. Топчибашева о ходе переговоров, о встречах с европейскими дипломатами и политиками, о публикациях, информирующих европейскую общественность об истории Азербайджана и многих других вопросов. Все донесения адресовались Н.б.Усуббекову, о чем свидетельствует А.Раевский, первый собравший и издавший в 1930 г. сборник донесений азербайджанской делегации, отметив, что сопроводительное письмо адресовано «как и все донесения председателю совета министров (Н.Усуббекову)».[4] Раевский также сообщает, что на донесении от 18 апреля 1919 г. «в верхнем углу первой страницы находится пометка на тюркском языке: «Министру иностранных, дел Н.(асиб) У(ссубеков)».[5]

В письме на имя А.М.Топчибашева министр иностранных дел Ф.х.Хойский также подчеркивает: «Ввиду того, что все свои сообщения Вы адресуете на имя председателя совета министров, от которого уже затем сообщения эти направляются в Министерство иностранных дел».[6]

---

[4] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Баку. 1930. с.21

5 Там же, с.31

6 Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку. 1998.с.309

Не располагая письмами правительства в адрес А.М. Топчибашева, равно как и частью донесений из Парижа, относящиеся к концу 1919 г. и первой трети 1920 года, можно согласиться с А.Раевским, который предполагает, что они пропали вместе с затерянной или увезенной частью документов фонда Мининдела.

Делегация, возглавляемая А.М.Топчибашевым, прибыв в Париж, окунулась в сложную, противоречивую обстановку мирной конференции, где им предстояло выполнять наказ своего правительства, который гласил: «…всеми мерами и способами защищать и добиваться полной независимости Азербайджана».

Отсутствие согласованности было характерно, прежде всего, для великих держав-победительниц, игравших решающую роль на конференции, что отражалось на решении судеб молодых, вновь образовывавшихся государств, создавая тем самым сложности и трудности в деятельности членов делегации Азербайджанской Республики.

В первый же месяц пребывания в Париже азербайджанская делегация подала меморандум Азербайджанской Республики за подписью Н.б. Усуббекова представителям союзных держав. Документ этот содержит краткое описание ситуации и положения Республики заканчивается словами: «…азербайджанский народ и правительство его твердо уверены в том, что на всемирной конференции восторжествует истина, и права вообще всех самоопределившихся малых народов, и в частности Азербайджана, будут уважены, также как и права великих народов, путем официального признания их полной независимости».[7]

В интервью газете «Азербайджан» Н.б.Усуббеков четко и определенно высказался по поводу тенденциозных сообщений о положении Азербайджана и о курсе правительствен-

[7] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку. 1998. с.228-229.

ной политики. «Опровергать все вымышленные известия и тенденциозно извращенные сообщения о наших делах – это слишком неблагодарный труд, и можно было бы молчаливо пройти мимо попыток представить наше политическое положение в превратном и искаженном освещении, если бы не то печальное обстоятельство, что к подобным сообщениям, к сожалению, прислушиваются с большим вниманием, чем они заслуживают, в политических и общественных кругах Западной Европы, не всегда достаточно тщательно проверяющих точность и достоверность всяких слухов и часто лишенных возможности непосредственно ознакомиться с истинным положением дела и в силу этого обстоятельства, иногда невольно подпадающих под влияние недоброжелателей Азербайджана, раздувающих в своих органах печати каждое незначительное происшествие нашей текущей политической жизни до размеров чуть ли не катастрофического кризиса. Непрошенная заботливость наших «сторонних друзей» подбирает мелкие факты, придает им несвойственное значение, а там, где фактов не хватает, пользуется и измышлениями, лишь бы создать такую общую картину, которая создала бы впечатление, что политика Азербайджан идет вразрез с работой держав Согласия по восстановлению всеобщего мира».[8]

Оправданием столь длинной цитаты служат высказывания премьер-министра, свидетельствующие о его тесной связи с деятельностью азербайджанской делегации.

Согласованность действий делегации с позицией правительства имела важное значение и в одном из донесений А.Топчибашев, обращаясь к Н.Усуббекову писал: «…крайне необходимо как можно чаше нам сноситься и информировать друг друга».[9]

---

[8] Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку. 1998. с.475.

[9] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Баку. 1930. с.47.

В другом послании А.Топчибашев, в подтверждении вышесказанного пишет: «Все поручения, как указаны в присланных письмах и сообщениях, будут исполнены, насколько это окажется возможным в наших силах».[10]

Сетования Н.б.Усуббекова на незнание или извращение представлений «…о нашем политическом положении» определяли и задачу членов делегации, которым довелось осуществлять большую работу по информационному ознакомлению участников конференции и европейской общественности с историей, экономикой и культурой Азербайджана. Так в памятной записке на имя президента США В.Вильсона, А.Топчибашев писал: «…мы хотим просить Вас, г. Президент, прежде всего, узнать о нас, о нашей стране, о нашем народе от нас же, ибо нам приходиться слышать, особенно в прессе европейской и американской, много ошибочных, искаженных, неверных сведений…».

Издательская работа, довольно широко развернутая членами азербайджанской делегации, пробила брешь в информационной изоляции, внесла ясность в понимание внутренней жизни Азербайджанской Республики.

Бесспорно, что оперативная работа членов делегации по подготовке и изданию бюллетеней, статей, книг, диаграмм и карт была санкционирована и одобрена главой Азербайджанского правительства, хорошо понимавшего силу печатного слова.

В своем интервью газете «Азербайджан» Н.Усуббеков упоминает «сторонних друзей», которые, извращая факты, пытаются очернить Азербайджан в глазах держав Согласия. Дипломатическая сдержанность и политкорректность не позволяли Н.Усуббекову на страницах газеты конкретизировать этих «друзей». Ознакомление с донесениями А.Топчибашева

[10] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Баку. 1930. с.82

позволяет предполагать, что «сторонними друзьями», прежде всего, была делегация Армении.

Автор донесений из Парижа часто сообщает о совместных заседаниях и совещаниях делегаций новых государственных образований, родившихся на руинах Российской империи, объединённых общей задачей – признанием их независимости.

Как правило, армянская делегация игнорировала эти встречи. Но в октябре 1919 г. на совещании делегаций 8 республик (Эстонии, Латвии, Литвы, Беларуси, Украины, Кубани, Северного Кавказа, Грузии, Азербайджана и Армии), где принималась коллективная нота мирной конференции, присутствовавший на этот раз представитель Армении, заявил что «армянская делегация не может подписывать такой ноты, где говорится о признании, ибо они, армяне, считают, что уже признаны Версальским трактатом» – добавив при этом, «…что, если им, армянам, придется делать выбор между турками и Деникиным, то они, конечно, предпочтут последнего».[11]

Еще более интересной и конкретной нам представляется выдержка из донесения, датированного 8/9 июля 1919 г. сообщающая о том, что «…американские евреи…, очень советуют послать в Америку несколько лиц, чтобы рассеять впечатление, произведенное шумной пропагандой армян против нас с обвинениями в массовых убийствах армян в сентябре».[12]

Если в данном случае, как говорится, комментарии излишне, то предыдущее сообщение А.Топчибашева требует короткого пояснения. Пусть гипотетически, но армянские правители допускали альянс с Деникиным, войска которого двигались к границам Азербайджана, под лозунгом «единой и неделимой России».

[11] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Баку. 1930. с. 71.

[12] Там же, с.49.

Маниакальная идея «Великой Армении» была привезена и в Париж, и как сообщает А.Топчибашев в донесении от 8-10 июня 1919 г. – «Армянские представители говорят только о единой Армении, образуемой из Турецкой Армении и Кавказской Армении».[13]

В своих донесениях А.Топчибашев не раз упоминает о позиции, занятой армянской делегацией, сообщая только факты, избегая, как и диктует этика дипломата, резких, тем более бранных комментариев. Приводимые факты позволяли Н.б. Усуббекову воссоздать обстановку, царившую на конференции.

Исторический парадокс заключается в том, что на конференции, целью которой было установить мир и взаимопонимание между народами и утверждение границ уже существующих и только зарождавшихся государств, армянская делегация выдвигала многочисленные территориальные претензии к своим соседям, что могло вести лишь к новому кровопролитию, разорению и упадку.

Последнее донесение из Парижа, вошедшее в книгу А.Раевского, датировано 29 ноября – 2 декабря 1919 г., когда еще трудно было предположить, каким будет решение Верховного Совета Парижской конференции о признании молодой Азербайджанской Республики.

«Пророческим» прозвучало предложение Насиб бек Усуббекова, который ещё 18 августа на заседании парламента на запрос социалистической фракции правительству о внешней политики отметил в частности: «Особое внимание уделяется Парижской конференцией Закавказью. С её стороны на всё Закавказье назначен комиссаром полковник Гаскель, миссия которого носит дипломатический характер…. В Баку уже прибывает назначенный Италией дипломатическим представителем полковник Габба.

[13] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Баку. 1930. с.38-39

С дипломатической миссией приезжает и представитель Англии сэр Уордрот. Таким образом, штабы оккупационных отрядов и военные командования у нас уже заменяются дипломатическими представителями, что не может не служить симптомом ближайшего международного признания».[14] 11 января 1920 года Верховный Совет принял решение, согласно которому союзные государства признают правительства Азербайджана и Грузии «де-факто».

15 января 1920 г. в МИД Франции были приглашены А.Топчибашев, М.Магеррамов, А.Церетели, З.Авалов, где первый секретарь Министерства Жюль Камбон официально уведомил их о решении конференции признать «де-факто» Азербайджан и Грузию.

В день признания независимости Азербайджана 11 января 1920 г., правительство возглавляемое Н.Усуббековым выступило с меморандумом[15], в котором отмечая великое историческое значение акта признания, была дана оценка политической обстановки в регионе, где «бушующий океан великой российской смуты затопил своими волнами почти всю территорию бывшей империи царей. В ряду чуждых российской идеологии окраинных народов и наш народ, азербайджанский, в упорной борьбе с хаосом вплоть до настоящего времени блестяще отстаивал свою независимость, создал в короткое время образцовый правопорядок и прочный государственный аппарат…» Далее в меморандуме прозвучала и позиция правительства в отношении борющихся сил России: «Гражданская война в России достигла в настоящее время своего апогея, и она со всеми ужасами докатилась почти до границы Азербайджанской Республики; как ни противоречивы идеологии обеих борющихся в России сил, но в отношении самоопределявшихся народов Кавказа они в одинаковой

[14] Газ. «Азербайджан» 1919, 12 сентября.

[15] Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку. 1998. с.425

мере недоброжелательны». И как-бы назидание, в предупреждение прозвучали заключительные строки меморандума: «все труды и жертвы азербайджанского народа могут оказаться бесплодными, если своевременно не будут приняты необходимые меры к обеспечению его свободного и независимого существования».

Неприятие большевиков и большевизма оставалось непроходящим и после признания независимости Закавказских республик и оно прозвучало 17 января 1920 г. на заседании Верховного Союзного Совета [16], проходившего в Министерстве иностранных дел Франции под председательством Климансо. На заседании присутствовали Ллойд Джордж, Нитти, Уинстон Черчель, и др. выступая перед которыми приглашенные Чхеидзе, Церетели и Алимардан Топчибашев пространно описали опасности, которые несёт их, уже независимым государствам большевистское государство.

Признание Антанты было бесспорной заслугой согласованных действий правительства Республики и энергичной, напряженной работы всех членов азербайджанской делегации. Весть о признании Азербайджана мировым сообществом вызвала всеобщее ликование.

14 января в 12 часов дня, в зале украшенном коврами, цветами и национальными флагами, под звуки духового оркестра началось торжественное заседание парламента. Уже в 10 часов в зале места для публики были заполнены народом. Ложи заняли Правительство в полном составе Н.Усуббековым, а также представители дипломатических миссий Англии, Грузии. Эстонии, Польши и др. Сменяя друг друга, выступали ораторы. «Европа, убедившись в жизнеспособности азербайджанского народа, сочла нужным признать нашу независимость» – говорил министр иностранных дел Ф.-х. Хойский. От имени объединенной фракции «Мусават» и беспартийные, присут-

---

[16] Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку. 1998. с.515.

ствующих приветствовал и поздравлял М.Э.Расулзаде и др.: зачитывались многочисленные приветственные телеграммы, поступившие в адрес парламента.

Празднование и народное ликование вылилось на улицы, как сообщала газета «Азербайджан» 16 января «в 12 часов дня вся улица перед парламентом, начиная с Великокняжеской до здания городской думы, была запружена многотысячным народом и большими толпами манифестантов.

Дома были украшены национальными флагами, а балконы красиво убраны дорогими коврами. Под громовые крики «ура» и звуки нескольких оркестров…проходили церемониальным маршем части войск азербайджанской армии.

Появление Н.б. Усуббекова вызвало у собравшихся большое ликование. Публика, сняв его с автомобиля, понесла на руках в парламент…»[17]

17 января 1920 г. Н.-б. Усуббеков от имени правительства обратился «К гражданам Азербайджана», считаем нужным привести полный текст его обращения:

«28 мая 1918 года Азербайджан, согласно воле народа, был провозглашен независимым государством. Среди жестоких бедствий родилась Республика. Кровавой гражданской войной раздиралась вся страна. С верой в священное право на свободное устроение своей судьбы народ положил конец анархии и заложил основы своей государственности. Как не был тяжел весь дальнейший путь осуществления национальных стремлений, Азербайджан с честью вышел из выпавших на его долю испытаний.

Проявленные народом воля к самостоятельной жизни и способность его к самоуправлению привели теперь к окончательному торжеству нового, основанного на независимости и свободе государственного порядка.

[17] Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, с.431-432.

Независимость Азербайджана единогласно признана Верховным советом великих европейских наций. Вступление Азербайджана полноправным членом в семью передовых народов Запада является светлым днем его истории, с которого начинается новый расцвет его духовных сил. Правительство верит, что все граждане, какие бы препятствия и опасности не возникали вновь, объединятся в стремлении обеспечить счастье свободной и независимой Родине. Да здравствует независимый азербайджанский народ».[18]

Спустя почти сто лет сохранившиеся документы и материалы, возможно и не досчитывающиеся многих, но и то, что сохранилось, позволяют признать большую роль и заслугу Насиб бека Усуббекова в успехе, достигнутом на Парижской конференции, признавшей независимость Азербайджанской Демократической Республики.

---

[18] Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, с.



*Odessa Imperator Novorossiysk Universitetinin qafqazlı tələbələri.*
*II sırada sağdan 1-ci Nəsib bəy Yusifbəyli, 3-cü Nəriman Nərimanovdur*



II ряд. 2-й Абого Тхостов
1-й Махиэддин бек -
сид. - Али бек Шахмалиев.
стоят - 2-й Везиров
сид. - с права - Амир (хан) бек Шахмалиев

(Им-ты
Императорского
Универс.:
Н. Усубеков
Н. Нариманов
Мах. б. Шахмалиев

Абого Тхостов -
Алим. бек Шахмалиев
Исмаил бек Шахмалиев
Князь Цилиев
А. Джаваншир
Зиатханов
Хан Елисуйский



***Krım türklərinin və Rusiya müsəlmanlarının görkəmli ictimai xadimi, publisist və mühərrir İsmayıl bəy Qaspralı***




***İsmayıl bəy Qaspralının Bağçasarayda nəşr etdiyi "Tərcüman" gündəlik siyasi-iqtisadi və ədəbi qəzetinin başlığı***



***Nəsib bəy Yusifbəylinin ömür-ğün yoldaşı Şəfiqə xanım Qaspralı***



باغچه سرای

عالم نسوان

نومرو ٥١

ترجمان علاوه‌سی

***Şəfiqə xanım Qaspralının redaktorluğu ilə Bağçasaray şəhərində çıxan "Aləmi-nisvan" ("Qadınlar aləmi") qəzetinin başlığı***



***Azərbaycan Xalq Cümhuriyyətinin IV və V hökumətinin başçısı Nəsib bəy Yusifbəyli***



*Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin*
*Nəsib bəy Yusifbəylinin sədrliyi ilə keçən iclası*



*Azərbaycan Xalq Cümhuriyyətinin IV hökuməti. 1919*



***Azərbaycan Xalq Cümhuriyyətinin ildönümü ərəfəsində.***
***Gəncə, 23 may 1919.***
*I sırada sağdan 2-ci Məşədi Cəmil Əmirov, soldan 1-ci xanəndə Bülbül;*
*II sırada soldan 5-ci N. Yusifbəyli,*
*6-cı AXC Məclisi-Məbusanının (parlamentinin) sədr müavini*
*Həsən bəy Ağayev, 7-ci "Azərbaycan" qəzetinin*
*rus dilindəki nəşrinin redaktoru*
*Şəfi bəy Rüstəmbəyovdur*

# AZƏRBAYCAN MİLLİ İSTİQLAL HƏRƏKATINDA NƏSİB BƏY YUSİFBƏYLİNİN ROLU

Sovetlər dönəmində Azərbaycan milli istiqlal hərəkatında xidmətlərinə görə nəinki açıq fəxarət hissi keçirmək mümkün deyildi, hətta hər hansı xidməti olan varsa da, bu barədə danışmaqdan ehtiyatlanardı. Bəzən öz yaddaşında belə unutdurulmağa çalışırdı. Azərbaycan milli istiqlalının aparıcı şəxslərinin çox az bir qismi 1930-cu illərin repressiyasından can qurtara bilmişdi.

Azərbaycan milli istiqlal hərəkatının liderləri qismində tarixə düşmüş şəxslərin sırasında ilklərə imza atanlardan Nəsib bəy Yusifbəylinin bioqrafiyasını əsasən ictimai-siyasi məzmun təşkil edir. Bu xüsusiyyəti digərlərinin də həyat yolu ilə paylaşmaq olar. Nəsib bəyin də düşüncələrinin, əməllərinin ictimai-siyasi xarakteri onun qısa ömür yolunun əsas qayəsini təşkil etmişdir.

Nəsib bəyin istiqlal mücadiləsi müstəqil cümhuriyyətin süqutu ilə eyni vaxtda sona yetdi. İlk başlanğıcda düşüncələrinə hakim kəsilən sosialist ideyalarının təntənəsini yaşatmalı hesab edilən, amma gerçəkliyini Rusiya modeli nümunəsində dərk etdiyi bir quruluşda təqib olunmaq, cəza çəkmək və yaxud qürbətdə, mühacirətdə qalıb bir daha vətəninə dönməmək aqibətinə düçar olmadı. Apreldən (1920) sonrakı dönəmdə nələri edə bilərdi, nə etmədi sualını ünvanlamağa imkan qoymadı.

Milli istiqlala yetişmək yolunda nələri edə bildi sualının dolğun cavabını vermək isə həmişə mümkündür.

Yusifbəylinin millətçi baxışlarının formalaşmasında İsmayıl Qaspralı ilə mütəmadi ünsiyyət, onun Türkiyə səfəri, İstanbul mühiti əsaslı rol oynamışdır. Nəsib bəy «1908-ci ildə İstanbulda yaranan «Türk dərnəyi» cəmiyyətinin ilk üzvlərindən biri olmuş bir şəxsiyyət idi».[1]

[1] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.54.

Nəsib bəyin milli istiqlal yönündə əməli addımlar atdığı zəngin tarix 1917-ci ilin fevralından Gəncə Müsəlman Milli Komitəsinə başçılıq etməsilə başladı. Mütləqiyyət rejiminin devrilməsi illərlə düşündükləri, təbliğ etdikləri işlərin gerçəkləşməsi üçün geniş imkanlar açmışdı. Təbii ki, yaranmış şərait həm də bir-birinə zidd, fərqli platformada dayanan siyasi, ictimai qüvvələr üçün də həmin imkanları verirdi. Belə vəziyyətdə təşkilatlanmaq, mütəşəkkil hərəkət edə biləcək siyasi mexanizm yaratmaq ilk görünən vəzifə olaraq təmin edilməliydi. Cənubi Qafqazda özəkləri mövcud siyasi qüvvələrin yeni mərhələyə daxil olduqları bir zamanda «Gəncədə Nəsib bəy Yusifbəyli tərəfindən Türk Ədəmi-mərkəziyyət partiyası yaradılmışdı».[2] Partiyanın ideya prinsipləri Azərbaycan cəmiyyəti üçün yeni deyildi. 1911-ci ildə qurulan «Müsavat» partiyasının platforması ilə uzlaşırdı: «proqram yönündən, millət məsələsində Müsavat partiyasına çox yaxın idi».[3] Bu yaxınlığın əyani təzahürü 1917-ci ilin aprelində keçirilən Qafqaz müsəlmanları qurultayında nümayişkaranə təsdiqini tapdı. Gəncəyə qayıtdıqdan sonrakı dövrdə «Açıq söz» qəzeti ilə əməkdaşlıq edən Yusifbəyli «M.Ə.Rəsulzadə ilə həmfikir olduğunu bildirir və millətçiliyi təbliğ edən yazılar yazırdı».[4] Mirzə Bala Məmmədzadənin ifadə etdiyinə görə «Azərbaycana qayıtdıqdan sonra Nəsib bəy Əmin bəylə yaxın əlaqəyə girərək «Açıq söz» ailəsinə daxil olmuşdu».[5] «Açıq söz» ailəsinin üzvü hesab edilən Nəsib bəyin «Müsavat» partiyasının mərkəzi və digər strukturlarında mövqeyini Mircəfər Pişəvəri üçüncü qrup kimi səviyyələndirmişdi: «Sol cinaha mənsub olan Nəsib bəy Yusifbəylinin mülkədar və kapitalist qrupu».[6] Nəsib bəyin əqidəsin-

---

[2] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., «Azərnəşr», 1992, s.187.

[3] Yenə orada.

[4] Yenə orada.

[5] Məmmədzadə M,B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.54.

[6] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., «Azərnəşr», 1992, s.189.

dəki solçu təmayülü ilə onun siyasi elektoratı arasında görünən təzad mahiyyəti olduğu kimi əks etdirmir. «Qeyrət» partiyasının ənənələrini davam etdirən «Türk ədəmi-mərkəziyyət» partiyasının «əsas dayağını kəndlilər və fəhlələr təşkil edirdilər»[7]. Partiyanın proqramında deyilirdi ki, firqə «demokratik partiya kimi zəhmətkeş xalq kütlələrinə arxalanır və Rusiyanın islama etiqad edən bütün türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini müdafiə etməyə çalışır».[8]

Proqramın məzmunu, xüsusən də «Aqrar məsələ» və «Fəhlə məsələsi» bölmələri cəmiyyətin sosial təbəqələrinin mənafeyi baxımından «Nəsib bəy Yusifbəylinin mülkədar və kapitalist qrupu» təsnifatını sual altında qoyur. Müştərək milli məfkurəni paylaşan partiya qruplarının cinahları 1917-ci ilin yazında eyni hərəkət hədəflərini müəyyənləşdirmişdi. «Qeyrət» partiyasının prinsipləri əsasında yaradılan «Türk Ədəmi-Mərkəziyyət Firqəsi» «Qafqaz müsəlmanları qurultayında ilk gündən» «Müsavat» partiyası ilə eyni platformadan çıxış edirdi.[9]

Qafqaz müsəlmanları qurultayında Nəsib bəyin iştirakı, yalnız partiya banisinin və başçısının təmsilçisi qismində mövqe tutması deyildi. Nəsib bəy illərlə daşıdığı istiqlalçılıq ruhunu qurultayın tribunasına, oradan isə bütün Qafqazı təmsil edən insanların düşüncəsinə, əqidəsinə ötürürdü. M.-Ə.Rəsulzadə siyasi mənzərənin bədii təcəssümünü mükəmməl ifadə edən dili ilə bu hadisədən 12 il sonra yazırdı ki, qurultay *«bir məşhər hökmünü almışdı. Bu məşhərin ən qüvvətli və bariz şəxsiyyətlərindən birini də bizim Nəsib bəy təşkil edirdi.* Onun Qafqaziya qövmi xəritəsinin açaraq yuxarıda qeyd etdiyimiz qurultayda çox mütəəssir bir

---

[7] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2-ci cild. B., «Lider nəşriyyatı», 2005, s.409

[8] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2-ci cild. B., «Lider nəşriyyatı», 2005, s.409.

[9] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.41

səslə «kim dəva edə bilir ki, biz kəndini idarəyə səlahiyyətdar bir millət deyilik!» dediyi hələ qulaqlarımızda çinləyir!»[10]

«Türk ədəmi-mərkəziyyət» və «Müvasat» partiyaları rəsmən 2 ay sonra birləşsələr də, birliyin təməli daha əvvəldən qoyulmuşdu və Qafqaz müsəlmanları qurultayı bu addımı zəruri etdi. Həmin prosesdə Nəsib bəyin əqidə sahibi kimi ümummilli məsələlərə yüksək önəm verməsi bir daha təsdiqini tapdı. Milli istiqlalçı qüvvələri bir araya gətirmək yolunu partiyaların birləşməsində gördü və təşəbbüs etdi. Baxmayaraq ki, siyasi mövqeyə iddialılıq üçün yaratdığı mexanizm (partiya) və nəzəri (siyasi-ideoloji) baza yetərli ola bilərdi. Lakin uğrunda mücadiləyə başladığı prinsipləri daha əhəmiyyətli saydı. Nəsib bəyin siyasi şəxs və lider kimi davranışını sərrast və yüksək dəyərləndirmək isə M.-Ə. Rəsulzadəyə xas məziyyət oldu:

*«Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir».* Azərbaycanın istiqlal tarixində Nəsib bəyin yerini müəyyən etmək üçün yəqin ki, bu «maddə» kifayət edərdi. Ömrünün sonunadək istiqlalçılıq mövqeyinə sadiq qalan fəaliyyətini ayrı-ayrı məqamlar üstündə dayanaraq da qiymətləndirmək olar. Həmin məqamlar üzrə münasibətini çoxsaylı oxucu auditoriyası ilə paylaşarkən Rəsulzadə Yusifbəylinin «zəka və səmimiyyətini» bir neçə dəfə vurğulamış, «Türk ədəmi-mərkəziyyət» və «Müsavat» partiyalarının birləşməsindəki rolunu təqdir etmişdir: «…bu yek-digərinə yaxın axıntıların böyük bir nəhr halında birləşmələrini təmin lüzumunu da görmüş və *həmən tətbiqinə təşəbbüs etmişdi».*[11] …Azərbaycan istiqlalçılıq hərəkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbiq etməliyəm. Bu İttihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk federalist Müsavat xalq firqəsinin ilk

[10] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.175.
[11] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.175.

qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir».[12]

Gəncə bürosuna sədrlik etməklə N.Yusifbəyli həm də partiyanın Mərkəzi Komitəsinin üzvü idi. Partiyanın Bakıda keçirilmiş ilk qurultayının hazırlanmasında fəal iştirak edərək, proqramın müəlliflərindən biri olmuşdur. Partiyanın Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 9 nəfərdən ibarət olmalı tərkibinə qurultayda verilən 15 namizədin sırasında Yusifbəyli Nəsib bəy ilk namizəd kimi yer almışdır.[13] O, milli istiqlal arzularını qurultayda obrazlı ifadə edərək, «çin olmuş yuxusundan» və gerçək görmək istədiyi röyadan bəhs etmişdi: «Zaqafqaziya Müsəlmanları qurultayı keçirilən zaman Müsavatın proqramı və yerli milli muxtariyyət haqqında hələ açıq danışmaq olmazdı. Onda mən yuxuda gördüm ki, elə bir zaman gəlib çatıb ki, bu zalda Müsavat Partiyasının qurultayı keçirilir və partiya milli muxtariyyət tələb edir. İndi də mən yuxuda olduğu kimi görürəm ki, «İsmailiyyə» zalında Milli Türk parlamenti çağırılıb».[14] Nəsib bəyin ikinci «yuxusu» da gerçəkləşdi. «İsmailiyyə» binasında olmasa da düz bir il sonra, 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladı. Nəsib bəy xoş məramlı «yuxular»dan ayılmaq istəmirdi. Bəlkə də Ataların söylədiyi «Niyyətin hara, mənzilin ora» deyimini sınaqdan keçirirdi. Amma Azərbaycan xalqının başına gələcək bəlaları heç müdhiş yuxularda belə təsəvvür etmək mümkün olmazdı. Nəsib bəyin böyük fəxarətlə «Müsavat» Partiyasının ikinci, dördüncü, beşinci, altıncı iclaslarını açdığı, yeddinci - sonuncu iclasına sədrlik etdiyi günlərdə Rusiyada bolşeviklər hakimiyyəti ələ keçirmişdi. Şaumyan başda olmaqla bolşevik hakimiyyətinin Azərbaycan qəzalarında, o cümlədən və xüsusən də Bakıda törət-

---

[12] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.175-176.

[13] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.174.

[14] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.163.

diyi qətliamların miqyasını və mənzərəsini nəinki Nəsib bəy, heç bolşevik müsəlmanlar belə xəyal edə bilməzdilər. Azərbaycan milli fikrinin memarlıq təcəssümünə çevrilən «İsmailiyyə» binası da bolşevik zülmünün qurbanı oldu. O səbəbdən Azərbaycan Parlamentini təsis etmək məqsədilə fəaliyyətini bərpa edən Azərbaycan Milli Şurası belə «İsmailiyyə»də toplana bilmədi. Azərbaycanın istiqlalına düşmən qüvvələrin əməkdaşlığı sayəsində nəinki «İsmailiyyə» xarabalığa çevrilmiş, bütün Bakı Azərbaycan milli istiqlal hərəkatının nəzarətindən kənarda qalmışdı. Cümhuriyyət hakimiyyətinin Bakıda bərqərar olması tarixi nailiyyət idi. Məhz bu cəhətdən Milli Şura sədri M.Ə.Rəsulzadə Şuranın ilk iclasını  bu sözlərlə açmışdı: «Bu gün Azərbaycan Şurai-Millisi Azərbaycanın baş və ayrılmaz bir əzasını təşkil edən paytaxtında açılır». «İsmailiyyə»nin özündə toplaşa bilməsələr də, onun rəmzi əhəmiyyəti, tarixi rolu haqqında bəhs etməkdən yan keçilmədi: «Bakının ziynəti, milli hiss və cərəyanlarının məcmui milli təşəkkülatlarının Mərkəzi «İsmailiyyə» binası idi. Milli Parlamanımızın həmin möhtəşəm binada dəvət edilib iclaslar yapması əfkari-ümumiyyənin arzusu idi. Fəqət, bu gün o möhtəşəm bina xarabazara döndərildiyindən iclasımız bil məcburiyə başqa bir binada – bələdiyyə salonunda açılır… Qoy «İsmailiyyə»ni yaxan atəş bizi yaxsın, əməl şöləsi versin».

Azərbaycanın istiqlala qovuşması yolunda N.Yusifbəylinin fəaliyyətinin növbəti mərhələsi Zaqafqaziya Seymində iştirakı dövrüdür. Cənubi Qafqazdan Rusiya Müəssislər Məclisinə digər üzv seçilənlər kimi Nəsib bəy də Petroqrada gedə bilmədi. 1918-ci il fevralın 23-də təşkil olunmuş Zaqafqaziya Seymində «Müsavat» partiyasının təmsilçiləri sırasında yer alan N.Yusifbəyli, həmçinin «Müsəlman fraksiyası» rəyasət heyətinin sədr müavini idi. Belə ki, «Hümmət»çi menşeviklər istisna olmaqla Seymdə təmsil olunan bütün müsəlman partiyalarının birgə razılığı ilə «Müsavat» fraksiyasının və demokratik bitərəflər qrupunun rəyasət heyəti «müsəlman fraksiyalarının birləşmiş iclaslarının rəyasət heyəti kimi qəbul

edilmişdi».[15] Rəyasət heyətinin sədri M.-Ə.Rəsulzadə, müavinləri isə Məmməd Yusif Cəfərov və Nəsib bəy Yusifbəyli idilər. Seymin müsəlman fraksiyası bəzən iclaslarını Şimali Qafqaz dağlı xalqlarının nümayəndələri ilə birgə keçirirdi. «Şimali Qafqazın Zaqafqaziya dövlətinə birləşdirilməsi məsələsi» müzakirə olunarkən N.Yusifbəyli dağlılarla «Zaqafqaziya türkləri» arasındakı qarşılıqlı münasibətləri ilk əvvəl vahid müsəlman ailəsinin üzvləri kimi müəyyənləşdirməyi təklif etmişdir. Bununla Nəsib bəy dağlı xalqlarına bir mesaj ünvanlayırdı: eyni inanclı xalqların ümummənafeli məsələlərdə vahid mövqedən çıxış etmələrinin gərəkli olduğunu diqqətə çatdırırdı. Şimali Qafqazın Cənubi Qafqazla ittifaqda birləşmək məsələsinin həlli üçün yaradılmış 6 nəfərlik xüsusi komissiyanın tərkibinə «Zaqafqaziya müsəlmanları» tərəfdən daxil edilən 3 nəfərdən biri Nəsib Yusifbəyli idi.[16]

Cənubi Qafqaz müsəlmanlarının, o cümlədən Azərbaycan türklərinin mənafeyi ilə bağlı məsələlərdə N.Yusifbəyli heç vaxt seyrçi qalmamışdır. «Hümmət»çilərin gürcü menşevikləri ilə vahid xətt yeritməklərinə qarşı çıxaraq, onları gürcü millətçi siyasət yeridənlərin arxasınca getməməyə, öz milli oriyentasiyasına malik olmağa çağırırdı.[17] Seymdə müsəlman təmsilçilərə etimadsız münasibətlə rastlaşanda sərt qarşılıq verən ilk üzvlərdən biri Nəsib bəy olmuşdur. Zaqafqaziya hökumətinin lazımi hərbi sursat göndərməməsi nəticəsində Hacıqabul stansiyasında polkovnik knyaz Maqalovun dəstəsinin məğlubiyyətə uğraması səbəbindən keçirilən təcili iclasda N.Yusifbəyli ultimativ şəkildə baş verənlər üçün cavab tələb etməyə, hökumətdən istefa verib Tiflisi tərk etməyə çağırırdı.[18] Müzakirə zamanı təklifi üzərində israr edərək

---

[15] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2-ci cild. B., «Lider nəşriyyatı», 2005, s.449.

[16] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.76.

[17] Yenə orada, s.86.

[18] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.89.

menşeviklərə və hökumətə ultimatum verib Zaqafqaziyanın müstəqilliyinin elan olunmasını tələb edirdi. Yerlərə nümayəndələrin göndərilməsi qismində Yusifbəyli də nəzərdə tutulmuşdu.[19]

Zaqafqaziyanın müstəqilliyi tələbi 15 gün sonra gerçəkləşdi. Aprelin 22-də Zaqafqaziya Demokratik Federativ Respublikası elan olundu və hökumətdə maarif naziri vəzifəsini N.Yusifbəyli yerinə yetirirdi. Seymin və hökumətin qısa müddətli fəaliyyəti dövründə Nəsib bəy Azərbaycanın taleyüklü məsələlərinin həllində qətiyyətli sözünü demiş, mühüm missiyaları həyata keçirmişdir. Bakıdakı müsəlman qırğınları ilə bağlı müzakirə zamanı daşnakların Bakıda beynəlmiləl hakimiyyət qurmaq təkliflərini birmənalı rədd etmişdir.[20] Osmanlı imperiyasının nümayəndələri ilə görüşmək üçün Batuma yola düşənlərin səfərini asanlaşdırmaq məqsədilə müvafiq orqanlara müraciət etmək vəzifəsi Qarabağdan olan 2 nümayəndə ilə birlikdə N.Yusifbəyliyə həvalə olunmuşdu.[21] Eyni vaxtda Nəsib bəy başqa bir mühüm missiyanı yerinə yetirməli idi. Türkiyədən yardım almağı sürətləndirmək üçün Batuma və İstanbula əlavə nümayəndə heyəti göndərmək qərara alındı. Həmin heyətə yekdilliklə M.-Y.Cəfərov, N.Yusifbəyli və X.Xasməmmədov seçildi. Bu heyətin göndərilməsi motivini Mirzə Bala Məmmədzadə əsaslandıraraq müzakirə zamanı Nəsib bəyin mövqeyini xüsusi qeyd etmişdir: «faciəvi vəziyyət qarşısında Seym hökumətindən heç bir yardım görməyən Azərbaycan nə edə bilərdi? Millətimizin istiqbalını təyin edən bu tarixi hərəkatın istiqamətini bizə «Müsavat» liderlərindən Nəsib bəy Yusifbəyli göstərmişdi. Müstəqil Qafqazın Batum sülh konfransına sülh heyəti göndərdiyi zaman Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında ölkənin daxili vəziyyətini xülasə edən Nəsib bəy məruzəsində demişdi:

«Yalnız Azərbaycanı deyil, bütün Mavərayi-Qafqasyanı istila etmiş böyük, dəhşətli anarşini biz öz qüvvəmizlə yatıra

[19] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.90.

[20] Yenə orada. s.103-104.

[21] Yenə orada. s.105.

bilmərik. Şərq tərəfdən  bolşeviklərin bizim əsri düşmənimizlə mütəfiqən hücum etməsi vəziyyəti daha da kəskinləşdirərək türk millətinə ənvai-məsaib (cürbəcür müsibətlər -red.) və fəlakət gətirir. Mövqe belə ikən bizə xarici qüvvə müdaxiləsinə rücu etməkdən başqa çarə qalmır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər mən bu məsələ haqqında birinci danışmaq məcburiyyətindəyəm. Fəlakətin üzünə cürətli baxaraq cərəyan edən hadisələri göz önünə almaq və ona görə hərəkət etmək gərəkdir.. Biz sevinməliyik ki, xoşbəxtlikdən müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş Türkiyədir. Bəlkə bu bizim qonşularımızın bir o qədər də xoşuna gəlməyəcək, lakin başqa çarəmiz yoxdur. Müdhiş anarşi qarşısında onlar da bizim kimi gücsüzdürlər. Onların əlində olan ordu qüvvəsinin əhvali-ruhiyyəsi intizamsızlıq lehində olduğu üçün onlara istinadən intizam bərpa edilə bilməz...

...Xatir üçün xəstə düşə bilmərik. Bizim heyətin Batuma gedərək  Şərqi  Mavərayi-Qafqasya türkləri adından Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir...

...Fəqət bununla bərabər Azərbaycanın istiqlal idarəsini də heç bir vaxt unutmamalıyıq...»[22]

Mayın 16-da Zaqafqaziya Mərkəzi Müsəlman Milli Şurasının iclasında Cənubi Qafqazdakı siyasi vəziyyətin köklü dəyişikliyə məruz qalması müzakirə olundu və Batuma göndərilməli heyətin tərkibinə F.Xoyski də əlavə  edildi. Heyətin tərkibində Batumda Türkiyə nümayəndə heyəti ilə apardığı danışıqlar barəsində Nəsib bəy mayın 27-də məruzə ilə çıxış etdi. Artıq Zaqafqaziya Seymi mövcud deyildi. Gürcüstanın müstəqilliyi elan olunmuşdu. Seymin keçmiş müsəlman üzvləri fövqəladə iclasa toplanmışdı. Nəsib bəyin məruzəsində qoyulan məsələlərin bir qismi artıq proseslərin gedişatında qərarlaşmışdı. Zaqafqaziyanın müstəqil dövlət kimi qalmasını və güclənməsini Türkiyənin məqbul bilməsi və dəstəkləməsi mövcud vəziyyətə uyğun gəlmirdi. Nəsib bəyin məlumatında ən ağrılı məsələ Azərbaycan türkləri tərəfindən er-

---

[22] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.93-94.

mənilərə bəzi ərazi güzəştləri edilməsinin zəruri olduğunu bildirmək idi. Nəsib bəyin məruzəsini diqqətə alaraq toplantı iştirakçıları geniş müzakirəyə başladı. Zaqafqaziya dövlətinin süqutu ilə əlaqədar Seymin müsəlman üzvləri özlərini Müvəqqəti Milli Şura elan etdi. Gizli səsvermə yolu ilə Milli Şuranın sədri M.-Ə. Rəsulzadə seçildi. Partiyalılıq prinsipinə riayət edilərək icraedici orqan müəyyənləşdirildi. Həmin tərkib Milli Şuranın 28 may tarixli qərarı ilə təsdiqləndi. Birinci müvəqqəti hökumət kabinəsində N.Yusifbəyli maliyyə və maarif naziri vəzifəsinə seçildi.

Milli Şura və onun ilk tədbirləri haqqında məlumat vermək, izah etmək məqsədilə Cənubi Qafqazın «müsəlman mərkəzləri»nə nümayəndələr göndərmək qərara alındı. Nümayəndə heyətini ilk növbədə Gəncəyə göndərmək qərarlaşdırıldı. Nəsib bəy Ş. Rüstəmbəyli və X.Sultanovla birlikdə Gəncəyə yolu düşməli idi.[23]

Azərbaycanın milli istiqlal tarixində 1918-ci il 28 May tarixinin özəl yeri vardır. Həmin gün Müsəlman Milli Şurası Tiflisdə Azərbaycanın dövlət istiqlaliyyəti haqqında Akt qəbul etdi. Milli Şuranın üzvü kimi N.Yusifbəyli M.-Ə.Rəsulzadənin Batumdan göndərdiyi teleqram və məktubu Şura üzvlərinin diqqətinə çatdırdı. Azərbaycanın müstəqil respublika elan olunmasının təxirəsalınmaz zəruriyyət olduğunu bildirən natiqlər sırasında Yusifbəyli ön sırada idi. «İstiqlaliyyət Bəyannaməsi»ni ayaq üstündə dinləyib, ona imza atanlardan biri kimi Nəsib bəy əqidəsinə sonadək sadiq qaldı: «Gərək Rusiya Müəssisan məclisi intixablarında, gərək Tiflisdə təşəkkül edən Mavərayi-Qafqaz Seymində Nəsib bəy milli siyasətin ən çətin və ən məsuliyyətli vəzifələrini ifa edir. Azərbaycan istiqlalının təəssüs etdiyi dövrdə dəxi Nəsib bəy əvvəla maarif nəzarətində bulunmaq, sonra da iki dəfə baş vəkalətə gəlmək surətiylə aktiv idarə işlərində bulunmuşdur».[24]

N.Yusifbəyli Milli Şuranın mayın 29-dakı iclasında iştirak etmirdi. Nümayəndə heyətinin tərkibində Gəncədə olmuş və ora-

---

[23] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.119.
[24] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.176.

dakı vəziyyət haqqında müfəssəl məruzə ilə iyunun 1-də Şura üzvləri qarşısında çıxış etmişdir. Onun məruzəsi əsasında açılan müzakirənin sonucunda qərara alınmışdır ki, Yusifbəyli müsəlman nümayəndələrini (M.-Ə.Rəsulzadə, M.-H.Hacinski Batumda danışıqlar aparırdı) məlumatlandırmaq üçün Batuma göndərilsin.

Nəsib bəy Batumdan qayıtdıqdan sonra (iyunun 13-də) Azərbaycan Milli Şurasının Tiflisdəki sonuncu iclasında iştirak edir. Azərbaycan Milli Şurası və hökuməti iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdə yeni vəziyyətlə qarşılaşır. İyunun 17-i Azərbaycan dövlətçiliyinin, istiqlaliyyətinin sınaq günü olur. Milli Şuraya münasibətdə mövcud etimadsızlıq hakimiyyət böhranını labüd edən mürəkkəb vəziyyət yaratmışdı. Milli Şura üzvləri gərginliklə keçən müzakirələrdən sonra gerçəklikdən çıxış edərək böhranı aradan qaldıra bildilər. Verilən qərar məcburiyyətdən irəli gəlsə də çevik, düşünülmüş, emosiyalardan uzaq seçim oldu. Bir günün içərisində, iyunun 17-də hakimiyyətin müqəddəratı həll olundu. Cümhuriyyət hakimiyyəti yaşadı, yeni hökuməti formalaşdıranlar da həmin Şura üzvləri oldu. Məhz həmin günün qəbul edilən optimal, konstruktiv qərarının məzmun təklifi Nəsib bəydən gəlmişdi. Ruh düşkünlüyü ilə müşayiət olunan iclasda gerçək çıxış yolunu konkret ifadə edən məhz o oldu: «…mən təklif edirəm ki, kabinənin iflasını qəbul edəlim, sonra rəisimizə tapşıralım ki, kəndisi etimad etdiyi bir adama yeni bir hökumət təşkilini tapşırsın. Yeni təşkil olunacaq hökumətə hürriyyətdən hasil olan bütün əsasları mühafizə etməsi və onlara sadiq qalması şərtilə səlahiyyəti – tammə verəlim ki, məmləkəti idarə edib yaxın zamanda Məclisi-Müəssisan dəvət eyləsin və bu ixtiyarını kimsəyə xoşluqla təslim etməyib qiymətdar bir əmanət kimi saxlasın. Və yalnız qüvvətə, süngüyə təslim olsun. Bunu da ərz etməliyəm ki, təcavüzə qarşı ilk əvvəl üsyan çıxaran mən olacağam»[25].

---

[25] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.101; Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.142.

Sonrakı natiqlər Nəsib bəyin təklifini dəstəklədiklərini bildirdilər. Milli Şura katibi Rəhim Vəkilov çıxışında demişdi ki, «Nəsib bəyin «Müsavat» adından söylədiyi son təklif ehtimal ki, «Müsavat» firqəsinin çəkildiyi son səngəridir və zəruridir»[26] . İclasın qəbul etdiyi qərar Nəsib bəyin təklifi əsasında qurulmuşdu. Milli Şuranın sədri M.-Ə.Rəsulzadə də Nəsib bəyin təklifinə qoşuldu: «Burada əgər əlimizdəki hüquqi səlahiyyətdən istifadə etməyib bütün hökumət təşkilatını başqa qüvvələrə tərk etsək, o zaman qara bir hökumət təşkili qorxusu vardır. Halbuki burada icrayi-nüfuz edərsək, daha müvafiq bir hökumət təşkilinə müvəffəq ola bilərik. Bunun üçün mən Nəsib bəyin təklifinə iştirak edirəm».[27] Beləliklə, Milli Şuranın Gəncədəki son iclasının qərarına əsasən, yeni müvəqqəti hökumətin təşkili yenə də F.Xoyskiyə həvalə olundu. Müvəqqəti hökumət dövlət müstəqilliyini, mövcud siyasi azadlığı ləğv etmək, aqrar və bu kimi digər vacib məsələlər haqqında inqilabi qanunları dəyişdirmək hüquqlarına malik deyildi. Altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Digər idarəetmə məsələlərində isə tam hüquqa malik olurdu. Azərbaycan Milli Şurasının buraxılması ilə bütün hakimiyyət yeni təşkil olunan hökumətə keçdi. İkinci müvəqqəti hökumətin heyətində Nəsib Yusifbəyli xalq maarifi və dini etiqad naziri kimi təsdiqləndi. Nazir kürsüsündə N.Yusifbəylinin gördüyü işlər zərurətdən irəli gələn, təxirəsalınmaz vəzifələr idi. Nazirlər Kabinəsinin tərkibi ilə birlikdə «Azərbaycan Respublikasının vətəndaşlarına!» müraciətini imzalayanlardan biri kimi üzərlərinə götürdükləri məsuliyyəti ciddiyə aldıqlarını bəyan edirdi. Xalq maarifi nazirliyinin həyata keçirdiyi ilk tədbirlərdən biri Türk (Azərbaycan) dilinin dövlət idi elan edilməsi idi. Nəsib bəyin

---

[26].Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.100;Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.144.

[27] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.145; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.102.

təqdimatı ilə avqustun 28-də hökumət Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın təhsil müəssisələrinin milliləşdirilməsi üçün zəruri olaraq Türkiyədən dərsliklərin gətirilməsi, bir sıra müəllimlərin dəvət olunması hakimiyyətin mürəkkəb dövründə həyata keçirilirdi.

Hökumətin qarşısında bir nömrəli məsələ Bakının azad olunması idi. Bununla belə milli dövlət quruculuğunun bütün sahələrində ilkin addımlar atılırdı. Respublikada ərzaq işini düzgün qurmaq və təşkil etmək üçün 4 nazirdən ibarət komissiyanın tərkibinə N.Yusifbəyli də daxil idi. Oktyabrın 6-da hökumətdaxili dəyişikliklər zamanı Yusifbəyli xalq maarif naziri qalmaqla yanaşı, ərzaq naziri vəzifəsini də yerinə yetirməli oldu.[28]

Azərbaycanın beynəlxalq vəziyyətinin gərginliyi ekstremal şərtlər daxilində qərarlar verməyə və dövləti idarə etməyə sövq edirdi. Bakının Cümhuriyyətin paytaxtı funksiyasını yerinə yetirməyə başladığı qısa müddətdə taleyüklü proseslər getdi. Osmanlı dövlətinin məğlubiyyəti və Cənubi Qafqazdan qoşunlarını geri çəkmək məcburiyyəti, qalib müttəfiq dövlətləri adından ingilis qoşunlarının Bakıya daxil olması ümidsiz, qeyri-müəyyən mənzərə yaradırdı. Çevik reaksiya, əməli tədbirlər tələb olunurdu. Müttəfiq qoşunları komandanlığı ilə danışıqlar aparmaq üçün N. Yusifbəyli, M.Rəfiyev və Ə.Ağayevdən ibarət heyət Ənzəliyə gedərək «münasibətləri bir qədər mülayimləşdirməyə cəhd göstərdilər».[29] Ənzəlidən dönən heyət noyabrın 16-da Azərbaycan Milli Şurasının qapalı iclasında danışıqların faydalı keçməsinə dair məlumat verdi.[30] Elə həmin gün Azərbaycan Milli Şurası öz fəaliyyətini bərpa edərək ilk iclasını keçirmişdi. Müttəfiq qoşunlarının Bakıya daxil olduğu ərəfədə Azərbaycan Cümhuriyyətinin

---

[28] Азербайджанская Демократическая Республика (1918-1920 гг). Законодательные акты. (Сборник документов). Б., 1998, s.240.

[29] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.62.

[30] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.69.

tam hüquqlu legitim hakimiyyət kimi qəbul edilməsi məramıyla «Şurai Milli yenidən dəvət edilib müqəddarati – məmləkəti kəndi əlinə alıyor»du.[31]

Azərbaycan dövlətçiliyi yenidən sınağa çəkilirdi. Milli Şuranın 24 noyabr tarixli iclası Azərbaycanın gələcək müqəddəratına bağlı təkliflərin müzakirəsi ilə keçdi. Bir tərəfdən general Tomsonun, digər tərəfdən Rus Milli Komitəsinin şərtlərini diqqətə alan Şura üzvləri qapalı iclasda fərdi təklifləri birbəbir səsə qoyaraq ümumi rəyə gələ bildilər. Nəsib bəyin təklifində də ümumi rəydə nəzərdə tutulan şərt əksini tapmışdı. Belə ki, Yusifbəylinin dediklərinə görə, «1) Azərbaycanın gələcək halı, ümumi konfransda həll olunur. 2) Məclisi Müəssisan qeyri millətlərin iştirakı ilə [çağırılır]. 3) Müştərək bir hökumət təşkil [edir]».[32]

Nəsib bəy gerçək durumdan çıxış edərək təklifini bildirərkən gələcəyi düşündüyünü qeyd edirdi: «bizim indiki gördüyümüz hərəkətlərimiz əlli, yüz ildən sonra böyük nəticə verə bilər... Əgər bu şərtlər qəbul olunmasa onda lazımdır gücə davam gətirməgimizdən çəkinib getmək qeyri yerə və orada öz ərazi istiqlaliyyətimizi müdafiə etməliyiz».[33] Ümumi rəyə görə «Azərbaycanın əhvalı gələcək ümumi konfransda həll olun»malıydı.[34]

N.Yusifbəylinin siyasi və dövlətçilik fəaliyyətində növbəti mərhələ Azərbaycan Parlamentinin açılması ilə başlayır. «Müsavat» partiyasından parlamentdə təmsil olunan Yusifbəyli yeni təşkil olunan hökumətdə xalq maarifi və dini etiqad naziri postunu tuturdu. Nəsib bəyin 3 hökumət tərkibində xalq maarifi vəzifəsini icra etməsi ardıcıl kurs həyata keçirməsinə imkan verirdi. Müxtəlif səviyyələrdə təhsil kurslarının təşkili, gimnaziyaların və d. tədris müəssisələrinin açılması nəticəsində 1919-cu

---

[31] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.157.

[32] Yenə orada, s.171.

[33] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.171.

[34] .Yenə orada

ilin əvvəllərində respublikada dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi.[35] Tezliklə, Nəsib bəy daha geniş sferalarla bağlı qərarlar vermək iqtidarında oldu. Parlamentin 29-cu iclasında, 1919-cu il aprelin 14-də «mərkəz və sol» cinahların alqış sədaları altında hökumət sədri kimi öz platformasını açıqladı. Həmin gün təşəkkül etmiş Nəsib bəy kabinəsi «8 aya qədər yaşamış və Azərbaycan dövlət quruculuğu dövrünü əhatə etmişdir».[36] Cümhuriyyətin tarixində yeganə bütöv təqvim ili olmuş 1919-cu il dövlət quruculuğu baxımından məhsuldar məzmun daşımışdır. Sayca dördüncü hökumət kabinetində N.Yusifbəyli baş nazir vəzifəsindən əlavə daxili işlər naziri vəzifəsini də tutmuşdu. Hökumətin daxili və xarici siyasət sahəsində proqramı ilə parlament üzvlərini tanış edən baş nazir ilk öncə diqqəti Cümhuriyyətin ərazi bütövlüyü məsələsinə cəlb etmişdir: «Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabançılar əlindədir. 100 minə qədər vətəndaşımızın həyatlarına, irz və namuslarına təriz edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz tikənlər dəxi vardır. İşdə bu məsələləri həll etmək, həm də son imkanlara qədər sülhən həll etmək, hökumətin ümdə və əsas məsələlərindəndir».[37] N.Yusifbəylinin «var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm» bildirişi ilə bitən məruzəsində hökumətin qarşısında dayanan konkret vəzifələr üzrə öhdəliklər götürülmüş, iki məsələ «ümumi sürəkli alqışlar»la qarşılanmışdır: «Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, nərədə ictima edirsə etsin. *Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir»;* «Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, qəvillərin, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara anlatdıracaqdır.

---

[35] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2-ci cild. B., «Lider nəşriyyatı», 2005, s.441.
[36] Məmmədzadə M.B.Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.113.
[37] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.131.

Bundan boyun qaçıran bulunarsa lazım gələn cəza veriləcəkdir».[38] Məsuliyyətli bir vəzifəni üzərinə götürən Nəsib bəyin baş nazir postunda həyata keçirtdikləri, zaman ölçüsünə nisbətdə «ağır gəlir». Tədbirlər yalnız Azərbaycan Cümhuriyyətinin coğrafiyası ilə məhdudlaşmırdı. Batumdakı məktəbə, Türküstan Xalq Şurasına, Şimali Qafqaz dağlı xalqlarına, Dağıstan qaçqınlarına, Gürcüstanda zəlzələdən zərər çəkənlərə, İrəvan Müsəlman milli komitəsinə, dəfələrlə İrəvan müsəlmanlarına, qaçqınlarına iri məbləğdə maddi yardım göstərilmişdir. Ölkə daxilində də sosial yönlü, qeyri-müsəlmanlara humanist münasibətdə hökumət qərarları həyata keçirilirdi.Yəhudi məktəblərinə, erməni müəllimlərinə maliyyə dəstəyi göstərilmiş, polyak qaçqınların vətənlərinə qayıtması üçün vaqonlar ayrılmış, Pasxanın və d. qeyri-müsəlman dini bayramlarının qeyd olunması haqqında rəsmi qərarlar qəbul olunmuşdur. Qaçqınların dəmir yolundan pulsuz istifadəsi təmin olunmuşdur. Məhz tutduqları mövqeni, siyasət kursunu əsas götürərək Nəsib bəy parlamentdəki çıxışında söyləmişdir: «...hər nə qədər hökumətimizə bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xəyalpərəst əməli ilə demokratlığı isbat etmişdir».[39] Hələ baş nazir olmazdan əvvəl, xalq maarif naziri qismində N.Yusifbəyli müsavatçı fəhlələrin konfransında iştirak edirdi.

1919-cu ilin yazı həm də Azərbaycan hərbi hissələrinin Bakıya gəlişi ilə əlamətdar idi. Həmin ərəfədə, martın 23-də N.Yusifbəyli Parlament və hökumət üzvləri ilə birgə Gəncəyə getmiş, təntənələrlə müşayiət olunan hərbi paradda iştirak etmişdir. Aprelin 5-də Azərbaycan milli ordu hissələri Bakıya varid olmuş, gələn zabitlərin şərəfinə aprelin 7-də Bakı şəhər idarəsi tərəfindən verilən ziyafətdə N.Yusifbəyli başda olmaqla hökumət üzvləri də olmuşdur.[40] Bolşeviklərin ordu hissələrində təbliğata hazırlıq gör-

38 Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.133,138.

39 Yenə orada, s138.

40 Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998,s.203.

düklərindən məlumatlı olan hərbi nazir S.Mehmandarov milli ordunun Bakıda bolşevik təbliğatının təsiri altına düşə biləcəyindən ehtiyat edərək N.Yusifbəyliyə raportla müraciət etmiş, qabaqlayıcı tədbirlər görməyi xahiş etmişdi. N.Yusifbəyli həm də daxili işlər naziri kimi, «ordunu zərərli təbliğat və siyasətdən» qorumaq məqsədilə müvafiq sərəncam vermişdir. S.Mehmandarovun əndişəsi əbəs deyildi. Bakıda bir çox bolşevik yönlü müsəlmanların hər vəchlə kazarmalara daxil olub öz ideyalarını qəbul etdirmək səyləri haqqında məlumatlar alan general Bakıdakı qoşunların, xüsusən də piyadaların hərbi intizamı dərindən mənimsəmədiklərinə görə narahat idi. Məhz, əsasən bu səbəbdən qoşunları Bakıya gətirmək istəmədiyini yazırdı.[41] Onun mayın 11-də daxili işlər naziri kimi N.Yusifbəyliyə müraciətində kazarmanın yerləşdiyi rayonda polis nəzarətinin qoyulması xahiş edilirdi. Xarici təhlükə yalnız bolşevik təbliğatı ilə məhdudlaşmırdı. Düz bir ay sonra, N.Yusifbəyli general Denikinin hərbi müdaxiləsi təhlükəsi ilə üzüzə qaldıqda, iyunun 11-də Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin tətbiqi haqqında Dövlət Müdafiə Komitəsinin sədri kimi qərar imzalamışdı.[42] Bu aralıqda isə, ən fərəhli hadisə, Azərbaycan Cümhuriyyətinin birinci ildönümünün dövlət səviyyəsində qeyd olunması oldu. Nəsib bəy 2 dildə «Azərbaycan vətəndaşlarına hökumətin müraciəti»ni ünvanladı: «1919-cu ildə sənəsi mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri ümumazərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki kəndi dövlətinizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir günü olduğunu Sizə sözdən artıq izah edir... Bu az vaxt zərfində Azərbaycan türkləri kəndilərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət

---

[41] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.228.

[42] Yenə orada. s.244-246.

yetirdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmandır. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa, təxir etməyib haman hökumət işlərində davam etməkdədir... Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərq millət hər kəs özünü müsavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir».[43] Paris sülh konfransının Azərbaycan türklərinin müqəddəratına biganə qalmayacağına əminliyini ifadə edən N.Yusifbəyli əks təqdirdə, «böyük mədəni xalqların» mədəniliyinə onda şübhə yaranacağını bildirmişdi: «İstiqlaliyyəti müdafiə və mühafizə etmək ümumazərbaycan xalqının müqəddəs vəzifəsidir» deyərkən Nəsib bəy «Şimaldan» gözlənilən təhlükənin hər iki variantını nəzərdə tuturdu: «Ağ» yaxud «qırmızı» Rusiya. Bu baxımdan bayram müraciətində açıq bildirirdi: «Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayişimiz təmin edilər isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahat və azad yaşamağa malik olarsız».[44]

1919-cu ilin may tətili Cümhuriyyət hakimiyyətinin devrilməsinə hazırlanmış akt idi. Nəsib bəy «tətil edənlər və tətil etdirmək istəyən»lərin məqsədini parlament iclasında açıqlamışdı: «Bu vəziyyət içərisindən qalxmış deyil, xaricdən qaldırılır, bununla da Azərbaycanı Rusiyaya ilhaq etməkdir... Soldan da bunu istəyənlər var. Soldan istəyirlər ona görə ki, bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər».[45] Neft məsələsinin siyasi sövdələşməyə çevrilməsinə Nəsib bəyin cavabı konkret oldu: «Əgər Rusiya bizim istiqlalımızı tanırsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovdepiyaya neft verməz. Lakin bunlar deyirlər ki, yolu şərtsiz açın, gəlsinlər, buna heç bir hökumət, heç bir fəhlə, Türk demokratiyası, heç bir azər-

---

[43] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998, s.230-231.

[44] Yenə orada, s.230.

[45] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.139.

baycanlı razı olmaz». May tətili məqsədinə çata bilmədi. Əvəzində Denikin təhlükəsi kəskinləşdi.

N.Yusifbəylinin ingilis komandanlığı ilə apardığı danışıqlar nəticəsində Denikinin Könüllü ordusu ilə Azərbaycan Cümhuriyyəti arasında yeni demarkasiya xətti müəyyənləşdirildi. Hökumət Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Komitənin sədri N.Yusifbəyli idi. Baş nazir N.Yusifbəyli mayın 26-da, iyunun 5-də hökumətin Denikin təhlükəsinə qarşı gördüyü tədbirlər haqqında Parlamentdə deputatlara məlumat verərkən onları əmin etmişdi: «…Sizə ərz edirəm ki, bizim hüdudumuzu heç kəs keçməmişdir. Və ancaq meyitlərimiz üzərimizdən keçə bilərlər... İngiltərə nümayəndələrinə söylədim ki, biz vədlərdən artıq doyduq. Bundan belə biz özümüzə güvənəcəyik. Və lazım gələr də, bir adam kimi hürriyyət və istiqlalımızı müdafiəyə qalxışacağız. Kim olursa – olsun, dünyanın böyük və qüvvətli dövləti də olursa-olsun, qarşısına çıxıb müdafiə edəcəyiz».[46] Bu dövrdə Denikin təhlükəsi hökumətin Britaniya komandanlığı ilə apardığı danışıqların əsas mövzusu idi. Bununla əlaqədar aldığı rəsmi kağızlarla N.Yusifbəyli parlament üzvlərini həm Azərbaycan türkcəsində, həm də yazıldığı rus dilində tanış etmiş, apardığı danışıqlar barəsində müfəssəl məlumatını ingilis komandanlığına dediyi sözlərlə yekunlaşdırmışdır: «...sizin vədləriniz olmasaydı biz Dağıstana böyük kömək göndərərdik, daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vəd verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimali Qafqazı tutdu»[47]. Azərbaycan hökuməti iyunun 16-da Könüllü ordu təhlükəsinə qarşı Gürcüstan Cümhuriyyəti ilə hərbi müdafiə paktı imzaladı.

Azərbaycan dövlətinin qarşısında dayanan mühüm vəzifə kimi «Qarabağ məsələsi» də gündəmdə idi.Nəsib bəy 3 ay əvvəl,aprelin 14-də parlamentdə hökumət bəyannaməsi ilə çıxış

---

[46] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008. s.142, 144.

[47] Yenə orada,s.149.

edərkən,müzakirə zamanı "Qarabağ xüsusunda mübahisə yoxdur" demişdi.Lakin ermənilər separatçılıq fəaliyyətini davam etdirirdi. Parlamentin iyulun 17-də keçirilən iclasında Nəsib bəy «Qarabağ haqqında hökumətin bəyanatı»nı açıqlamalı idi. Erməni fraksiyalarının məruzəsi əsasında qaldırılan məsələdə məqsədin «günahkarları tapmaq deyil, general-qubernatoru təqsirləndirmək» olduğunu deyən Nəsib bəy Xosrov Paşa Sultanov barəsində «Mən onu tanıyıram. Lakin heç bir kimsə ona xain deyə bilməz» söyləyərək fikrini davam etdirmişdir: «İnsafı olan təsdiq edər ki, bizim ərkani hərbimiz erməni məzlumları üçün bir məcra olmuşdur. Hər kəs orada həyatının təmin olduğunu görürdü. Şuşada əsgərlərimiz asayişi təmin və təcdid etməyə çalışmışlardır. Mən böylə əsgərlər ilə başqa şey deyil, yalnız iftixar edərəm».[48] Ermənilərin Qarabağ general-qubernatorluğuna qarşı yönəlmiş ittihamına Nəsib bəyin birmənalı cavabı oldu: «Bir söz demək olar ki, əsgərlərdə və Sultanovda günah yoxdur».

N.Yusifbəylinin hökumətə rəhbərlik etdiyi dövrdə Cümhuriyyətin ərazi bütövlüyünün təminatında uğurlu nəticələr əldə edilmişdir. S.Mehmandarovla birlikdə 1919-cu il iyulun 29-30-da Qarabağda olarkən Xankəndində qarnizon qoşunlarının paradını N.Yusifbəyli qəbul etmiş, Şuşa məscidində çıxış etmiş, erməni kilsəsini ziyarət etmişdir. Avqustun sonunda Qarabağdan erməni əhalisinin nümayəndə heyəti N.Yusifbəylinin yanında olmuş, Qarabağ məsələsinin dinc yolla həlli münasibətilə dərin məmnunluğunu və Qarabağın bütün erməni əhalisi adından minnətdarlıq bildirmişlər. Belə ki, avqustun 15-də Qarabağ erməniləri Azərbaycan hökuməti ilə saziş imzalamış və Azərbaycan hakimiyyətini qəbul etmişdilər.

Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün təminatı yönündə N.Yusifbəyli hökumətinin gördüyü tədbirlər bəhrəsini verirdi: «...məmləkətdə əmniyyət və asayiş təsis olunaraq rus üsyançılarının əsarətində bulunan Lənkəran qəzası ana vətənə

[48] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.159.

qaytarılmış; Qarabağ ermənilərinə Azərbaycanın hakimiyyəti tanıtdırılmış; Bakıdan uzaqda yerləşən Naxçıvanın Ermənistan hökumətinə qarşı mübarizəsi mənən, maddətən və siyasətən gücləndirilərək oraya vali göndərmək surətilə Azərbaycana bağlılığı idarətən də təmin edilmişdir» (M.-Ə.Rəsulzadə).

N.Yusifbəyli 1919-cu il avqustun 29-da xarici işlər naziri M.-Y.Cəfərov və Müttəfiq dövlətlərin Cənubi Qafqazda ali komissarı polkovnik Haskellə birgə İrəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarını müvəqqəti idarə etmənin əsas müddəalarını işləyib hazırlamışdılar. Real şərtlər daxilində müvəqqəti idarəetmə qaydalarını Azərbaycan xalqının mənafeyinə uzlaşdırmağa çalışan baş nazir bəhs olunan qəzaların Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğunun və həmin ərazilərdəki azərbaycanlı əhalinin artıq faktiki olaraq həyata keçirdiyi iradəsinin dəstəklənəcəyinə əminliyini ifadə etmişdi.

Nəsib bəyin Zəngəzurla bağlı mövqeyi Müttəfiq dövlətlərin Ali Komissarlığına ünvanladığı teleqramlarda əksini tapmışdır: polkovnik Reyin ardıcıl 3 teleqramına cavab olaraq 1919-cu il noyabrın 17-də bildirmişdi: «Zəngəzur Azərbaycan Cümhuriyyətinin ayrılmaz hissəsidir».[49] Azərbaycan hökuməti tərəfindən Zəngəzurda hərbi əməliyyatların aparılmadığını, Müttəfiq komandanlığı və Ali komissar Haskel tərəfindən də Azərbaycanın Zəngəzur qəzasına ayrılmaz hüququnun tanındığı deyilirdi. Qarabağ general-qubernatoruna hərbi yardım göndərmək məcburiyyətilə Azərbaycan hökumətinin Zəngəzurda müsəlman kəndlərinin talan olmasının qarşısını almaq, 60 000 evsiz-eşiksiz müsəlman qaçqını öz yurdlarına qaytarmaq, qayda-qanunu bərpa etmək istədiyini yazırdı.[50] Azərbaycan hökumətinin sülhpərvər mövqeyinə baxmayaraq erməni hökuməti 23 noyabr sazişinə riayət etməyərək Zəngəzurda hərbi əməliyyatları davam etdirir, dinc

[49] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.371.
[50] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998, s.371.

müsəlman əhali amansızcasına məhv edilir, kəndlər yandırılırdı. Nəsib bəy dekabrın 8-də polkovnik Haskelə, Britaniyanın baş komissarı Uordropa, Gürcüstanın xarici işlər nazirinə göndərdiyi teleqramda 5 gündən gec olmayaraq amerikan zabitlərindən ibarət komissiyanı Zəngəzur qəzasına göndərib erməni dəstələrindən topları və pulemyotları toplatmağı xahiş edirdi. Əks təqdirdə Azərbaycan hökumətinin öz vətəndaşlarının günahsız qurbana çevrilməsinə, davamlı əzab çəkmələrinə, qanına qəltan edilmələrinə sakitcəsinə seyrçi qalmayacağını, müvafiq konkret tədbirlər görməyə məcbur olacağını bildirirdi.[51]

«Əmniyyət və asayiş»i təmin etmək isə asan başa gəlmirdi. İngilis qoşunlarının Cənubi Qafqazı tərk etməsi hakimiyyət qurumlarında narahatlıq yaratmışdı. Sabitliyin qarantı kimi gördükləri Britaniya hərbi qüvvələrinin qalmasını istəsələr də məsələ artıq qərarlaşmışdı. Şimal sərhədləri ilə bağlı narahatlıq, Ermənistan dövlətinin təcavüzkar siyasətinin davam etməsi, mütəmadi hərbi müdaxilələr Britaniya qüvvələrindən vasitəçilik və təzyiq üçün istifadə imkanı da yaradırdı. Bununla belə ingilislərin Azərbaycanı tərk etmələri münasibətilə N.Yusifbəyli parlamentdə millət vəkillərinə müraciətdə demişdir: «Əfəndilər! Dövlətin bu gündən etibarən tam istiqlaliyyətə yetməsi münasibətilə Sizi təbrik edirəm».[52]

1919-cu il avqustun 22-də N.Yusifbəyli daxili işlər naziri kimi əhaliyə müraciətində «cinayətkar ünsürlər» tərəfindən yayılan şayiələrin əsassız və mənasız olduğunu bildirirdi.[53]

İngilislərin getməsi ilə əlaqədar müxtəlif millətlərdən olan dinc əhaliyə qarşı baş verəcəklər haqqındakı şayiələrin təlaş yaratdığını, təxribat olduğunu bildirir, millətindən və sinfindən asılı

---

[51] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998, s.394-395.

[52] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), c.2, B., 1998

[53] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.285.

olmayaraq bütün əhalinin həyat və sərvətinin respublika qanunlarının müdafiəsi altında tam təhlükəsizlikdə olduğunu qətiyyətlə bəyan edirdi. Ölkədə hökm sürən qayda-qanundan tam məmnun qaldıqlarını 1919-cu ilin sentyabrında Nəsib bəyin qəbulu zamanı Amerika missiyasının üzvləri də ifadə etmişdilər. Həmin il oktyabrın 5-də missiyanın rəhbəri, Amerika hökumətinin Cənubi Qafqazdakı komissarı general Harbord geniş tərkiblə Bakıya gəlmişdi. Harbord hökumət başçısı N.Yusifbəyli ilə bir sıra mühüm siyasi məsələlərə dair üzunmüddətli söhbətində Azərbaycandakı mövcud qayda-qanundan çox məmnun qaldığını, əsgərlərə isə valeh olduğunu bildirmişdi.[54] Xarici missiyaların gənc dövlət idarəçiliyindən rəğbətlə danışdıqları dövrdə ölkənin sosial-iqtisadi həyatına ciddi təsir göstərən qaçqınlıq problemi yaşanırdı. Hökumətin 11 avqust 1919-cu il tarixli qərarı ilə qaçqınların işləri üzrə Mərkəzi komissiyaya tapşırılmışdı ki, milliyyətindən asılı olmayaraq Azərbaycan respublikası hüdudlarında olan bütün qaçqınların boş torpaqlarda yerləşdirilməsi layihəsini hazırlasın. Oktyabrın 18-də Mərkəzi komissiya əhatəli məruzə ilə N.Yusifbəyliyə müraciət etmişdir. Məruzədə göstərilirdi ki, daha mürəkkəb və çətin vəziyyət İrəvan quberniyasından olan müsəlman qaçqınların yerləşdirilməsi ilə bağlıdır. Bunu nəzərə alaraq, hökumət dərhal, 2 gün sonra, oktyabrın 20-də İrəvan qaçqınlarının daşınması və yerləşdirilməsi üçün 69 milyon rubl vəsait ayırmışdı.[55] Azərbaycan hökumətinin humanist siyasətinin göstəricisidir ki, Cənubi Qafqaz respublikaları içərisində qaçqınların kütləvi şəkildə, o cümlədən qeyri-müsəlmanlardan olaraq üz tutduqları, əksəriyyətlə sığındıqları ölkə Azərbaycan idi. Azərbaycanlılara qarşı törədilmiş dəhşətli qırğınlardan sonra xalqın digər millətlərə münasibətdə xeyirxahlıqla davranmasının nəticəsidir ki, hələ 1920-ci ilin əvvəllərində də gəmilərlə qaçqınlar Bakı limanına üz tuturdular. 1920-ci il yanvarın 30-da N.Yusifbəylinin məruzəsi

---

[54] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.334-335.

[55] Yenə orada. s.382.

əsasında qəbul edilən qərarda Petrovsk, Krasnovodsk və Ənzəlidən paroxodlarla gələn qaçqınların Bakı limanında qəbul edilməsi qaydası konkretləşdirilmişdi. Azərbaycanın istiqlalı, milli dövlətçiliyi üçün şimaldan, bolşevik Rusiyasından təhlükənin artdığı bir zamanda xarici vətəndaşlar olan qaçqınların kütləvi şəkildə Bakıda toplanması məqbul sayıla bilməzdi. Hələ 1919-cu ilin yazından bolşevik təbliğatı və təxribatı Yusifbəyli kabinəsinə ciddi problemlər yaşatmışdı. Nəsib bəy 1919-cu il oktyabrın 23-də daxili işlər naziri kimi bolşevik qəzetlərinin bağlanması, bolşevik yönlü dövri nəşrlərin qadağan edilməsi haqqında sərəncam vermək məcburiyyətində qalmışdı.[56]

İstiqlalçılıq əqidəsinə sonadək sadiq qalan Nəsib bəy hökumət böhranı ilə qarşılaşdıqda belə qətiyyətindən dönmürdü: «İstər bolşevik olsun, istər menşevik olsun, istər Denikin tərəfdarı olsun, o hüdud keçərsə onun əfal və hərəkəti bizim tərz idarəyə sədəmə vurarsa, onu orada dayandıraram... İstər anarxist olsun, istər Denikin olsun, istər bolşevik. Mən onlar ilə mübarizə edib, sizi də mübarizəyə dəvət edirəm».[57] Hökumətin daxili və xarici siyasəti haqqında sosialist fraksiyasının sorğusu əsasında açılan müzakirələr zamanı N.Yusifbəyli sualları ətraflı cavablandırmış və parlament tərəfindən hökumətə etimad göstərilmişdir. Lakin Nəsib bəy hökumətin parlamentdə qeyd-şərtsiz söykənə biləcəyi və möhkəm dayağının olmadığı qənaətilə, yaşanan siyasi dövrün mühüm şərtlərini nəzərə alaraq rəhbərlik etdiyi kabinənin istefasını qəbul etməyi xahiş etmişdir. Cümhuriyyət dövründə istefa mədəniyyətinin növbəti nümunəsini Nəsib bəy nümayiş etdirdi. Üç gün sonra, sentyabrın 22-də parlament fraksiyaları ilə razılaşma əsasında sədarət N.Yusifbəyliyə kabinə təşkil etmək təklifi ilə məktub göndərmişdi. Oktyabrın 30-da «Azərbaycan» qəzetinin verdiyi məlumata görə Nəsib bəy parlament sədrinə müraciət edərək hökumət kabinəsini «Müsavat», «İttihad» fraksiyaları və

---

[56] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998,s.348.
[57] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.165-166.

bitərəflər qrupu arasında əldə edilmiş razılaşma əsasında formalaşdırmağı xahiş etmişdi. Yeni hökumət kabinetinin ilkin tərkibi haqqında noyabrın 16-da verilən məlumatda N.Yusifbəylinin Nazirlər Şurasının sədri olmaqla yanaşı daxili işlər naziri postunu tutduğu bildirilirdi.

N.Yusifbəylinin siyasi opponentləri (xüsusən də «İttihad» qəzeti) adətən onun məziyyətlərindən danışarkən işgüzar və dürüst dövlət xadimi kimi səciyyələndirirdilər. Hökumətin fəaliyyətinə Nəsib bəyin özünün münasibətini müəyyənləşdirən meyarı o, Tiflisdə Cümə məscidində belə ifadə etmişdi: «Hökumət xalqsız heç nədir; Azərbaycanın dövlət xadimlərinin xidməti Azərbaycan xalqının elə öz xidmətidir».[58] Qurban bayramı günündə Azərbaycanın baş nazirinin Tiflisdə Cümə məscidini ziyarət etməsi müsəlmanlar üçün əhəmiyyətli hadisə idi. Tiflis müsəlmanları adından molla Nəsib bəyi salamlamış, baş nazir qısa cavabında müsəlman-gürcü dostluğuna toxunmuş, Tiflisdəki müsəlmanların 2 ana vətəni (Azərbaycan və Gürcüstan) olduğunu vurğulamışdır. Bir il əvvəl, Qurban bayramı Bakının azad olması şənliyinə qarışmışdı. 1919-cu ilin sentyabrında paytaxt Bakının azad olunmasının ildönümü təntənə ilə qeyd edilirdi. Sentyabrın 15-i qeyri-iş günü elan edildi. Həmin gün keçirilən təntənəli paradı baş nazir N.Yusifbəyli qəbul edirdi. Həlak olmuş xilaskar qəhrəmanların şərəfinə müsəlman qəbiristanlığında qoyulmalı abidənin təntənəli təməl qoyma mərasimində Nəsib bəy də çıxış etmişdir.

Hələ, ötən ilin noyabrında Azərbaycan parlamentinin təşkili haqqında qanun layihəsinin müzakirəsi zamanı söylədiyi «Türk qardaşlarımızın bizlərə yardım əlini uzadıb və onların bizləri xilas etmələri heç vaxt yaddan çıxarılmaz. Biz bu barədə öz nazik minnətdarlığımızı başqa vəsilələr ilə də söyləyə biləriz» fikrinə[59] hər fürsətdə və imkanda əməl edirdi.

---

[58] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998,s.307.

[59] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s.165.

İki aydan sonra keçirilən «Müsavat» partiyasının ikinci qurultayında hökumət adından təbrik çıxışının sonunda da Nəsib bəy «Azərbaycanın azadlığı uğrunda həlak olmuş türkləri və Mart hadisələrinin bütün günahsız qurbanlarının xatirəsini ayağa durmaqla yad etməyi təklif» etmişdir.[60]

Azərbaycanın milli istiqlal hərəkatında, milli dövlətçiliyin qurulmasında tarixi rol oynamış «Müsavat» partiyasının ikinci qurultayının işində fəal iştirak edən Nəsib bəyin «gözəl çıxışı tez-tez alqışlarla kəsilir»di. «Qurultaya Qafqaz müsəlmanlarının birinci qurultayında Azərbaycan muxtariyyəti haqqında açıq danışmaqdan qorxan bəzi adamların təkliflərini» xatırladaraq qeyd edirdi ki, «o zaman biz buna etirazımızı bildirdik və indiki dövrdə Azərbaycanı artıq bütün dünya tanıyır».[61] Elə həmin gün, dekabrın 2-ində N.Yusifbəyli qurultay tərəfindən siyasi komissiyaya seçilir. Qurultayda 3 əsas məruzəçidən biri kimi Nəsib bəyin «Hazırkı vaxt və ümumi siyasi vəziyyət» haqqında nəzərdə tutulan məruzəsi 2 istiqamətdə (xarici və daxili siyasət üzrə) 17 məsələni əhatə edirdi.

Hakimiyyət böhranının uzun sürməsi qurultayın müzakirəsindən kənarda qalmadı. Dekabrın 10-da keçirilən iclasda yekdilliklə qəbul edilən qətnaməyə görə, qurultay N.Yusifbəylinin hökumət böhranına dair izahını dinləyərək, onun ölkənin idarə olunması işlərində hərəkət xəttini və xidmətlərini qiymətləndirib öz etimadını bildirmişdir. İclasın sonunda qurultayın göndərəcəyi təbrik teleqramlarından biri də N.Yusifbəyliyə ünvanlanmışdı: ölkənin idarə olunmasındakı çətin işlərində uğurlar arzu edilirdi. Qurultayın dekabrın 11-dəki sonuncu iclasında N.Yusifbəyli «Müsavat» partiyasının Mərkəzi Komitəsinin tərkibinə seçildi. Qurultaydan az keçmiş, dekabrın 24-də «Nəsib bəyin ikinci kabinəsi təşəkkül

[60] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.195.
[61] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.195.

etmişdir».[62] «Nəsib bəyin ikinci kabinəsi» Azərbaycan Cümhuriyyətinin beşinci kabinəsi, Mirzə-Bala Məmmədzadənin təbirincə «milli cümhuriyyətimizin son hökuməti idi».[63] Nəsib bəyin birinci kabinəsi istiqlal hərəkatında Azərbaycanın dövlət quruculuğu dövrü kimi səciyyələndirilir. «İkinci kabinəsinin» təşkilində N.Yusifbəyli «sol müsavatçılara, bitərəflərə, hümmətçi menşeviklərə, sosialist bloku və ittihada geniş yer verdi».[64] İqtisadi vəziyyətin ağırlığını və siyasi qüvvələr arasındakı ziddiyyətləri nəzərə alaraq yeni kabinetin təşkili zamanı «sol müxalifəti təcrid etmək məqsədilə İttihad partiyasını koalisiyaya dəvət etmək» lazım bilinmişdi.[65] Siyasi qüvvələrin həmrəyliyinə, etimadına əsaslanan yeni bir hökumət qurmaq səylərinə baxmayaraq Nəsib bəyin proqram bəyannaməsi parlamentdə qızğın müzakirəyə səbəb oldu. Sədrlik etdiyi əvvəlki hökumətin hesabat məzmunlu fəaliyyəti ilə müqayisədə təqdim olunan yeni proqramda konkret məsələlər ayrı-ayrı müddəalarda yer almışdı. Hər bir məsələ üzrə əldə edilmiş nəticələrlə yanaşı görüləcək işlər haqqında aydın mənzərə yaratmağa çalışan yeni hökumət sədri problemləri, çətinlikləri və hətta hökumətin həll etmək iqtidarında olmadığı məsələləri belə dilə gətirməkdən çəkinməmişdir. İlk toxunulan məsələ Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün təmin edilməsi idi. Lənkəran qəzasının azad edilməsi əməliyyatının uğurla başa çatmasından bəhs edən natiq Qarabağ haqqında daha təfərrüatı ilə danışdı. Zəngəzurun yüz illərlə Qarabağın ayrılmaz hissəsi olduğunu xüsusilə vurğulamış, Qarabağdakı erməni milli azlığının mədəni hüquqlarının tanınması şərtlərinin qəbulunu bütün Qafqaz üçün ilk nümunə kimi Azərbaycan dövləti tərəfindən gerçəkləşdiyini göstərmiş və qonşu xalqların da bu nümunəyə davam edəcəklərinə arzusunu ifadə etmişdir. Şərur-Naxçıvan

---

62 Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.113.

63 Yenə orada.

64 Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.70-71.

65 Yenə orada, s.73-74.

məsələsini ayrıca qoyaraq, «cəsur naxçıvanlıların, şərurluların və vedibasarlıların bu məsələni özlərinin həll etdiyini» göstərmişdir. Onların qanuni hüquqlarının, qətiyyətlərinin, fədakarlıqlarının və vətənpərvərliklərinin bu məsələnin ədalətlə həllində nəzərə alınmalı olduğunu bildirmişdir.

**Nəsib bəyin hökumət məramnaməsində söylədiyi fikri son bir əsrlik tarix təsdiqlədi. «Qarşılılıq prinsipinə» əməl edilməməsi Ermənistan Respublikasının Azərbaycan torpaqlarında davamlı təcavüzkar siyasətinə rəvac vermiş oldu.** Adı ilkin sənədlərdə «federasiya» statusunda çəkilən Ararat Respublikası ərazisindəki yerli və çoxluq əhalinin nəinki ərazi muxtariyyətini, heç mədəni hüquqlarını da qəbul etmədi, tanımadı. «Biz bunu bilməliyik ki, Azərbaycanın da, Ermənistanın da gələcəyi milli azlığın hüquqlarının təmin edilməsi məsələləri ilə bağlıdır» deyiminə Azərbaycan tərəfi Cümhuriyyət dövründə də, sovet hakimiyyəti illərində də tələb olunduğundan artıq səviyyədə əməl etmişdir. Mədəni muxtariyyətdən ərazi muxtariyyətinədək, İrəvan şəhərinin güzəştindən sonrakı razılaşdırılmış yaxud zorakı ələ keçirmələrədək torpaqlar itirən Azərbaycan olmuşdur.

Nəsib bəy qonşu dövlətlərlə dostcasına münasibətlərin yaradıldığından bəhs etmişdir. Gürcüstan, Şimali Qafqaz respublikası, Türkiyə və İranla əlaqələrin səviyyəsinə toxunan natiq qonşu Rusiyanın fərqli, böyük dövlətçilik siyasəti yeritdiyini bildirmişdir. İstiqlaliyyəti təhdid edən qüvvələrə qarşı bütün tədbirlərin əsasını hərbi quruculuq işlərinin təşkil etdiyini qeyd etdi. Dönə-dönə «cənab deputatlar»a müraciətində baş nazir gerçək vəziyyəti anlatmağa və mümkün çıxış yollarını göstərməyə səy edirdi. Ticarət və maliyyədəki nöqsanların digər sahələrə də sirayət etdiyini, pulun dəyərini itirməsinin səbəblərini əsaslandıraraq hökumət tərəfindən görüləcək tədbirləri ardıcıl şərh etmişdir.[66] Təhsil, səhiyyə, mədəni quruculuq yönündə əldə olunmuş uğurlardan (universite-

[66] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.405-508.

tin, çoxsaylı təhsil müəssisələrinin açılması, 100 tələbənin xarici ali məktəblərə göndərilməsi və s.) danışmaqla yanaşı mövcud problemləri, görülməli işləri sadalamışdır. Hökumətin təkbaşına öhdəsindən gələ bilməyəcək ən böyük çətinliyin qaçqınlarla bağlı olduğunu göstərmişdir. Son aylarda İrəvan quberniyasından 150 mindən çox qaçqının, əsasən də qadın və uşaqların respublikaya daxil olduğunu bildirərkən xalqın bu işə yardım göstərməyini zəruri sayırdı.[67] Qaçqınların işləri üzrə Mərkəzi Komissiyanın 1919-cu il oktyabrın 18-də N.Yusifbəyliyə ünvanladığı geniş məlumatda hökumətin 11 avqust tarixli qərarının icra edildiyi xəbər verilirdi.

Məhkəmə sistemində gərəkli olan islahatlara da baş nazir məramnaməsində yer ayırmışdı. Məhkəmə müəssisələrini xalqa yaxınlaşdırmaq, xalqın məhkəmə proseslərində iştirakını təmin etmək, məhkəməni milliləşdirmək, onun müstəqilliyinə nail olmaq vəd edilən tədbirlər sırasında idi. Fəhlə və kəndlilərin güzəranı məsələsi ənənəvi xarakter almış məsələlər sayılırdı. Nəsib bəy hər iki sosial təbəqənin ehtiyaclarını təmin etməyin minimum yollarını göstərdi: fəhlələrə ucuz çörək vermək, torpağın tezliklə kəndlilərə keçməsini təmin etmək. Sadalanan bütün məsələlərin «daxili idarəetmə» ilə bağlı olduğunu bildirən Nəsib bəy inzibati idarəetməni təkmilləşdirmək yollarını göstərərkən daha bir vəd verdi: əhali ilə hökumət arasında mövcud olan lüzumsuz instansiyaların ləğvinə başlamaq. Qaldırılan problemlərlə yanaşı, ölkədəki qayda-qanunun inqilabı yaşamış bütün qalan ölkələrdən qat-qat yüksəkdə olduğunu bildirmiş, Azərbaycanın bütün siyasi mühacirlər üçün sığınacağa çevrildiyini qeyd etmişdir.[68]

Məramnaməsinin sonunda Nəsib bəy istiqlal ideyalarına bağlılığını rəsmi kürsüdən bir daha təsbit etdi. **Azərbaycanda mövcud azadlıqların fövqündə dayanan ən qiymətli azadlığın «istiqlaliyyətimizdir» deyə vurğulaması, həm də siyasi**

---

[67] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998, s.406.

[68] Yenə orada, s.407.

**müxaliflərinə bir xitab idi. «Göz bəbəyi kimi» qoruyacaqları istiqlaliyyət naminə hər şeyi qurban verməyə hazır olduqlarına əminliyini ifadə etmişdir: «partiya və qrup maraqları bu müstəqilliyə qurban verilməlidir».**[69] Bu, ənənəvi deklarativ tezis deyildi, Nəsib Yusifbəylinin həyat leytmotivi idi. Hələ 1918-ci ildə Osmanlı hərbi qüvvələrinin yardımına böyük ehtiyac olduğu, Azərbaycan dövlətçiliyinin müqəddəratının bu yardımdan asılı olduğu dövrdə Nəsib bəy həmin yardımın müqabilində Azərbaycanın suverenliyini qismən də olsa heç bir xarici qüvvəyə, o cümlədən dost, qardaş hesab etdiyi Türkiyəyə güzəştə getmək fikrini belə qətiyyətlə rədd etmişdir: «İstefada olan qərargah podpolkovniki Hüsaməddin Tuğac «Bir nəslin dramı» adlı əsərində Azərbaycanda, Gəncədə bir müddət qaldıqdan sonra ana vətənə dönmək ərəfəsində Nəsib bəy Yusifbəyli ilə son söhbətini xatırladır. Tarixi bir sənəd olan bu söhbəti sizə çatdırıram: «Azərbaycana türk ordusunun gəlməsi ola bilsin ki, lazımdır, ancaq qorxduğumuz bir şey var, türklər bizi İstanbuldan idarə etməyə başlamasınlar? Bizim federalizm əsasında qurulmuş proqramımız vardır, ona uyğunlaşmaq lazımdır. Nəsib bəyin bu sözü mənə bir az qəribə gəldi, soruşdum: «Siz bu federalizm prinsipini rus idarəsinə qarşı irəli sürmüş olursunuz. Türklər gəlincə onların ruslardan bir fərqi olmayacaqmı? Bu halda federalizmə nə lüzum var?»

Nəsib bəy gülər üzlə mənə cavab verdi: «Azərbaycanın sosial quruluşu bambaşqadır, Bakı sənaye və fəhlə mərkəzidir. Sultan rejimi buradakı əhvala uyğun gəlməz. Biz xalqın hər sinif və təbəqəsinin bərabərliyi üzərində dayanan bir hökumət qurmaq fikrindəyik. Çarlıq dövrünün aristokratik və feodal idarəsinə son qoyacayıq. Milli və demokratik bir idarə istəyirik. Halbuki Osmanlı dövlətinin rejimi çarlıq idarəsindən heç də fərqlənmir. Əlbəttə, bu mövzu irq məfhumundan ayrılır. Əlbəttə ki, Osmanlı türkləri, azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə

[69] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998, s.408.

oluna bilməz, bunun üçün Müsavat partiyasının federalizm prinsipi daima Osmanlı idarəsinə qarşı qoyulmalıdır».

Nəsib bəy gülərək bu xalq sözünü də əlavə etdi: «Mənim gözüm səndən su içmir». Nəsib bəyi dinlədikdən sonra ona haqq qazandırdım». Azərbaycan ölkəsi və xalqı üçün siyasi və hərbi baxımdan ən böhranlı bir dövr yaşanırkən bir Azərbaycan liderinin bu şübhəsi çox maraqlıdır… Bu tarixdə Osmanlı ordusu Zaqafqaziyaya hələ gəlməmişdi».[70] Üz tutduğu, məqbul bildiyi dəyərlər naminə müstəqil dövlətçiliyi qurban verməyə belə hazır olan bir sıra siyasətçi həmvətənlərindən fərqli olaraq Nəsib bəyin əqidəsi Azərbaycan istiqlaliyyətinə yönəli məhrumiyyət şərtlərini birmənalı rədd edirdi: «Sadalanan bütün azadlıqların məlum hüdudları vardır» deyəndə nəzərdə tuturdu: [bu hüdudlar] bizim müstəqilliyimizin toxunulmazlığı ilə şərtlənmişdir. Müstəqil hakimiyyətin güclənməsi baxımından əhəmiyyətli bir vəzifə kimi Müəssislər Məclisinin çağrılması işinə hökumətin yardımını müqəddəs bir borc olaraq vəd etmişdir.

N.Yusifbəylinin yeni hökumət bəyannaməsi parlamentdə geniş müzakirə olunmuşdur. Hökumət tərkibinə ilk dəfə daxil olduğunu bildirən «İttihad» fraksiyası ayrı-ayrı nazirliklərin fəaliyyətini sərt tənqid etmiş, sosialist bloku iradlarını bildirmiş, rus və erməni fraksiyalarının nümayəndələri təxribatçı çıxışlar etmişlər.

1920-ci ilin yanvarında Azərbaycan istiqlalının «hüdudları» Avropada de-fakto səviyyəsində qəbul edildi. Təqribən üç il əvvəl, 1917-ci ilin aprelində Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə Şah Abbas məscidinin həyətində təşkil edilən böyük mitinqdə «Yaşasın Azərbaycan muxtariyyəti» sözləri yazılmış qırmızı bayraqlar dalğalanırdı. Onda Azərbaycan istiqlalının hüdudları Rusiya Federasiyası çərçivəsində düşünülürdü. Keşməkeşli istiqlal yolunun 3-cü ilində artıq Azərbaycan muxtar qurum deyil, müstəqil respublika statusunda idi və onun legitimliyini dünyanın böyük dövlətləri təsbit

[70] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., «Azərnəşr», 1992, s.242-243.

edirdilər. Azərbaycanın müstəqilliyinin beynəlxalq səviyyədə tanınması münasibətilə parlamentin təntənəli keçirilən iclasında baş nazir N.Yusifbəyli başda olmaqla hökumətin tam tərkibi iştirak edirdi. Parlament sədrinə ünvanlanmış təbriklərin içərisində Azərbaycanın müsəlman qadınlarının bir qrupu adından Nəsib bəyin xanımı Eynülhəyat Yusifbəylinin imzaladığı teleqram da var idi. «Azərbaycan» qəzetinin 16 yanvar 1920-ci il tarixli nömrəsində verilən məlumatda respublikanın müstəqilliyinin tanınması münasibətilə keçirilən şənlik təsvir edilir. N.Yusifbəylinin şənlikdə görünməsi toplananlarda böyük sevinc doğurmuşdur. Kütlə onu avtomobildən çıxardaraq əlləri üstündə parlamentə aparmışdır. Həmin dəqiqələrdə Nəsib bəy həm istiqlaliyyətin, həm də xalq məhəbbətinin sevincini yaşayırdı. Onun imzası ilə hökumətin «Azərbaycan vətəndaşlarına» müraciəti ünvanlandı. «Azərbaycanın tam hüquqlu üzv kimi Qərbin qabaqcıl xalqları ailəsinə daxil olması»nı alqışlayan müraciət «Yaşasın müstəqil Azərbaycan xalqı!» şüarı ilə tamamlanırdı.

1920-ci ilin yazında Azərbaycan xalqı sevinci ilə kədərini bir arada yaşadı. Respublikanın müstəqilliyi təhlükə altında idi. Sovet Rusiyası ilə notalar mübadiləsilə müşayiət olunan mənzərə göründüyündən də mürəkkəb idi. Baş nazir Nəsib bəyin fevralın 24-də siyasi vəziyyət haqqında dövlət qəzetində çıxış etməsi də ekstremal səbəblərdən qaynaqlanırdı. Qəzetə verdiyi müsahibədə hökumətə qarşı irəli sürülən üç ittihama ayrı-ayrılıqda münasibət bildirmişdir. Partiyalararası mübarizənin dövlətçiliyi sarsıdacaq səviyyədə olmadığını əsaslandırarkən Azərbaycan xalqının suverenliyi məsələsində onların həmrəy olduqlarını söyləmişdir. Hökuməti bölşevizmə meylli siyasətdə günahlandıranlara cavabı yığcam və konkret oldu. Bolşevizmin Azərbaycan xalqının xarakterinə və ruhuna qətiyyən uyğun gəlmədiyini, Sovet Rusiyası ilə münasibətlərin isə Çiçerinə cavab notalarında tam əksini tapdığını söylədi.[71]

Türkiyə ilə münasibətlərə dair hökumətin mövqeyini ətraflı şərh edən Nəsib bəyin rəsmi mülahizələri mətbuat vasitəsilə lazımi ünvanlara

---

[71] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.475-476.

çatdırılmalı mesaj da sayıla bilər. Türk xalqının milli dirçəlişini arzulayan baş nazir 2 fərqli istiqamətdəki ittihamların əsassız olduğunu açıqlayırdı. Azərbaycan hökuməti bir tərəfdən Türkiyəli siyasi mühacirlərə qonaqpərvərlik, himayəçilik etməkdə günahlandırılır, digər tərəfdən də bolşeviklərlə, türk emissarları ilə iş birliyində ittiham edilirdi. Baş nazir belə xəbərlərin uydurma, təxribat olduğunu söyləyirdi. Bəs həqiqətdə vəziyyət necə idi? Mirzə Bala Məmmədzadə yazırdı: «Moskva Azərbaycandakı türkiyəli zabitlər vasitəsilə Ermənistanla hərblə məşğul olan milli hökuməti yıxacaq, istədiyi hökuməti quracaq və bu hökumətin dəvətilə gəlib Azərbaycana yerləşəcəkdi».[72] «Anadolu heyəti – təmsiliyyəsi» bolşeviklərlə əməkdaşlığa qərar vermişdi. Türk milli-azadlıq savaşına düşmən ingilislərin tələbini, iradını nəzərə alaraq Nəsib bəy mətbuata türk emissarları ilə bağlı söz-söhbətin yalan olduğunu deyirdi. Azərbaycan hökumətini yardım etməməkdə günahlandıran Türkiyə emissarlarını Nəsib bəy imkan düşəndə qəbul edir, məsləhətləşirdi. M.-Ə. Rəsulzadə bu barədə yazırdı: «İstanbula səfir göndərildiyi kimi, Anadolu Türkiyəsi ilə də münasibətlər qurmaq və inqilabçı Türkiyəyə maddi yardımlarda bulunmaq üçün hələ 1919-cu ildə xüsusi surətdə təşəbbüslər edilmiş, lakin bu münasibətlər təbii yoluna düşməmiş Azərbaycan qızıl rus istilasına uğramışdır».[73] Hətta Nəsib bəyin Türkiyə milli savaşına göstərdiyi maddi yardım onun faciəli ölümündən sonra Ankaraya yetişmişdi: «Mərhum Yusif bəyin [Nəsib bəyin – F.Ə.] əmri ilə Məmməd Əli Əhmədzadə tərəfindən 1920-ci il oktyabrın 2-də Ankaraya təhvil verilən 19 min Osmanlı lirəsi və 1 milyon fransız frankı və 8 neft vekselinin o zamankı xarici işlər naziri Əhməd Muxtar bəyin imzası ilə təsdiq edilmiş qəbzi əlimizdədir».[74] Son dərəcə sərt şərtlər daxilində Nəsib bəyin Türkiyə milli savaşına yardım göstərməsinə baxmayaraq onun istiqlalçılıq amalı seçim müzakirə etməyəcək qədər yüksəkdə dayanırdı. Mətbuata müsahibəsində deyirdi ki, «hökumətin siyasi proqramının əsasında dövlət müstəqilliyi və istiqlaliyyəti dayanır».[75]

[72] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.134
[73] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.129
[74] Yenə orada.
[75] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.477.

«Gizli sazişlər siyasəti bizim siyasətimiz deyildir. Beynəlxalq münasibətlərin aradan qalxmış bu formasına Azad Azərbaycan heç bir zaman qayıtmayacaqdır» - fikirləri deklorativ görünsə də faktiki olaraq Nəsib bəy başda olmaqla Azərbaycan hökuməti bu müddəalara sadiq qaldı.

Nəsib bəyin söylədiyi həmin müddəalardan bir neçəsi zərb-məsəl məzmunu daşıyır: «Biz sözlə deyil, əməllə cavab verməyi üstün tuturuq», «Fikir azadlığı azad ölkədə sıxışdırıla bilməz», «Hökumət partiyalardan yüksəkdə dayanır».[76] N.Yusifbəyli 1920-ci il fevralın 24-də müsahibəsinin sonunda bütün ölkənin dəstəyinə, qonşuların anlayışına, Qərbin böyük və kiçik xalqlarının xoşniyyətli münasibətinə ümid etdiyini bildirmişdi.

Lakin Azərbaycan xalqının «qonşuların anlayışına» ümidi Ermənistan respublikasının nümunəsində həmişə puça çıxmışdır. 1920-ci ilin martında erməni separatçıları, həmçinin rəsmi erməni hökuməti Qafqaz regionunu qanlı proseslərə, müsəlman əhalini kütləvi qırğınlara düçar etdi. Azərbaycan parlamenti fövqəladə iclasına toplaşdı. 21 deputatın imzası ilə hökumət başçısına sorğu ünvanlandı. Qars vilayətinin günahsız müsəlmanlarının xilası üçün hökumətin hansı addımlar atdığını aydınlaşdırmağa çalışırdılar. Martın 9-da hökumət başçısı N.Yusifbəyli parlamentdə əhatəli çıxış edərək Qars faciəsinin mənzərəsini və hökumətin müvafiq olaraq gördüyü işləri deputatların diqqətinə çatdırdı. Azərbaycan hökumətinin erməni hökumətinə verdiyi notalara qarşı tərəfin cavablarını da oxudu: «Erməni hökuməti qərar vermişdir ki, o yerlər ki, erməniyə tabe olmayır, top ilə alsınlar… Təbii, buna biz soyuqqanlılıq ilə baxa  bilməzdik və biganə qala bilməzdik».[77] Maddi zərəri, insan itkisini konkret rəqəmlərlə ifadə edən natiq «yenə son çarə olaraq, yarın oraya bir heyət göndərilməsini» təklif etmişdir.[78]

---

[76] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.477.

[77] Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, s.

[78] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), c.2, B., 1998

Qars faciəsi haqqında məlumatının sonunda Nəsib bəy məsələyə strateji anlamda münasibət bildirmişdir: «Fəqət, məsələ yalnız Kars deyil. Görürsünüz ki, ermənilərin idarəsi altında olan yerlərdə Eçmiədzin, Novbayazid, İrəvan qəzalarında və sairə yerlərdə külli miqdarda müsəlman var idi… Fəqət, nasılsa, birdən-birə bunların həpsi mübəlliğ olmuş və nəticədə müsəlman şimdi orada yoxdur. Ancaq iki köy qalmışdır. Bizi qorxudan budur ki, Karsda da böylə olsun. Binaən – ileyh bunun önünü almaq lazımdır». Erməni təcavüzkarlığının, zorakılığının önünü sivil yollarla almağa səy edən baş nazir erməni hökumətinə mesaj göndərdi: «Böylələiklə qurulan hökumət yaşamaz. Qan ilə yoğrulmuş dövlət başa getməz…erməni vətəndaşlarımız da bizimlə, hətta bizdən də qabaq səslərini ucaltması ilə deməlidirlər ki, bəsdir daha böylə hökumət qurmaq olmaz. Bu cür rəftarınızda aləmi qana bulayarsınız».[79] Bu sözlərin deyilməsindən 90 ildən çox keçsə də nə Azərbaycan Respublikasındakı ermənilər Ermənistan dövlətinin siyasətini dəstəkləməkdən, nə də erməni hökuməti təcavüzkarlıq siyasətindən imtina etmədi. Bunun müqabilində mütəmadi olaraq təcavüzə məruz qalan Azərbaycan respublikasinda dövlət siyasəti öz vətəndaşları olan ermənilərin hüquqlarını, toxunulmazlığını təmin etmiş, həyat və fəaliyyətləri üçün hər cür şərait yaratmağa səy göstərmişdir. 1920-ci ilin yazında Qarsda, Zəngəzurda, Qarabağda ermənilərin törətdiyi müsəlman qətliamları davam etdiyi halda Azərbaycan hökuməti erməni vətəndaşlarının qayğısına qalmağa, onları təşvişə düşməkdən çəkindirməyə çalışırdı. Müsəlman əhaliyə qarşı ermənilərin törətdiyi qırğınların əks-sədası Gəncədə də gərginlik yaratmışdı. Gəncə ermənilərinin təlaş içində Bakıya, Tiflisə getməsinin qarşısını almaq, onların həyatı üçün heç bir təhlükənin olmadığını bir daha təsdiqləmək üçün baş nazir Nəsib bəy Yusifbəyli mart ayında Gəncəyə gəlmişdi. Hökumət böhranının yaşandığı, siyasi vəziyyətin gərgin olduğu bir zamanda hökumət başçısının Gəncəyə səfəri əhəmiyyətli bir missiya idi. Gəncə əhalisinin olduqca vacib hesab etdiyi bu səfər zamanı Nəsib bəy yerli

[79] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), c.2,B.,1998.

ziyalılarla görüşlərində ümumi siyasi vəziyyəti anlatmış, millətindən asılı olmayaraq hamını Gəncə müsəlmanları və erməniləri arasında ənənəvi normal qarşılıqlı münasibətlərin möhkəmlənməsinə yardım etməyə çağırmışdır. Şah Abbas məscidinin həyətində çoxminlik mitinqdə hökumət başçısı müsəlman əhaliyə müraciətlə böyük nitq söyləmiş və bildirmişdir ki, vətənin maraqları bütün vətəndaşlar arasında mehriban münasibətlərin saxlanmasını tələb edir, bu prinsipin hər hansı şəkildə pozulmasının qarşısı dövlət aparatının bütün vasitələri ilə amansızcasına alınacaqdır».[80] Nəsib bəy bu tədbirlərlə kifayətlənməyib ermənilər yaşayan hissəyə də getmiş və şəhərin bütün ermənilərinin toplaşdığı kilsədə bəyan etmişdir ki, hökumət özünün erməni vətəndaşlarının vəziyyəti ilə bağlı xüsusi əndişədədir və Ermənistan ilə qarşılıqlı münasibətləri Azərbaycanın öz vətəndaşlarına münasibətini dəyişə bilməz. Erməniləri təşvişə düşməməyə çağıran baş nazirin Gəncədəki çıxışları şəhərdəki gərginliyi aradan qaldırdı, şəhərdən gedən ermənilər geri qayıdırdılar.

Hökumətin çevik və xoşniyyətli tədbirlərinə baxmayaraq erməni mətbuatı («Aşxatavor») Gəncə ermənilərinin əsir vəziyyətində acından ölməyə məhkum olduqlarına, onlarla ticarətin qadağan olunmasına dair yazılarla çıxış edirdi. Qərəzli və faktları təhrif edən belə yazılar bütün millətlərdən olan yerli əhalini dərindən narahat edir və hiddətləndirirdi. General S.Mehmandarovla birgə Nəsib bəy Yusifbəylinin Gəncəyə səfəri zamanı etdiyi çıxışlar, verdiyi bəyanatlarla yanaşı real tədbirlər də göruldü. Şəhərin ermənilər yaşayan bütün hissəsinin mühafizəsi milis və patrullardan ibarət xüsusi dəstəyə həvalə olunmuş, spirtli içkilər satılan yerlər bağladılmışdı. Daşınar və daşınmaz əmlakın dəyər-dəyməzinə alınıb-satılmasına görə ermənilər üçün hədsiz zərərli sövdələşmələrə yol verilmirdi.[81] Bütün bu tədbirlərə baxmayaraq Bakı erməni milli şurası memorandumla çıxış etmişdi.

[80] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.496.
[81] Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. s.522.

1920-ci il aprelin 14-də Nəsib bəy Yusifbəyli həmin memorandumla bağlı məruzə etmiş və qərara alınmışdı ki, Göyçay, Nuxa qəzalarında və d. yerlərdə ermənilərlə toqquşmalar zamanı baş vermiş cinayətləri təhqiq etmək üçün xüsusi komissiyalar yaradılsın. Ermənilərin dəmir yolları və şose yollarından maneəsiz istifadəsini təmin etmək üçün tədbirlər görülməsi qərara alındı. Həmçinin ədliyyə nazirinə tapşırıldı ki, baş vermiş bu hadisələrdən zərər çəkmiş əhaliyə yardım göstərmək üçün beş milyon rublun ayrılması haqqında parlamentə qanunlayihəsi təqdim olunsun.

Azərbaycan hökumətinin başçısı Nəsib bəy Yusifbəyli ölkəsinin, dövlətinin istiqbalını düşünərək respublikanın bütün vətəndaşlarının, o cümlədən və xüsusən erməni vətəndaşlarının toxunulmazlığının, hüquq bərabərliyinin pozulmaması üçün tədbirlər gördüyü günlərdə erməni hökumətinin əli ilə Qarabağda qiyam qaldırılmış, Azərbaycan ərazisi və əhalisi növbəti dəfə təcavüzə məruz qalmışdı. Cümhuriyyət hakimiyyətinin mövcudluğu zərbə altında idi. Sovet Rusiyası təhdid mahiyyətli notalar göndərdiyi müddətdə Bakıdakı bolşevik muxalifəti hökuməti fəhlə sinfinə qanlı divan tutmaqda ittiham edirdi. Martın 29-da Həmkarlar İttifaqları Şurasının idarə heyəti tərəfindən nazirlər şurasına ünvanlanmış məktubda açıq təhdid var idi. Bakı proletariatı malik olduğu bütün vasitələrlə öz hüquqlarının müdafiəsi üçün mövcud vəziyyəti yetərli sayırdı. Bu məktubun göndərildiyi günün sabahı, martın 30-da Nəsib bəyin başçılıq etdiyi hökumət istefa verməyə məcbur oldu. Yaranmış vəziyyətdə «hətta N.Yusifbəylinin hökumət kabinetinin istefası belə vəziyyəti dəyişmədi».[82]

Türkiyədə milli-azadlıq mücadiləsi liderlərinin ittifaq qurduğu Sovet Rusiyasının XI ordusunun Bakıya, Azərbaycana daxil olmasını təmin etmək yolunda Nəsib bəy hökuməti maneəyə çevrilmişdi. Bu prosesin məşhur fiqurlarından olan Xəlil paşanın dostlarından Tələt bəy Türkiyədə mühakimə olunarkən etiraf etmişdi: «Xəlil

---

[82] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», s.75.

paşa və yoldaşları da Azərbaycan müxalifət firqələrinə «siz doğrudan-doğruya «Müsavat»dan kənar firqələrlə birləşmək surətilə Nəsib bəy hökumətini devirə bilərsiniz» deyə tövsiyədə bulunmuşlar».[83] Nəsib bəyin Türkiyə milli-azadlıq hərəkatına yardım göstərməyə səy etdiyi halda «iş-işdən keçmiş və kommunist oyunu cəsarətlə oynanmışdır».[84] Həmin dövrdə Azərbaycan «dağılan Osmanlı ordusunun zabit, əsgər və vətəndaşlarından ibarət bir qisminin sığındığı ölkə idi… hətta hökumət zabitlərin bir qisminə (orduya alınmadan) əmək haqqı verirdi»[85] .1912-1913-cü illərdə İstanbulda yaranan «Türk ocağı»nın ilk nümayəndələri kimi Nəsib bəylə bu ocaqda dostlaşmış Fuat Sabit İstanbuldan Bakıya gəldiyi zaman Nəsib bəy baş nazir idi. Anadoluya kömək istəmək üçün vəkil edilmiş doktor Fuat Sabit «bu mövzuda Azərbaycanın baş naziri Nəsib bəy Yusifbəyli ilə görüşür» və nəticəni Rauf bəyə bildirir.[86] Həmin məlumatda deyilirdi: «Baş nazir Nəsib bəy Rauf bəyin Azərbaycana gəlməsinin münasib olduğunu söylədi. Nə qədər silah, hərbi sursat lazım olduğunu və hansı vasitələrlə göndərildiyini soruşur»[87]. Lakin Azərbaycan hökumətinin mövqeyi haqqında yalan xəbərlərin göndərilməsi nəticəsində yanlış rəy formalaşdırılır. Bu prosesdə «Nəsib bəyin hökuməti istefa vermişdi. Həsən Hacınskiyə yeni kabinə təşkili üçün kart-branş verildi»[88]. Məhəmməd Həsən Hacınskinin yeni hökumət təşkil etmək cəhdi uğursuzluqla nəticələndi. Yeni hökumətin təşkilinə qədər səlahiyyətlərini davam etdirən Nəsib bəy Yusifbəyli Azərbaycan Cümhuriyyətinin tarixində sonuncu hökumət başçısı – baş nazir olaraq qaldı. Onun siyasi və dövlətçilik karyerasının ömrü Azərbaycan Cümhuriyyətinin ömrü qədərincə sona yetdi. Sona yetən həm də Nəsib bəyin fiziki mövcudluğu idi. Vətəninə, onun istiqlalına sıx bağlı

---

[83] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.142.
[84] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., «Azərnəşr», 1992, s. 274.
[85] Yenə orada. s.269.
[86] Yenə orada.
[87] Yenə orada.
[88] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, s.136.

olan bu insanın bir daha qürbətdə yaşamaq nəsibi deyilmiş. Nəsib bəyin nəsibi Vətəndə «qalmaq» imiş. Amma «Ölməyə Vətən yaxşı» deyimi Nəsib bəy nümunəsində bir yanlış idi. Onun müəmmalı qətli hələ də tarixin bir sirri olaraq qalmaqdadır. Sirr olmayan isə ehtimal olunmayacaq qədər bir həqiqətdir ki, 1920-ci ilin yazında Azərbaycan Nəsib bəy Yusifbəylinin simasında milli mücahidini, məfkurə sahibini, dövlət xadimini, siyasi liderini, əməl adamını, parlaq ziyalısını, ən ümdəsi böyük vətənpərvərini itirdi. Amma Azərbaycan xalqının, dövlətçiliyinin tarixində mərhum tədqiqatçı-alim Nazif Qəhrəmanlının təbirincə «Nəsib bəy nümunəsi» qaldı.

## İstifadə olunmuş ədəbiyyat


1. Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, «Elm», 1998. 616 səh.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), c.2, B., 1998.
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2-ci cild. B., «Lider nəşriyyatı», 2005, s.441-443.
4. Азербайджанская Демократическая Республика (1918-1920 гг). Законодательные акты. (Сборник документов). Б., 1998, 560с.
5. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., «Azərnəşr», 1992, 276s.
6. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, «Nicat», 1992, 246s.
7. Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, 2001, «Azərnəşr», 272 səh.
8. Qəhrəmanlı N. Nəsib bəy nümunəsi, B., «Nurlan», 2008, 263səh.
9. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, 216s.

***Solmaz Rüstəmova-Tohidi***
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq institutunun aparıcı elmi işçisi*
*tarix elmləri doktoru, professor*

# NƏSİB BƏY YUSİFBƏYLİ ÜZEYİR BƏY HACIBƏYOVUN MƏKTUBLARINDA

Nəsib bəy Yusifbəyli haqqında öz müasirlərinin az da olsa xatirələri, yaxud şəhadətləri qalmışdır. Bu növ sənədlərin arasında Üzeyir bəy Hacıbəylinin ayrı-ayrı fikirləri xüsusi yer tutur. Belə ki, Azərbaycan xalqının əsasən böyük bəstəkar, daha sonra publisist, yazar, həmçinin ictimai xadim və alim kimi tanıdığı Üzeyir bəy Hacıbəyov ilk növbədə böyük vətəndaş və Azərbaycan dövlətçiliyi mövqeyində duran böyük ziyalı idi. 1918-1920-ci illər artıq kifayət qədər tanınmış bir şəxs olan Üzeyir bəy o dövrün həm də siyasi elitasına daxil idi. O, Azərbaycan Xalq Cümhuriyyətinin aparıcı xadimləri ilə yaxın ünsiyyətdə və dostluq münasibətlərində olmuş, qardaşı Ceyhun Hacıbəyli ilə birgə AXC hökumətinin rəsmi orqanı olan “Azərbaycan” qəzetini redaktə etmiş, Ceyhun bəy Versal Sülh Konfransına gedən Azərbaycan nümayəndə heyətinə daxil edilərək Parisə getdikdən sonra isə Üzeyir bəy özü qəzetin redaktoru olmuşdur. (1919-cu il yanvarın 16-dan 1920-ci il 27 aprelə qədər – 2 aylıq dövr istisna olmaqla).

Məlum olduğu kimi, Ü.Hacıbəyov öz xatirələrini yazmamışdır, amma 1919-1920-ci illər Parisə, Ceyhun bəyə göndərdiyi məktublarında o dövr Azərbaycanda baş verən hadisələrdən geniş söz açmış və bu zaman Nəsib bəy Yusifbəylinin də adını dəfələrlə çəkmişdir. Məhz bu xatırlamalardan Üzeyir bəylə Nəsib bəy arasında kifayət qədər yaxın və səmimi münasibətlərin olduğu aydınlaşır.

Belə ki, Üzeyir bəy qardaşına yazdığı 19 mart 1919-cu il tarixli məktubunda "Azərbaycan" qəzeti ilə bağlı maraqlı informasiya verməklə yanaşı – "Qəzetəni idarəyə davam edirəm, ancaq iş çox olduğuna görə yoruluram. Xeyli şrift gətirdik. Bu günlərdə qəzetəni böyüdəcəyik"[1] – yaranmış bəzi problemlərdən də söz açır. Məlum olur ki, Hacıbəyov qardaşlarının yalnız "Azərbaycan" qəzeti deyil, o dövr Bakıda çıxan bir sıra rus dilli qəzetlərlə əməkdaşlıqdan gözlədikləri qonorar düşündükləri qədər olmamışdır və bu məsələ ilə bağlı məktubda ilk dəfə Nəsib bəyin adı çəkilir. Bildirilir ki, Nəsib bəy "Bakinskoye slovo" adlı rus dilli qəzetin "İqla" ləqəbli redaktorundan[2] nə üçünsə narazı qalmış (*məktubda səbəb göstərilmır- S.R.-T.*), bu səbəbdən qəzet "Azərbaycan" qəzetinin mətbəəsindən köçmüşdür və "köçməklə də, deməli, "İqla" qəzetənin yeganə sahibi oldu"[3].

Burada bir haşiyə çıxaq. AXC dövrü Azərbaycanda 20-dən artıq qəzet, o cümlədən rus dilli mətbuat nəşr olunurdu. Azərbaycanın ictimai-siyasi xadimləri və yazarları Azərbaycan həqiqətlərini istər ölkədən xaricdə, istər daxildə rus dilli oxuculara çatdırmaq üçün bu qəzetlərin bəziləri ilə əməkdaşlıq edirdilər. "Bakinskoye slovo" bu cür mətbuat orqanlarından idi və Ceyhun bəy də daxil olmaqla azərbaycanlı yazarlar həmin qəzetdə müntəzəm olaraq məqalələr dərc etdirirdi. Bu da qeyd edilməlidir ki, qəzetlərdən aldıqları qonorarlar – kiçik məbləğ də olsa, həmin dövr azərbaycanlı jurnalist və yazarların, o cümlədən Hacıbəyov qardaşlarının öhdələrində olan böyük ailələrinin dolanışığını təmin etmək üçün əldə etdikləri gəlir mənbəyinin mühüm hissəsini təşkil edirdi. Mətbuat işinin o dövr o qədər də gəlirli sahə olmadığı məlumdur və bu amil Üzeyir bəyin məktublarında dönə-dönə qeyd edilir.

Təsadüfi deyil ki, "Azərbaycan" qəzetinin büdcəsini hökumət başçısı kimi Nəsib bəy müəyyən edir və bu məsələni Üzeyir bəy

---

[1] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, vərəq 4-5.

[2] "Bakinskoye slovo" qəzetinin redaktoru Qlaxenhauz nəzərdə tutulur.

[3] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, v. 4-5.

məhz onunla razılaşdırırdı. Üzeyir bəyin Ceyhun bəyə məktubundan aydın olur ki, qəzetin büdcəsindən başqa qəzet əməkdaşlarının, o cümlədən redaktor vəzifəsini icra etmiş Ceyhun bəyin və Məhəmməd Əmin Rəsulzadənin məvacib məsələsini də Nəsib bəy özü həll edirmiş: "Bə'də, bizim qəzetədən sənə hər ay məvacib çıxmaq məsələsi də baş tutmadı. Çünki səndən sonra Nəsib bəy mənimlə görüşüb dedi ki, sən müdir olduğuna görə Ceyhunun məvacibini al və Məhəmməd Əmin də məvacibini alsın; deməli daha sənə xüsusi məvacib yeri qalmadı və smeta dəxi öylə də yazıldı. Lakin Məhəmməd Əmin[4] yalnız məqalə yazır, ağır iş mənim öz boynumdadır. Bu xəbərləri piş əz vaxt ( əvvəlcədən, vaxtından əvvəl – S.R.-T.) yazıram ki, Bakıda mədaxilinizə ümidvar olmayasınız ki, sonra məyusluq əmələ gəlir"[5].

Bu sətirlər yenicə baş nazir təyin edilmiş Nəsib bəyin maliyyə işlərində nə qədər dəqiq və qənaətcil olduğunu, hər hansı şəxsi münasibətlərə görə heç kimə güzəştə getmədiyini göstərir. Üzeyir bəyin özü də bu məsələyə münasibətdə tam anlaşma nümayiş etdirir və qardaşına bununla bağlı ürək-dirək verir: "Hər halda bununla kefinizi pozmayınız, sağlıq olsun. İnşallah qayıdandan sonra əvvəlkindən daha artıq qazanarsınız. Təki can sağlığı olsun. Bir də ümidvaram Yevropadan o qədər material gətirərsən ki, səndən ötrü böyük bir mənbeyi-mədaxil olar"[6].

Üzeyir bəyin bu məktubundan 1881-ci ilin yanvarından Bakıda rus dilində nəşr olunan məşhur "Kaspi" qəzetinin məhz "pulsuzluq üzündən bağlandı"ğı[7] məlum olur. Lakin, həmin məktubun sonrakı sətirləri informasiya-faktoloji məzmunu, həmçinin Üzeyir bəyin dövrün mühüm hadisələrinə münasibəti baxımından daha böyük əhəmiyyət daşıyır:

---

[4] Məhəmməd Əmin Rəsulzadə eyni zamanda "Azərbaycan" qəzetinin redaktorlarından biri kimi təsdiq olunmuşdu.

[5] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, v. 4-5.

[6] Yenə orada

[7] "Kaspi" qəzeti 1919-cu ilin mart ayından nəşrini dayandırmışdır.

“Bakı həyatından şayani-diqqət olan bir şey varsa, o da tez-tez tərtib verilməkdə olan “veçer”lərdir ki, hamısı yay klubunun zalında olur. Lakin indiki veçerlər ilə keçənkilərdə təfavüt vardır. İndi içki işi azad olduğuna görə veçerlərdə hamı kefli olur. Mən də hər dəm keflənirəm.

**Azərbaycan işinə gəldikdə Xan Xoyski hökuməti istefa verdi. Səbəbi “İttihadçı”lar oldu. Yeni kabinə işi Nəsib bəyə həvalə olundu.** Yəni Baş vəzir oldu. Lakin hələ hökumət düzəlməyibdir. Yəqin sabah düzələcəkdir. Hər halda işimiz yaxşıdır. **Könüllüləri və sairləri şəhərdən qovduq, ingilis polisasına da ehtiyac qalmadı; bu günlərdə öz qoşunumuz gəldi. Flot dəxi tərkisilah etdirildi**”[8].

Üzeyir bəy Ceyhun bəyə sonrakı məktublarında Nəsib bəy Yusifbəylinin baş nazir kimi fəaliyyəti haqqında daha təfsilatı ilə söz açır: “**Siyasi işlərə gəldikdə hal-hazırda hökumət böhranı mövcuddur. Nəsib bəy kabinəsi istefa etmişdir. Lakin bu günlərdə yenə başında Nəsib bəy olmaq üzrə yeni kabinə düzələcəkdir. Nazirlərin ədədi bir az azalıb əlavə zənn edirəm ki, sosialistlərə yer verilməyəcəkdir. Əhvali-siyasimiz dedikcə yaxşıdır. Nəsib bəy işi çox gözəl apardı və məmləkəti demək olar ki, hər bir təhlükədən qurtarmaqla bərabər abad, məmur və qüvvətli bir hala saldı. Bu saat tam mənası ilə müstəqil dolanırıq. İçimizdə heç bir biganə əl yoxdur. Qarabağ və Lənkəran məsələləri bizim nəfimizə olaraq həmən qan tökülmədən həll edildi. Bir əndişəmiz varsa, o da Şimaldandır. Lakin o barədə də bizə ümid verənlər yox degildir. Qərəz işimiz “xod”dur”[9].**

8 oktyabr 1919-cu il tarıxli bu məktubdan Üzeyir bəyin Nəsib bəy, həmçinin Məhəmməd Əmin Rəsulzadə, Şəfi bəy Rüstəmbəyovla ailə səviyyəsində yaxınlıq etdiyi, bu insanların Üzeyir bəyi 18 sentyabrda ad günü münasibəti ilə təbrik etdikləri mə-

---

[8] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, v. 4-5.

[9] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3. v. 6-7.

lum olur: “O günü yaxşı bir qonaqlıq qayırdıq. **Nəsib bəy özü, arvadı, Məhəmməd Əmin, Şəfi bəy** dəxi bizdə idilər. Sizin də sağlığınıza içdik və sizi **yad-bud etdik**”[10].

Bu da qeyd edilməlidir ki, öz məktublarında Üzeyir bəy Məhəmməd Əminin də adını tez-tez çəkir və ondan misallar gətirir. Burada bir haşiyə çıxaq ki, Üzeyir bəyin Ceyhunla məktublarının (AXC və xüsusilə 1920-ci illər - Sovet dövrü) ana xəttini Ceyhun Hacıbəylinin ailəsi ilə birgə Bakıya, vətənə qayıtmaq məsələsi təşkil edir. Lakin əgər Sovet dövrü bu məsələ sırf siyasi motivlərə söykənirdisə, AXC dövründə yalnız Ceyhun bəyin diplomatik missiyası ilə bağlı idi. Bununla belə, Üzeyir bəy hər məktubunda bütün Hacıbəyovlar ailəsinin Ceyhun bəyi və onun ailəsini hədsiz intizarla gözlədiyini qeyd edir və görünür ki, bu işə görə darıxan qardaşına ürək-dirək verirdi: “... böylə güman edirik ki, inşallah tezlik ilə görüşərik. Zatən Məhəmməd Əmin demişkən yevropalıların rəsmi surətdə gəlib, bir ay burada görüb də həqiqəti-haldan öz təşəbbüsləri ilə xəbərdar olmaları sizin orada bu qədər uzun qalmağınızı lüzumsuz buraxır... Hər halda biz sizin tez qayıtmanız tərəfdarıyız”[11].

Məlumdur ki, 1919-1920-ci illər, hətta 1920-ci illərin əvvəllərində Ceyhun bəy Parisdə yalnız diplomatik fəaliyyətlə kifayətlənməmiş, Üzeyir bəyin musiqili komediyalarının Fransada tamaşalarını təşkil etmək, bu məqsədlə Bakıdan teatr truppalarının Parisə qastrola aparmaq məsələlərini həll etməyə çalışmışdır. Bu niyyətindən Ceyhun bəy hətta 1920-ci illərdə də əl çəkməmiş, Üzeyir bəylə bu mövzu ətrafında xeyli yazışmış, nəhayət böyük çətinliklə də olsa bu niyyətinə nail olmuşdur. 1925-ci ildə Ceyhun Hacıbəylinin tərcüməsində və onun rejissorluğu ilə Parisin «Femina» teatrında Üzeyir Hacıbəylinin «Arşın mal alan» operettası tamaşaya qoyulmuşdur.

Təəssüf ki, Üzeyir bəyin bu məqsədlə Parisə getmək arzusu nə Azərbaycan Xalq Cümhuriyyəti, nə Azərbaycanda Sovet haki-

---

[10] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3. v. 6-7.

[11] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3. vər. 6-7

miyyəti dövründə baş tutmamışdır. Lakin Üzeyir bəyin 1920-ci ilin yanvar ayının sonlarında Ceyhun bəyə yazdığı məktubdan bu işin reallaşmağa daha yaxın olduğu, bu işin məhz Nəsib bəyin vasitəsilə həll olunacağına işarə edilir, lakin elə həmin sətirlərdə nə üçün baş tutmadığı göstərilir: "O ki, qaldı Parisə truppa aparmaq işinə, mən bu barədə Nəsib bəy ilə danışdım, o da tapşırdı ki, mən smeta düzəldim. Mən də düzəldib, verdim. **Ancaq Nəsib bəy demədi ki, əgər bizi təsdiq etsələr, o halda getməyə lüzum olmayacaqdır. Odu**r ki, indi artıq getmək əhvalatı hələ sonraya qaldı"[12].

"Bizi təsdiq etsələr..." Burada söhbət Azərbaycan Xalq Cümhuriyyətinin böyük dövlətlər tərəfindən tanınmasından gedir və məktubunun əvvəlində Üzeyir bəy fərəhlə bildirir ki, "bu gün ki, 13 yanvardır[13], Azərbaycanınsa təsdiqi – bayramına məşğuluq..."[14]. Bu böyük hadisə Üzeyir bəyin şəxsi planlarını "sonraya qoysa" da, göründüyü kimi, o bundan qətiyyən kədərlənmir, əksinə bu hadisə ilə bağlı qardaşının tezliklə vətənə qayıdacağına ümid bəsləyir. Belə ki, "Qəzetə işim musiqi işlərimə çox xələl yetirir, odur ki, qəzetədən çıxmaq istəyirəm, lakin hələ ki, bir münasib müdir tapa bilmiyorlar. İndi mən sən gələni gözləyib, qəzetəni saxlaram"[15].

Göründüyü kimi dövlət maraqları Üzeyir bəy üçün bir daha şəxsi işləri üstələyir. Belə ki, qardaşının Bakıya qayıtmasında hər tərəfli maraqlı olan Üzeyir bəy, Azərbaycan hökumətinin Avropa ölkələrində səfirliklər açmaq planlarından xəbərdar olduğundan, Ceyhun bəyin də diplomatik təcrübəsinin şəksiz ki, bu məqsədlə istifadə olunacağına şübhə etmədiyindən, 1920-ci ilin əvvəllərində yazdığı başqa bir məktubunda bu məsələni baş nazir Nəsib bəylə aydınlaşdırmaq zərurətini qeyd edir: "Əlavə burada bir

---

[12] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, v. 2-3

[13] Köhnə təqvimlə 13 yanvar - yeni təqvimlə 26 yanvar 1920-ci il.

[14] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 3, v. 2-3

[15] Yenə orada

məsələ var ki, Yevropada səfarətlər təyin edilsin. Bu xüsusda mən Nəsib bəy ilə görüşmək istəyirəm ki, görüm sənin barəndə fikirləri nədir. Hərgah bir böylə plan olsa ki, sən Parisdə səfarət işlərinə məşğul olasan, o halda sən buraya qayıtmalı olmasan, mən səy edəcəyəm ki, özüm də oraya gəlim, yox əgər sən gəlməli olsan, onda burada danışarıq"[16].

Lakin həmin məktubda Üzeyir bəy daha bir mühüm məsələ ilə bağlı Nəsib bəyin fikrini qardaşına çatdırmağı lazım bilir: "Və bir də neçə gün əvvəl İstanbul səfirimiz Yusif Vəzirovdan[17] bir məktub aldım. Yazır ki, ermənilərin fransızca "Renesans" qəzetəsi iddia edir ki, "Arşın mal alan"ı yazan ermənidir. Yusif bu işdən çox mütəəssir olduğunu yazır və israr eyləyir ki, mən əsərlərimin notlarını çap etdirib onlara göndərim ki, səfarət xərcinə olaraq bütün Yevropada, həmən Amerikaya böylə intişarına səy etsin. Hərgah mən Parisdə olsaydım notlarımı tezlik ilə və yəqin ki, ucuz olaraq çap elətdirərdim. Mən əhvalatı Nəsib bəyə söylədim. Dedi ki, bu iddia ermənilərin Zəngəzur iddiasından daha betərdir"[18].

Maraqlıdır ki, bu məktubda Üzeyir bəy daha bir münasibətlə Nəsib bəyi yada salır, onunla teatrda görüşdüyünü və Ceyhun bəyin ailəsində yeni övladın gözlənildiyi xəbərini Nəsib bəyin zarafatyana bir tərzdə ona necə xəbər verdiyini bildirir.

Üzeyir bəyin məktublarından yuxarıda gətirilən nümunələr Nəsib bəyin istər siyasi dövlət xadimi, istər bir insan kimi obrazına kiçik ştrixlər kimi qiymətləndirilməklə yanaşı, Azərbaycan xalqının bu iki görkəmli simasının arasında olan münasibətlərin eyni yüksək amallara və bir o qədər də təmiz, səmimi əsaslara söykəndiyinə bariz sübutdur.

Zaman və tarix bu görkəmli şəxsiyyətlərin istər varlığı uğrunda böyük səy və məhəbbətlə çalışdıqları Azərbaycan Cümhuriyyətinin, istərsə də öz talelərinin heç də onların düşündükləri,

---

[16] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 4. v. 1.

[17] Yusif Vəzir Çəmənzəminli nəzərdə tutulur.

[18] AR Ədəbiyyat və incəsənət arxivi, fond 649, siy. 2, iş 4. v. 1.

arzu və ümid etdikləri kimi düzənlənmədiyini göstərdi. 1920-ci il aprelin sonlarında baş verən siyasi hadisələr yalnız Azərbaycan Cümhuriyyətinin deyil, Nəsib bəy Yusifbəylinin də həyatına son qoydu. Ceyhun bəy Hacıbəyli mühacirət həyatını seçdi və ömrünün sonlarına kimi vətən həsrəti ilə yaşadı. Hadisələrin sonrakı gedişi Ceyhun bəyin bu seçiminin nə qədər ağır olsa da onun özünü və qardaşı Üzeyir bəyi 1930-cu illərin siyasi repressiyalarından xilas etdiyini göstərdi. Belə ki, dövrün sənədləri göstərir ki, 1920-30-cu illərdə xaricdən Vətənə qayıtmış bütün görkəmli və daha az tanınan mühacirlər, o cümlədən Yusif Vəzir Çəmənzəminli, istisnasız olaraq Stalin repressiyalarının qurbanları olmuşlar.

Məktublarda adı çəkilənlər arasında ən "xoşbəxt" taleli sayılacaq Üzeyir Hacıbəyov həqiqətən öz xalqı və vətəni qarşısında xidmətlərinə görə şöhrətin ən yüksək zirvəsinə qalxaraq dövrünün ən ali mükafatlarına layiq görülsə və ümumxalq məhəbbəti qazansa da, sənədlər bu böyük İnsanın da zaman-zaman itirdiyi həmməslək dostları və yaxınlarına görə daim daxili iztirab və sarsıntı içində yaşadığından xəbər verir. Nəsib bəy Yusifbəylinin itkisi bu baxımdan ən faciəvi və ağrılı sayıla bilər.

*Фархад Джаббаров*

## ПО СЛЕДАМ ОДНОЙ ДОКЛАДНОЙ ЗАПИСКИ ПРЕМЬЕР-МИНИСТРУ

Провозглашение Азербайджанской Демократической Республики открыло новую страницу не только в политической, но и в экономической истории страны. После векового пребывания в качестве колонии Российской империи Азербайджану в 1918 г. была предоставлена возможность самому определять направления экономического развития. Вывод промышленности, сельского хозяйства, транспорта из кризиса, наращивание потенциала молодой республики были не менее важными задачами, нежели политическая независимость. Выступая 14 апреля 1919 г. в парламенте с декларацией правительства, премьер-министр Н.Усуббеков подчеркнул важность укрепления независимости Азербайджана и указал на прямую зависимость ее от экономической мощи, тесно связанной с вопросами продовольствия, торговли и финансов.[1]

Следует отметить, что политика всех пяти правительственных кабинетов АДР основывалась на принципах рыночной экономики при сохранении серьезного государственного вмешательства как в сферу производства, так и потребления и обмена. Всячески поощряя личную инициативу и частную собственность, правительство определяло пределы частной собственности. Предусматривалось, что наличие частной собственности не должно привести к ее полному разукрупнению, особенно, это касалось фабрик и заводов. При создании многоукладной экономики особое

[1] Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (Стенографические отчеты). Баку, 1998, с. 352. (Далее: АДР. Парламент).

значение придавалось государственной собственности. Считалось, что сила государства не только и не столько в его законотворческой деятельности, сколько в мощи государственной власти.[2]

В новых исторических условиях продолжила свою деятельность и национальная буржуазия Азербайджана. Ее представители приняли деятельное участие в органах государственной власти – некоторые являлись депутатами парламента, иные заняли министерские посты. Впервые национальные предприниматели получили доступ в государственные структуры (до 1918 г. они были представлены лишь в местных органах самоуправления), что, в свою очередь, благоприятно отразилось на проведении государственной политики во всех сферах экономики страны, т.к. правящие круги воспользовались многолетним опытом национальной буржуазии.

Представители национального капитала активно включились в процесс восстановления разрушенных в ходе военно-политических потрясений начала XX века различных отраслей хозяйства страны. Правительство страны восстановило принцип частной собственности, нарушенный большевиками, провело денационализацию, осуществило выдачу ссуд предпринимателям и другие мероприятия, которые, несомненно, вызывали одобрение у буржуазии.

В то же время, отношение национальной буржуазии к внутренней и внешней политике правительства не может быть оценено как безоговорочно положительное. Поддерживая политический курс на укрепление независимости и национальной государственности, буржуазия одновременно находилась в серьезной оппозиции к правительству именно в вопросах финансово-экономических и социальных. При-

---

[2] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, I cild, Bakı, 2004, s. 57.

чины этого недовольства можно сгруппировать следующим образом:

1) местные нефтепромышленники несли значительные убытки из-за бесплатного экспорта нефтепродуктов для нужд британского командования;
2) государство вмешивалось в деятельность торгово-промышленных фирм и предприятий, устанавливая твердые цены, максимум объема продукции;
3) частая денежная эмиссия приводила к усилению инфляционных процессов в стране, что неизбежно влияло и на доходы предпринимателей;
4) особое недовольство у буржуазии вызывали правительственные ограничения и запреты на вывоз из страны продовольствия, мануфактуры, металла, шелка, хлопка и т.д. Вызванная объективными причинами, а именно, острой нехваткой этих видов товаров в республике, данная мера властей воспринималась бизнес-кругами как удар по свободной торговле и частной инициативе. Именно в этом вопросе буржуазия заняла непримиримую позицию, отстаивая свои интересы и выгоды.
5) деятельность министерств и ведомств, руководивших экономической жизнью страны и, в особенности, Министерства торговли и промышленности. Случаи злоупотреблений, бюрократической волокиты в выдаче разрешений на экспортно-импортные операции, реквизиции товаров на пристанях и судах – все это вызывало раздражение у предпринимателей, усиливая их разногласия с правительством.

Возникшие трения между национальной буржуазией и правительством Азербайджана, как следствие глубоких экономических проблем в стране, не могли не быть затронуты в апрельской декларации Н.Усуббекова. Выступая перед парламентариями, он указал на неэффективность вмешательства

правительства в лице Министерства продовольствия в дела торговли, которое не дало желаемых результатов, а также на необходимость коренных преобразований в этой области.[3]

Представители деловых кругов живо откликнулись на эту часть декларации и в течение 1919 г. несколько раз отправляли обращения в правительственные структуры, выражая свое мнение по поводу запретительных мер и государственного вмешательства в частный сектор. В качестве примера можно привести письмо управляющего общества «Кавказ и Меркурий» и «Восточного общества» в адрес заместителя министра торговли и промышленности, выступление представителей Торгово-промышленного союза на одном из заседаний Комитета по товарообмену при Министерстве торговли и промышленности, прошение в адрес правительства от уполномоченных от Общего собрания лиц, заключивших с Министерством торговли и промышленности договоры.[4]

Однако первым в хронологическом отношении документом, направленным от национальной буржуазии в адрес правительства, в котором ее «заботы и тревоги нашли концентрированное выражение»,[5] явилась докладная записка известного азербайджанского предпринимателя и благотворителя Гаджи Зейналабдина Тагиева, адресованная премьер-министру Н.Усуббекову.

Докладная записка датирована 29 июня 1919 г. К этому времени Г.З.Тагиеву – одному из важных двигателей местного прогресса, как называл его Д.И.Менделеев, человеку, предпринимательская деятельность которого охватывала почти все отрасли экономики, без которого невозможно представить отечественную историю нового периода, исполнился 81 год. Г.З.Тагиев, имевший за плечами многолетний опыт

[3] АДР. Парламент. с. 352.

[4] Дж.Рустамова. Национальная буржуазия в период Азербайджанской Демократической Республики. Баку, 2007, с. 145-149.

[5] Там же, с. 152.

проницательного и успешного бизнесмена, своими деяниями и широкой филантропией завоевавший еще при жизни имя «отца нации», обращался к главе правительства Азербайджана. За годы своей жизни ему неоднократно приходилось письменно и устно обращаться к представителям властных структур Российской империи как в Петербурге, так и в Тифлисе и Баку. Обращения эти были разные: прошения разрешить открыть учебные заведения, построить дома, выражения благодарности и верноподданнических чувств и т.д. Но докладная, адресованная Н.Усуббекову, отличалась от них. Это было первое обращение влиятельного как в предпринимательских кругах, так и в целом, в обществе человека к главе правительства независимого Азербайджана. В этой связи привлекают внимание первые строки докладной записки: «На закате моей долголетней жизни Провидение сподобило меня увидеть зарю нового независимого государственного существования, взошедшую над дорогим моим отечеством. Любовь к родному краю и горячее желание видеть его благоденствие и процветание, побуждают меня обратиться к Вам с настоящей докладной запиской».[6]

Далее Г.З.Тагиев совершает небольшой экскурс в начальную историю АДР и сразу же привлекает внимание Н.Усуббекова к изложению своего взгляда на экономическое развитие Азербайджана: «В настоящее время, когда установлен внутренний порядок, урегулированы отношения с соседними государствами и европейскими державами, когда молодая республика победоносно вышла из испытаний и перед ней открылся свободный путь к прогрессу на поприще культурного, общественного и экономического развития, я вижу благоприятный момент для того, чтобы обратить внимание Вашего высокопревосходительства на вопросы также весьма

---

[6] Азербайджанская Республика. Документы и материалы // под ред. Дж.Б. Гулиева. Баку, 1998, с. 251-252.

важные, но до сих пор остававшиеся вне центра напряжения правительственной деятельности, отвлекавшейся задачами неотложными, требовавшими немедленного разрешения. Я говорю о нашей финансовой и экономической политике. И моя любовь к отечеству, и опытность, приобретенная в течение продолжавшейся почти три четверти века работы на общественном и торгово-промышленном поприще, не только дают мне право, но и налагают на меня нравственную обязанность откровенно высказать перед Вашим высокопревосходительством мое глубокое убеждение, что нынешняя политика правительства в финансовой и торгово-промышленной области стоит на ложном пути и что немедленное и решительное изменение курса в этой области может предотвратить угрожающую нашей молодой республике экономическую катастрофу».[7]

Г.З.Тагиев подвергает критике три главных направления правительственной политики: частая денежная эмиссия, запретительная система на вывоз товаров из страны, вмешательство государства в дела частных фирм и предприятий. Касаясь первого фактора, он писал: «Вашему высокопревосходительству не могло не остаться неизвестным то неимоверное падение курса наших денежных знаков, которое имело место за несколько последних месяцев. Дошло до того, что наш номинальный рубль расценивается на западноевропейском рынке меньше, чем наши собственные кредитные билеты, обеспеченные всем достоянием государства. Разумеется, такое падение курса отчасти вызывается общими причинами, лежащими вне нашего контроля и управления, но помимо этих причин, ведущих к общей дешевизне денег на мировом рынке, большую долю ответственности приходится возложить и на нашу финансовую политику, до сих пор усматривающую в новых и новых выпусках бумажных денег

[7] Азербайджанская Республика. Документы и материалы // под ред. Дж.Б. Гулиева. Баку, 1998, с. 251-252.

единственное средство покрывать государственные расходы и не изыскавшую никаких действительных мер к привлечению обратно в государственные кассы всех этих бумажек, наводняющих страну, имеющих ничтожную покупательную способность, не являющихся для населения желательным объектом сбережения и вызывающих в их обладателе только стремление как можно скорее пустить их в оборот, чтобы удачными спекуляциями наверстать ту потерю, которую он иначе нес бы на продолжающемся падении курса».[8]

В данном случае Г.З.Тагиев совершенно верно оценил финансовую политику правительства. Начиная с сентября 1918 г., оно практически регулярно осуществляло денежную эмиссию, пуская в оборот бакинские боны. Ситуация осложнялась еще и тем, что свободное хождение в Азербайджане имели денежные знаки бывших царского и Временного правительства России, а также боны южнокавказского правительства, выпускаемые в Тифлисе. Последние продолжали печататься и в период существования независимой Грузии. Обеспокоенность Азербайджана вызвало подписанное 12 февраля 1919 г. между Грузией и Арменией соглашение о совместном выпуске 320 млн. южнокавказских бон. Дело доходило до того, что бакинские боны не принимались в соседних республиках, а деньги Армении и Грузии имели свободное хождение в Азербайджане. Такое ненормальное положение, когда в государстве имели хождение 4 денежные единицы с неодинаковой рыночной расценкой, чрезмерное использование эмиссионного права могло привести к финансовому краху.[9]

Выступая 14 апреля 1919 г. в парламенте, премьер-министр Н.Усуббеков высказал возможность устранения параллелизма в выпуске денег в Баку и Тифлисе. Он считал,

---

[8] Азербайджанская Республика. Документы и материалы // под ред. Дж.Б. Гулиева. Баку, 1998, с. 251-252.

[9] Азербайджанская Демократическая Республика. Баку, 1998, с. 201. (Далее: АДР).

что если удастся отрегулировать курс азербайджанских денег с помощью экспорта товаров, то отпадет необходимость в выпуске лишних денег. Для поднятия ценности Н.Усуббеков предлагал перейти к продаже нефти только на азербайджанские деньги.[10] Забегая вперед, отмечу, что эту же меру предлагал предпринять и Г.З.Тагиев. В докладной записке он замечал, что правительство, «запрещая вывоз из Азербайджана исключительно таких продуктов, которые безусловно необходимы для внутреннего потребления и не имеются в избытке, во всем остальном пришло бы всеми силами на помощь экспортерам, лишь с единым условием, чтобы за весь вывозимый товар уплата производилась непременно в азербайджанской валюте. Только такая политика, в связи с изысканием мер для извлечения из народных масс находящихся среди них в обращении лишних денег, служащих орудием мелкой и крупной спекуляции, позволит нашему финансовому хозяйству окрепнуть и выйти из того трагического положения, в котором оно ныне находится».[11]

Однако, как показали дальнейшие события, кабинет Н.Усуббекова свою финансовую политику в основном продолжал строить по такому же принципу, как и ранее. Накануне отправки докладной записки Г.З.Тагиева, а именно 24 апреля 1919 г., Министерство финансов внесло в парламент законопроект об увеличении эмиссионного права на 510 млн. рублей. 5 мая парламент разрешил выпуск денежных знаков, оговорив при этом, что без его санкции нельзя выпускать дополнительные денежные знаки. И когда через 7 месяцев правительство опять подняло перед парламентом вопрос об эмиссии (теперь речь шла о 600 миллионах рублей), выяснилось, что уже выпущено без согласия парламента 434 миллиона рублей.[12]

[10] АДР. Парламент, с. 353.
[11] Азербайджанская Республика. Документы и материалы, с. 253.
[12] АДР, с. 203.

Как видно, поднятый Г.З.Тагиевым в докладной записке Н.Усуббекову вопрос о денежной эмиссии являлся одной из ключевых проблем экономического развития независимого государства. В то же время вся последующая деятельность правительства не обнаружила возможности найти иные источники и другие способы изъятия денег из оборота и вновь свелась к выпуску новых денежных знаков.

Правительству Н.Усуббекова удалось частично решить этот вопрос только в начале 1920 г. Оно стало регулировать курс национальной валюты с помощью экспорта товаров и перешло к продаже нефти только на азербайджанские деньги. В начале февраля 1920 г. министр финансов Рашид бек Капланов принял решение прекратить обмен бакинских бон на южнокавказские со стороны Агентства Министерства финансов АДР в Тифлисе. Накануне апрельской оккупации министр распорядился взимать акцизную плату с пошлины за вывозимые в Батум нефть и нефтепродукты только азербайджанскими деньгами.[13]

Объектом дальнейшей критики Г.З.Тагиева стали мероприятия национального правительства, получившие в целом название запретительной системы. Вызванные необходимостью стабилизировать ситуацию внутри республики, они были призваны улучшить обеспечение населения продовольствием и товарами. Еще с августа 1918 г., по постановлению правительства, в пределах Азербайджанской Республики разрешалась свободная купля-продажа всех видов продовольственных товаров. Вывоз же их за пределы страны допускался лишь с разрешения министра торговли и промышленности. В 1919 г. официально были утверждены правила, согласно которым часть товаров была запрещена к вывозу (по поводу разрешения на их вывоз следовало обращаться непосредственно к министру торговли и промышленности),

[13] Дж.Рустамова. Указ. раб., с. 104.

а часть могла вывозиться по принципу товарообмена. В первую группу входили основные виды продовольственных товаров, а во вторую – часть продуктов, а также нефть, нефтепродукты, хлопок, металл и др.[14]

Правила эти периодически менялись, дополнялись, и государство чаще всего выступало в роли не только регулятора экспортно-импортных операций, но активно вмешивалось в этот процесс, следя за расценками на товары и услуги, за поставками, иногда запрещая одни и поощряя иные торговые операции с заграницей. Подобная политика не могла вызвать особого одобрения у предпринимателей, усмотревших в этом очередное ущемление правительством частной инициативы и свободных рыночных отношений. К их числу относился и Г.З.Тагиев, так охарактеризовавший в докладной записке Н.Усуббекову политику правительства: «Известно, какое важное значение имеет для экономической независимости государства активный баланс его вывозной торговли. Казалось бы, на создание такого баланса должны были быть направлены, с самого начала, все усилия подлежащих учреждений. В действительности, до самого последнего времени у нас продолжает действовать в этом отношении система запрещений, так ярко и столько раз уже доказавшая свою полную несостоятельность. Не только предметы продовольствия и первой необходимости подвергались этому запрещению вывоза. Запрет налагался и на такие продукты, как шерсть, почти не обрабатывающаяся в пределах Азербайджана. И наконец, для вывоза нефти, производимой нами в избытке и переполняющей резервуары наших фирм, установилась такая сеть бюрократических стеснений и ограничений, в виде громадных залогов, неустоек, обязательств доставить в обмен на вывозимую нефть непременно тот, а не иной продукт, и т.д., что в противность выгодам государства создался порядок,

[14] Дж.Рустамова. Указ. раб., с. 136-137.

при котором разрешения на вывоз стали предметом торга и ажиотажа, а сама операция сделалась рискованным спекулятивным предприятием.

Создалось печальное и неестественное положение, при котором в то время, как нам уже известно, широким потоком льются иностранные товары, вызывая в стране соответственный спрос на заграничную валюту для покупки этих товаров, наша валюта за границей никому не нужна и не находит себе покупателей, по той причине, что владелец такой валюты, если он иностранец, лишен возможности приобрести в Азербайджане и вывезти к себе нужный ему товар».[15]

Критика Г.З.Тагиевым политики кабинета Н.Усуббекова может показаться чисто конъюнктурной, продиктованной лишь узкими интересами буржуазии, представителем которой являлся автор записки. Но анализ ситуации, царившей в то время в Азербайджане, доказывает обоснованность слов Г.З.Тагиева. Действительно, со стороны чиновников имели место злоупотребления, связанные с выдачей разрешений на экспортно-импортные операции, с вывозом товаров, распределением продукции. Эти факты были настолько частыми, что вызвали прения и в парламенте. 28 января 1919 г. лидер фракции «Иттихад» Карабек Карабеков сделал запрос правительству по поводу спекуляции в стране нефтью и бязью с Тагиевской текстильной фабрики. Выступая на заседании законодательного органа, он заявил: «Из нашего богатства мы не можем извлечь никакой пользы. На торговлю нефтью и на вывоз имеются всякого рода запрещения, и лишь немногие счастливцы получают необходимые разрешения, не знаю благодаря чему: покровительству ли судьбы, родственным связям, личному ли влиянию...».[16] Данному запросу было посвящено четыре парламентских заседания. Представите-

---

[15] Азербайджанская Республика. Документы и материалы, с. 253.
[16] АДР. Парламент, с. 139-140.

ли большинства парламентских фракций выступили с осуждением создавшегося положения. Интересным является выступление премьер-министра Фатали хана Хойского на заседании 6 февраля 1919 г. Глава кабинета недвусмысленно намекнул, что запрос иттихадистов – это не что иное, как «попытка подставить ногу правительству». Удивительно, но премьер в своей речи не обмолвился ни одним словом по поводу того, какие меры предпринимает правительство для борьбы со спекуляцией и злоупотреблениями. Вместо этого он довольно эмоционально озвучил свое возмущение запросом: «Парламент может и должен делать запросы. Но запрос запросу рознь. Разве сейчас такой момент, чтобы подставлять правительству ногу? Разве этим языком можно говорить в этот тяжелый момент со своим правительством?.. Сегодняшний вопрос подняли те, кто хочет свалить в этот момент правительство…».[17]

Подобное выступление премьера, скорее всего, возымело действие на членов парламента. Когда началось обсуждение постановления относительно запроса, фракция социалистов предложила создать чрезвычайную парламентскую комиссию с обширными полномочиями для выяснения и расследования всех дел, связанных со злоупотреблениями и спекуляцией, а также особую комиссию по выработке положения о верховном трибунале, которому были бы подсудны все преступления по должности, все дела по спекуляции и контрреволюции в стране. Фракция «Мусават» предложила следующую формулировку постановления: признать объяснения правительства на запрос удовлетворительным и учредить Особую комиссию для выработки мероприятий в целях наилучшего использования продуктов производства страны и правильной постановки продовольственного дела. В конце концов, парламент принял резолюцию довольно умеренного

---

[17] АДР. Парламент, с. 182-183.

содержания: «Заслушав ответ правительства на предъявленные запросы, Парламент, выражая пожелание к наискорейшему принятию мер, указанных председателем правительства, находит объяснения правительства удовлетворительными и переходит к очередным делам» (формулировка предложена депутатом А.Ашуровым). Во второй пункт резолюции было внесено предложение «Мусават»а относительно Особой комиссии.[18]

Таким образом, парламент не смог вовремя и верно отреагировать на одну из острых проблем в жизни республики. Пожалуй, если бы депутаты заняли твердую позицию, то удалось бы устранить все негативные факты в купле-продаже продовольствия и товаров. И хотя приведенный пример прений в парламенте хронологически не совпадает ни с темой настоящего сборника, ни с рассматриваемой докладной запиской Н.Усуббекову, тем не менее, непреложным является то, что именно из-за непринятия своевременного решения в начале 1919 г., вышеупомянутые злоупотребления продолжали иметь место как во время написания Г.З.Тагиевым записки, так и впоследствии.

Кстати, Н.Усуббеков, выступая в парламенте 14 апреля 1919 г., указывал на неэффективность правительственных мер в сфере ограничения экспортно-импортных операций, которые не дали желаемых результатов, а также на необходимость коренных преобразований в этой области. Он сообщал о намерении правительства выпустить на рынок достаточное количество товаров для понижения тем самым рыночных цен и способствовать привлечению товаров извне при полной свободе внутренней торговли, урегулировав таким способом вопросы продовольствия в стране.[19] Однако, как показали последующие события, крайне непопулярные сре-

---

[18] АДР. Парламент, с. 182-183.

[19] АДР. Парламент, с. 352.

ди торгово-промышленных кругов Азербайджана запретительные меры в торговой области продолжали сохраняться. Некоторые из этих мер задели, в частности, интересы автора докладной записки Н.Усуббекову. Дело в том, что, исходя из экономических и оборонных интересов государства, правительство отклоняло некоторые ходатайства о вывозе товаров из страны. Так, 2 декабря 1919 г. было отклонено ходатайство бакинского градоначальника об отпуске с хлопчатобумажной фабрики Г.З.Тагиева мануфактуры для товарообмена на хлеб в пределах страны. Этот отказ мотивировался острой нуждой военного ведомства в изделиях фабрики. В этот же день было отклонено и ходатайство некоего Давидянца, имевшего разрешение на вывоз пряжи с фабрики Тагиева.[20]

Наибольшее место в докладной записке премьер-министру Г.З.Тагиев уделил проблемам хлопчатобумажной фабрики, принадлежащей «Кавказскому акционерному обществу обработки волокнистых веществ Г.З.Тагиева». Он так охарактеризовал значение этого предприятия, открытого в 1900 г. и остававшегося единственным в своем роде на всем Южном Кавказе: «Ценою многих жертв и трудов я основал и прочно поставил в родном крае новую отрасль промышленности, дал верный заработок многим тысячам местных жителей, создал могучее побуждение для развития в Азербайджане новой отрасли сельскохозяйственной культуры – хлопководства, предоставил населению дешевый продукт первой необходимости, дал нашей вывозной торговле новый предмет экспорта и обогатил государство новым источником благосостояния и дохода».[21]

По словам автора записки, обретение Азербайджаном независимости создало надежду, что «законная власть предоставит промышленности свободу развития, принимая во

---

[20] Дж.Рустамова. Указ. раб., с. 140.

[21] Азербайджанская Республика. Документы и материалы, с. 254.

внимание ту важность, которую имеет процветание промышленности для блага всего государства. А между тем, напротив, с самого установления в Баку законного государственного строя и по сию пору, к фабрике применяется система запретов, стеснений и ограничений, тормозящая дело, вовлекающая предприятие в миллионные убытки и грозящая, при ее продолжении, довести фабрику, представляющую собою реальную ценность в 400 тысяч фунтов стерлингов золотом, что составляет по нынешнему курсу 280 миллионов рублей, до разорения, банкротства и ликвидации».[22]

Чем была вызвана такая резко критическая оценка Г.З.Тагиева? Дело в том, что правительство ввело правило, согласно которому продукция хлопчатобумажной фабрики могла отпускаться только после разрешения Министерства торговли и промышленности. К каким последствиям привело введение этого правила, явствует из описания Г.З.Тагиева: «…на почве выдачи разрешений развилась самая беззастенчивая спекуляция. Разрешения стали предметом торговли, переходили из рук в руки, тут же у кассы фабричного склада перепродавались с надбавками по нескольку раз; и в результате товар, на который Министерством было выдано разрешение известному лицу или группе лиц, оказывался в руках розничных торговцев, с лихвой наверстывавших свои расходы на потребителе, до которого этот товар доходил, так сказать, контрабандой. Создавался в городе и во всей стране мануфактурный голод, а на фабричных складах накоплялся товар, ибо медлительность разрешительной процедуры и осторожность Министерства по выдаче разрешений, не предохраняя население от эксплуатации, вела к искусственному понижению количества ежемесячно выпускаемого на рынок товара. В то время, как население втридорога платило за мануфактуру, просачивавшуюся в общее пользование сквозь разрешитель-

[22] Азербайджанская Республика. Документы и материалы, с. 254.

ные фильтры, громадные запасы товара образовывали и продолжают образовывать мертвый капитал, не приносящий ни процентов, ни коммерческой прибыли, подверженный опасности порчи и пожара, изъятый из оборота и тяжелым грузом лежащий в балансе предприятия, в то время как оно испытывает самую острую нужду в наличных деньгах для расчетов с рабочими и для закупочных операций. В настоящее время стоимость этих запасов, иммобилизованных разрешительной системой, составляет от 6 до 7 миллионов рублей».[23]

В докладной записке Г.З.Тагиев подверг также критике другую меру правительства – установление твердых цен на продукцию фабрики. По его словам, цены эти не соответствуют рыночным и являются для фирмы разорительными, а для населения – невыгодными. После установления правительством твердой цены на бязь в размере 5 рублей 50 копеек, фабрикой Тагиева было отпущено разным частным лицам и организациям 973 тысячи аршин, всего на сумму 5350000 руб. Попадая в руки перекупщиков, эта бязь продавалась на рынке по цене от 11 до 20 рублей. Таким образом, заключал Г.З.Тагиев, «…на долю разных посредников пришлось прибыли в среднем, самое меньшее, по 7 рублей за аршин, а всего 6800000 рублей, которых не сберегло население и не получила фабрика…».[24]

Г.З.Тагиев сообщал премьер-министру обо всех этих проблемах в июне 1919 г., хотя еще в начале года, как уже упоминалось выше, парламентская фракция «Иттихад» предъявила запрос правительству Ф.Хойского по поводу незаконной торговли бязью с Тагиевской фабрики. Выступая по поводу запроса, лидер «Иттихад»а К.Карабеков заявил: «Бедное население, несмотря на то, что имеется фабрика, отпускающая бязь по 5 руб. за аршин, вынуждено покупать эту бязь на рын-

---

[23] Азербайджанская Республика. Документы и материалы, с. 254-255.

[24] Там же, с. 256.

ке по 17 руб. Создан и вокруг этой фабрики ряд преград, преодолевают которые лишь немногие избранные. Получивший разрешение на бязь, продает эту бязь уже у дверей фабрики по 12 руб. за аршин».[25]

В докладной записке Г.З.Тагиева имеется намек на возможность закрытия фабрики. Перечисляя вклад предприятия в развитие хозяйства страны, обеспеченность работой до 3 тысяч рабочих, возможность фабрики поднять производство с 300 тыс. аршин ткани до 1 млн. ежемесячно и т.д., он приходит к следующему выводу: «И это предприятие, благодаря ошибочным и неудачным мероприятиям ведомства торговли и промышленности, едва оказывается в состоянии выплачивать жалованье рабочим, не может выполнять своих обязательств по отношению к поставщикам и находится в таком отчаянном положении, что готово поднять вопрос о ликвидации или о возбуждении перед правительством ходатайства о выкупе предприятия по его действительной нынешней стоимости и о принятии его в эксплуатацию казны».[26]

Следует отметить, что после докладной записки правительство пошло на некоторую уступку, повысив цены на бязь до 10 руб. за аршин. Это давало Г.З.Тагиеву около 1 млн. рублей прибыли только от реализации имеющегося на складе товара.[27] Однако новые цены не удовлетворили владельца фабрики, и он стал ходатайствовать перед Министерством торговли и промышленности о разрешении на сокращение производства вследствие плохого состояния технического оборудования фабрики. Порой дело доходило до угроз прекратить отпуск бязи всем лицам и учреждениям за исключением военного министерства. Кавказское общество обработки волокнистых веществ отказалось даже выполнить

[25] АДР. Парламент, с. 140.

[26] Азербайджанская Республика. Документы и материалы, с. 257.

[27] Л.Алиева. Рабочие-текстильщики Баку в начале XX в. Баку, 1969, с. 154.

требование Министерства торговли и промышленности об увеличении нормы выпуска пряжи.[28]

В июне 1919 г. правительство направило на фабрику контролера Министерства, которому было поручено вести наблюдение и учет работ на фабрике, сообщать о всех случаях, связанных с уменьшением производства или ухудшением качества вырабатываемых продуктов. Директор фабрики обязывался ежедневно представлять контролеру технические рапорты о заправке станков, выработке пряжи, ваты, тканей. В декабре 1919 г. Министерство утвердило нормы обязательной ежемесячной выработки тканей, представляемых в распоряжение правительства. В свою очередь, последнее должно было снабжать фабрику хлопком, но это обязательство почти не выполнялось.[29]

1 января 1920 г. истек срок действия установленных правительством твердых цен на продукцию фабрики, и Г.З.Тагиев предложил Министерству промышленности и торговли рассмотреть вопрос о возможности заключения договора между властями и Обществом. Это, по его мнению, позволило бы «руководителям дела развить ту промышленную предприимчивость и свободную инициативу, без которых всякое предприятие обречено на застой и упадок… Правительство таким путем восстановило бы и Акционерное общество в его правах и обязанностях владельца и распорядителя предприятия…». Однако вследствие расхождения по ряду вопросов соглашение не было достигнуто.[30]

В докладной записке премьер-министру Н.Усуббекову Г.З.Тагиев не ограничился лишь критикой политики правительства, но и выдвинул свои предложения по выходу из кризиса. Первое, на что он указывает, - это необходимость пересмотра взгляда на промышленника, как на врага государства и обще-

---

[28] Л.Алиева. Рабочие-текстильщики Баку в начале XX в. Баку, 1969, с. 154.

[29] Л.Алиева. Указ. раб., с. 155.

[30] Там же.

ства, думающего только о своей личной наживе и требующего строгого надзора, как уличенный в преступлении злоумышленник.[31] Естественно, такая оценка взгляда правительства на предпринимателей была чрезмерно преувеличена, тем более она не имела реального обоснования. Однако Г.З.Тагиев выражал, конечно, интересы своего класса и поэтому рассматривал вынужденные меры правительства по государственному регулированию экономики, как враждебные по отношению к буржуазии. Видимо, осознавая определенную резкость своих высказываний, Г.З.Тагиев в конце докладной записки учтиво объяснял премьер-министру: «Уповая, что у Вашего высокопревосходительства не может возникнуть сомнений относительно моей искренности, я осмеливаюсь выразить надежду, что Вы отнюдь не отнесетесь неблагосклонно к некоторой, быть может, слишком откровенной смелости моих суждений, памятуя, что они подсказаны мне исключительно желанием блага и пользы равно нам обоим дорогого Отечества».[32]

Единственно правильным шагом по выходу из экономического кризиса, по мнению Г.З.Тагиева, могла быть отмена запретительной системы, твердых цен и обеспечение свободной конкуренции. В конце докладной записки Г.З.Тагиев выразил своеобразную платформу, кредо национальной буржуазии: «В заключение позволю себе еще раз выразить пред Вашим высокопревосходительством мое заверение, что я никогда не взял бы на себя смелость отрывать драгоценные минуты Вашего внимания настоящей запиской, если бы не глубокое сознание, что не личный интерес коммерсанта и промышленника диктует мое к Вам обращение, а чувство искреннего патриотизма и глубокое убеждение, что истинная политическая независимость государства возможна только на основе его финансовой и экономической независимости, без

---

[31] Азербайджанская Республика. Документы и материалы, с. 256.

[32] Там же, с. 257.

которой свободные в политическом смысле граждане будут рабами своих более сильных в промышленном и торговом отношении соседей. Стремление создать для молодой Азербайджанской республики основу для такой материальной независимости и побуждает меня выступить в защиту свободы торговли и промышленности, ибо в тесных рамках запретов и регламентаций невозможна их здоровая жизнь, невозможно их правильное развитие и расцвет, который должен дать Отечеству материалы и средства для того, чтобы с честью занять место полноправного члена в ряду других держав мира».[33]

Таким образом, докладная записка Г.З.Тагиева Н.Усуббекову является важным историческим источником, характеризующим общую экономическую ситуацию в Азербайджане в первые месяцы существования нового правительственного кабинета, а также гражданскую позицию самого автора. Конечно, высказывая в докладной записке мнение, как свое, так и большинства предпринимателей, он непременно оставался выразителем их интересов. В ряде суждений Г.З.Тагиев был довольно резок и склонен к преувеличениям. Его доводы не могут считаться вполне обоснованными, т.к. те мероприятия, которые он критиковал в письме, правительство осуществляло лишь с одной целью: стабилизировать экономическую жизнь страны, устранить проблемы с обеспечением населения продовольствием и товарами. Г.З.Тагиев в докладной записке не коснулся вопроса о том, в каких сложных внутри- и внешнеполитических условиях правительство проводило эти мероприятия. А между тем, это в значительной степени оправдывает и систему ограничений, и твердый контроль за деятельностью фирм и предприятий. Будучи вынуждены идти на подобные шаги, Н.Усуббеков и его кабинет, как и предыдущие три правительства, осознавали их неэффективность. Однако предложить скорейшую альтернативу этим непопулярным в обществе мерам они оказались бессильны.

---

[33] Азербайджанская Республика. Документы и материалы, с. 257.

***Səbuhi Əhmədov***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin*
*Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

# NƏSİB BƏY YUSİFBƏYLİ HÖKUMƏTİNİN AZ MƏLUM OLAN NAİLİYYƏTİ – AZƏRBAYCAN HƏRBİ HİSSƏLƏRİNİN DÖYÜŞ BAYRAĞININ QƏBUL OLUNMASI

Azərbaycanın görkəmli dövlət və siyasi xadimi Nəsib bəy Yusifbəylinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və təşəkkülündə xidmətləri danılmazdır. Son 20 ildə vətən tarixşünaslığı N. Yusifbəylinin fəaliyyətinin, həmçinin onun rəhbərlik etdiyi 4-cü hökumət kabinetinin həyata keçirdiyi tədbirlərin araşdırılmasına həsr olunmuş əsərlərlə zənginləşmişdir. Bununla belə, Yusifbəylinin rəhbərlik etdiyi hökumətin Cümhuriyyətin dövlət rəmzlərinin təkmilləşdirilməsi istiqamətində gördüyü işlər nisbətən zəif öyrənilib. Belə ki, Yusifbəyli hökumətinin milli himnin, dövlət gerbi və möhürünün, eləcə də hərbi ordenlərin layihələrinin hazırlanması işlərinin necə və hansı prinsiplərə uyğun olaraq aparılması ilə bağlı məsələlər hələ də tam araşdırılmayıb.

1919-cu il 8 dekabr tarixində Azərbaycan hərbi hissələrinin Döyüş Bayrağının qəbul olunması Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi hökumət kabinetinin nailiyyətləri sırasında qeyd olunmağa layiq faktdır. Mövcud tarixi sənədlər bayrağın təsviri, onun üzərində olan yazı və şəkillərin mənasını öyrənməyə imkan verir.

Tarixən formalaşımış ənənənyə görə döyüş bayrağı hərbi hissələrinin şərəf rəmzidir. Qədim dövr və orta əsrlərdə bayrağın qorunması ən cəsur və təcrübəli döyüşçülərə tapşırılırdı.

Belə döyüşçülərə hətta xüsusi rütbə verilirdi, məsələn müsəlman Şərqində "əmir-ələm" ("bayraq daşıyan zadəgan") titulu məlum idi. "Kitabi Dədə Qorqud" oğuz dastanında verilən məlumat göstərir ki, orta əsrlər dövrünün təsəvvürlərinə görə, döyüş bayrağı yerə salınan rəqib artıq demək olar ki, məğlub edilib: «Qazan bəgün qardaşı kafərin tuğilə sancağı qılıcladı, yerə saldı»[1]. XVIII əsrdən başlayaraq bayrağın qorunması xüsusi qarovula tapşılırıdı. Hərbi hissə təşkil edilrkən ona döyüş bayrağı təqdim olunur və bu bayraq onu hərbi hissə mövcud olanadək müşayyət edirdi. Əsrlərdən bəri gələn hərbi ənənələrdən biri döyüş bayrağının toxunulmazlığının təmin olunması ənənəsidir. XIX əsrdə döyüş bayrağının qorunması ilə bağlı ənənə hərbi qanunlar şəklində əvəllcə Avropada formalaşmış, daha sonra isə bütün dünyada yayılmışdır. Onlara əsasən, hərbi hissədə 1 nömrəli post döyüş bayrağını qoruyan saatdarın postudur. Hərbi hissənin bütün şəxsi heyəti döyüş bayrağını qorumalı, onun itirilməsinin və ya zədələnməsinin qarşısını almalıdır. Əgər hərbi hissənin döyüş bayrağı itirilərsə və ya məhv olarsa, hərbi hissə dərhal ləğv olunur, onun komandiri və bilavasitə günahkar şəxslər hərbi tribunalın məhkəməsinə verilirlər.

1918-ci ilin yayında müstəqil Azərbaycanın ilk hərbi birləşməsi – Müsəlman Korpusu yaradılarkən onun döyüş bayrağı qırmızı fonda ağ rəngli aypara və səkkizgüşəli ulduz şəklində olub, dövlət bayrağını təkrarlayırdı. Daha doğrusu, xüsusi döyüş bayrağının olmamasına görə hərbi hissələr dövlət bayrağını daşıyırdılar. 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin yeni, üçrəngli, ay-ulduzlu dövlət bayrağı qəbul olundu. Hərbi hissələr də eyni bayraq altında döyüşə gedirdilər. Təsadüfi deyil ki, dövrümüzə qədər ggəlib çatmış 1918-ci ilin sonları, 1919-cu ilin əvvəllərinə aid fotoşəkillərdə Azərbaycan əsgərləri üçrəngli bayrağın fonunda təsvir olunurdular. 1919-cu il oktyabrın 20-də Azərbaycanın ilk poçt markaları dövriyyəyə buraxılmış və onla-

[1] Kitabi Dədə Qorqud. Tərcümə və tərtib: S.Əlizadə. Bakı, Yeni nəşrlər evi, 1999, s. 62.

rın üzərində sağ əlində tüfəng, sol əlində üçrəngli bayraq tutan əsgər təsvir olunmuşdur.[2]

1919-cu ildə Azərbaycan Ordusunun vahid strukturu qurulandan sonra hərbi hissələr üçün ayrıca Döyüş Bayrağının yaradılması zərurəti yarandı. Döyüş Bayrağı həm dövlətin əsas rəmzlərini, həm də xalqın döyüşkənlik ruhunu, onun hansı amallar uğrunda vuruşmasını əks etdirməli idi. Bununla belə Döyüş Bayrağı hərbi hissənin yaradılması tarixi, onun keçdiyi döyüş yolu, iştirak etdiyi hərbi əməliyyatları, qazandığı nailiyyətləri əks etdirməli idi.

Döyüş Bayrağının layihəsinin tərtib olunması Azərbaycan Ordusunun Ali Qərargahının hərbi topoqrafiya şöbəsinə tapşırıldı. Respublikada hərbi heraldika üzrə peşəkar kadrların olmamasına baxmayaraq başda tanınmış Azərbaycan hərbiçisi general-mayor İbrahim ağa Vəkilov olmaqla topoqrafiya şöbəsinin əməkdaşları qısa müddət ərzində ciddi araşdırmalar aparmış, Azərbaycan dövlətçiliyi, türk hərb sənəti və hərbi heraldikanın tələblərinə cavab verən layihə təqdim etmişlər[3].

Azərbaycan Ordusu Ali Qərargahın Baş İdarəsinin 1919-cu il 8 dekabr tarixli, 561 saylı əmri ilə “Piyada və süvari alayları, əlahiddə taborlar və Hərbi məktəb üçün Döyüş Bayrağının təsviri” elan olundu. Əmr Ali Qərargahın rəisi general-leytenant Məhəmməd bəy Sulkeviç tərəfindən imzalanmışdır[4]. Əmrin və ona əlavə olunmuş eskizlərin dövrümüzə qədər gəlib çatması 1919-1920-ci illər Azərbaycan Ordusunun hərbi hissələrinin Döyüş Bayrağını bərpa etməyə imkan verir.

Döyüş Bayrağı parça hissə, lentlər, agac sap və metal dəstəkdən ibarət olmalı idi. Parça hissənin əsas rəngi kimi türkçülük rəmzi olan mavi rəng seçilmişdir. Parça hissə mavi rəngli ştof və atlas ipək növlərindən tikilməli, kənarlarına gümüş rəngli naxış-

---

[2] Касимова С., Ахмедов Р. Первые почтовые марки Азербайджана // Azərbaycan Tarixi Muzeyi, 2002, s.282-292.

[3] Osmanov H. İlk hərbi bayrağımız // «Hərbi bilik”, 1995, № 3, s.94-95.

[4] Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi, f. 2894, siy.1, iş 6, v.154-157.

lar və eyni rəngli saçaqlar vurulmalı idi. Parçanın yuxarı sol küncündə gümüşü saplarla səkkizgüşəli ulduz və aypara tikilməli idi. 561 saylı əmrə əsasən, bayrağın kənarlarına vurulan naxışlar türk dünyasının böyük sərkərdəsi Əmir Teymurun (əmrdə - Teymurləngin) qəbri üzərindəki naxışlar əsasında tərtib olunmalı idi. Layihə müəlliflərinin fikrincə, bu element ordumuzun Şərqin qəhrəmanlıq ənənələrinə sadiqliyi təcəssüm etdirməli idi. Bayrağın üz və astar tərəflərindəki təsvirlər eyni olmalı, lakin yazılar fərqlənməli idi. Belə ki, üz tərəfində ərəb qrafikası ilə Azərbaycan dilində "Azərbaycan" sözü, astar tərəfində isə "Nəsri min Allah və Fəthi karib" kəlamı yazılmalı idi. Şərqşünas alim, akademik Nailə Vəlixanlının tədqiqatlarına əsasən "Nəsri min Allah və Fəthi karib" kəlamı "Quran" ayəsindən götürülmüş və hərfi tərcümədə "Allahdan kömək və yaxın qələbə" mənasını verir. Qeyd etmək lazımdır ki, bu yazıya hələ XVI əsr Şərq qalxanlarında rast gəlinir.[5] XVIII-XIX əsr Azərbaycan xanlıqlarının bayraqları üzərində olan yazıların təhlili göstərir ki, "Nəsri min Allah və Fəthi karib" kəlamı ən çox istifadə olunan yazıdır[6].

Bayrağın ağac sapı 2,6 m uzunluğunda, 3,7 sm diametrində olmalı idi.

Sapın yuxarı hissəsinə iki lent düyünlənərək bağlanmalı idi. 15 sm eni olan yaşıl və 20 sm eni olan qırmızı lentlər saçaqlarla tamamlanmalı idi. Yaşıl lentin aşağı hissəsində içərisində yeddi ox olan ox qabı, iki yay, tuğ və nizə (əmrdə nizə "Teymurləngin nizəsi" adlandırılıb) gümüş saplarla təsvir olunmalı idi. Layihə müəlliflərinin fikrincə, bu kompozisiya türk xalqlarının hərbi ənənələrini təcəssüm etməli idi. Qırmızı lentin aşağı hissəsində içərisində yeddi ox olan ox qabı, iki yay və nizə gümüş saplarla elə təsvir olunmalı idilər ki, birlikdə lira musiqi alətini xatırladan kompozisiya əmələ gəlsin. Layihə müəlliflərinin fikrincə, bu

---

[5] The arts of the Muslim knight. The Furusiya art foundation collection. Concept and diektion by Bashir Muhammed. Milan, 2008, s.363.

[6] Azərbaycan bayraqları. Kataloq. N.Vəlixanlının redaktəsi ilə. Bakı, 2005, s.13, 23 və s.

kompozisiya ordunun hərbi güclə (oxlar, ox qabı, yaylar, nizə) sülh və əmin-amanlığı (lira) qorumaq əzmində olmasını bildirməli idi. Mavi rəngli parça hissə, qırmızı və yaşıl lentlər birlikdə Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini təşkil edirdilər.

Döyüş Bayrağının ucluğu beş hissədən ibarət olmalı idi: ağac sapa taxılan konus, ona bərkidilən silindr, silindrə taxılmış kürə, kürəyə bərkidilən ellipsoid və, nəhayət, yuxarıya doğru ucalan nizə. Konus, silindr, ellipsoid və nizə qızılı rəngdə, kürə mavi rəngdə olmalı idi. Konusun üzərində diaqonal zolaqlar və onların arasında göy, qırmızı, yaşıl kürəciklər bərkidilirdi. Mavi kürə üzərində qızılı səkkizgüşəli ulduzlar yerləşdirilirdi. Maraqlıdır ki, əmrdə səkkizgüşəli ulduzlar "Azərbaycan ulduzları" adlandırılıb. Nizə üzərində aypara-ulduz və yuxarıya doğru daralan nəbati ornamentlər təsvir edilməli idi.

Dəstək gümüşdən dar halqa şəklində düzəldilir, bayrağın parça hissəsinin qurtaracağında ağac sapa taxılırdı. Qızıl haşiyə, mavi mina, aypara və ulduzlar, göy, qırmızı, yaşıl rəngli kürəciklərlə bəzədilən dəstək üzərində hərbi hissənin adı və yaradılma tarixi həkk olunmalı idi.

Əmrin sonuncu bəndində təsdiq olunmuş Döyüş Bayrağı layihəsində istifadə olunan rəmz və nişanələrin hansı prinsiplərə uyğun seçilməsi göstərilmişdir: "Təqdim olunan eskizin yaradılmasına aşağıdakı məqamlar səbəb olmuşdur: hazırki dövrdə xalqların milli özünüdərkin inkişaf səviyyəsi, həmçinin bütün mədəni dünyaya və dirçəlməkdə olan Azərbaycan Cümhuriyyətinə əziz olan qədim müsəlman abidələri – onların bariz nümunələri qüdrətli hökmdar Teymurləngin və onun maarifpərvər silahdaşları tərəfindən Səmərqənddə inşa etdirilən məscid və binalardır"[7].

Beləliklə, aparılmış araşdırma sübut edir ki, Nəsib bəy Yusifbəylinin rəhbərlik etdyi hökumət tərəfindən Azərbaycan Ordusunun hərbi hissələrinin döyüş bayrağının layihəsi tərtib olunmuş

---

[7] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: f. 2894, siy.1, iş 6, v.154-157 (tərcümə müəllifindir).

və müvafiq əmrlə təsdiq olunmuş, onun düzəldilməsi istiqamətində işlər görülmüşdür. Təəssüf ki, belə bayraqların düzəldilib hərbi hissələrə təqdim olunması barədə dəqiq məlumat yoxdur, bu istiqamətdə axtarışlar davam edir.

Azərbaycan Respublikasının əsası 1991-ci ildə qoyulmuş, 1993-cü ildən isə Heydər Əliyevin rəhbərliyi ilə müasir tələblərə uyğun olaraq qurulmağa silahlı qüvvələrdə hərbi-vətənpərvərlik işinin aparılmasında tarixi ənənələrin təbliğ olunması xüsusi əhəmiyyət kəsb edən məsələ kimi qəbul olunmuşdur. Buna əsasən 2008-ci ildə Nəsib bəy Yusifbəyli hökuməti tərəfindən qəbul olunmuş Döyüş Bayrağının düzəldilməsi qərara alınmışdır. Məqalə müəllifi tərəfindən aşkarlanmış arxiv sənədləri və eskizləri əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyi Hərbi-Elmi Mərkəzinin tərtibatçı rəssamı mayor Məmmədbağır Hüseynov tərəfindən layihə hazırlanmış və 1919-cu il Döyüş Bayrağının mulyajı düzəldilmişdir. 2008-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 90-cı ildönümünə həsr olunmuş hərbi paradda Cümhuriyyət ordusunun Döyüş Bayrağı geniş ictimaiyyətə ilk dəfə təqdim edilmişdir.



УI.

Скоба.

СКОБА

полый серебрянный цилиндръ, одѣваемый на древко у нижняго основанія полотна знамени. Внизу и наверху-золотая кайма въ 2,5 милим. шириною, далѣе голубая эмаль, заканчивающаяся золотой каймой въ I,5 милим.

Между этими золотыми каймами - золотой зигзагъ, въ верхнихъ углахъ котораго - Азербайджанскія звѣзды, а въ нижнихъ - полумѣсяцъ изъ золота. Далѣе- выпуклыя серебрянныя кольца украшенныя полушариками цвѣтовъ національнаго флага.

На серебрѣ скобы вырѣзано наименованіе той части, которой принадлежитъ знамя и указано время ея сформированія.

---

Мотивами къ возсозданію настоящаго эскиза послужили: самосознаніе національнаго развитія народовъ въ настоящій моментъ и остатки древне-мусульманскаго зодчества,которые особенно рельефно выражены въ мечетяхъ и зданіяхъ, сооруженныхъ могучимъ властелиномъ ТЕЙМУРЪ-ЛЕНКОМЪ и его просвѣщенными сотрудниками въ Самаркандѣ которые дороги культурному міру и особенно возрождающейся Азербайджанской Республикѣ.

Начальникъ Генеральнаго Штаба,
Генералъ-Лейтенантъ

Генералъ-Квартирмейстеръ,
Генеральнаго Штаба,
Полковникъ

*Şəkil 1. Azərbaycan Ordusu hərbi hissələrinin Döyüş Bayrağının təsviri olan əmrdən fraqment. 1919-cu il*




***Şəkil 2. Azərbaycan Ordusu hərbi hissələrinin Döyüş Bayrağının ümumi görünüşü. Eskiz, 1919-cu il.***




***Şəkil 3. Azərbaycan Ordusu hərbi hissələrinin Döyüş Bayrağının əmr və eskizlər əsasında rekonstruksiyası. Müəlliflər S.Əhmədov, M.Hüseynov. 2008-ci il***

**Nazif Qəhrəmanlı**
*filologiya elmləri doktoru*

# BİR DAHA NƏSİB BƏY YUSİFBƏYLİNİN QƏTLİ BARƏDƏ

Nəsib bəy Yusifbəylinin həyatı və fəaliyyətinin bir çox məqamları müasirlərimiz üçün aydın və öyrənilmiş olsa da onun həyat salnaməsinin bir çox təfərrüatları bizə məlum deyil. Bu barədə Şəfiqə xanım Qasprinskayanın xatirələrində də səhih məlumatlar azdır.

Ən böyük anlaşılmazlıq Nəsib bəyin qətli ilə bağlıdır. Bu haqda Məmməd Əmin Rəsulzadə, Feyzi Ağüzüm, Nağı Şeyxzamanlı, müasir tədqiqatçılardan Mövsüm Əliyev, Hafiz Sadıq, jurnalist Şəmistan Nəzirli, Əhməd İsayev, tədqiqatçı Nazim Mustafa, Nəsib bəyin bacısı nəvəsi Azər Abdullayevin və başqalarının fikir və mülahizələri vardır. Mülahizələrdə qətlin aşağıdakı yerlərdə törədildiyi ehtimal olunur:

1) Kürdəmirdə
2) Yevlaxda
3) Gürcüstanın Sığnak nahiyəsində
4) Tiflisdə
5) Bakı ilə Tiflis arasında

Nəsib bəyin Kürdəmir qəzasında əsli Yevlaxdan olan Qarxunlu Əşrəf bəy və ya onun adamları tərəfindən öldürülməsi haqqında versiya ilk dəfə tədqiqatçı Mövsüm Əliyev tərəfindən irəli sürülmüşdür. (Odlar yurdu, 1988, №21). Bu versiya bir çox ınənbələrdə elə olduğu kimi təkrar edilmişdir (o cümlədən 2007-ci ildə İctimai televiziya tərəfindən çəkilmiş filmdə, Qarxunlu Əşrəfin adının çəkilməməsi ilə). Nəsib bəy haqqında bir çox fərziyyələri olduğu kimi «Ədalət» qəzetində (1992, 8 sentyabr) təkrarlayan Hafiz Sadıq «Odlar yurdu» qəzetində (1992, *Nz* 30-31, 13

noyabr) «Baş nazir necə qətlə yetirildi» məqaləsi ilə çıxış et-miş, həmin faktları bir qədər başqa şəkildə «Müsavat» jurnalında çap etdirmiş məqaləsində (Müsavat, 1994, №2) təkrar etmişdir. Bu iki yazıda Nəsib bəyin Kürdəmir qəzasında Quruçay dərəsində «bolşevik xəfiyyələri və soyğunçu quldur dəstələrinin tör-tökün-tüləri» tərəfindən qətlə yetirildiyi iddia olunur. Hətta H.Sadığın versiyasına görə N.Yusifbəyli öldürüldükdən sonra gizlicə Gəncəyə aparılmış və xəlvəti dəfn edilmişdir.

Qəzetin 1992-ci il sonuncu nömrəsində (1992, №35-36, 31 dekabr) «Odlar yurdu»nun baş redaktoru Rafiq Hacıyevə və məqalə müəllifi Hafiz Sadığa ünvanladığı məktubunda Nəsib bəyin qohumu Azər Abdullayev Qarxunlu Əşrəflə 1932-ci ildə bir kamerada yatmış və təsadüfən onun dindirilməsinin şahidi olmuş öz babası Nağı bəy Xasməmmədovun dediklərinə əsasən aşağıdakıları söyləyir: «Əşrəf söyləyirmiş ki, güya xəbər gəlir ki, Nəsib bəy Kürdəmirdən faytonla Yevlaxdan keçib gedəcək və özü ilə ADR-in xəzinəsindən külli miqdarda pul da götürüb. Əşrəf pusquda durur və Yevlax meşəsində (!) Nəsib bəyi qətlə yetirir.

Ancaq sakvoyajda pul olmur. Məhkəmədə isə Əşrəf guya bir qədər başqa ifadə verir: Nəsib bəy Əşrəfin evində qonaq qalır və gecə o, Nəsib bəyi qətlə yetirir, meyidini isə Kür çayına atır. Sakvoyajda pul olmur».

Bu versiya (yəni Nəsib bəyin Kürdəmirdə və ya Yevlaxda öldürülməsi - N.Q.) daha bir tədqiqatçı tərəfindən hərbi jurnalist Şəmistan Nəzirli tərəfindən inkar olunur, Ş.Nəzirli «Qarxunlu Əşrəf bəy» sənədli povestində (1998) şahid ifadələrinə və Əşrəf bəyin arxiv sənədlərinə əsasən sübut etməyə çalışır ki, Qarxunlu Əşrəf bəy Nəsib bəy Yusifbəylinin qatili deyil. Onunla nəinki uşaqlıq dostu, heç yaxın tanışlığı da olmayıb.

Ş.Nəzirlinin daha bir tutalqası var. Bu, tədqiqatçı Asif Rüstəmlinin Azərbaycan Dövlət Arxivindən tapmış olduğu bir rəsmi sənəddir. Bu sənəd Gürcüstan hökuməti tərəfindən Azərbaycan sovet orqanlarına göndərilmişdir. Rus dilində olan həmin sənədin mətni belədir: «Tiflisdə şənbə günü 1920-ci il iyun ayı-

nıın 19-da saat 9-a yaxın Olginski küçəsinin başlanğıcında mauzerdən açılan atəşlə Fətəli xan Xoyski və Nəsib bəy Usubbəyov öldürülmüşdür. Qətldə günahlandırılan səkkiz nəfər şübhəli şəxs Gürcüstan hökuməti tərəfindən saxlanılmışdır». A.Rüstəmli isə F.Xan Xoyski haqqında məqaləsində həmin məlumatın «Kommunist» qəzetindən (1920, 22 iyun, №42) götürdüyünü bildirir. (A.Rüstəmli. Ədəbi istiqlalımız, B., 2004. s. 23)

Elə isə sual olunur: Nəsib bəy Yusifbəylinin qəbri haradadır? Çünki Gürcüstan hökuməti iki il həmin hadisədən əvvəl Zaqafqaziya seyminin maarif naziri işləmiş və iki seçki baş nazir olmuş Nəsib bəyi anonim dəfn edə bilərdimi?

Eyni zamanda daha bir sual doğur: Nəsib bəy qətl günü Fətəli Xan Xoyski ilə bir yerdə olmuşdurmu? Mövsüm Əliyevin Həsənbəy Ağayev haqqında oçerkində (Azərbaycan Demokratik Respublikası. Bakı, 1990). H.Ağayevin Fətəli Xan Xoyskidən düz bir ay sonra iyulun 19-da məhz Aram Toplakyan tərəfindən qətl edildiyi yazılmış, H.Ağayevin də Fətəli Xan Xoyskinin yanında dəfn edildiyi göstərilmişdir. Qaydaya görə N.Yusifbəylinin də məzan orada olmalı idi. Lakin Nəsib bəyin məzarı orada yoxdur. Deməli, Nəsib bəy Tiflisdə öldürülməmişdir, çünki orada olmamışdır. Nəsib bəy orada olsa idi, mütləq orada hansısa görüşlər keçirər və diqqət mərkəzində olardı.

Lakin Fətəli Xan Xoyskinin qətl zamanı yanında kim olduğu məlumdur. Bu ilk Azərbaycan Cümhuriyyətinin rəhbər xadimlərindən biri Xəlil bəy Xasməmmədovdur. (N.Mustafa, Fətəli xan Xoyski, Xalq qəzeti, 25 may, 2002). Onlar eyni zamanda Tiflisdə indiki Opera teatrı binasının yanından keçərkən erməni terrorçuları Aran Yerkayan və Mişaq Qriqoryan tərəfindən atəşə tutulmuş, nəticədə Fətəli xan həlak olmuş, Xəlil bəy Xasməmmədov isə yaralanmışdı. Göründüyü kimi terrorçuların sayı bir deyil, iki olmuşdu. Üstəlik Fətəli xan Xoyskinin dərhal həlak olmasını təkzib edən, bəzi təfərrüatları açıqlayan mənbələr də var.

Əvvəlcə bir məsələyə toxunmağı lazım bilirik. Məlumdur ki, 1920-ci ilin aprelində Xəlilbəy Xasməmmədov İstanbula səfir tə-

yin edilmişdi. Çox ehtimal ki, gecikdiyindən və artıq ölkəni tərk etmək lüzumundan aprelin 27-də Bakıdan Tiflisə gedən qatarla çıxmışdır. Məlumdur ki, bu qatarla Xalq Cümhuriyyətinin bir sıra görkəmli xadimləri ölkəni tərk etmişdilər. Lakin nə Məmməd Əmin Rəsulzadə, nə də Nəsib bəy Yusifbəyli bu qatarla getməmişlər (bu qatarla general S.Mehmandarov da getməli imiş. Lakin general nə düşünmüşsə getməmiş, lakin qatar heyəti onu saat yarımdan çox gözləmişdi. (Bax: M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987. səh.317 )

Fətəli xan Xoyskinin qətli ilə bağlı bəzi mənbələr vardır ki, onlara bu vaxtacan diqqət yetirilməmişdir. Məsələn, Azərbaycanın görkəmli aktyoru, xalq artisti Mustafa Mərdanovun «50 il Azərbaycan səhnəsində (xatirələr)» kitabında (Bakı, 1959) müəllif 20-ci ilin iyununda gizli missiya ilə Tiflisdə olduğunu qeyd cdir. Bəzi fraqmentləri oxucuların diqqətinə çatdırırıq:

«1920-ci ildə mən siyasi idarə tərəfindən Azərbaycanda ilk dəfə təşkil olunmuş «Təşviqat qatarı»nın rejissoru, sonra isə komissarı vəzifəsinə təyin olundum.

...Elə bu vaxt məni mühüm bir tapşırıqla Gürcüstana göndərdilər. Mən Gürcüstanın gizlində çalışan kommunist fəalları ilə görüşməli idim. O vaxt Tiflisdə menşeviklər ağalıq edirdilər.

Vəsiqələrim düzgün idi. Buna baxmayaraq Tiflisə çatmamış Nəftuluq stansiyasında düşüb şəhərə piyada getdim.

Üç gün keçdi, mənə tapşırılan işləri qurtarmaq üzrə idim. Bir gün «Kazyonnu teatr»da «Aşıq Qərib» operasını oynayırdılar. O gecə məndən təvəqqe etdilər ki, suflyorluq edim. Razı oldum. İkinci pərdənin fasiləsində tamaşaçıların yanına gedib tanış-tunuşla söhbət edirdim ki, bir də gördüm Ağayev deyilən bir nəfər və menşeviklərin «Xüsusi şöbə» rəisi Paçuliya mənə yaxınlaşdılar.

«Tutun! Budur Xan-Xoyskini öldürən!»- deyə Ağayev mənə bərk bir şapalaq ilişdirdi. Məni tüfəng ilə döyə-döyə teatrdan çıxarıb maşına mindirdibr və apardılar.

Sonra da öyrəndim ki, Müsavat parlamentinin sədri (!) Fətəli Xan Xoyskini Tiflisdə «Pikadilli» sirkinə girərkən üç güllə ilə

vurublarmış. Ağayev dediyim adam da məni Gəncəyə «Təşviqat qatarı» ilə gələndə görüb və iki gündür ki, güdürmüş.

Məni rəis Paçuliyanın kabinetinə gətirdilər. Paçuliya üstümə atılıb bağırdı:

«Alçaq bolşevik! Yoldaşların kim idi. Söylə!»

...Mən onları inandırmaq istədim ki, bu işdən heç xəbərim yoxdur, - inanmadılar. Məni yenidən maşına mindirdilər evimizə apardılar.

Axtarış başlandı, evi alt-üst elədilər. Xan Xoyski vurulan yerdə dəsmala bükülmüş mauzer patronları tapıldığına görə, evdə nə qədər cib və üz dəsmalı vardısa hamısını apardılar. Məni isə «Xüsusi şöbə»nin qaranlıq zirzəmibrindən birinə saldılar.

Gecə yarısı gəlib məni rəisin kabinetinə apardılar, yenə də qatil olduğumu boynuma alıb yoldaşlarımın adını söyləməyi tələb etdilər. Çox danışıqdan sonra «Əkskəşfiyyaf»ın rəisi Kediya dedi:

«Məhkəmə zad lazım deyildir, bolşevik, özü də qatil,- aparın güllələyin!»

Üç nəfər məni maşına mindirib apardı. Hara getdiyimi bilmirdim. Nəhayət, maşın xəstəxananın qabağında dayandı. Məni düşürüb Xan-Xoyski yatan palataya apardılar. Gördüm ki, Xan-Xoyski can verir, yanında olan bir azərbaycanlı isə hey başına vurub ağlayır: «Azərbaycan məhv oldu! Azərbaycan məhv oldu!»

Məni buraya ona görə gətirmişdilər ki, Xan-Xoyski ona güllə atanın mən olub olmadığımı təsdiq eləsin. Lakin buna imkan olmadı. Xan-Xoyski heç bir söz deməyib keçindi. Məni yenə maşına mindirib apardılar və zirzəmiyə saldılar.

...Beləliklə 18 gün zirzəmidə qaldım. 19-cu gün məni yenə də Paçuliyanın yanına gətirdilər. Bu dəfə o məni başqa cür qarşıladı. Buraxıldığımı bildirib, küçədə ehtiyatlı olmağımı məsləhət gördü. Xan-Xoyskinin adamları məni öldürə bilərdilər.

Küçədə atam məni qarşıladı; heç bir günahım, təqsirim olmadan tutulmağım hələ bəs deyilmiş, ondan öyrəndim ki, mənim buraxılmağım üçün atam 100 qızıl da rüşvət veribmiş...

Mən tapşırılan vəzifəni yerinə yetirmək üçün Batuma getməli oldum. Orada işimi qurtarıb yola düşəcəkdim ki, bir də gördüm

yaşadığım mehmanxanaya iki nəfər gəldi, məni qabaqlarına qatıb apardı. Əlimdə bir şey tutmadılar, çünki topladığım məlumatı hafizəmdə saxlamışdım (Burada mənə aktyor yaddaşı kömək elədi).

Yeddi gün Batum həbsxanasında yatdıqdan sonra məni Bakıya sürgün elədilər. Bakıya çatdım. Bir müddət yenə «Təşviqat qatarı»nda işlədim.»

M.Mərdanovun bu işdə hansı missiyanı yerinə yetirdiyi, nə məqsədlə göndərildiyi naməlumdur. Amma aktyorun xatirəsindən aydın olur ki, F.Xan-Xoyskini «Pikadilli sirki»nə girən yerdə vurublarmış. Lakin burada, göründüyü kimi Nəsib bəy Yusifbəylidən deyil, yalnız F.Xan Xoyskidən söhbət gedir. Belə çıxır ki, erməni muzdlusu yalnız F.Xoyskiyə atəş açıb. Əgər hər ikisinə (N.Yusifbəyliyə və ya X.Xasməmmədova) atəş açılsaydı şübhəsiz M.Mərdanovu bir nəfərin deyil, iki nəfərin qətlində ittiham edərdibr. Lakin X.Xasməmmədovun yaralanması da həqiqətdir. O ölümünədək boğazında ilişib qalmış gülləni gəzdirmiş, Nəsib bəyin qızı Zöhrə xanıma daim güllənin onu incitdiyindən şikayətlənmişdir.

Elə isə Nəsib bəy harada öldürülmüşdür? Onun Tiflisdə dayanıb dayanmadığı bəlli deyildir. A.Həsənoğlu «Erməni sindromu» (2007) əsərində qeyd edir ki, Nəsib bəy 1920-ci ildə Tiflisdə öldürülmüşdür. M.Ə.Rəsulzadə və F.Ağüzün Gürcüstanm Sığnak, Sığnəki nahiyəsinin üzərində dayanırlar. Bu nahiyə Gürcüstanın Cənub-Şərq tərəfində, Gəncə quberniyasımn şimal tərəfilə həmsərhəd zonada yerləşirdi. Belə olan halda isə Nəsib bəy Yusifbəyli və onun köməkçisi Yusif İbrahimli Gürcüstana kəsə, yəni Qazax-Borçah yolu ilə deyil, Qax-Zaqatala yolu ilə keçmişlər.H. Sadıq da bu yolla yalnız Y.İbrahimlinin yola salındığını və onun Sığnakda öldürüldüyünü iddia edir. Fikrimizcə onlar bu yolu qoşa keçmişlər. Nəsib bəy Yusif İbrahimlini yalnız Gəncəyə çatdıqdan sonra yola sala bilərdi.

Bir həqiqət var ki, Nəsib bəy Azərbaycanda öldürülməmişdir. Ölkənin belə bir görkəmli şəxsinin ölkə başdan-başa rusların əlinə keçməmiş adi çarovulçular tərəfindən öldürülməsi ağlabatan iş deyildi. Elə Nəsib bəyin Gəncədə dayanmaması, yaxın qo-

humları ilə görüşə bilməməsi də tələsməsi ilə bağlıdır. Qardaşı Həmid bəy də ölümə inanmırmış. Atası Yusif bəy isə onun yolunu ölənədək gözləmişdi.

1920-ci ilin may-iyununda Azərbaycanm kommunist mətbuatı N.Yusifbəylinin Türkiyəyə mühacirət etdiyini yazırdı. Bu fikir 1941-ci ildə Həmid bəy Yusifbəyliyə qarşı açılmış cinayət işində də (iş № 1932, s. 26) təkrar edilmişdir.

Maraqhdır ki, Həmid bəy ilk məlumatlarından birini Şəfiqə xanımdan almışdı. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Həmid bəy qardaşının ailəsinə hər cür yardım etmişdir. Bunu onun Şəfiqə xanıma göndərdiyi iki məktub (ikinci məktub 14 iyul 1921- ci il tarixlidir) sübut edir. Həmin məktublar Şəngül və Nəcib Həbləmitoğluları tərəfindən səhvən Həmid Şaxtaxtinskiyə (AXC-nin maarif nazirinə) aid edilmişdir. Ölüm xəbərindən hədsiz sarsıldığını qeyd edən Həmid bəy ikinci məktubunda yazır: «Məktubunuzda yazmış olduğunuz... xəbəri təhqiq etdim. Yalan çıxdı. Ta ki, indiyə qədər müəyyən bir xəbər ala bilmədim. Nə oldu, haradadır, məlumat yoxdur. Ordan-burdan xəbər alırıq, lakin əhəmiyyətsiz xəbərlərdir.»

M.Ə.Rəsulzadə N.Yusifbəyli haqqında oçerkində (1929) yazır: «Onlar (yəni N.Yusifbəyli və Yusif İbrahimli - N.Q.) Siqnax qəzasında təfsilatı hələlik bizlərə məchul qalan faciəli bir qəzaya uğrayaraq qurban getmişdir».

F.Ağüzümün məqaləsindən (1980): «Nəsib bəy 27 nisan 1920 istilasından sonra yakın arkadaşı İbrahim Yusif ilə birlikdə Gürcüstana keçərkən Siqnax ilçələrində fəci bir şəkildə öldürülərək şəhidlik mərtəbəsinə yüksəlmişdir.»

Şübhəsiz ki, Nəsib bəyin Gürcüstana gedişi həm Gürcüstanın Bakıdakı səfirliyi, həm də Gürcüstanın hakimiyyət dairələri ilə razılaşdırılmışdı. Görünür, M.Ə.Rəsulzadənin N.Yusifbəyli haqqında məqaləsində Sığnak versiyası haqqında məlumat 1921-ci ildə Gürcüstanın Qızıl Ordu tərəfindən işğalı nəticəsində müha-cirətə gedən gürcü rəhbər xadimlərindən alınmışdır. Məlumdur ki, M.Ə.Rəsulzadə onlarla (N.Jordaniya, Sereteli, Çxeidze və b.) Pa-

risdə «Prometey» təşkilatının xətti ilə görülmüş və yəqin ki, Sığnak məsələsində onlardan birinə əsaslanmışdır. O,Gürcüstanın rəhbər xadimlərindən olmuş Q.Qvazavadan da məlumat ala bilərdi.

Bəs Kürdəmir və Qarxunlu Əşrəf bəy məsələsi haradan çıxmışdır? Nağı bəy Şeyxzamanlı «Dərdləşmə» oçerkində Nəsib bəyin Ərəş qəzasında (indiki Ağdaş və Yevlax rayonları) qətlə yetirildiyini qeyd edir. Şəfiqə xanım Nəsib bəyin Kürdəmirdən ona məktub göndərdiyini xatırlayır. Ümumən, Şəfiqə xanımın fikrincə Nəsib bəy Bakıdan mayın ilk günlərində atla yola çıxmış (bu da avtomobil, qatar versiyalarını inkar edir), Kürdəmir ətrafında qeyb olmuşdur. Şəfiqə xanım Nəsib bəyin ölümü haqqında bir neçə rəvayət olduğunu söyləyir. Budur onlar: «Şəhadəti haqqında bir neçə rəvayət var. Biri, Kür çayı sahilində Əyricə kəndi əhalisindən bəziləri tərəfindən Bakı milyonerlərindən biri zənn edilərək öldürülübmüş. *Bu rəvayəti mənə Karhuklu Əşrəf ismində bir zat söyləmişdi.* (Kursiv bizimdir- N.Q.) Digər rəvayət Kür çayının sahilində bir kənddə, öncədən hazırlanmış evdə 2-3 gecə qonaq qalmış və salla çayın o biri sahilinə geçməyi gözləmiş, darıxmışdır. Nəhayət fürsət düşmüş, sal hazırlanmış və gecə yola çıxmışlar. Fəqət çayın o biri sahilində gözləyənlər salı görməmişlər... Üçüncü bir rəvayət də cinayətin Karkuklu Əşrəf əlilə olmasıymış ... amma bunların hamısı söz-söhbətdir. Doğru olan yalnız Kürdəmirə sağ gedib çıxmasına dair aldığım o kiçik məktubdur... Qardaşı oraları gəzmiş, araşdırmış və məzarını tapmışdır... Bunu da söyləyirlər. Bu xəbərin də səhih olmasına şübhəm olduqca çoxdur. (Şəfiqə xanımın bu qeydlərini biz Həbləmitoğlularının yuxarıda qeyd etdiyimiz və Şəfiqə xanıma həsr olunmuş kitabından götürmüşük - N.Q.)

Şəfiqə xanımın qeydlərində Qarxunlu Əşrəfdən deyil, Karkuklu (Kərküklü) Əşrəfdən söhbət gedir. Bu əhvalatı guya ona Kərküklü Əşrəfin özü danışıbmış. Ola bilsin ki, tədqiqatçılardan hansısa bu adı Qarxunlu Əşrəf kimi oxumuşdur. Biz də belə hesab edirik ki, Qarxunlu Əşrəf, özü parlament üzvü olan, müasirlərinin gözündə müsbət bir şəxs kimi şöhrətlənmiş Əşrəf Nəsib bəyin ölümünə bais olmazdı və hətta buna yol da verməzdi.

Rafat bəy qətlin harada və necə olması haqqında dəqiq təsəvvürü olmadığını və Qarxunlu Əşrəfın tam günahsızlığı fıkrinin əleyhinə olduğunu söylədi.

Bəzi müəlliflərin yazılarında (Əhməd İsayev, Ataxan Paşayev, Nazim Mustafa və b.) Nəsib bəyin ümumən yolda naməlum quldurlar tərəfindən öldürüldüyünü qeyd edirlər. Bu fikir Cümhuriyyət Ensiklopediyasında (s.2. Bakı, 2004) təkrar olunur. Burada yeni fakt odur ki, Nəsib bəyin ölümü 31 may 1920-ci il kimi göstərilmişdir. Tarixin haradan götürüldüyü məlum deyildir. Musa Qasımov və Cavid Hüseynovun «Azərbaycanın baş nazirləri» kitabında (Bakı, 2005) müəllifləri bu dəfə Yevlaxm Qarxun kəndi versiyasına müraciət etmiş, lakin Qarxunlu Əşrəf bəyin adını çəkməmişlər. Kitabdakı «Nəsib bəy Yusifbəyli» oçerkində deyilir: «1920-ci il aprelin 27-də Bakı XI Ordu tərəfindən işğal olunduqdan və Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra may ayının əvvəlində Tiflisə getməyə çahşan N.Yusifbəyli Yevlaxın Qarxunlu kəndində dostunun (!) evində qonaq qalmışdır. Dostu onun çamadanının qızılla dolu olduğunu zənn edib N.Yusifbəylini öldürmüş və boğazma daş bağlayıb Kür çayına atmışdır» (s. 24)

Buna görə də Nəsib bəyin qətlinin xarakteri də diqqəti çəkir. Təbii ki, burada iki cür qətldən söhbət gedə bilər: tamah xarakterli cinayətdən, ya da siyasi qətldən. Birinci versiya üzrə ehtimallar çox olsa da faktlar azdır. Əgər bu hadisə adi qaçaq quldur işi olsaydı hansısa bir cinayət işində zühur edə bilərdi. Təsdiqedici faktlar Qarxunlu Əşrəfin cinayət işində də yoxdursa ehtimalların mərkəzi sırf siyasi qətl hadisəsinin üzərinə gəlir. N.Yusifbəylinin bacısı nəvəsi Azər Abdullayevin «Odlar yurdu» qəzetinə məktubundan daha bir neçə sətirə nəzər salaq: «Fətəli xan Xoys-kinin Tiflisdə, Nəsib bəy Yusifbəylinin Kürdəmirdə yox, məhz Yevlaxda qətlə yetirilməsi ***eyni mərkəzdən idarə edilmiş və burada erməni Karakozovun ya da ola bilsin Karaxanov adlı birisinin dirijorluğu olmuşdur*** (kursiv bizimdir - N.Q.). Hafiz Sadıq yuxarıda adını çəkdiyimiz, məqaləsində bu qətlin Əliheydər Qarayevin ssenarisi əsasında həyata keçirildiyini qeyd edir. Lakin Ə.Qarayev Azərbaycan inqilab komitəsinin yalnız

üzvü idi və bu qərarı HİK sədri N.Nərimanovla mütləq razılaşdırmalı idi. 1920-ci il May ayının 16-dək (yəni N.Nərimanov Bakıya gəlişinədək- N.Q.) HİK sədri vəzifəsini M.D.Hüseynov, daxili işlər naziri vəzifələrini isə H.Sultanov yerinə yetirirdilər.

Biz yenə Nəsib bəy Yusifbəylinin qətl yerinin Azərbaycan deyil, Gürcüstan olduğunu ehtimal edir, siyasi cinayətin burada törədildiyini irəli sürürük. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi M.Ə.Rəsulzadənin əldə etdiyi məlumat daha səhih ola bilərdi. İkincisi, təkcə Tiflisdə iki siyasi qətlin (F.Xan-Xoyski və Həsən bəy Ağayevin öldürülməsi) baş verməsi, Xəlil bəy Xasməmmədovun yaralanması təsadüfi deyildir. 1920-ci ildə Gürcüstan erməni terroru üçün ən əlverişli yer idi. Eyni zamanda bu dövrdə həmin ölkədə başqa siyasi qətllər də törədilmişdir. (Batumda general Lyaxovun qətli və s.)

Asif Rüstəmlinin çap etdirdiyi sənəd də təsadüfi deyil. Fikrimizcə burada yanlışlıq Nəsib bəyin Tiflisdə deyil, Gürcüstamn başqa bir ərazisində (o cümlədən tarixən mübahisəli ərazi sayılan və azərbaycanlıların çox yaşadığı Sığnak qəzasında) qətli ilə bağlıdır.

Nəsib bəy Yusifbəylinin ölümünə yalnız Gürcüstan arxivləri işıq sala bilər. Azərbaycan arxivlərində demək olar ki, məlumat yoxdur. Fətəli Xan Xoyskinin qətl edilməsi haqqında məlumat və nekroloq menşevik hökumətinin orqanı olan «Qruziya» qəzetinin 23 iyun 1920-ci il tarixli nömrələrində çap edilmişdir. Elə isə Nəsib bəy Yusifbəyli haqqmda nekroloq niyə verilməyib? Nə isə... bu qanlı qətllə bağlı müəmmalar çoxdur. Ola bilsin hansısa məmur F.Xan-Xoyskiyə və X.Xasməmmədova sui-qəsdi N.Yusifbəyliyə və X.İbrahimliyə qəsdlə qanşıq salmışdır.

Nəsib bəyin tarixi sələfi olan Nəsib Sultan 1819-cu ildə Rusiyada sürgündə öldürülmüşdü. Bəlkə tarix 101 il sonra təkrar olunub. Bu da istisna deyil. Müstəqillik uğrunda ardıcıl mübariz olan Nəsib bəyin Qırmızı və Ağ Rusiyaya, Leninə və Denikinə münasibəti birmənalı olaraq mənfi və qəti idi.

Nəsib bəy Yusifbəyliyə sui-qəsd XX əsrin ən qanlı və müəmmalı qətllərindən biridir. Bu qətlin üstünün açılması tarixçilərimizin ümdə vəzifələrindən olardı.

*Məhəmməd Əmin Rəsulzadə*

## İSTİLA QURBANLARI

### Yusifbəyli Nəsib bəy

Bu mənhus günün nəticəsində Azərbaycan istiqlal hərəkatının verdiyi ən mühüm qurbanlardan birisi Yusifbəyli Nəsib bəydir.

İstilalın vaqe bulduğu günlərdə, müstəfi bir halda olsa da, baş vəkalət mövqeyində bulunan Nəsib bəy, Bakının qızıl rus ordusu tərəfindən işğalı üzərinə, saxlanaraq hüdud xaricinə çıxmaq məqsədiylə, yaxın arkadaşlarından İbrahimli Yusif bəylə bərabər Gürcüstan yolunu tutmuş, Siqnax qəzasında təfsilatı şimdilik məchulatla dolu fəci bir qəzaya qurban getmişdir.

Nəsib bəyin Azərbaycan istiqlal hərəkatındakı rolu sadə nazirlikdə və baş vəkillikdə bulunduğunu söyləməklə ifadə edilməz. Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox dəxi əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917- də «Türk ədəmi mərkəziyyət xalq firqəsi» namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlar. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir.

Nəsib bəylə müarifəmiz bu tarixdən daha əvvəl idi. Hərbi-ümumi sənələri idi. O, Gəncədə bələdiyyə idarəsi əzalığında, mən də Bakıda 1915-də təsis etdiyim «Açıq söz» qəzetəsinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sıx-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini «Açıq söz» idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda kəndisindən ayrıldığımız 1920-ci ilin son may günlərinədək zərrə qədər xələldar ol-

mayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi.

Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi zamanlarda mənə də Bakıda «Açıq söz» qəzetəsinə eyni tezi müdafiə edən bir baş məqalə yazdırmışdı.

Nəsib bəy mərhumda, onun ətrafındakı ali təhsil görmüş Azərbaycan münəvvərlərində əndər bulunan bir xüsusiyyət vardı. O ədəbi türkcədə eyni mükəmməlliyyətlə yazar və söylərdi. Vaxtıyla Gəncədə açılan «Mədrəseyi-ruhaniyyə» müəllimlərindən olub, eyni zamanda, Gəncədə türkcə kitablara məxsus bir kitabxana təsis edən Nəsib bəy, sonra Odessada hüquq fakültəsinə davam etmiş və bu surətlə ali təhsil görmüşdü...

Nəsib bəy məşhur İsmayıl bəy Qasprinski mərhumun kəriməsi Şəfiqə Soltan xanım ilə evlənərək, bu ailə ilə qaribat peyda etmiş və bir müddət Bağçasarayda qalaraq, «Tərcüman» qəzetəsini dəxi idarə etmişdir.

Nəsib bəy qəzetçilikdən maəda «Təslim» namında yazdığı, mövzusu əski üsul məktəb müəlliminin üsuli-cədid müəlliminə məğlubiyyətini hekayə edən məfkurəvi bir romanıyla Azərbaycan ədəbiyyatında dəxi bir iz buraxmışdır.

1917 sənəsinin nisanında Bakıda toplanan Birinci Müsəlman Qafqaziya qurultayı sonradan Azərbaycan siyasi fəaliyyət sahəsində o və ya bu şəkildə mövcudiyyət göstərən qüvvələri bilirdən bir məşhər hökmünü almışdı. Bu məşhərin ən qüvvətli və bariz şəxsiyyətlərindən birini də bizim Nəsib bəy təşkil edirdi. Onun Qafqaziya qövmi xəritəsini açaraq yuxarıda qeyd etdiyimiz qurultayda çox mütəəssir bir səslə «kim dəva edə bilir ki, biz kəndini idarəyə səlahiyyətdar bir millət deyilik!» dediyi hələ qulaqlarımızda çinliyir!

Bu qurultayda Nəsib bəy Gəncədə təsis etdiyi «Ədəmi-Mərkəziyyət» firqəsinin mətbu proqramını tövzihlə, əsaslarını müdafiə etmişdi. Bu müdafiəsində o, milliyyətçilik, türkçülük, xalqçılıq

və modernizasion prinsiplərinə istinad eyləmişdi. Nəsib bəyin zəkası yalnız bu müdafiətlə də qalmamış, o, qurultayda eyni əsasları müdafiə edən Müsavat xalq firqəsi müməssisləri və «Açıq söz» qəzetəsini təmsil edən cərəyanla da anlaşaraq, bu yek-digərinə yaxın axıntıların böyük bir nəhr halında birləşmələrini təmin lüzumunu da görmüş və həmən tətbiqinə təşəbbüs etmişdi.

Bir tərəfdən Nəsib, digər tərəfdən də Məhəmməd Əmin Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan cərəyanlarının kəndi aralarında əqdi-ittihad etdiklərinə aktiv bir dəlil və şahid olmaq sifətiylə, milli Azərbaycan istiqlalçılıq hərəkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu İttihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbiq etməliyəm. Bu İttihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk federalist Müsavat xalq firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir.

Firqə qurultayında olduğu kimi, bundan sonrakı Azərbaycan siyasi həyatının müxtəlif səhifələrində dəxi Nəsib bəyi biz fəal bir xalq siyasisi olaraq görürük. Gərək Rusiya Müəssisan məclisi intixablarında, gərək Tiflisdə təşəkkül edən Mavərayi-Qafqaz Seymində Nəsib bəy milli siyasətin ən çətin və ən məsuliyyətli vəzifələrini ifa edir. Azərbaycan istiqlalının təəssüs etdiyi dövrdə dəxi Nəsib bəy əvvəla maarif nəzarətində bulunmaq, sonra da iki dəfə baş vəkalətə gəlmək surətiylə aktiv idarə işlərində bulunmuşdur.

Nəsib bəy Azərbaycan istiqlal hərəkatının ən müşkül zamanlarında istiqlalçılıq tezisini, hər tövrlü tərəddüddən ari olaraq, bütün səmimiyyətlə müdafiə edən milliyyətçi zümrənin daima səmimi və imanlı ərkanından olmuşdur.

Nəsib bəyin xatirəsi istiqlalçı Azərbaycan nəslinin zehnində səmimi bir millətpərvər, demokrat və həqiqi bir radikal olaraq qalmışdır. Müasir Avropa kültürü ilə bərabər, türkcədəki iqtidarı və milli həyat, ədəbiyyat tarixi haqqındakı mərbutiyyət və əhatəsiylə akranı arasında mümtaz bir mövqe tutan bu mücahidin üfulu

bütün Azərbaycan gənclərini dərindən-dərinə mütəəssir eyləmiş, hər kəsin qəlbini ciddən qanatmışdır.

Mütəvaze bir xalq adamı, idealist bir siyasət əri, mutəkid bir demokrat, kəndi prinsiplərinə sadiq bir liberal, dissiplinə tabe bir təşkilatçı olan Nəsib, eyni zamanda müsahibləri üzərində iyi təsir yapan, xalq ruhiyyətinə aşina bir adamdı.

Bununla bərabər, Nəsib bəyi sevməyənlər də çoxdu. Bu sevimsizlik üçün o, şübhəsiz, müdafiəsində israr etdiyi prinsiplərə mədyundu. Müəyyən prinsipləri müəyyən bir istiqamətdə müdafiə edənlərin dostlar kimi düşmənlər dəxi qazanmaları qədər təbii bir şey olamaz! Fəqət bu düşmənlər belə Nəsib bəyin şəxsini eqoizm şaibəsiylə ittiham edəməmişlər. Bolşeviklər belə, bir gün əvvəl atdıqları ittihamı ikinci gün bizzat təkzib etmək məcburiyyətində qalmışlar.

Nəsib bəyin şəxsiyyətini, onu yetişdirən mühitin xüsusiyyətini kamilən təhlil etmək və nəticədə mərhumun tutduğu həqiqi mövqeyi olduğu kimi təsbit etmək üçün məqaləmizin həcmi müsaid deyildir. Bu qədər söyləyə bilirik ki, o, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik mümərssillərindən biridir. Elə bir mümərssil ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur.

Sadə bu mərbutiyyət Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir isim halına qoymaq üçün kafidir.

Nisan matəmində intiqam əhdini təcdid edən milli istiqlal nəslinin qeyrətini təhrik edən böyük amillərdən biri də heç şübhəsiz Nəsib bəyin şəhadətidir.

Müzəffər istiqlal nəslinin ilk yapacağı şükran vəzifələrindən birincisi siyasi Azərbaycanın ilk mübəşşirlərindən Nəsib bəy namını əbədiləşdirmək və Bakı ilə Gəncədə ona birər abidə tikməkdən ibarət olmalıdır.

***«Odlu yurd», 1929, №3, səh. 110-112.***

*Təkrar nəşri: İstila qurbanları. B., Azərnəşr. 1993, səh. 8-12.*

# NAĞI ŞEYXZAMANLININ XATİRƏLƏRİNDƏ NƏSİB BƏY YUSİFBƏYLİ

Azərbaycan Cümhuriyyətinin Əksinqilab ilə Mübarizə İdarəsinin rəisliyinə hələ təyin olunmamışdım. Tez-tez Bakıya gedər və təbii ki, hər gedişimdə də Nəsib bəylə görüşürdüm. Nəsib bəy o zamanlar Baş nazir vəzifəsinə keçmişdi. Onu təbrik etmək üçün Gəncədən gəldiyim günün sabahı saat 10-da Nazirlər kabinetinin yerləşdiyi yerə getdim. Dəftərxana müdiri vasitəsilə gəldiyimi və görüşmək istədiyimi bildirdim. Gözləməyi söylədi və saat 11:30-a qədər gözlədim. Sonra yenidən dəftərxana müdirinə «qardaşım, yəqin unutdu. Zəhmət olmasa bir də xatırladın» dedim. O, Nəsib bəyin kabinetinə girdi və çıxaraq mənə «unutmadım gözləsin deyir» dedi. Saat ikiyə qədər gözlədim. Azərbaycanda məmurlar üçün iş vaxtı 8-dən 14-ə qədərdir. Saat 14:00-da Nəsib bəy kabinetindən çıxdı. Ayağa qalxıb onunla görüşdüm. Ona saatlarla gözləməyimdən heç nə söyləmədim. İkimiz də ayaq üstündə idik. Mən «Nəsib bəy sabah vəzifənizə gəlincə qədər burada gözləyimmi?» dedim. Nəsib bəyin təbəssümlü çöhrəsinin təbəssümü bir az da artdı və «Yox canım, səni bərabər çıxmamız üçün gözlətdim» dedi. Binadan çıxaraq Baş nazirin avtomobilində bərabər onun evinə gəldik. İki nəfərlik hazırlanmış masanın arxasına oturaraq nahar etdik. Nəsib bəy «Əgər səni gələn kimi qəbul etsəydim doyunca söhbət edə bilməyəcəkdim. İndi həm yemək yeyirik, həm də istədiyimiz qədər söhbət edə bilərik» dedi. Bu zaman vəziyyətini soruşduğum zaman Nəsib bəy «heç bir [zaman] səhhətimdən şikayət etməmişəm. Allaha şükür ki, sapsağlamam. Mənim sıxıntım həmişə pul sarıdan olub ki, Baş nazir olduqdan sonra ondan da qurtuldum. Seym dövründə Tiflisdə Maarif Naziri idim və aldığım maaş məni təmin etməzdi. Həmişə olduğu kimi Gəncədən atamdan pul istəyirdim. Azərbaycan istiqlalını elan etdik. Cüm-

huriyyətimizin Maarif Naziri oldum. Aldığım maaş yenə də məni dolandırmırdı. Parlamentimizdə olsun, partiya daxilində olsun, ümumiyyətlə xalqımızın hər sinfi məni sevir. Hər kəsdən hörmət görməkdəyəm. Elə gün olmur ki, cəmiyyətimizin keçirdikləri gecələrə dəvət olunmayım. Hamısının da dəvətini qəbul edərək iştirak etmək lazımdır. Çoxuna sıxıla-sıxıla az maddi köməklik edirdim. Ancaq, Baş nazir olduqdan sonra bütün bu sıxıntılardan xilas oldum. Belə məsrəflərin hamısı örtülü təxsisatlardan verilir. Sən bilirsən, Mən atamın icazəsi ilə bağlarımızdan birini müasir bağ yaratmaq qayəsilə ayırmışdım. Üç ildir milli işlərimizdən bağ ilə məşğul olacaq vaxt tapa bilmədim. Atama bir məktub yazaraq bu il də bağ işi ilə məşğul ola bilməyəcəyimi, yenə əvvəlki kimi qamış alıb basdırmalarını söylədim. Babamdan bu cavabı aldım. Məktubu sənə oxuyuram. Atam məktubda ürəyində nə var hamısını yazıb: «Əziz oğlum, artıq səbrim tükənib, dözə bilmirəm. Hamısını yazacağam. Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim. Ali təhsilini bitirib Gəncəyə qayıdanda artıq hər şeyin rahat olacağını yəqin etdim. Sən Gəncəyə gəlib Bələdiyyədə ərzaq işləri üzrə müdir oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək Seymin Maarif naziri oldun. Aldığın pul ilə yenə özünü saxlaya bilmədin. Bir neçə dəfə pul istədin - göndərdim. Sonra Azərbaycan istiqlalını elan etdiniz. Gəldin Cümhuriyyətimizin maarif naziri oldun. Dövlətimizin mərkəzi olan Bakıda işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə məndən pul istədin. Həmişə göndərirdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. O pullardan göndərdim sənə. Bu gün isə Baş nazirsən. Dövlət başçısısınız, yəni ölkəmizin padşahı olmuşsunuz. Yenə bağının qamışını mən alım? Sən pul göndərə bilərsənmi?»

Nəsib bəy universitet tələbəsi kimi yay tətilində digər tələbələr kimi Gəncəyə qayıdırdı. Biz onun axşam şəhər klubuna gəldiyimiz zaman qarşılayırdıq. Nəsib bəyin gəlişində daima bir fövqəladəlik olurdu. Digər tələbələr gəldiyi zaman qohum-əqrabaları sevinir, dostları da xoş gəldin deyirlər. Ancaq, Nəsib bəyin

gəlişi klubun hər sinfinə mənsub üzvlər arasında sevincə səbəb olurdu. Hər kəs onu axşam yeməyinə dəvət edərdi. Nəsib bəy isə təşəkkür edər və «Söz vermişəm ki, ilk gəldiyim günün axşamı yeməyimi gənclərlə yeməliyəm» deyirdi. Azərbaycanda yemək vaxtı belə idi. Nahar yeməyi saat 14.00-da, axşam yeməyi isə saat 22.00-da.

**Nəsib bəy haqqında başqalarından eşitdiklərim**

Süleyman bəy Məmmədzadə İstanbulda danışırdı ki, 1908-ci ildə konstitusiyanın elanı zamanı Nəsib bəy iki yerdə nitq söylədi. Bunlardan biri Sultanəhməddə, biri də körpü üstündə söylənən nitqlərdir. Onun nitqləri maraqla dinlənərək sürəkli alqışlarla qarşılandı. Nəsib bəy tez-tez toplantılarımızda iştirak edir və öz çıxışları ilə seçilirdi. O, bizim istiqlal məktəbimizin müəllimi idi. Xalqımızın hər təbəqəsi onu sevir və nitqlərini dinləyirdi. Onun gəncliyə olan inamı sonsuz idi. Gənclərə çox böyük dəyər verirdi. Nəsib bəy bizim üçün hər şey olduğu kimi biz gənclər də onun üçün hər şey idik. Azərbaycan şairi Almas İldırımın bir şerini xatırladaq:

Göylər deyir:
...Bir nöqtə istinadgah verilsə
Bir çiv ilə çevirərdim dünyanı.
Mən deyirəm: od gəmirən gənclik mənə verilsə
Bir vuruşla devirərdim dünyanı.

Bax, Nəsib bəy od gəmirən gəncliyi ovucuna almışdır. Bir sərkərdə yetişdirdiyi ordusuna necə güvənirsə, Nəsib bəy də yetişdirdiyi gənclərə elə güvənirdi. Nəsib bəy o güvəncdən aldığı cəsarət sayəsində məhdud gənclik qüvvəsi ilə Azərbaycanda 100 mindən çox olan rus əsgərləri ilə savaşmış və düşməni məğlub etmişdir. O, bu yoldan Azərbaycan istiqlalını hazırlaya bilmişdi. 1920-ci il martın sonlarına doğru Nəsib bəyi evində ziyarət etmişdim. Bu görüş zamanı biz müxtəlif mövzularda söhbət etdik və sonra söhbətimiz Anadolu İstiqlal Savaşının üzərinə gəlib

çıxdı. Bu zaman Nəsib bəy, «gec də olsa, az da olsa Türkiyəyə bir az valyuta hazırlayıb yeznəm Pişnamazzadənin qardaşı oğlu Məmmədəli Əhmədzadə ilə göndərdim» dedi. Pulun miqdarını soruşmadım. O da açıqlamadı. 1961-ci ildə Əhmədzadə ilə Tehranda görüşdüm. Ondan yardım məsələsi haqqında soruşdum. İsrarıma baxmayaraq məlumat verməkdən imtina etdi. Mən də daha çox üz vurmadım. Daha sonra əldə etdiyim məlumata görə Əhmədzadə Nəsib bəyin göndərdiyi pulu İstanbula göndərmişdir. O zaman İstanbul ingilis və fransızların işğalı altında idi. O, Ankaraya gedib pulu lazımi yerə təhvil verə bilməmişdi. Artıq bu zaman, yəni 1920-ci il aprelin 27-də Azərbaycanı Moskvanın əmri ilə Qızıl ordu işğal edir. O, 1920-ci ilin may ayında Azərbaycan dövlət xadimlərinin Gürcüstana keçdiklərini öyrənir. Əhmədzadə əlindəki pullardan min ingilis poundunu İtaliya bankı vasitəsilə İstanbuldan Tiflisə Nəsib bəyin adına göndərir. Halbuki, Nəsib bəy Tiflisə gəlib çata bilmir, yəni yolda naməlum şəxslər tərəfindən öldürülür. İstanbuldan göndərilən bu min ingilis poundunu Nəsib bəyin dostları Gürcüstan səfirimiz Pərviz bəy Vəkillinin vasitəsilə alırlar. Əhmədzadə daha sonra Nəsib bəyin öldürülmüş olduğunu söyləyir. Onun 1920-ci ilin oktyabr ayında Ankara hökumətinə 19 min Türk kağız lirəsi və bir milyon fransız frankı vermiş olduğunu öyrəndim.

## Nəsib bəylə son görüşüm

Milli matəmimiz olan 27 aprel 1920-ci ildə ələ keçən Azərbaycan ziyalıları ruslar tərəfindən məhv edilirdilər. Çekanın azğın cəlladları Bakıda xüsusilə Müsavatçıları məhv etməyə çalışırlar. Gizli olaraq Nəsib bəylə görüşməyə getmişdim. Bu mənim onunla son görüşüm oldu. O bir neçə yoldaşla birlikdə bir evdə saxlanılırdı. Çox kədərli idim. Çünki, düşmən milli varlığımıza zəhərli bir xəncər saplamışdı. Danışmaq istədikcə gözlərim yaşarırdı. Bir ara hamımız susmuşduq. Nəsib bəyin çöhrəsində kədərli cizgilər aydın hiss olunurdu. Bu sükutu Nəsib bəyin kədərli səsi pozdu:

«Azərbaycan istiqlalını qurduq. Ancaq, onu saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güclü qüvvələri ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey varsa, o da bizə təsəlli verməkdədir. Ruslar zülmləri, vəhşilikləri ilə xalqımızı nə qədər əzirlərsə əzsinlər, əbədi olaraq qala bilməzlər. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumundan mənəvi varlığımıza hopmuş hürriyyət ruhunu söküb ata bilməzlər. Onlar buna nail olmaq üçün vəhşiliyi və qəddarlığı ilə məşhur olan Neronu köməyə çağırsalar da yenə müvəffəq ola bilməzlər» dedi. Nəsib bəyin inam dolu bu sözlərində böyük bir həqiqət var idi. Həmçinin rus və bolşevik istilasından bir ay keçməsinə baxmayaraq milli qızıl səhifələr halında keçəcək olan əzəmətli Gəncə üsyanı baş verdi. Doqquz gün, doqquz gecə davam edən və tarixdə nadir təsadüf edilən bu üsyana milli varlığın zalım düşmən qarşısında necə dayandığını gördük. Bu adi bir üsyan deyil, başdan-başa bir qəhrəmanlıq dastanı idi. Şairlərimiz ilhamlarını bu dastandan alırlar.

***Nağı Şeyxzamanlının xatirələri,***
***Bakı, Qartal nəşriyyatı,***
***1997, səh. 226-234.***

## AZƏRBAYCANLIYA

***Hörmətli Nəsib bəyə***

***Ey vətəndaş, bu gün sənin taleyinə,***
***Vicdanları aydınladan yıldız doğur.***
***Ey qafqazlı, sənin uca afətindən,***
***Bir əbədi, sönməyəcək yıldız doğur.***

***O yıldız ki, onun üçün bəşəriyyət,***
***Tarixində dəryalarca qan axıtmış.***
***Doğmuş onun şəfqətindən kaç məmləkət,***
***Bir çoxları qərq olaraq yerə batmış...***

***Bu gün sən də insanlığa addım atdın,***
***Müstəqilcə yaşamanı salamlatdın.***
***Bundan sonra Azərbaycan ölkəsində,***
***İstiqlalın, hürriyyətin kölgəsində***
***Sənin dəxi bir müqəddəs vətənin var.***
***Bayrağın var, buludlardan uca qalxar...***
***İstiqlalın Şərqə işıq saçacaqdır,***
***Sənin dəxi Milli Şuran olacaqdır.***

***Şimdi sənin daşıdığın böyük adı,***
***Alqışlayır Qafqasiyanın dağı, daşı.***
***Xəzər suyu bayrağını salamladı,***
***Sevin, azad Azərbaycan vətəndaşı.***

***Əli Yusif***

*"Azərbaycan" qəzeti, 1918, 16 təşrini-sani (noyabr), N 41*

*Ərəb qrafikasından çevirəni filologiya elmləri doktoru, professor* ***Asif Rüstəmli***

Yusifzadə Ağəli Cəlal oğlu (1.1.1900, Şuşa - 1926) – şair, Cümhuriyyət dövrü poeziyasının istedadlı nümayəndələrindən biri.

Əli Yusif 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Xalq Maarifi Nazirliyində kargüzar işləmiş və bu dövrdə yazdığı şeirlərini «Yusifzadə Əli Rai», «Əli Yusif», «Əli Yusif Rai» və «Ə.Y» imzaları ilə dərc etdirmişdir. «Yaşıl qələm» ədəbi birliyinin fəal üzvlərindən idi.

Əli Yusif istiqlal dövrü poeziyasında öz orijinallığı ilə seçilən simalardan idi. Bu dövrdə yazdığı «İdeal», «Bayraq», «Azərbaycanlıya – hörmətli Nəsib bəyə» (Nəsib bəy Yusifbəyliyə), «Ey türk oğlu» və s. şeirlərində, həmçinin 1918-1920-ci illər mətbuatında tez-tez dərc olunan məqalələrində Azərbaycanda milli dövlət quruculuğunu tərənnüm etmişdir.

Əli Yusif 1920-ci il yanvarın 14-də dövlət hesabına təhsil almaq üçün Parisə göndərilmişdi. 1922-ci ildə o, Parisdə Siyasi Elmlər İnstitutunu əla qiymətlərlə bitirib, Bakıya qayıtmışdır.

Əli Yusif bir müddət sonra mühacirətdə olan müsavatçılarla əlaqə saxlamaqda təqsirləndirilərək, Sibirə sürgün edilmiş, orada qətlə yetirilmişdi.

## TARİXİN QAN QOHUMU...

(Nəsib bəy Yusifbəyli
Əziz Alpoudun xatirələrində)

Faktların yaxasına əlimiz çatmayanda, arabir xatirələrin ətəyindən yapışmaq zorunda qalırıq. Çünki nəyin bahasına olursa olsun, bilmək istədiklərimizə xəyalımızda real bir düzüm və ya ilahi bir nizam verməliyik. Dağınıq, pərakəndə tarixlə üzü gələcəyə tərəf addımlamaq o qədər də asan olmur. Düşdüyü bəlaların səbəbini öz Keçmişindən soruşmayan xalq bədbəxtdir, vəssalam!.. İş orasındadır ki, xalqların və fərdlərin çabaları, savaşları xoşbəxtlik üçündür. İnsan arzusunun "bədbəxtlik" adlı hədəfi və ünvanı olmur.

Millət çörəyə və sevgiyə can atdığı kimi tarixi bilgilərə doğru qanadlanmalıdır. Çünki onun pərvazlanıb, qonmaq istədiyi yerdə Güc var. O Güc ki, daim onu böyük bəlalardan hifz edib, qorumaq gücündədir. Bircə şərtlə; o tarix halal tarix olsun.

Biz bu gün keçmişə və bu keçmişin simasına çevrilmiş şəxsiyyətlərə qüsul verib onları paklığa çıxarmaq istəyənlərin arzuları ilə gerçək tariximizi yaza bilməyəcəyik.

Biz heç vaxt tarixin və tarixi şəxsiyyətlərin gorunu şər-şəbədə ilə bəzəyənlərin əxlaqı ilə Keçmişimizə sahib dura bilməyəcəyik.

Tarixi yaradıb, sonra yazarlar...

***

Hər nə olubsa, yazılana qədər xatirədir. Qələmin ağzından çıxan söz artıq tarixdir. Elə bu məntiqin arxasınca getsək, görərik ki, xatirələr tarixin qan qohumudur. Və heç vaxt, heç bir məqamda varislik iddiasını geri götürməyən şahiddir.

Tarix heç zaman bizim düşündüyümüz anlamda məhkəmə qurmur, kimisə cəzalandırıb, kimisə təltif etmir. Sadəcə olaraq, onun şəhadətində əbədi dualizmin yaşam prinsipləri var. Sonrası xalqın və fərdlərin öz öhdəsinə buraxılır.

XX əsrin ilk rübündə Azərbaycan xalqı dramatik bir seçimlə üz-üzə qalmalı oldu – ya Müstəqillik, ya da ümumbəşəri mücərrəd bir ideya... Ən işıqlı zəkalar bu ixtilafın içində vurnuxurdu. Indi o adlar və adamlar bizim üçün təkcə Zamanın yox, həm də Vətənin obrazı kimi çox maraqlıdırlar. Çünki böyük şəxsiyyətlər millətin məqsədə sarı gedən kəsə yoludur. Bu yol bizim üçün açılmayana qədər, tarixin labirintindən çıxış tapa bilməyəcəyik. Qaranlıqda irəliləmək üçün insanın əlində mütləq işıq olmalıdır.

1920-ci ilin aprelində “şimal küləyi” Azərbaycanda bu işığı bir daha söndürə bildi. Vaxtın həqiqi siması ilə bərabər, görkəmli şəxsiyyətlərin də adı qaranlığa qərq oldu. Yaddaşlarda zərrələr qaldı – qaranlıqdakı zəif işartılar kimi...

XX əsr Azərbaycan Milli Azadlıq hərəkatının mücahidlərindən biri, son illərə qədər adı yeddi möhür arxasında gizli qalan, Müstəqillik ideyasının sarsılmayan savaşçısı Əziz Alpoudun (Mir Əbdüləziz Seyid) “Həyatımın hekayətləri” kitabında bir çox görkəmli ictimai-siyasi xadimlərin adları üzərindən bir xatirə işığı keçir. Hər epizod bir zaman kəsiyidir. O epizodların bir neçəsinə görkəmli dövlət xadimi Nəsib bəy Yusifbəylinin də əksi düşüb.

Beləliklə, “Həyatımın hekayətləri”, 105-ci səhifə... 1917-ci ilin fevralı... Nəsib bəy Yusifbəyli ilə görüş...

BİRİNCİ XATİRƏ

*“...Bakıda bir müddət qalıb, yenə də bizim tələbə işləriylə məşğul olmağa başladım. Bu arada “Qafqaz Türk-Müsəlmanları”nın Bakıda qurultayı açıldı. Bütün bölgələrdən gələn milli qiyafəli tələbələr Bakıda toplandılar. Qurultay “İsmailiyyə” binasında keçirilirdi. Mən də bir dostumla qurultaya Tələbə Birliyinin təmsilçisi olaraq dəvətliydik. Döşümüzə yaşıl rəngli Ay nişanları taxmışdıq.*

*Tədbir bir neçə gün çəkdi və çox həyəcanlı keçdi. Şimali Qafqazlı qardaşlarımız qurultaya milli geyimdə gəlmişdilər. Səhnədə hər məmləkətin mahnıları səsləndi, fişənglər atıldı və nəhayət, müzakirələr başlandı. O cümlədən mən, türkcəm demək olar ki, zəif olduğundan (bütün təhsilimi rusca almışdım) növbə çatanda Rus dilində danışmağa başladım. Amma çox haqlı olaraq, salonda bir gurultu qopdu: ”Ana dilində danış!” Bu dəfə bildiyim qədər sadə cümlələrlə*

*ali məktəb tələbələrimizin fikrini bildirdim. Türkçülükdən bəhs etdiyimi duyan "Ədəmi Mərkəziyyət Türk Federativ Partiyası" başqanı, sonralar Azərbaycan Cümhuriyyətinin sıra ilə ikinci Baş naziri olan Nəsib bəy Yusifbəyli kürsüdən düşəndən sonra gülər üzlə mənə yaxınlaşdı, fikirlərimə görə təbrik edəndən sonra əlavə olaraq:"Eyni ideyaya xidmət etdiyimizə görə birliyiniz bizim partiyaya daxil olsun"-deyərək, təklif etdi. Tələbə olaraq heç bir partiyaya keçməyəcəyimizi ona söylədim. Dost kimi ayrıldıq..."*

***

İlk dəfə dost kimi görüşüb ayrılan bu insanları tale vaxtaşırı qabaqqənşər gətirib görüşdürür. Bəzən təsadüfi görünən bu "rastlaşmalar"ı əslində zərurətin sifarişi kimi qavramaq istəyir adam. Çünki bütün bunlar "kef-əhval soruşmaq" görüşünə bənzəmir. Əslində, ciddi bir tarixi informasiya qaynağı kimi maraq doğurur. Eyni zamanda görkəmli ictimai-siyasi xadim Nəsib bəy Yusifbəylinin portret cizgilərinə əlavələr edir. Onun insani keyfiyyətlərini, dövlətçilik və millətçilik çabalarının qabarıq tərəflərinin ən ümdə təfərrüatlarını üzə çıxarır.

Azərbaycanın dövlətçilik tarixində Nəsib bəy Yusifbəylinin ən saf, ən halal, rüşvətxorluqdan uzaq bir hökumət başçısı kimi obrazı var. Düzdür, çox vaxt siyasətçilər və tarixçilər mənəvi keyfiyyətlərin məhək daşı olan inam və imanı böyük məqsəddən və ya məsləkdən ayırıb, onu görməməzliyə vururlar. Amma çox nahaq... Fərdlər öz şəxsi mənafeyini ictimai mənfəətdən qabağa keçirdikcə, özünün iflas və məğlubiyyət nöqtəsinə doğru addımlayır – xüsusilə, siyasətdə...

Dövlət xadiminin acgözlüyünün, mənəvi cılızlığının, mafiozluğunun addımladığı əməl troyektoriyasına alternativ qoymaq üçün Nəsib bəy Yusifbəyli nümunəsi var. Bu görkəmli şəxsiyyətlə ilgili hər hansı bir fakt, təfərrüat, xatirə Yusifbəyli obrazını bütövləşdirir, Bütövləşmək isə Büt olmaq demək deyil, nümunə və ya örnəkdir.

...Və Nəsib bəylə ilk görüşdən illər keçib. Tələbə Əziz Alpoud artıq hüquqşünas kimi Cümhuriyyət hökumətində dəmir yol hakimi vəzifəsində çalışır. Günlərin bir günü könüllü ordu sıralarına yollanır. Bəxtinin hərbi komissarına heç bir "görüm-baxım" eləməyən Əziz bəy Gəncədəki milli hərbi hissələrimizin birində xidmətə başlayır.

Beləliklə, "Həyatımın hekayətləri", 155-ci səhifə... 1919-cu il... (ay və gün məlum deyil)... Nəsib bəy Yusifbəyli ilə görüş...

İKİNCİ XATİRƏ

*"...Bir gün kazarmamızın yanında işləyərkən Baş Nazir postunda olan Nəsib Yusifbəyli keçirdi. Onunla çoxdan olan tanışlığıma görə məni görüncə salamımı aldı və maşınını saxlayaraq aşağı endi, səmimiyyətlə boynuma sarıldı: "Kaş ki, bizim gənclərin hamısı sənin kimi olaydı" - dedi və əsgərliyimi təbrik etdi. Bu vaxt ona latın əlifbası üzərində çalışdığımı söyləyərkən çox məmnun oldu, kömək edəcəyinə söz verib ayrıldı. Nəsib bəyin bu işdə köməyini gördüm.*

*Həqiqətən də, ermənilərin mənfur hərəkətlərinin arası kəsildiyinə görə, Bakıya gəlib təkrarən əvvəlki vəzifəmi icra etməyə başladım. Latın əlifbasını (təkrarən) yenə əlimə aldığım zaman başda partiyamızın lideri Məmməd Əmin Əfəndioğlu, çox yaxın dostum Əli bəy Qulubəyli mənimlə birgə Nəsib bəyi ziyarət etdik və orada mühüm bir söhbət apardıq. Nəsib bəy bizə bu məsələni Vəkillər Heyətində müzakirə edəcəyinə söz verdi. Həqiqətən də, sözünün üstündə durdu. Bir ara da bununla bağlı Maarif Nazirliyində komissiya yaradıldığını və toplantı günü üçün təkliflərin hazırlanmasını xahiş etdi. Çox sevindim..."*

***

Tarixi araşdırmanın ən mücərrəd qatı anologiyadır. Dövlətləri, cəmiyyətləri, millətləri və fərdləri bir-biri ilə müqayisə etmək və kortəbii nəzəriyyələri, nəticələri paralellər üzərinə daşımaq. Lirik təfəkkürün əksinə olaraq, tarixi faktlarla işləyən adam "tarix təkrar olunur" qənaətini haqlı olaraq mistifikasiya kimi qəbul edir. Amma konkret zaman müstəvisində anologiya bəzən qaçılmaz olur. Əziz Alpoud da öz subyektivliyi ilə onu əhatə edən şəxsiyyətlər arasında paralellər aparır. Hətta, səmimi rəğbət bəslədiyi insanlar da belə yanaşmadan kənarda qalmır. Məsələ heç də qiymətləndirmə və ya dəyərləndirmədə deyil. Dramatik məqamların elə dramatik müqayisələri də olur. Belə soyuq və sərt müqayisələrdən biri də Nəsib bəy Yusifbəylinin qismətinə düşür.

Zamanından qırx iki il (1961-ci il), məkanından da elə bir o qədər uzaqlarda Ankarada Əziz Alpoud həyatının hekayətlərini öz tən-

halığı ilə bölüşür və gəldiyi nəticələri isə Gələcəyin rəfinə qoyur.

Belə ki, "Həyatımın hekayətləri", 157-ci səhifə... 1919-cu il... (yenə də ay və gün bilinmir) Siyasi liderlərdən biri kimi Nəsib bəy Yusifbəyli ön plandadır.

ÜÇÜNCÜ XATİRƏ

*"...Dünya səviyyəli bir dövlət adamı olan sabiq baş nazir Fətəli Xan Xoylunun yerinə keçmiş Ədəmi Mərkəziyyət Türk Federalisti, indi isə "Müsavat"çı ortağı (şəriki) Baş Nazir Nəsib bəy Yusifbəyli, çox təmiz bir vətənpərvər və türkçü olmaqla bərabər, təəssüf ki, əvvəlki baş nazir səviyyəli bir idarəçi deyildi. Bu səbəbdən də, gündən-günə məmləkətdə narazılıqlar artırdı.*

*Arada Nəsib bəy partiyamızı da koalisiyaya qoşulmağa cəlb etmək məqsədilə, bizə iki nazir vəzifəsini təklif etdi.Qohumum və dostum Əli Qulubəyliyə Ticarət Naziri , mənə də Maarif Naziri vəzifəsini. Hər ikimiz də bu təklifi rədd etdik.Çünki seçkilər keçirilməyənədək, koalisiyada iştirak etməmək qərarında idik..."*

***

Əziz Alpoudun "Həyatımın hekayətləri" əsərində Nəsib bəyin zamanın fonunda çəkilmiş ictimai-siyasi portreti ilə yanaşı, epizodik olsa da, sadə insani cizgiləri xatırlanır. Azərbaycanın Milli Əmniyyət naziri Nağı bəy Şeyxzamanlı ailə həyatı qurarkən Nəsib bəy Yusifbəyli öz məsləkdaşlıq və ağsaqqallıq missiyasını yerinə yetirir. Yeri gəlmişkən onu da qeyd edək ki, Əziz bəy sonralar Nağı bəyin baldızı Ruqiyyə xanımla evlənib.

Uzun müddət ötəndən sonra Əziz Alpoud Müstəqillik illərinin şirinliyini, insanlarda həyat eşqinin rənglərini, çalarlarını göz yaşına qarışdırıb damla-damla səhifələrə damızdırır. Beləcə, 1919-cu il.... Böyük səadətlə dolu kiçik bir həyat mənzərəsi "Həyatımın hekayətləri"ndə...

DÖRDÜNCÜ XATİRƏ

*"...Səlimənin elçiliyinə şəxsən Nəsib bəy Yusifbəyli özü gəlmişdi.Toy Əli bəygilin böyük salonunda keçirildi. Başda Nəsib bəy, bir çox nazirlər, millət vəkilləri, ordu generalları və Bakı şəhərinin sayılıb-seçilənlərindən, tanınmış şəxslər toyda iştirak edirdilər. Toy səhərə qədər davam etdi. Mən coşdum və böyük masanın üstünə*

*çıxaraq,"Şeyx Şamil" oynadım. Başımda kiçik, saçaqlı qara papaq, əynimdə yeni tikdirdiyim milli qiyafə və əlimdə qınından çıxardığım iti xəncərim masanın üzərində quş kimi uçurdum. Bu vaxt xəncərin ucunu dizimdən aşağı soxduğumu hiss etdim. İgidliyi əlimdən vermədim, axıra qədər oynadım. Alqışlar, öpüşlər arasında masadan endikdən sonra, gizlicə, Ruqiyyədən bir az yod, bir az da pambıq istədim. Narahat olmağa dəyməzdi, bir az qanamışdı.*

*Nağı bəy də ağ papaq və ağ rəngli milli qiyafədəydi. O da bizim milli oyunlarımızdan birini Səlimə ilə üz-üzə oynadı..."*

***

Əziz Alpoudun xatirələrində 1920-ci il aprel ayının 28-i günü şahidi olduğu bir hadisənin mənzərəsi var. O görüntülərdə bolşevizmin Azərbaycanda törətdiyi saysız-hesabsız bəşəri cinayətlərdən biri təsvir olunur. Bəlkə də, Nəsib bəy Yusifbəylinin müəmmalı ölümünün və ya itkinliyinin həqiqi nöqtəsi elə oradan başlayır. Bilmirik. Amma "həqiqətin anası olan şübhə" dodağının altında nəsə pıçıldayır. Düzdür, bu şəhadətdən Nəsib bəyin və ya başqa bir kimsənin adı keçmir. Amma Vətəni tərk etmək istəyən nazir ailələrinin məhz həmin gün xüsusi qatarda ələ keçməsi və hamısının da bolşeviklərin zavalına gəlməsi açıq-aydın görünür. Əcəba, görəsən, Cümhuriyyətimizin ikinci baş naziri də o vaqondakı hökumət üzvlərinin, onların ailələrinin arasında deyildi ki?.. Axı, Yusifbəylinin qızı da sonralar qeyd edib ki, atası, məhz həmin gün – yəni, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə onları tərk edib və qatarla yola çıxacağını bildirib. Nə isə...

"Həyatımın hekayətləri", 172-173-cü səhifə... 1920-ci il aprelin 28-nə açılan səhər... Əziz Alpoudun dəmir yolu vağzalında gördükləri...

BEŞİNCİ XATİRƏ

*"...Ertəsi səhər, idarəmə getməzdən əvvəl stansiyaya getdim. Yan pilləkənlərdən perrona yaxınlaşdım və qəribə bir mənzərənin şahidi oldum. İkinci xətdə sərnişin vaqonlarından ibarət bir qatar dayanmışdı. Lokomativi yox idi... Sərnişinlər də yoxdu. Lakin rəflərdə çantalar var idi. Ələlxüsus, diqqətimi çəkən o dövrlərdə dəbdə olan, geniş dairəli qadın şapkalarının sarı rəngdə olan böyük dairəvi qu-*

*tuları olmuşdu. Bu mənzərə məni çaşdırdı. Ağlımdan bir sual keçdi. Kimdir bu tərk edilmiş əşyaların sahibi? Nə üçün qoyub gedib? Bəs, özləri haradadır? Suallara cavab tapa bilmədən, tez perronu tərk etdim, arxa pilləkənlərdən sürətlə enib küçəyə çıxdım...*

*İdarəyə gəldikdən sonra həmin bu müəmma çözüldü: İdarəmizdə hərkəs,nazir ailələrinin sübhdən xüsusi qatarla qaçarkən tutulduqlarını danışırdı...”*

Böyük şəxsiyyətlərin tərcümeyi-halı çox vaxt ölümlə yox, naməlumluqla tamamlanır. Amma “tamamlanma” dediyimiz bu anlayış da tam deyil. Çox qəribədir, elə bil zamanın gərdişi özü həmişə bilə-bilə həqiqətlə müəmmanın arasında izahsız boşluqlar saxlayır. Bəzən absurdu məntiqə gətirən, bəzən də məntiqin özünü absurda çevirən boşluqlar...

23 ay ömür sürən Cümhuriyyətimiz sanki Azadlıq adlı əsərimizin ön sözüdür. Bu, bütün müqəddimələr kimi çevik və yığcam bir şəkildə böyük-böyük təfərrüatları özündə kodlaşdırıb. Bizim bilgi qəlibimizlə kəsilmiş işarələr isə fərqlidir. Bəlkə də, elə ona görə, tarixi materiallar bizə bu qədər ciddi müqavimət göstərir. Onu öyrəndikcə, öyrənilməz qalır. Nəsib bəy Yusifbəylinin ölümünün müəmması onun maraqlı şəxsi həyatından və parlaq ictimai-siyasi fəaliyyətindən də qat-qat sirli görsənir. Elə bil Zaman özü bu itkinliyi müəmmaya çevirib ki, böyük şəxsiyyətin obrazını bitib-tükənməyən versiyaların öhdəsinə buraxsın. Həm də bu müstəvidə onun üzərinə bir ölməzlik kölgəsi salsın.

Tarix və onu yaradan insanlar miflə başlayır və əfsanə ilə tamamlanır. Çünki Gələcək əfsanələri sevir. Nəsib bəy kimi insanlar hiddət və qəzəb əsrinin yeri və göyü titrədən tufanlarını öz üzərinə götürmüş dipdiri hədəflərdir. Millət gözünü yumur ki, onların necə yıxıldığını görməsin. Bəlkə də, xalqımız Cümhuriyyət üçün savaşan mücahidlərdən birini – Nəsib bəy Yusifbəylini ölümsüzlük simvoluna çevirməliydi ki, bu məmləkətdə Azadlıq ideyası ölməsin. Çünki Azadlığın məzarı olmur, Vətəni olur.

## KİM İDDİA EDƏ BİLƏR Kİ, BİZ ÖZÜMÜZÜ İDARƏ ETMƏYƏ SƏLAHİYYƏTDAR BİR MİLLƏT DEYİLİK?!

**Nəsib bəy Yusifbəyli**

Milli Azərbaycan davasının ən mümtaz və ən öndə gələn liderlərindən biri də, heç şübhəsiz, milli Azərbaycan dövlətinin başqanı, rəhmətlik Yusifbəyli Nəsib bəy idi. O, bütün həyatını Azərbaycanın baxımsızlığı yolunda Azərbaycanın milli lideri və əziz dostu M.Ə.Rəsulzadə ilə birlikdə gecəsini gündüzünə qataraq çalışmış və həyatını bu uğurda fəda etmiş əmsalsız bir insandır.

Nəsib bəy 1881-ci ildə Azərbaycanın Gəncə elində doğulmuşdur. Babası Yusif bəy, anası isə Xanbudaq ailəsindən Cəmilə xanımdı. İlk orta və litsey təhsilini Gəncədə tamamladı. Sonra universitetdə təhsil almaq üçün Odessaya getdi. Orada hüquq fakültəsini bitirdi. Təhsildə ikən Krımın milliyyətçi – türkçü lideri mərhum İsmayıl bəy Qaspralı ilə tanış oldu. Zaman-zaman təşkil etdiyi toplantılarda iştirak etdi. Ondan türkçülük və milliyyətçilik konuda dərs və ilham aldı. Uzun illər Qaspralının məmləkəti Bağçasarayda qaldı. Orada Qaspralının yayınladığı «Tərcüman» qəzetəsində çalışdı. Daha sonra bu qəzetənin idarəsini əlinə aldı. Bu arada Qaspralı İsmayıl bəyin qızı Şəfiqə xanımla evləndi. Çox gözəl qonuşan və yazan Nəsib bəy 1908-ci ildə İstanbulda təşəkkül edən «Türk dərnəyi» cəmiyyətinin ilk üzvləri arasında da yer aldı.

Nəsib bəy zəkalı, mərd və açıqsözlü idi, hər şeyin olduğu kimi ortaya tökülməsinə, gizli və qapalı qalmamasına maraq göstərirdi. Yoldaşları tərəfindən daima təqdirlə alınardı. Güvənilən bir dost, verdiyi sözü tutan, hissiyyatlı bir xarakterə malik şəxsiyyət idi. Kubar simpatik və enerji dolu idi.

Nəsib bəy Bağçasaraydan Azərbaycana döndükdən sonra bir yandan «Açıq söz» qəzetəsində yazdığı məqalələrlə milli Azər-

baycan davasını, milliyyətçilik, türkçülük, xalqçılıq və mədəniyyətçilik prinsiplərini savunərkən, digər yandan xalqına və millətinə daha çox xidmət vermək, onlara daha yaxın olmaq üçün çeşidli quruluşlarda görəv alırdı. Gəncə bələdiyyə idarəsi üyəliki,Gəncədəki «Mədrəseyi-ruhaniyyə» örgəntməkliyi, türkcə ilk kitabxaneyi-qurma qeyrəti, «Təslim» adlı məfkurəvi bir romanın yazarlığı bunların başında gəlirdi.

Yaxşı bir qəzetçi, mükəmməl bir yazar, qüvvətli bir xətib, sağlam bir politika və dövlət adamı olan Nəsib bəy Azərbaycan Milli İstiqlal mücadiləsində daha fəal rol oynamaq üzrə 1917-ci ildə Çarlıq Rusiyasının çökümündən bir az sonra Gəncədə «Türk Adəmi Mərkəziyyət Xalq Firqəsi» adıyla millətçi və cümhuriyyətçi bir partiya quraraq aktiv bir mücadilə həyatına atıldı.

1917-ci il, aprel ayının əvvəllərində Bakıda toplanan Birinci Müsəlman Qafqasiyə qurultayında partiyanın proqramını izah edərkən: «Kim iddia edə bilər ki, biz özümüzü idarəyə səlahiyyətdar bir millət deyilik!» - demək surətiylə qurultaya tutulması lazım gələn yolu göstərmişdir.

Nəsib bəy Milli Azərbaycan dövlətinin Fətəli xan Xoylu kabinəsində milli egitim bakanı, daha sonra iki dəfə baş bakan olmuşdur.

Nəsib bəy Azərbaycanın qurtuluşunu, hürr və müstəqil oluşunu geniş şəkildə silahlanmağa, xalqa silah qullanılmasını öyrənməyə və əsgərlik yönündən bilgili olaraq yetişdirilməsinə bağlayır və özünə yönəldilən sorğuları belə cavablandırırdı.

«Yıxılan çar ordusunun yerinə gürcülər və ermənilər yeni ordu yaradırlar. Bunlar Qafqasiya Türk Ordusuna qarşı müdafiə fikrindədirlər. Erməni və gürcü orduları, rus ordusunun bütün silahına və malzəməsinə qonduğu halda, bizə bir şey vermirlər. Biz də deyirik ki, gürcülər və ermənilər kimi biz də məmləkətimizi qoruyacağıq. Bizə də silah verin».

«Bizdə silah olursa gürcülər və ermənilər bizi də hesaba qatarlar. Xalqın əlində silah olursa, sizin kimi türk zabitləri dəvət edirik. Bizə də əsgərlik öyrədərlər, təşkilat yaparlar. Bizə ordu

lazımdır. Ermənilərlə bolşeviklər arasında məhv olmamaq üçün buna məcburuq. Erməni daşnak sağan firqəsinin fikri Azərbaycanın Gəncə, Qarabağ, Ordubad, Naxçıvan bölgələrini almaq və Ermənistanı böyütməkdir. Buna girişə bilmək üçün də buralardakı islamları yox etməyi düşünürlər. 1905-ci ildə silahsız müsəlmanlara qarşı qətləmlər yapdılar. İndi hər fürsət düşdükcə bundan qorxulur. Ermənilərin yerli müsəlmanlar arasında bolşevik propaqandasıyla xalqımızı bir-birinə qırdırmağa çalışdıqlarını görmürükmü? Gürcülərlə aramızda düşmənçilik yoxdur. Fəqət daşnaqların fikri pozuqdur».

Fətəli Xan Xoylu kabinəsində Milli Egitim bakanı olaraq dəyərli xidmətlər verən Nəsib bəy Yusifbəyli Fətəli xan kabinəsinin istefasından sonra 14 aprel 1919-cu ildə Baş Bakan olaraq kabinəsini qurdu. Bu kabinə 8 ay yaşadı və Azərbaycanın dövlət quruluşu dövrünü əhatə etdi. Dekabrın 24-də Nəsib bəy ikinci kabinəsini qurdu. Bu kabinə Azərbaycanın 5-ci və son hökuməti idi.

Nəsib bəy 24 aprel 1920-ci il istilasından sonra yaxın arkadaşı İbrahimli  Yusif bəylə birlikdə Gürcüstana keçərkən Siqnax bölgəsində faciəvi bir şəkildə öldürülərək şəhidlik mərtəbəsinə yüksəlmişdir.

Milli Azərbaycan Cümhuriyyətinin milli əmniyyət əski Genəl müdiri Nağı Keykurun 27 aprel 1920-ci il tarixini təqib edən günlərdə bir neçə arkadaşı ilə birlikdə saxlandığı bir evdə Nəsib bəylə yapdığı son görüşmədə onun üzgün, fəqət imanlı, həyəcanlı və dadlı səsiylə böylə xitab etdiyini anladır:

«Arkadaşlar, insan qüvvətinin üstündə çalışaraq Azərbaycan istiqlalını yaratdıq. Fəqət onu yaşada bilmədik… ruslar üstün qüvvətlərlə vətənimizi aldılar və istiqlalımıza son verdilər… Ancaq inandığımız və iman etdiyimiz bir şey var ki, o bizi təsəlli etməkdədir… zülümləriylə, vəhşətləriylə, xalqımızı nə qədər əzərlərsə əzsinlər, dilədikləri kimi xarabaya çevirsinlər, istiqlal məfhumunun mənəvi varlığımızla qazandığımız hürriyyət ruhunu söküb ata bilməzlər. Vəhşiliyi, xunxarlığıyla məşhur Heronu yardıma çağırsınlar belə genə müvəffəq ola bilməzlər».

## Nəsib bəy Yusifbəyli -
## milli istiqlal və dövlətçilik mücahidi

***Azərbaycan Xalq Cümhuriyyətinin***
***95-ci ildönümünə ithaf olunur***

*"Ziya" NPM*
*Direktor:* ***Sevda Mikayılqızı***
*Tərtibat:* ***Şamil Qurbanov***
*Format 60x84 1\16, Çap vərəqi: 13,5, Tirajı:*
*ziyamika@mail.ru     Tel.: 050 315 15 22*